

# ULDUZ

№01 (632)

WWW.AZYB.AZ
WWW.AYB.AZ

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
YANVAR 2022

- Səlim Babullaoğlu: " Yanvar"
- Qısa fikirlər xəzinəsi
- Orxan Cuvarlının özüylə söhbəti və hekayəsi
- Ədalətli "Ulduz"
- Türk eli
- Dərgidə kitab

# BU SAYIMIZDA




3
Səlim Babullaoğlu
Poetik təqvimdən
YANVAR:
Qarın şərhi





4
Orxan Cuvarlı
Özüylə söhbəti
və hekayəsi

Qısa fikirlər xəzinəsi 10





14
Gülnar Ümid
Zaman qatarı keçir
evinizin yanından





Yazı mazası 17





22
Günel Hacıyeva
Lili möhtəşəm qadın idi





28
Bəsti Məmməd
Küçələr darıxa,
quşlar darıxa...





29
Əli Əmirli
Ustad dərsləri





32
Eminquey
Məmməd Arazın sufi
həqiqətinə çatmış "Dünya"sı...





35
Ülkər Nicatlı
Adını pıçıldadım,
dodaqlarım isindi





37
Firuz Mustafa
Bülbül yuvası

**43**
İltimas Səmimi
Görmədiyim yuxular




**46**
“Əvvəldən yeri Yuxarıbaş olub...”




**55**
Çinarə Ömray
Hamiləlik testi




**58**
Əbülfət Mədətoğlu
Sahildəki dan üzü




**62**
Pərvanə Məmmədli
Təbriz eli




**67**
Aysel Nəsirzadə
Qurudulmuş çiçəklər




**69**
Leyla Abbasova
Sevinc Nuruqızının “Ağca və Cubbulu” əsərinin quruluşu, redaktəsi və nəşri məsələləri




**73**
Zöhrab Mehdi
Götür barmağını o simin üstdən




**75**
Xuraman Hüseynzadə
“Uzaqlar yordu məni...”




**80**
Cahit Günay
Türk eli




**82**
Zəka Vilayətoğlu
“Çöhrəgülü”




**87**
Əflatun Amaşov
dərgidə kitab







**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və “Ulduz” jurnalının kollektivi

**Baş redaktor**
Qulu Ağsəs



**Redaksiya heyəti**
Təranə Vahid
*(Baş redaktor müavini)*
Hicran Hüseynova
*(şöbə redaktoru)*
Dayandur Sevgin
*(şöbə redaktoru)*
Taleh Mansur
*(şöbə redaktoru)*
Həyat Şəmi
Elçin Mirzəbəyli
Xəyal Rza
Səhər Əhməd
Xanəmir
Rəsmiyyə Sabir
Elxan Yurdoğlu
Nuranə Nur
Anar Amin
Elmar Vüqarlı
Ələmdar Cabbarlı
Qılman İman
Hafiz Hacxalıl
Cavid Zeynallı
Məşhəti Musa
Elşən Əzim
Nargis
Şəfa Vəli
Şahanə Müşfiq
Allahşükür Ağa
Türkan Turan
Ulucay Akif
Seyfəddin Altaylı
(Türkiyə)
Xaqani Qayıblı
(Estoniya)
Baloğlan Cəlil
(Başqırdıstan)
Saodat Muxammadova
(Özbəkistan)
Nilufər Şıxlı
(Moskva)
Günay Səma Şirvan
(Voronej)

**Bədii redaktor**
Ədalət Həsən



Ünvanı: AZ1000, Bakı,
Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru
www.ayb.az
**Telefon: 498-72-43**
Çapa imzalanıb: 19.01.2022
”Ulduz” jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**”ASPOLİQRAF LTD” MMC-də**
çap olunub.
Sifariş №1, Tiraj: 300
Qiyməti: 1 man.
**1967-ci ildən çıxır.**
**Şəhadətnamə № 238**




**"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA" MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"KİTABEVİM.AZ"**

**"Ulduz"** jurnalını burdan əldə edə bilərsiniz.

**Jurnalın**
**1 aylıq abunə qiyməti – 1.00 man.**
**illik abunə qiyməti – 12.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

| | | |
|---|---|---|
| **441-19-91**<br>**440-16-26** | **566-77-80** | **498 – 79 – 89** |

**nömrəli telefonlara zəng edə bilərlər.**

ISNN 0134-522 İNDEKS AZ 1000 1 AZN



# Poetik təqvimdən YANVAR: Qarın şərhi

**Səlim BABULLAOĞLU**

Qar yağıb. Ağarıb şəhərin bənizi: üzü, siması, sifəti.
Qar yağıb. Bənizi ağarıb şəhərin: yerin, asfaltın, səthin.
Qar yağıb. Şəhərin bənizi ağarıb: örtülüb torpağın qarası, damlar,
səkilər. Üstəgəl, soyuqdur, gizlənib, evinə çəkilib adamlar.
İndi məkan da daha çox özüdür. İndi səthin üzü ağ, alnı açıqdır.
Əslində, səthin arzusu düzlükdür, təklikdir – yoxluğa maksimum yaxınlıq,
qohumluq – boşluq. Səth üçün boşluq yoxluğun üstünə özünü gəlməkdir,
əlbəttə, bacarsa. Qar yağıb: ələnib hündürdən un kimi.
Çılpaq ağaclar qol-qol, budaqla təkrar qaldırıb ağlığı yuxarı.
Yuxarı – mütləq ağlığa işarə edərək, təslim olaraq. Yəni göydə fırlanır
bu yerin xəlbiri çoxdandır. Bir vaxtlar su basan dünyanı indi qar basıb.
Göydən yağıb qar: su adın, görkəmin dəyişib, ağlanıb; səyahət edərək
arınıb. Bircə yaddaşı həminki. Qar yağıb hər yerə: quşlar oturan
heykələ düşüb qar. Kim bilir, bəlkə də, basıb su bütləri yenidən.
Sübutlar köhnəlmir dünyada. Qar yağıb. Təəssüf. Əriyir.

# Özüylə söhbəti...



Orxan CUVARLI

**– Niyə ədəbiyyat?**

– Uzun müddət mən də bu sualın cavabının axtarışında olmuşam. Sonra başa düşdüm ki, bunu öyrənmək mənə bir şey qazandırmayacaq. Düzü, bu suala cavab tapmaq mənim üçün çox qəlizdir. Həmkarlarıma da tez-tez bu sualı ünvanlayıram. Cavabı qulaqbatıran sükut olur. Eko yazırdı ki, insan susaraq da nəsə deyə bilir. Həmin sükutlarda başa düşürsən ki, bunu çözələmək mənasızdır. Bu, mənəvi ehtiyac, həyati tələbatdır. İçindəki təlatümlər, ağrı-acılar müxtəlif məzmunlu mətnlər halında canından çıxır. Sən bu ağrılardan xilas olmaqla yeni bir canlı yaradırsan – mətn. Yəqin ki, bu mənada yazmaq doğuş prosesinə bənzəyir. Sancıları da, meyvəsi də.

**– Bəs stimul nədir?**

– İndi ədəbiyyat ucsuz-bucaqsız bir səhra-ya bənzəyir. Bu səhrada bir vahə tapmaq hər oğulun işi deyil. Azərbaycanda ədəbiyyatla məşğul olmaq iynəylə gor qazmağa bənzəyir. İstənilən halda ruhi çək-çevirlər adama müxtəlif impulslar verir. Başlıcası, könül xoşluğu var bu sənətdə. Sən yazırsan, arınırsan, rahatlaşırsan. Ədəbiyyat ümmanına bir tilov da sən atırsan. Sözün yaxşı mənasında qırmağına düşəcək mövzuları gözləyirsən. Əlbəttə, bizdə ədəbiyyat insana maddi təminat vermir. Sən bu sənətlə özxoşuna, mənfəət güdmədən, təmənnasız şəkildə məşğul olursan. Azərbaycan reallığında bir az da dəlilikdir.

**– Uzun müddət fasilə verdin. Qayıtmaq çətin olmadı ki?**

– Əvvəl az-az da olsa, yazırdım. Sonra akademik fəaliyyətimlə əlaqədar olaraq fasilə verməli oldum. Qayıtmaq həm çətin idi, həm yox. Dəyərli yazıçımız Əlabbas Bağırovun illər əvvəl çap olunmuş "Aydakı dalğalar" adlı hekayəm haqqında yüksək fikirdə olması məni beynimdəki hekayələri yazmağa ruhlandırdı. Yazmadığın illərə görə çətinlik bir imza kimi yaddaşlarda unudulmağın olur. Amma son bir il ərzində həm yazılarım, həm də hekayələrimlə yenidən maraq yaratdığımı düşünürəm. Bu müddət ərzində "Şlaqbaum", "Gül yaddaşı", "Yol", "Güzgü" adlı hekayələrimi, "Səndən sonra gəlməyən bahar", "Atamın saatı", "Susuzluqdan qırılanlar" adlı esselərimi və müxtəlif publi-sistik yazılarımı oxuculara təqdim etdim. İndi beynimdə daha fərqli hekayələr var. Bu ilin mənim üçün daha məhsuldar keçəcəyini düşünürəm.

**– İllərin dilemmasıdır bu. Bəs səncə, zəhmət, ya istedad?**

– İstedad bu işin nüvəsidir. Amma geniş tabloda birmənalı şəkildə zəhmət. Məqsəd, istək, motivasiya, stimul, yorulmamaq, ruhdan düşməmək, yuxusuz gecələr, daima öz üzərində işləmək, qrafiklə çalışmaq, ciddi və sistemli mütaliə. Mənə görə uğura gedən yolun bələdçiləri bunlardır.

**– Sənin yazıçın kimdir?**

– Müxtəlif vaxtlarda fərqli müəlliflərdən təsirlənmişəm. Amma estetikasına görə Selincer və Remarkı ayrıca qeyd etmək istəyirəm. Əsasən də Remarkın müharibə mövzusunda olan əsərlərini xüsusi vurğulamalıyam. Holden Kolfild və Doktor Ravik obrazlarını hələ də xatırlayıram. Arabir "Çovdarlıqda uçurumdan qoruyan"ı, "Zəfər tağı"nı təkrar vərəqləyirəm.

Yeri gəlmişkən nəsildaşlarım arasında ciddi istedadlar var. Bizim onillikdə çoxdan gözlənilən əsərlərin ortaya qoyulacağına inanıram. Bizim nəsil həm istedadlı, həm də zövqlüdür. Buna görə onları həm də

estetik silahdaşlarım hesab edirəm. Tək arzum qrafiklə işləmək, saxta təriflərə qulaq qapamağımızdır.

**– Saxta tərif niyə?**

– Bizim nəslin buna ehtiyacı olmadığını düşünürəm. Ümumiyyətlə, yaxşı mətnin tərifə ehtiyacı yoxdur. Yaxşı mətn hamımızın baş ucalığı, sevinc yeri olmalıdır. Bəzən ədəbi qısqanclıqlar və hiyləgərliklər elə bir həddə çatır ki, bilərəkdən saxta təriflərlə gənc müəlliflərdə arxayınlıq yaradırlar. Belə məkrli, xıltlı adamlar bəs qədərdir. Bizim nəslə ən böyük arzum bu insanların təsiri altına düşməməkdir. Ədəbi tənqidi vacib hesab edirəm. Sağlam tənqid daim inkişafa, yeniliyə gətirib çıxarır. Bu iradlardan dərs çıxarmalı, ortaya daha gözəl əsərlər qoymalıyıq. Ədəbi qovğalar isə mənə görə, heç nə qazandırmır, enerji, vaxt itkisidir. Yaxamı bu davalardan kənara çəkməyə çalışıram.

**– Səni ən çox nə kədərləndirib?**

– Atamın vəfatı. Bir ildən çoxdur ki, onun yoxluğuyla barışa bilmirəm. Atamı ani itirdim. Valideyn itkisi hər zaman vaxtsız olur. Amma bu xəbər ailəmiz üçün çox qəfil oldu. Hələ də sarsıntım keçməyib. Atama həsr etdiyim iki esse daxili vurnuxmalarımı bir az azaltdı. İndi addımlarımı onu düşünərək atıram. Həyat qayəm ona layiq olmaqdır. Bütün uğurlarımı onun ruhuna ithaf edirəm.

**– Son olaraq arzuların nədir?**

– Bu il üçün əsas hədəfim ilk kitabımı çap etdirməkdir. Kitab uğurlu saydığım hekayələrimdən ibarət olacaq. Ən çox inandığım şey əlahəzrət mətndir. Yalnız güclü mətn səni kənar təsirlərin arasında qoruya, təmiz saxlaya bilər. Son olaraq, kitabdan uzaq düşən Azərbaycan oxucusunun yenidən kitaba qayıtması ən böyük arzumdur. Son kitab sərgiləri, yarmarkaları da göstərdi ki, insanlarımızda hələ də bu sevgi var. Sadəcə, bu vərdiş gündəlik qayğıların fonunda ikinci plana keçib. Burada da məsuliyyəti bölüşməliyik. Azərbaycan oxucusunu geri qazanmaq üçün biz yazarların çiyinlərinə də ciddi məsuliyyət düşür. Ölkəmizdə nəşriyyat sisteminin təkmilləşməsini arzu edirəm. Müəllifin işi əsərin son nöqtəsini qoyanda yekunlaşmalıdır. Reklam, PR, tərcümə, redaktə, tiraj sayı, qonorar artıq naşirlərin maraqlanmalı olduğu məsələlərdir. Mən yazıçının kitab satması ilə barışa bilmirəm. Yazıçı iş masasının arxasında olmalıdır, piştaxtanın yox. Beynəlxalq kitab sərgilərində aktual əsərlərlə təmsil olunmalıyıq. Bunun üçün xüsusilə gənc müəlliflərin xarici dillərə tərcümə olunması zəruridir. Bu müəlliflər yaxın gələcəkdə ölkəmizə nüfuzlu ədəbi mükafatlar gətirə bilərlər. Bu istiqamətdə iş təkcə yazıçının öhdəliyi deyil. Bu proseslərin nəticə verməsi üçün qarşılıqlı əməkdaşlıq, sistemli iş birliyi lazımdır.

## ...və hekayəsi

### BİTMƏYƏN GECƏ

Hərdən yuxu da sırtıq adamlara bənzəyir. Qır-saqqız olub yapışır, iki yaxandan tutub əl çəkmir. Belə anlarda göz qapaqları asta-asta qapanırdı. Yuxuyla gerçəkliyin arasında olan incə xəttin digər üzündə onun üçün əfsunlu, sirli-sehrli, əsrarəngiz bir həyat vardı. Həmin həyatda zaman və məkan hissini itirirdi. Orada barmaqlarının ucunda gəzişirdi. Bu həyata gediş də, gəliş də bircə anın içində gerçəkləşirdi. Hərdən bu səyahəti çox qısa çəkirdi: məsələn, ılıq bir bahar sabahı dənizkənarı bulvardakı bir oturacaqda, soyuq bir qış günü bir yerə tələsərkən metroda, asudə vaxtlarında minib dalğalardan gözünü çəkə bilmədiyi gəmidə, işlə bağlı harasa uçduğu təyyarədə və ya bambaşqa, qeyri bir yerdə. Bu və adı çəkilməyən fərqli yerlərdə döydüyü mürgü də həmin o səyahətin ən şirin anlarından biri kimi yadında qalırdı. Qaranlıq, naməlum, mübhəm həyat. Həmin həyatın hər anı ona məhrəm idi. Təkcə o həyatda illər əvvəlki uşaqlıq çağları ilğımtək gözünə görünür, sobanın ayaq ucunda başını anasının dizlərinə qoyan həmən o uşağa dönürdü. Bu nəhayətsiz, ucsuz-bucaqsız dünyadan ayrılmaq ağrısız olmurdu. İndi də elə idi. Həmin tanış küt ağrı başının arxasından canına yayılmağa başlamışdı.

Bu ağrıların içində qıvrıldığı bir anda bələdçinin dəhlizi bürüyən şən qəhqəhəsi onu yuxunun bağrından qopardı. Əvvəl harada olduğunu anlaya bilmədi. Kupenin

hər bir küncünə maddım-maddım baxanda tərəddüdləri yox olmağa başladı. Həmin dünyadan qopduğunu anlayıb dikəldi, əlini qeyri-ixtiyari masadakı siqaret qutusuna uzatdı. Masanın üstü dağınıq idi; telefon, alışqan, boş su butulkası, biristifadəlik stəkan, çörək qırıntıları, kəsik kolbasa. Telefon və alışqanı pambıq gödəkcəsinin cibinə qoyub zibilləri ehtiyatla sellofana boşaltdı və tambura keçdi.

Sinəsində dözülməz göynərti var idi, elə bil naməlum bir əl ürəyini sinəsinin dərinliklərindən söküb qoparmışdı; ruhuna qədər işləyən bu giziltini duyan kimi bir siqaret yandırırdı. Yoxsa bu göynərti şiddətli hal alıb nəfəsini kəsirdi.

Gecənin bir aləmində bu duyğulardan o qədər əziyyət çəkmişdi ki... Yuxunun ən şirin vaxtında tövşüyə-tövşüyə kamodun üstündən siqaret qutusunu qamarlayıb balkona çıxmağı bir olur, içindəki yanğını söndürdükdən sonra isti yatağına uzanıb yenidən şirin yuxuya gedirdi. Bunları düşünə-düşünə damağındakı siqareti odladı və dərin bir qullab çəkdi. Tüstünü tamburun saralmış tavanına üfürüb pəncərənin laxlayan dəmirlərinə dirsəkləndi. Külək ləkəli pəncərədən içəri sivişib yaralı quş kimi çırpınan siqaret tüstüsünü burum-burum yox edirdi. Tamburun əzici sükutunu qatarın ahəstə yerişindən ətrafa yayılan taqqıltılar, ara-sıra tanış fit səsi pozurdu.

Narın yağışın pəncərədə parıldayan kövrək damlaları süzülərək qəribə naxışlar yaratmışdı. Göz işlədikcə uzanan bozumtul səmaya, sürünüb gedən qara bulud topalarına, yağışın əmələ gətirdiyi çirkli gölməçələrə baxdı; nəzərlərini geriyə yıxılan işıq dirəklərinə, aramla uzaqlaşan ağaclara zillədi. Uzaqlarda hədəf seçdiyi hər qaraltı onun boylandığı pəncərəyə doğru böyüyərək gəlir, bərabərinə çatdıqda isə eyni qaydada kiçilərək qara nöqtəyə çevrilir, nəhayət, görünməz olurdu.

Az sonra bu qəribə məşğuliyyətdən bezib kupeyə keçdi. Çantasını götürüb qatarın şıltaq təkanlarından səntirləyə-səntirləyə çıxış qapısına doğru irəlilədi. Şişman bələdçi ətəyini dartışdıraraq arıq, ayaqları bir-birinə dolaşan bir oğlanla birgə kupedən çıxdı; hər ikisi çıxış qapısını ağzında söhbət etməyə başladılar. Onu yuxudan oyadan gur qəhqəhənin səbəbini indi anladı. Bələdçi qadın nəsə danışır, gənc isə razılıq əlaməti kimi başını yelləyirdi. Qadın şişman idi, otuz, uzağı otuz beş yaşı olardı. Paltarının, qısa vurulmuş saçlarının səliqəsi diqqət çəkirdi. Gözucu oğlana da baxdı: sısqa, ovurdlarını tük basmış, dodağında çapıq olan bu cavanın yaşı otuzu keçməzdi. Geyimi çox səhmansız idi, pırtlaşıq, cod saçları pinti görkəmini daha da eybəcərləşdirirdi.

Oğlan ciddi-cəhdlə söhbətə girişir, tez-tez əlini bələdçinin çiyninə qoyaraq onu söhbətin səmimiliyinə inandırmağa çalışırdı. Yerli-yersiz şaqqanaq çəkərək söhbətin məcrasını dəyişirdi. Gəlişindən sonra səs tonları dəyişdi, söhbətə xısın-xısın davam etdilər. Divardakı cədvələ və qol saatına baxdı, vağzala çatmağa hələ qırx dəqiqə qalmışdı. Gözlərini cədvəldəki şəhər adlarına zillədi; hər ünvanın qarşısında qatarın çatacağı zaman qeyd olunmuşdu. Bu dəqiqliyə özü də mat qaldı. Məhz bu intervala görə qatarın sürəti artıb-azalırdı. Qadın tələsik oğlanla sağollaşdı və kupeyə keçdi...

– Çox dalğın görünürsünüz.

Bələdçinin gümrah səsi onu qarma-qarışıq fikirlərin cəncəlindən, zəndlə baxdığı, qeyd olunan saatları ölçüb-biçdiyi cədvəlin dərinliklərindən ayırdı. Nə zaman kupedən çıxdığını, ona yaxınlaşdığını hiss etməmişdi.

– Yox, cədvələ baxıb vaxt öldürürəm.

– Maraqlı məşğuliyyətdir. İşə təzə başla-yanda mən də saatlarla baxırdım.

– Bəs sonra?

– Sonra hər stansiyada dəqiqələrin tam dəqiq yazıldığını gördüm. Ünvana qeyd olunan vaxtda çatırsan. Və bu mənim üçün marağını itirdi - son cümləni şən bir ədayla, tellərini alnından geri atıb söylədi.

– Maraqlıdır... Sürəti bu cədvəl əsasında müəyyən edirlər.

– Əlbəttə, yoxsa o qədər qatar toqquşar ki...

– Elədir.

– Boş verin. Qəhvə içəcəyəm, istəyirsiniz?

– Pis olmaz, – soyuq tərzdə cavab verdi.

Qadın az sonra darısqal bələdçi otağından iki fincan qəhvəylə qayıtdı. Bir fincanı ona uzatdı, öz qəhvəsini isə üfürə-üfürə, ehtiyatla qurtumlamağa başladı.

– Minnətdaram. Çoxdan bələdçilik edirsiniz?

– Dəyməz. Artıq beş ilə yaxınlaşır.

– Oho… Yollardan sıxılmırsınız?

– Doğrusu, sıxılıram. Ona görə tez-tez qatar dəyişirəm. Monoton həyatı sevmirəm. Eyni insanlardan, eyni söhbətlərdən sıxıldığım kimi, eyni şəhərlərdən də tez usanıram.

– Çox şəhərdə olmusunuz?

– O qədər… Əvvəl Bakı-Moskva qatarında idim, sonra Bakı-Tümen, sonra Bakı-Adler qatarına keçdim. Uzun müddət bu qatarda işlədim. Soçi, Adler gözəl şəhərlərdir. Ordan bir az gec sıxıldım, – məsum-məsum gülümsədi.

– Bəs bu qatarda?

– Bir ildir ki, Bakı-Tiflis qatarındayam. Hələ bezməmişəm.

– Tiflis gözəl şəhərdir.

– Elədir, mənim uşaqlığım Tiflisdə keçib. Bəlkə də, ona görə doğma gəlir. Amma qiyamət havası var. Orada tapdığım rahatlığı hələ heç bir yerdə hiss edə bilməmişəm. Siz də tez-tez gedirsiniz?

– Yox, ikinci dəfədir. Bir işim var idi, həll edib qayıtdım. Amma Bakı da pis şəhər sayılmaz.

– Eh, Bakı… Vaxt var idi, buranın hər qarışı mənə doğma gəlirdi. Amma indi hər şey marağını itirib.

– Niyə?

– Nə bilim. İnsanı gərək qaldığı yerə bağlayan bir şey olsun. Mən heç bir şəhərə uyğunlaşa bilmirəm. Gərək tez-tez məkanımı dəyişim, tanımadığım, yad mühitə düşüm, yeni çevrəm, yeni tanışlarım olsun. Ona görə bələdçilik edirəm. Bir gün Bakıda, bir gün Tiflisdə, kim bilir, daha hansı şəhərlər məni gözləyir.

– Bələdçilik maraqlı olar. Neçə-neçə yeni insanlar tanıyırsınız – bununla o bayaqkı sısqa oğlana eyham vurdu, amma qadın fikirli idi və bu atmacadan bir şey anlamadı.

– Çox maraqlıdır. Yol əksər adama yorucu gəlir, amma mənə təskinlik verən elə bu yollardır. Gecə uzunu pəncərəmdən qaraltılara, hər saniyə yenilənən mənzərəyə baxıram. Bələdçilik ona görə maraqlı peşədir ki, pəncərənin o üzündəki tablo davamlı yenilənir, gözlərin yorulmur.

– Bayaq tamburda eynən bunları düşünürdüm.

Söhbətin bu yerində bütün sözlər boğazına tıxandı. Sanki bütün sözlər bitdi, aramsız sualları yox oldu, qaynar söhbətin bütün həyəcanı yerini qəribə bir boşluğa buraxdı; tərs kimi qəhvə də bitmişdi. Qatarın arabir verdiyi fit sükutu daha da darıxdırıcı, dözülməz edirdi. Söhbətin bitməsini heç istəmirdi. Bir az da sussa, qadının onunla vidalaşıb yoğun baldırlarını sürüyə-sürüyə kupeyə keçəcəyini bilirdi, odur ki, tələsik soruşdu:

– Evlisiniz? – söz ağzından çıxan kimi sualın mənasızlığını, özünü gülünc vəziyyətə saldığını anlayıb utandı.

– Yox. 6 il əvvəl ayrılmışıq.

Sualı verdiyinə peşman oldu. Çünki qadının bayaqkı şən çöhrəsi miskin, hüznlü cizgilərlə əvəzləndi, həlim səsi bir az ciddiləşdi.

– Bağışlayın. Deyəsən, dərdinizi təzələdim.

– Yox, yox, narahat olmayın, vacib deyil. Bəs siz nəylə məşğulsunuz?

Söhbətin axarından bu sualın veriləcəyi məlum idi. Sual nə qədər gözlənilən olsa da, özünü itirdi, nə cavab verəcəyini bilmədi, tələsik bir yalan uydurub zəif bir səslə;

– Rəssamam, – dedi.

– Ooo, nə maraqlı! İşlərinizi görmək istəyərdim.

Söylədiyi yalandan yanaqları pörtmüşdü, söhbəti dəyişmək istəyəndə qatarın ürküdücü fiti eşidildi və enməyə hazırlaşan sərnişinlərin hay-küyü qopdu. Uşaqlıqdan sıxlığı sevmirdi; çantasından çıxardığı kağıza nömrəsini yazdı və bələdçinin yaxa cibinə dürtüşdürüb:

– Görüşərik, – dedi.

Perrona enər-enməz əvəzsiz bir yüngüllük varlığını bürüdü. Havasız qatardan Bakı vağzalının perronuna ani keçiddən sonra əhvalı xeyli duruldu; hava rütubətli idi, yağış təzə səngimişdi, Bakıda payızın ətri duyulurdu. Uzun müddət yaxınlıqdakı dirəyə söykəndi və siqaret odlayıb perrondakı əndişəli izdihama baxdı.

Hamı kiminsə gözləyir, qatardan enənlərə diqqət kəsilirdi. Qatardan düşən kimi qucaqlaşanlar, kövrəlib ağlaşanlar, qolboyun olub vağzalın çıxışına sarı gedənlər onun gözünün önündə qaraltıdan savayı bir şey

deyildi. Baxışlarını təbəssümlə sərnişinlərlə vidalaşan, uğurlar arzulayan bələdçiyə zilləmişdi. Qatardan ən son bayaq gözucu baxdığı sısqa oğlan düşdü; qısa müddət bələdçiylə nəsə danışdı və qatardan endi; qarşılayanı yox idi, aram-aram şəhərə doğru üz tutdu. İzdiham seyrəkləşmiş, səs-küy, qışqır-bağır sovuşmuşdu. Az sonra perronda ondan və göyərçinlərdən başqa heç kim yox idi. Göyərçinlər ayaq səslərindən perik düşdü. İlan kimi depoya tərəf sürünən qatara və qapıların ağzında duran, getdikcə uzaqlaşan, uzaqlaşdıqca nöqtəni xatırladan bəyaz köynəkli bələdçilərə baxırdı…

***

Qatar gözdən itəndə canında qəribə bir sızıltı duydu. Axşamçağının sərt ayazı bədənini bürüməyə başlamışdı. Çantasını götürüb şəhərə üz tutdu. Evi vağzala yaxın olsa da, piyada getməyə nə dizində təpəri, nə də bir qırıq həvəsi var idi. Qapının ağzında müştəri ovuna çıxan taksilərdən birinə yaxınlaşıb ünvanı dedi. Taksi arxa küçədən geniş prospektə çıxanda işıldayan vitrinlərə, tıxacdan yenicə qurtulmuş asudə yollara baxa-baxa xəyala dalmışdı. Sürücünün "Çatdıq" sözünə fikirdən ayılıb ovcunda sıxdığı pulu ona uzatdı.

Mənzilinə çıxıb pallı-paltarlı xeyli müddət divana sərildi; akvariumda sağa-sola üzən balıqlara baxdı, onlara yem verdi, saatın cansıxan çıqqıltısını dinlədi, bir balaca mürgülədi. Evin içində özünə yer tapa bilmirdi; ılıq vanna qəbul etdi, tələsik buterbrod hazırlayıb yedi, balkonda siqaret tüstülətdi. Yataq otağına keçdi, işığı yandırmağa ərindi, əl havasına çarpayını tapıb uzandı. Gecə lampasını yandırdı, kamodun üstündəki bir qalaq kitaba baxdı; Qorkinin "Mənim universitetlərim"ini vərəqlədi, kitabın üz qabığına diqqət kəsildi, lampanı söndürüb əllərini başının arxasında çarpazladı.

Yarıqaranlıq otağı ona illərdir tanış olan bir qoxu bürümüşdü. Məhz bu qoxunu duyduğu anda burun pərələri genişlənir, şüurunun öləzimiş alt qatında qəribə bir fikir közərirdi: dünyada bu qoxunu duya bilmək bacarığı bir tək ona verilib. Arabir burnuna dəyən bu qoxunu hiss etdiyi anda beyninin bir hissəsi aramla o tanış qoxunun içindən keçib gəldiyi minlərlə qoxunu ələk-vələk edir, bu iyin aid olduğu yeri, başlanğıc nöqtəsini müəyyənləşdirirdi. Belə anlarda yaddaşını iri kitab rəfinə bənzədirdi. Həmin qoxular o tozlu rəfin hansısa hissəsindən çıxıb gəlirdi. Bəzən rahat, bəzən də çətinliklə bu qoxunun rəfin hansı gözündən gəldiyini aydınlaşdırırdı.

Fəqət hərdən sərsəmlədiyinin fərqinə vararaq başını narazılıqla yellədirdi. Anışdırmağa çalışdığı qan qoxusu çəkilib getdi. Bir az əvvəl beyninə qədər yayılan qoxu itəndə o, içini çəkə-çəkə çarəsiz baxışlarını tavana zilləmişdi. Gördüyü işlərin ağırlığını həmişə gecələr, yerinə uzananda dərk edirdi. Sanki çarpayıya uzanana qədər tutduğu işin ciddiliyini, günahlarının ağırlığını dərk edə bilmirdi. Sanki çarpayıya uzanana qədər həmin iyrənc əməlləri törədən o deyildi. Elə bil çarpayının üzərində naməlum, sehrli bir qüvvə var idi və o uzanan kimi bu qüvvə onun bütün varlığına hopur, hissiyyatını qəflətdən oyadırdı. Çarpayıya uzananda vicdanı gözlərinin önünə gəlib dikilir, ona barmaq silkələyir və iç dünyasında bəzən sabaha qədər davam edən qasırğa – qana bulaşmış əlləri ilə ləkəli vicdanının amansız mübarizəsi başlayırdı.

Yalnız bu zaman ürəyi qorxu hissilə sinəsində quş kimi çırpınır, kürəyində və alnında soyuq tər puçurlanır, əlləri titrəyir, qurbanlarının son yalvarışları, ölüm anındakı xırıltıları qulaqlarından getmirdi. Bir gün əvvələ qayıtdı…

Tiflisdə bıçaqlayıb öldürdüyü qurbanının yalvarışlarını xatırladıqca bütün bədəni titrədi. Qurbanını işdən çıxıb maşınına doğru addımlayanda yaxalamış, əlində möhkəm-möhkəm sıxdığı bıçağı üç dəfə ürəyinə saplamışdı. Bu nə ilk, nə də sonuncu qətl idi.

O, həyatın labirintlərində yolunu azmışdı. İllərdir məşğul olduğu bu işdə qaydalar bəsit idi; kiminsə bir kəslə ölümlə nəticələnməli, ciddi ədavəti vardısa, həmin şəxs şəhərin ən məşhur killerinin – onun yanına gəlir, bir diplomat pulu masasına qoyur və qurbanının kimliyi haqqında məlumat verirdi. Onun vəzifəsi yalnız bu idi; yanına gələn sifarişçiləri

diqqətlə dinləmək, növbəti qurbanının rəsminə dəfələrlə baxmaq, günlərlə özünü hər mənada bu qətlə hazırlamaq.

Onu nə ədavətin səbəbi, nə də ki qurbanının günahı maraqlandırırdı; sönük dünyada ona parıltılı görünən yeganə şey pul idi. İlk illər bu peşəyə gözünü pərdə kimi tutmuş pul hərisliyi ilə sürüklənmişdi. Sonralar bu işdən əl çəkə bilmədi. İllərdir bəs qədər pul qazanmışdı. Amma peşəsi bir xəstəlik kimi canına işləmişdi.

İndiyə qədər yüzlərlə can almışdı. Axır vədələr içini bürümüş xıltın, hiddətin qurbanlarına endirdiyi hər zərbədə gilə-gilə canından çıxdığını hiss edirdi. Ən çox çətinlik çəkdiyi şey qətlin axşamı idi. Çətini bitmək bilməyən bu gecəni yola verməkdi. Sonra hər şey öz axarına düşürdü.

Bu axşam da həmin narahat gecələrin, bəlkə də, ən şiddətlisi idi. Yerində hey qıvrılır, haldan-hala düşür, durmadan tər axıdırdı. Beynini cırmaqlayan bütün fikirləri bir anlıq unudaraq çarpayının altındakı diplomatı götürüb sinəsinə qoydu, bu təmasdan sonra canındakı üşütmə bir xeyli azaldı.

Ürəyinin başına qoyduğu pul dolu diplomata baxdı, sanki təskinlik tapdı və qeyd-şərtsiz pis bir iş tutmadığına razılaşdı. Bir qədər sonra yenidən ürəyini xof basanda dikəlib oturaq vəziyyət aldı. Bələdçinin peşəsiylə bağlı sualını və atüstü uydurduğu yalanı xatırlayıb əsəbi halda gülümsədi. Nə cavab verə bilərdi? Onu yaralayan suallardan ən dəhşətlisi bu idi. Təkcə bu sual qarşısında bütün cavabları cılız və aciz görünürdü.

Bu yoldan qayıtmaq, tövbə etmək barədə çox düşünmüşdü. Növbəti sifarişi dinləyənə və masanın üzərindəki pul dolu diplomata baxana qədər belə ötəri qərarlar verirdi. Yeni sifarişi dinlədiyi an hər şey sıfırlanırdı. Bütün diqqətini sifarişçinin nitqinə və istəklərinə verirdi. Qəribədir ki, istəklər təkcə öldürmək arzusu ilə bitmirdi; bəzi sifarişçilər hətta qurbanın necə öldürüləcəyini də xüsusi əmr kimi ona tapşırırdı.

Onu bu işin ustası edən də elə çeşidli ölüm metodları idi. Bu metodlar istənilən qədərdi; küt alətlə, silahla, bıçaqla, boynunu sındıraraq... Bəzi amansız sifarişçilər qurbanın başını, qulağını, dilini, çıxarılmış gözünü, hətta ürəyini istədikdə belə bu tələblər onu heyrətə gətirmirdi; o, öyrəncəli idi, bəzi məqamlarda işi ilə öyünürdü. Qurbanlarının siyahısı təəccüblü dərəcədə uzun idi; bu siyahıda hər peşənin sahibini tapmaq olardı; biznesmen, həkim, barmen, jurnalist.

...Bunları düşünə-düşünə heç cür rahatlıq tapa bilmirdi. Vicdanıyla olan bu mühakimədən, daxili hesablaşmadan həmişə var-dövlət hərisliyi qalib çıxırdı. Onun üçün can almaq sıradan bir məşğuliyyət idi; insan xislətinə xas olan vəhşilik bütün hərəkətlərinə hopmuşdu. Ruhuna qədər onu incidən fikirləri başından atmağa, yuxuya getməyə çalışırdı.

O, sabah daxili çarpışmasının, içindəki fırtınanın sona yetəcəyinə ümid edirdi. Bu ümidlə içində çilik-çilik olmuş vicdanının yenidən bərpa olacağını, həyatın əvvəlki axarı ilə davam edəcəyini, növbəti qətl axşamına qədər canının həmişəki hüzuruna qovuşacağını düşünürdü.

Ancaq vicdanının üsyanının bir gün şiddətlənəcəyini ağlına gətirmirdi.

Günlərin birində bu üsyanın ötən illərin əvəzini çıxıb son qələbəni qazanacağından xəbərsiz halda yuxunun bataqlığında itdi.

# "HƏR KÖNÜLDƏ SƏNİN İZİN..."



**Məhəmməd Əmin RƏSULZADƏ**
*(31.I.1884 – 06.III.1955)*

*Miladi təqvimlə ilin ilk ayının son günü Onun doğum günüdür.*

Azərbaycan bir atəş mənbəyidir. Vətənimiz hər zaman kəndi sinəsində bir atəşi-müqəddəs bəsləmişdir. Bu atəş əski zamanlardan bəri həqiqətpərəstlərə rəhbər bir şöləyi-ümid və iman təşkil eləmişdir... Qoy bu atəş Azərbaycan övladlarının sinəsinə dolsun, milyonlarla ürəyi yaxan bu atəş əbədiyyən sönməz bir məşəl təşkil edib də hürriyyət və istiqlala doğru getdigimiz maneəli yolları işıqlandırsın!

***

Biz Azərbaycan torpaqlarını qızdıran atəşi-müqəddəsi köksümüzdə bəsləmək istiyoruz...

***

Milli Azərbaycan bayrağı – işdə bizim çöhrəmiz!

***

"...Sənin yolunun üzərində əski Turanın göbəyində Azərbaycan adında bir gənc igid, dəliqanlı var. Yeni Turanın açarı ondadır". Azərbaycan, həqiqətən də, əsrimizdəki Turan torpağının gözəl bir parçasıdır.

***

İnkişafa meyilli olduqlarını göstərmək üçün bu kafi deyilmi ki, ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, Rusiya türkləri arasında ilk qəzet yaradıcısı azərbaycanlı,.. əlifba islahını ilk düşünən azərbaycanlı, nəhayət, islam aləmində ilk dəfə Cümhuriyyət elan edən də Azərbaycandır.

***

Hürriyyət şəminə aşiq olan pərvanəni heç bir zülm və istibdad çiləsi vəsli-didarə yetişmədən saxlayamaz.

***

Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün nə qədər... töhmətlərə məruz qaldıq!

***

Azadlıq - cahanşümul bir fikirdir. Bir tək əsir insan, bir tək əsir millət vaqii qaldıqca, dünya həqiqi azadlıq və əmniyyət üzü görə bilməz!

***

Tufana tutulan bir gəmi üçün hədəfsizlik nə qədər mühlik (öldürücü) isə, tarixi saatlarda bulunan bir millət üçün də əməlsizlik o qədər mühlikdir.

***

Hanki vicdandır ki, istiqlalını istəyən və ona ləyaqətini isbat edən bir milləti qəhr etsin?!

***

Yolun yıldızını tanımadığımızca əli titrəməz sükançını da bulamayacağız.

***

"Öz ...istiqlaliyyətinin qədrini bilməyən xalq Cənabi Haqqın qəzəbinə gəlmişdi".

***

Səadət hürriyyət və istiqlaldadır.

***

Milli vicdan və yaxud milli iman milli dirilikdəki əməl və arzunun mövcudiyyətindən və onun surəti-hiss və bəyanından hasil oluyor. Hər millət deyil, hətta bir şəxsin özünə görə bir əməli vardır... Bunun firəngcəsi "İdeal" gəliyor. Osmanlıcada son zamanlarda bunu "məfkurə" deyə tərcümə edənlər də vardır.

***

Müəyyən bir məfkurəyə, o müttəhid bir ruh və müştərək bir yıldıza sahib olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq... Parlaq bir türk mədəniyyəti ən müqəddəs qayeyi-amalımız, işıqlı yıldızımızdır.

***

Türk və müsəlman qalaraq müstəqilən yaşamaq istərsək, mütləqa əsrimizdəki elmlər, fənlər, hikmət və fəlsəfələrlə silahlanmalı, sözün bütün mənasıyla zəmanə adamı olmalıyız.

***

Qəlblər bir Allaha mütəvəcce və dilimiz müəyyən virdlər və dualarla mütəzəkkir olduğundan bütün müsəlmanlarla şərik bir ruha sahibiz.

***

Sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək – ki, zaman bunu iqtiza ediyor – mütləqa üç əsasa sarılmalıyız: Türkləşmək, islamlaşmaq və müasirləşmək.

***

Bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük nöqsanını təşkil ediyor.

***

Əcələ bir surətdə maddətən tərəqqi edib mənəviyyatca məhrum qalmaqdansa, maddətən gec tərəqqi edib mənəviyyatca müstəqil qalmağı tərcih edirəm. Çünki millətin də, bəşəriyyətin də faydası bundadır.

***

Milli idealın (imanın) hüsülü ilədir ki, millətlər özlərinə şanlı, şərəfli bir dirilik təmin edə bilərlər.

***

Bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad və təməddün amili təsəvvür oluna bilməz... Mədəni millətlərdə tarix, həm də vətən və milliyyət tarixi ən mühüm dərslərdən birini təşkil edər.

***

Millət ölmüyor. Milli ideal, milli istiqlal fikri daima yaşıyor. Ölmüş, bitmiş millətlərin təkrar dirildigi də uzaq deyil. Yaxın tarix də ...milli ruhun ölməz olduğu ilə milli istiqlal fikrinin sönməz bir nur, müqəddəs bir atəş olduğunu göstərir.

***

Milli istiqlala sahib olmayan bir millət, hürriyyət və mədəniyyətini də hifz edə bilməz. İnsanlara hürriyyət, millətlərə istiqlal!

***

Millətlər ailələrdən təşəkkül edər. Sağlam olmayan ailələrdən təşəkkül edən millətlər sağlam millət ola bilməzlər.

***

İnsanların hürriyyəti nə qədər geniş bir dairədə olursa, bəşəriyyətin ümumi tərəqqisi də o qədər möhkəm və qüvvətli əsaslarda cərəyan ediyor.

***

Bayram millətləri ayrı-ayrı fərd olmaqdan çıxarıb bir təni-vahid kibi hiss etdirən vasitələrdən biridir. Bayram olunca diri olan millət bir adam kibi mübini-hissiyyatə sahib olmalıdır. Novruz bayramı da böylə bayramlardan biridir.

***

Şadlıq və bayram günlərində fəlakət və səfalətə uğrayanlarını unudan bir millət əmin olsun ki, həqiqi bir bayram üzü görməkdən məhrum olub qalar.

***

Bir millətin el ədəbiyyatı və o ədəbiyyatın təsvir etdiyi ibtidai həyatın əsl əsasları və mətin təsirləridir ki, bizdə milli bir ruh vücuda gətiriyor.

***

Milliyyət hissini itirməyənlər və milliyyət ruhundan uzaqlaşmayanlar üçün aşıq Kərəmdə, Koroğluda və bunun əmsalındakı nəğmələrdə o qədər ülvi hisslər və geniş zövqlər vardır ki, onu ancaq saz nəğməsilə oxunduğu zaman hekayə qəhrəmanının dərdinə tamamilə aşina ola bilən köylülər qədər saf və pak ürəklərimiz anlaya bilərlər...

***

Yavru quşcuğazı qəfəsə salınca haray edər, bağrı çatlar. İnsanın isə azadlıq günəşini kimsə əli tutunca eyni sonluq olar. Azadlıq günəşinizi qapdırmayın kimsələrə, azad bir quş qədər xoşbəxti yoxdur cahanda.

***

Biz, Qafqasiya əqvami ruhunda hər zaman hürriyyət və istiqlal fikri hakim olmuşdur. Hürriyyət fikrinin müməssili olan Prometey Qafqasiya dağlarında zəncirbənd edilmişdi. O daima zəncirlərini qırmaq təşəbbüsündə idi. Prometeyin ruhu Qafqasiyanın bütün millətlərində vardır.

***

Din bir millətin əsliyyətini mühafizə edə bilər. Fəqət çox kərə də ...milliyyət fikri və amalının inkişafına səbəb oluyor.

***

Hanki bir dindir ki, əkdiyi həqiqətlər dahilərinin qanı ilə suvarılmamış olsun? Fəqət yalnız dinmidir?!

***

Bir möminin həyatı ancaq göz yaşı ilə inciləşir.

***

Məscidə çox gedərdim... Ən çox həzz aldığım yer məscid idi...

***

Həqiqətən, dil milləti hər şeydən daha gözəl təmsil edər... Onun qanı, canı vardır. Millətlə bərabər doğar, onunla bərabər yaşar... Dil durduqca millət də durar, öldümü, millət də canını bağışlar... Dil dindən daha qüvvətli bir amili-ittihad, millətlərin yeganə vəsileyi-tərəqqisidir də.

***

Öz dilini bilməyib də sırf başqa bir dildə tənəvvür və təkəllüm edənlər bir dərəcəyədək gülünc olurlar. Mənsub olduqları mühitə mərbutiyyətləri az qalıyor. Bir mühitdən uzaqlaşıyor, digər mühitə də tamamilə iltihaq edəmiyorlar.

***

Hər şeydən əvvəl özümüzü öyrənməliyik. Kimiz, nə millətiz, haradan gəlmişiz? Özümüz nə, mahiyyətimiz nə olduğunu bilməliyiz. Sonra da ...anlamalıyız ki, böyük tariximiz var.

***

Bir güc və qüvvət tapa bilmək üçün millətlər həmişə tarixlərindən imdad istəyərlər. Zəif düşdükləri, əzilib məhv olmağa tərəf çəkildikləri, hətta dağılıb hər bir iqtidar və qüvvətdən düşmüş olduqları zamanda belə keçmişin qüvvətli və parlaq çağlarını yada salmaqla istiqbal üçün bir ümid bəslərlər.

***

Vətənə ariz olan bəlaların yetirdigi xəsarətlər çoxsa, faidələri də az degildir. Bu faidələrindən böyügü iştə bu ittihad və yeganəlik hissinin doğrulmasıdır.

***

Millətlərin başına gələn fəlakətlər onlar üçün bəzən bir vəsileyi-intibah olur.

***

...Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüvvəsinin əzəməti ilə unudulmaz.

***

Nə qədər böyük məqsədlə də olsa, namus sərf olunmaz!

***

İran təsiri ilə Azərbaycan türklərinin həyati-mənəviyyəsi haman il boyu ağlamaqdan ibarət olub qalmışdır... Başqa türk qövmlərinə

nisbət Azərbaycan türklərinin dühası məzhəkəyə daha mahir isə, bunun səbəbi iştə əsrlərcə ağlargözlü qaldığındandır. Biz çox ağlamışıq. Ona görə də çox gülüyoruz.

***

Ah, mümkün olsaydı da, millətlərin kütlə və əvamını idarə edənlərdə xəlqin özü qədər salim bir məntiq olsaydı... O vəqt "xarici təsirlər" bu qədər ... qorxunc olamazdı!..

***

İnsan sevmədiyi bir şey üçün fədakar olmaz. Fədakar olmayınca müvəffəqiyyət və qələbəyə nail olmaz.

***

Biz müsəlmanlar bizə öyrədilən "müsəlman tərbiyəsi"nə sadiq qaldıqca dünya işlərində müvəffəq ola bilməmiz mümkün deyil. Çünki dünyanı və onun həyatını sevmiyoruz, onda bir gözəllik görmüyoruz.

***

Bir millətin əksəriyyəti dünyanın bir "cifeyi-napak"dan ibarət olduğuna qane olursa, öylə bir millətin dünya üstündə vaqe olan mübarizələrdə məğlub düşəcəkləri mühəqqəq deyilmidir?!

***

İnsan bu qədər həqiqətlərin vücudu ilə dinimizin bizə ancaq dünya düşməni şəklində öyrədilməsinə heyrət edər, heyrət!

***

Ah... nə vaxt bir mücahid özünü fəda etdi ki, cəmaət onun qədrini bilmədi? Cəmaətə qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör!

***

Təbiət olduqca qəddar və birəhmdir. O, göz yaşlarına zərrə qədəri əhəmiyyət verməz. O, gülməyə, ağlamağa qarşı laqeyddir. Hələ ağlamaqdan bir az da zəhləsi gedər. Çünki ağlamaq ecaz əlamətidir. Acizlərin isə təbiət ən birinci düşmənidir. Qüvvətli olanları saxlar, zəif olanları əzər – budur onun rəftarı... Fəqət bu, onun getdiyi doğru bir yoldur.

***

Məyusiyyət üçün dünya qədər səbəblər var... Fəqət ümid işıltıları da yox deyildir.

***

Təbiətdə bahar ancaq qışın ardından gəliyor.

***

Axirət fikrilə yaşayanlar,
bu dünyada da diri olun.

***

Diriliklərin ən qiymətlisi milli dirilikdir.

***

Əqidə, amal və məslək yolunda ölümünə razı olub da nəfsini fəda edən kim olursa-olsun, böyükdür. Və bu böyüklük təqlidəşayan və müstəhəqdir.

***

Həyatı sevəlim!

*Toplayan və tərtib edən:* ***C.M.***





## Gülnar ÜMİD

Daha sənin üçün
heç darıxmıram...
Heç bilmirəm
sevgim üçün gündüzsən, ya gecəsən!
Daha şəkillərinə
düşən göz yaşlarım
üzünü silib artıq,
üzündə baxışların yox olub,
görünmür daha necəsən...
Yox olursan,
yadlaşırsan yavaş-yavaş xəyalımda,
cizgilərini birləşdirməyə çalışdıqca itirsən.
Son dəfə
hansı kəlməni işlətmisən deyə,
çağırır qulaqlarım,
"Daha bitdi" –
sağollaşıb getdiyin kəlməndə bitirsən...
Getdiyin yollarına
çəkirəm gözlərimin şəklini.
Bir də fırçam boyayıb kölgəni:
qara rəngdədir.

### ŞEİR VAXTI

Darıxmaq da körpü kimidir,
gah aparır, gah gətirir.
İtirib sən deyilən əmanətin izlərini,
bilmir hansı səmtdədir.
İnandığım inancımda
inanmıram sənli sənə.
Daha örtüm pəncərəni –
külək pıçıldayır mənə.
Yalan ümidlər nağılın
danışacaq şirin-şirin,
Mənsə aldanacam ona,
gözümü döyəcəm yenə...

***

Sabah mütləq yazacam...
Bu dəfə söz verirəm!
Sındırıb qürurumu
parça-parça sözlərlə
ağ gəlinlik geyinən
kağız vərəqlərinin sinəsinə sərəcəm...
Sabah mütləq yazacam...
Göz yaşımla isladıb
çəkdiyim darıxmağın
bütün şəkillərini
saatın əqrəbində tez sənə göndərəcəm...
Sabah mütləq yazacam...
Zaman qatarı keçir
evinizin yanından,
Qurban olum, nə olar,
heç olmasa bu dəfə
ünvanını dəyişmə!
Məktubumu al oxu –
söz verirəm, sən oxu,
sonra özüm gələcəm...

***

Duyğularım dalğaların qoynunda
günəşin dizləriylə
səcdə edər göy üzünə
Mən səni də yer üzündən
göy üzünə yola saldım;
Hətta duaları da
səpələdim ardınca,
özüm göndərdiyim ruhun
dönüşünə inanmaq

şimşəyin çaxıb,
yağışın yağmaması kimidir...
Onun kimi səni dinləyərlər,
amma susarlar astaca.
Arzular ləpələr,
ləpələrsə təngnəfəsliyim kimidir,
çatmazsan, amma o səni qovar.
Və dənizdən küsdüyün an
üz döndərər səndən,
alar səndən səni də,
onu da.
Boğulmaq üçün öncə
dabanların dənizin qumlarını ovar...
Və sonra....
dənizdən içdiyin su son şərbətin,
ruhun isə göyə qalxan badə olar...

***

Bir yağış yağa ki, külək islana,
Sığına saçımın çətirlərinə –
Günəşin bətnindən hədiyyə ola
Ləbim ləblərinin sətirlərinə...
Bir yağış yağa ki, külək islana,
Coşub qisasını dənizdən ala –
Geyinib dalğanın qat-qat donunu,
Çılpaq yaxasını bənizdən ala...
Bir yağış yağa ki, külək islana,
Göy öz laylasını oxuya yerə –
Üşümüş küləyi bağrına basıb,
Torpaq qucağında yuxuya verə...

***

Və bir gün rastına bir qadın çıxa,
təpədən-dırnağa dərdini alıb,
ruhunu sevgiylə bağrına sıxa...
Və bir gün rastına bir qadın çıxa,
gözündən dünyanın silib kədərin,
sevinci xalıtək qarşına yıxa...
Və bir gün rastına bir qadın çıxa,
ötən günlərinin pəncərəsindən
açıb pərdələri səninlə baxa...

***

Xəbərin var,
artıq dəli olmuşam?
Bezdim
divarlarla danışmaqdan,
xəyalını pərdə kimi asdım
gözlərimin önünə.
Alışdım bu yalançı həyata,
yalanların içinə
atılmış bir əşya kimi
qaldım həsrətimin küncündə.
Sənin kimi yalana qarışdım,
adı olmayan quru dənizlər kimi.
Yazın yağışını,
qışın qarını
sonra göz yaşlarıma qarışdırdım.
Yastığımın nəminə yapışdı üzüm,
sonra dəli kimi
yastığı sən əvəzi
bərk-bərk sinəmə çəkdim.
Boylanıram gecələr
pəncərədən ətrafa,
ay işığındakı
külək tərpədən ağaclara.
Mənə elə gəlir ki,
dəli oluram artıq,
yarpaqlar mənə gülür.
Sənli xatirələrdən
narın yağış tökülür...

***

Dərindən hər ah çəkəndə
əks-sədam gedib
sənə toxunurdu,
“kaş ki”lərlə sildimsə də,
sən dediyim nə vardısa,
“bəlkə”lərdə oxunurdu...
Damarlarla sərhədlənmiş ürəyimi
damarlardan
ürəyimin döyüntüsü
mərmi kimi,
çalın-çarpaz ayırdı.
Hər açılan mərmilər də
səndən susub gizlətdiyim gerçəkləri
sorub-sormaz sayırdı.
Qəribədir,
səndən uzaq qəribliyi
ən yaxında yad edirsən
yadlar kimi.
Qulağına səslər gəlir,
eşitdiyin səslərdə də
ad gəzirsən
addımlar kimi.

Qollarınla boş qucaqda
yoxluğundan yuva qurub,
duyğuların körpəsinə sığınırsan,
dən istəyir səndən
ac hisslərinə,
göz yaşından su versən də,
yoxluğunun tikəsiylə
ac qoyursan.
Acıqlanıb qəzəbini gözlərinə tökərsən,
gedərkən görmədi deyə,
əllərin də bir-birini döyər –
yenə bacarıb tutmadı deyə.
izini itirər bir gün,
küsər ayaqların yerdən,
dizində taqətin qalmaz.
Mən ümid dediyim yolda
gedib gəlməzlər üçün
ümiddən körpü salınmaz...





# ƏDALƏTLİ "Ulduz"

"Ulduz" jurnalının nəşrə başlamasından tam 55 il ötür... Baş redaktorumuz Qulu Ağsəsin təşəbbüsü ilə ədalətli bir qərar verdik: ""Yazı masası"nda həmsöhbətimiz Ədalət Həsən olsun". Qonaq kimi yox, ev sahibi kimi. Nə qədər qəribə səslənsə də, bu müsahibəyə qədər illərdi çalışdığım jurnalın xeyir-duasını almamış kimi hiss edirdim özümü. İstəyimə dərgimizin bədii redaktoru, 85 yaşlı qocaman qrafik rəssam Ədalət Həsənin sayəsində çatdım. Ona görə də mən bu söhbətə müsahibə kimi deyil, gecikmiş xeyir-dua kimi baxıram. Üstəlik, onun danışdıqları həm xeyirlidi, həm də dualı. 55 ildir ki, ulduzlar aləmində – "Ulduz"da yaşayır. "Ulduz" jurnalına həsr etdiyi 55 il sadiqliyinin əlli beş qat isbatıdır, insanlığına qiymət olaraq verilmiş qoşa beşdi.

Günəş ürəyi ay kimi tərtəmizdi. Hər şeydən xəbərdardı, bir tək öz ucalığından, öz işığından başqa. Açığı, ayırd etmək də çətindi, o, ulduz ucalığına qalxıb, ya ulduzları öz ucalığına daşıyıb? İşığı da ulduzların işığına qarışıb. Bilmək olmur ki, ulduzlar onun işığından pay alıb, ya o, ulduzlardan?

Yerə baxan adamlar tanımır Ədalət Həsəni. Yalnız gözü mənəviyyatın yeddinci qatını seçənlər görür onu. Az adama görünsə də, özü çox adamı görür. Dünyasının sakinləri azdı. Darıxmağı olmasa, yaşadığı dünyaların ən gözəlidi. Bu, bir həqiqətdir ki, pis adamlar pislərin çoxluğunda darıxdığı kimi, yaxşı adamlar da yaxşıların qıtlığında darıxır. Məncə, bütün dünyalar yaxşı adamlara məxsusdur. Pislər hər yerdə müvəqqətidir, ömürləri, şəxsiyyətləri və düşüncələri ilə birlikdə. Mən xoşbəxtliyin, yaxşıların və yaxşılıqların əbədiliyinə inanıram. Əgər elə deyilsə, dünyaların ən pisidir yaşadığımız. Bu kimi düşüncələrin sonunda gəldiyim nəticənin insani təsdiqidir Ədalət Həsənin şəxsiyyəti.

Qaynayıb-qarışan adamdı... Çəkdikləri yazılanlara qarışıb. Rəsmləri, etüdləri, illüstra-

siyaları və eskizləri söz qoxuyur. Danışanda elə-belə danışmır, sözlərinin, düşüncələrinin, adətən, rəsmini çəkir. Fırçasından və karandaşından doğulanlar ölümsüzdü. Əvvəllər elə bilirdim, bu gülərüz adamın ağ-qara qrafik rəsmləri bir zamanlar çəkdiyi rəngarəng rəsmlərin yasını saxlayır. Sonralar anladım ki, yanılmışam. Qarayla rəngarəng düşüncələrin rəsmini çəkmək xoşbəxtliyi hər adama nəsib olmur. Bunun üçün Tanrı bəxş edən rəngarəng ürəyə sahib olmalısan.

**– Ədalət müəllim, uzaq 1967-ci ilin yanvarına səyahət edək... "Ulduz" jurnalı nə cür formalaşdı? Necə oldu ki, "Ulduz"a gəldiniz? Heç bir ədəbiyyatşünas, araşdırmaçı və ya tənqidçi o günlərin canlı şahidi olmuş Ədalət Həsən kimi dürüst danışa bilməz bu tarixi. Tarixi tarix yaşayanın özündən eşidək**.

– Mənim Həsənağa Ağayev adlı bir qrafik rəssam dostum var idi, "Azərbaycan" jurnalında işləyirdi. Günlərin bir günü Həsənağa İlyas adlı başqa bir rəssam dostumuza deyib ki, Ədalətə deyin, təcili Yazıçılar İttifaqına getsin, yeni jurnal fəaliyyətə başlayır. Gələn kimi baş redaktor vəzifəsini icra edən Yasif Nəsirli məni qəbul elədi, işə götürdü. Hər şey bir göz qırpımında baş verdi. Yanvar ayının ortaları idi. Mən "Ulduz"a gələndə artıq jurnalın birinci sayı çapa getmişdi. Amma kollektivlə birlikdə çap prosesində iştirak edirdim. İlk sayda xeyli korrektura səhvləri getmişdi. Həmin səhvləri nəşriyyatdaca düzəltməli olduq. Çox çətin proses idi. Bir Ələddin adlı korrektorumuz var idi. Rəhmətlik Hikmət Ziya iş bitəndən sonra zarafatyana həmin Ələddinə belə demişdi: "Ələddin, bizi yaman mələtdin". Sonralar bu söz hamımızın dilinə düşdü. Ələddini harda görsək, zarafat edirdik.

Amma jurnalın ikinci sayının hazırlanmasında və çap olunmasında bilavasitə iştirak etmişəm. Mənim ilk mərhələdə işim maketi və tərtibatı hazırlamaqdan, jurnalda gedəcək yazıların yerini müəyyənləşdirməkdən ibarət idi . İkinci mərhələdə isə illüstrasiyaları, şəkil və başlıqları çəkirdim. Jurnalın ilk sayı 64 səhifə idi. "Ulduz" ilk vaxtlar ədəbi-bədii və ictimai-siyasi jurnal sayılırdı. Ona görə də jurnalda başqa səpkili yazılar da gedirdi. İdman xronikaları, deyək ki, boksla bağlı. İlk məsul katib və baş redaktor, dediyim kimi, Yasif Nəsirli idi. Təxminən il yarımdan sonra baş redaktor Cabir Novruz təyin olundu. Ona kimi Cabir Novruz "Azərbaycan" jurnalında poeziya şöbəsində işləyirdi. İlk başda nəsr şöbəsinin redaktoru İsi Məlikzadə, poeziya şöbəsinin redaktoru Hikmət Ziya, ədəbi tənqid şöbəsininsə Abbas Abdulla idi.

Redaksiyamızın fəaliyyətə başladığı yerdə indi Gənc Tamaşaçılar Teatrının binası yerləşir, demək olar. Niyə demək olar deyirəm. Çünki ilk redaksiyamız Yazıçılar Birliyinin üçüncü mərtəbəsində yerləşən bir uzun otaqdan ibarət idi. Sonralar, görünür, teatr binası tikiləndə plana düşdü deyə, Yazıçılar Birliyinin arxa tərəfində yerləşən həmin o hissə söküldü. Əvvəl-əvvəl redaksiyada stol və stullar az idi. Şəraitsizlik üzündən işlərimizi aparıb evdə görməli olurduq. Belə demək mümkünsə, jurnalın ilk sayları masaların üstündə deyil, dizlərimizin üstündə ərsəyə gəldi.

**– 85 illik ömrünüzün 55 ilini "Ulduz" jurnalına həsr eləmisiniz. Jurnal çıxmağa başlayanda bəlli yaşınız var idi. Ömrün "Ulduz"lu illəri, ya "Ulduz"suz illəri?**

– Ürəyimdən keçən sualı verdin, Taleh... Elə anlar olur ki, insan özüylə danışır. Çək-çevir edir, düşünür, içini atıb-tutur, özünə hesabat verir. Bəzən belə məqamlardan insan çox qiymətli fikirlər qazanır özü üçün. Səndən tələb olunan o olur ki, həmin fikirləri, dəmir misalı, isti-isti döyüb nəyəsə çevirəsən, özününküləşdirəsən... Bu kimi şeyləri düşünəndə elə bu sualın cavabını da tapmağa cəhd eləmişəm. Sözün bütün mənalarında, "Ulduz"lu illər mənim ömrümün ən işıqlı illəridir. Mən 1967-cı ilin yanvarından bəri bu işıqla yaşayıram, "Ulduz"un işığında yol gedirəm. Bura təkcə iş yerim deyil, həm də məni insan kimi püxtələşdirən məktəbdi . "Ulduz" mənə yox, mən "Ulduz"a borcluyam. Ömür vəfa etdiyi qədər də bu borcu qaytaracam. "Ulduz" həm də mənim ən etibarlı dostumdu. Çoxlarına deyə bilmədiklərimi çəkdiyim rəsmlərin, gördüyüm işlərin timsalında "Ulduz"un səhifələrində əks elətdirmək mənim üçün elə dərdləşməkdi. Mən bu jurnala insan kimi baxmışam hər zaman, onun

səhifələrində gedən bütün yazıları dərdimə dərman saymışam. Belə demək mümkünsə, məni jurnalın səhifələrində gedən poeziya nümunələri, hekayələr, povestlər, publisistik yazılar ayaqda tutub, yaşamağıma stimul verib.

**– Leonardo da Vinçinin məşhur bir ifadəsi var: "Rəsm görünən şeirdi, şeir isə eşidilən rəsmdi". Jurnalın səhifələri ilə o səhifələrdə gedən yazıları təkcə oxumadığınızı, həm də dərdləşdiyinizi, özünüzə dərman saydığınızı deyirsiniz. Sizə elə gəlmirmi ki, rəssam olaraq bir ədəbiyyat dərgisində işləməyiniz də bir qanunauyğunluqdu?**

– Görünür, elədir... Bu sualabənzər həqiqəti hansı istiqamətə çəksəm, axırda sən dediyin məqama gəlib çıxacam. Ona görə də dediklərinlə bəri başdan razılaşmalı olacam.

**– Özünüzü emalatxananızda daha rahat hiss edirsiniz, ya redaksiyamızda?**

– Hə, balaca bir emalatxanam var... Redaksiyamız daha böyükdü (gülür). Bir söz var e, deyirlər, insan dolub-boşalır. Mən "Ulduz"da doluramsa, hücrə dediyim emalatxanamda boşalıram. Elə ona görə deyirəm ki, nəinki rəssamın iş prosesini izləmək, həmin an heç qapısını da döymək olmaz. Bütün yaradıcılıq sahələrində bu belədi. İstər rəssam olsun, istər şair, istərsə də musiqiçi... Nə deyim, şükür edirəm ki, hər ikisi var. Nə qədər redaksiyamız, nə qədər emalatxanam var, demək, mən də varam. Bunlar olmasa, mən sonu görünməyən boşluğa yuvarlana bilərəm. Boşluqsa yox olmaqdır.

**– Bildiyimə görə, tələbəlik illərində yazıçı Fərman Kərimzadə ilə bir evdə kirayədə yaşamısınız...**

– Doğrudur... Rəhmətlik Fərmanla çox yaxın dostluğumuz olub, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində bir yerdə oxumuşuq. Düzdü, Fərman özünü yazıçı kimi təsdiqlədi, amma onun həm də gözəl əl qabiliyyəti var idi. Əvvəllər "Güllü dərə" deyilən yerdə, Bakı Dövlət Sirkinin arxasında balaca bir evdə, daha doğrusu, darısqal bir otaqda kirayədə qalırdıq. Oralar əvvəl dərətəpə idi. Çoxlu sahibsiz itlər yığışırdı. Axşamlar itlər qaldığımız evin damına çıxıb boğuşur, səs-küy salırdılar. Tavandan qum tökülürdü üstümüzə. Səhər qalxırdıq ki, yorğan-döşəyimiz toz-torpaq içindədir. Daha sonra köçdük Çəmbərəkəndə. Bir müddət də orada yaşadıq. Tələbəçilik idi, elə də imkanımız yoxuydu, kirayə haqqını belə vaxtlı-vaxtında verə bilmirdik. Hələ o illərdə, darısqal kirayə otaqlarında rəssamlıqda oxuya-oxuya yazıb-pozur, mütaliə edirdi Fərman. Həmişə də doğulduğu Vedibasardan deportasiya olunmaqlarından, ata-babasından eşitdiyi erməni vəhşiliklərindən danışırdı. Nə yazıq ki, o bu mövzuda bir əsər yaza bilmədi. Daha doğrusu, ömür vəfa etmədi. Çox tez köçdü həyatdan, cəmi 52 yaşında. Həyat elə gətirdi ki, Fərman Kərimzadənin məşhur "Qarlı aşırım" romanı ilk dəfə "Ulduz"da çap olundu. Onda əsər nə kitab halında çap olunmuşdu, nə də film çəkilmişdi.

**– Kürün sahilində dünyaya göz açmısınız. Gözünüzü açıb Kürü görmüsünüz. Belə demək olarsa, həm də Kür açıb gözünüzü. Hələ, bəlkə də, uşaq heyrəti ilə vurğunu olduğunuz Kür çayını çəkə bilmək üçün rəssam olmağa qərar vermisiniz. Nə bilmək olar... Təsadüfi deyil ki, bir zamanlar çəkdiyiniz "Kürün səhəri" adlı rəsm əsəriniz böyük Tahir Salahovu heyrətə salmışdı. Necə olmuşdu bu hadisə?**

– Dediyim kimi, mən Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışam. İllərdi o təhsil ocağını bitirmişəm, amma hələ də orda oxumağın sevinc və qüruru məni tərk etməyib. Əslində, indiki Rəssamlıq Akademiyası da elə həmin məktəbin varisidi. Bizim sənət müəllimimiz Baba Əliyev idi. Həm rəngkarlıqda, həm də qrafik təsvirdə rəssamlığın sirlərini öyrədirdi bizə. Vəcihə Səmədova da dərs deyirdi orda. Sözün əsl mənasında Azərbaycan qadını, böyük rəngkar, dünya miqyasında bir sənətkar. Bundan başqa, Əbdülxalıq, Hafiz Məmmədov, daha kimlər, kimlər... Səhv eləmirəmsə, üçüncü kursda oxuyurdum. Kurs işi hazırlayırdıq. Hərə bir şey çəkirdi, kimisi neftçi, kimisi mənzərə, kimisi də idmançı... Mən də özümə doğma bildiyim, sən demişkən, sahilində göz açdığım Kürün sahilində səhəri təsvir etmişdim. Ümumiyyətlə, Kür həm çay olaraq, həm də mövzu olaraq mənə doğmadı. Rəsmlərə baxış-



da Tahir Salahov da iştirak edirdi. Mənim işimin yanına çatanda ayaq saxladı, uzun-uzadı, diqqətlə, nəyisə incələyirmiş kimi tamaşa elədi. Nəzərləri ilə rəsmlə danışırdı, hiss edirdi, duyurdu. Tələbəydim, özümü yığışdırdım, üstəlik, bir xeyli də həyəcanlıydım. Özümlə bir kəlmə də kəsmədi, ancaq çəkdiyim rəsmlə uzun-uzadı danışdı sanki.

**– Mən də sizin insanpərvərliyinizə, sevginizə, ümumilikdə şəxsiyyətinizə gözəl bir rəsm əsərinə baxırmış kimi, aşırı heyrətlə baxıram. Elə bir dünyada yaşayırıq ki, indi yaxşı adam olmaq və yaxşı qalmaq o qədər asan məsələ deyil. Nə zamansa yaxşı olmaqdan usandınızmı? Yaxşı adam olduğunuza görə heç özünüzü danladınızmı?**

– Nəinki yorulmaq və özümü danlamaq, bir an belə bu hissin təsirinə də düşməmişəm. Əksinə, olub ki, daha yaxşı ola bilmədiyimə görə danlamışam özümü. Bu xarakter mənə ana bətnində bəxş edilmiş ilahi bir paydı. Pis insan olmaq, başqalaşmaq məndən asılı olan şey deyil.

Bir dəfə fotoqraf dostlarımdan biri dedi ki, bəlli bir yaşdan sonra mən özümü dəyişdim, hər şeyə səxavətli yanaşırdım, indi tamamilə başqa cür adam olmuşam, amma sən heç dəyişmirsən. Dedim, insan necə dəyişə bilər, onu bilmirəm mən. Nə bilirəm, nə də başa düşürəm. Yaxşı ki, bilmir və başa düşmürəm. Məncə, içində azacıq dəyişməyə meyli olanlar dəyişilə bilir. Mənim ürəyimdə belə bir istək də yoxdu. Yaxşı adamların dəyişilməsini Allaha xəyanət hesab edirəm. İnsan doğulduğu kimi də ölməlidi. Şəkil dəyişmədən, ilk başda dünyaya gəldiyi kimi. Bilirəm, dəyişmədən yaşamaq çətindi, amma mümkünsüz də deyil.

Yaxşılıq demişkən, yaxşılıq edəndə insan özünü unudur. Adlarını çəkməyəcəm, adamlar olub ki, yaxşılıq eləmişəm, qolundan tutmuşam, unudan da olub, unutmayan da, sözüm onda yox. İndi məşhur olan neçə-neçə rəssamın işlərini çap eləmişəm, əlimdən gələn yaxşılıqları etmişəm. Özüm üzv olmaya-olmaya bir çox gənc rəssamın Rəssamlar İttifaqına üzv olmağına yardımçı olmuşam. Sonralar, özüm üzv olmaq ehtiyacı duyanda mənə zəmanəti Xalq rəssamları Mikayıl Abdullayev, Cəmil Mufidzadə və Rasim Babayev verdi. Hətta zəmanət üçün dəyərli qrafik, Xalq rəssamı Cəmil Müfidzadənin yanına gedəndə gülə-gülə qayıtdı ki, ay Ədalət, nə yaxşı özünü yadına saldın? Bax yaxşılığın bir də bu tərəfləri var. Amma yenə deyirəm, etdiyim yaxşılıqlara və xarakterimə görə heç zaman zərrə qədər də olsa, peşmanlıq hissi duymamışam.

**– Xarakterinizə sadiq qaldığınız kimi, uzun illərdi yaradıcılıq dəst-xəttinizə də sadiq qalmısınız, "ağlı-qaralı" – qrafik kimi.**

– Əslində, mən rəngkarlığı bitirmişəm. Həm də fərqlənmə diplomu ilə. Rəssamlıq məktəbində oxuyanda da, bitirəndən sonra da, hətta "Ulduz"a gələndə də özümü rəngkar hesab edirdim. Ümid edirdim ki, nə zamansa münbit şərait yaranacaq, içimdəki rəngkar Ədalət baş qaldıracaq və hər şeyi istədiyim kimi təzədən başlayacam. Amma olmadı. Məni daha çox ehtiyac rəngkarlıqdan qopardı desəm, doğru olar. Rəssamlıq məktəbini bitirəndən sonra çətinlik, kirayəçilik... hamısı üst-üstə gəldi. 50-ci illərin sonlarında "Bakı" adlı kiçik formatda bir qəzet çıxırdı. Həmin qəzet rəssamların işlərini çap edib qonorar verirdi. Mən də başladım tuşla etüdlər və eskizlər çəkməyə. Az da olsa, özümü ayaqda tutmaq üçün pul qazanırdım. Ehtiyac məni qazanca sarı əyirdi. Belə-belə rəngkarlıqdan uzaqlaşdım. Çətin də olsa, qəbullandım qrafik olmağıma. Üstündən çox uzun illər keçib, özüm qəbullansam da, hələ də yuxularım bu gerçəkliyi qəbul etməyib. Hələ də yuxularımda özümü rəngkar görürəm. Oyananda görürəm ki, yox, hələ də qrafikəm. Amma qrafika da məni bezdirmədi, usandırmadı, yormadı. Bu mənada da "Ulduz"un rolu böyükdü. Bəlkə də, başqa yerdə işləsəydim, yaradıcılıq taleyimdən gileyli qalardım. "Ulduz" mənə hər şeyi unutdurdu, təsəlli verdi. Ümumiyyətlə, lap əvvəldən bizim jurnalın özünəməxsus istiliyi, aurası və cazibəsi var. Bu auranın orbitində hər şey doğma və hər şey sevgi doludur. Buz tutmuş ağrı-acılar bu istilikdən əriyib yoxa çıxır, heç olmamış kimi unudulur.

*Söhbətləşdi:* **Taleh MANSUR**

Günel HACIYEVA



# LİLİ MÖHTƏŞƏM QADIN İDİ

Ürəyi əlindəki çamadandan ağır idi. Daşımaq məcburiyyətində olduğu yük gözünə görünmür, ürəyinə isə gücü çatmırdı. Ondan qabaqda irəliləyən həyat yoldaşını gözləri ilə izləyir, yanınca addımlayan qızını geridə qoymamağa çalışırdı. Bəzən ayaq saxlayır, qızının əindən düşən narıncı rəngli dovşanı yerdən götürür və yenə yoluna davam edirdi. Bunu dəfələrlə etsə də, heç yorulmadan, vəzifəsi kimi icra edirdi. Beyni dumanlı, qəlbi yüklü olsa da, hec kimi diqqətdən kənarda qoymurdu. Tək diqqətsiz və kənarda qalan ruhu idi, çünki onu buralarda tərk edib gedirdi. Ona əmənət olan ailəsi ilə uzun yolçuluğa çıxırdı. Qürbət buz kimi soyuq qucağını açıb hələ də onu gözləyirdi.

Son dəfə geri dönüb ona əl edən əzizlərinə – valideynləri, bacısı, bacısının hələ də ona görə ağlayan kiçik oğlu və dostuna baxdı. Gözlərinə baxmağa cəsarət etmədiyindən onları sıra ilə düzülmüş qaraltı kimi gördü. Beyninə sanki onu güclü və hissiyyatsız etmək üçün əmr göndərilmişdi. Heç bir reaksiya vermədən ifadəsiz sima ilə başını çevirib yoluna davam etdi. Bədənində güclü ağrılar hiss edirdi, ayağı önə, qəlbi geri çəkirdi onu, sanki ətini sümükdən ayırırdılar.

Beyninə elə qatı bir qaranlıq çökmüşdü ki, nə istədiyini anlamaqda aciz idi. Hadisələri analiz etməkdə çətinlik çəkirdi. Sonuncu dəfə buraları tərk edib gedəndə düşünürdü ki, bir daha bu yerlərə qayıtmayacaq, amma illər sonra ilk dəfə doğulduğu bu torpağa, qoyub getdiklərinə qayıdandan sonra bütün hissləri qarışmışdı. Bildiyi tək şey o idi ki, sevdiklərini, doğmalarını, dəyərlərini, suyunu, torpağını, havasını, onun üçün dəyərli olan qadını, mavi gözlü pişiyini, kəndinin aylı, cırcırama nəğməli gecələrini, balaca təpənin dalından boylanan, dünyanın heç yerində olmadığı qədər gözəl olan günəş doğumunu- onu o edən, onu tam edən hər şeyi buralarda tərk edib gedirdi.

Lili ilə onun tanışlığı ucqar bir italyan kəndində başlamışdı. Təhsilini Varşavada bitirdikdən sonra işləmək qərarına gəlmişdi. Amma bir səhər dostunun ona verdiyi təklifi dəyərləndirmək fikrinə düşdü. Dostu onu işə başlamazdan qabaq yaxşı bir istirahətə, dəyişikliyə ehtiyacı olduğuna inandırmışdı. Bu həvəs onları San-Giovanni kəndinə kimi gətirib çıxardı. Görən kimi bu yerlərə heyran olmuşdu, ona öz doğma kəndini xatırladan bu kənd də dağların qoynunda idi. Hətta dostu ilə zarafatlaşmışdı ki, burada insanın aşiq olmağı

gəlir. Gecəni keçirmək üçün kənddə ev tapmaq lazım idi.

Lili nənəsinin xudmani, italyansayağı evinin bağçasında dizlərini yerə qoyub balaca bir çəpişə butulkadan süd içirdirdi. Üzərində yasəmən gülləri olan ağ libası o qədər qısa idi ki, dizlərini yerə qoymağına baxmayaraq, torpağa toxunmurdu. Qara, uzun saçları kürəyinə dağılmışdı. Bəlkə də, belə səhnələr filmlərdə bir neçə cəhddən sonra alınardı. Siması görünməsə də, o bu halı ilə belə əsrarəngiz idi. Bu gözəllik qarşısında heyrətlə qıza baxan dostunu qabaqlamaq üçün dedi:

– Ciao Bella ragazza.

Lili vəziyyətini dəyişmədən ona tərəf baxdı. Gülümsəyərək südün bitməsini gözlədi. O sanki bir mələk idi. Gözləri sürmə çəkilmiş kimi qapqara, üzünün hər cizgisi çox zərif idi. Ona heyran olmamaq mümkünsüz idi. Süd bitdikdən sonra ayağa qalxıb, çəpişin başına tumar çəkib oğlanlara sarı gəldi və onları ingiliscə salamladı. Elə ilk kəlmədən, yəqin ki, qız onların italyancasının çox zəif olduğunu anlamışdı. O, ucqar italyan kəndinə göydən enmiş, yasəmən qoxuyan, insan cildində olan bir mələk idi .

Lilinin nənəsi onlara qonşuluqda qala biləcəkləri bir ev tapdı. Ənənəvi italyan mühafizəkarlığına sahib olan nənəsinin ciddi nəzarətinə baxmayaraq, Lili onu yuxuya verib dəfələrlə göl kənarına enərək oğlanlarla söhbətləşməyə vaxt tapa bilmişdi. Bir həftədən sonra poçtalyon üzərində "Liliana Moretti"-yə çatacağı qeyd olunan bir məktub gətirdi. O, təhsili ilə bağlı Romaya çağırılırdı, verdiyi imtahanın nəticəsi uğurlu olmuşdu və o bu günü o qədər arzulamışdı ki, hər şeyi qoyub getmək məcburiyyətində idi. Buna görə nənəsinin yanından nəzərdə tutduğundan daha tez geri dönməyə məcbur oldu.

Lili qatara minib, əşyalarını yerləşdirib yerini tutdu, fikirli-fikirli pəncərədən boylandı. O yox idi, amma nədənsə Lili onu gözləyirdi. Qəfil kimsə onun yanında əyləşdi, qız narazı halda kənara çəkildi. Tək qalmağa, düşünməyə ehtiyacı var idi. Gözlərində gün eynəyi, başında panama, əlində qəzet olan bir şəxs... Hər ikisi sonralar bu mənzərəni dəfələrlə xatırlayır və hər dəfəsində də uğunub gedirdilər.

Lilidə axtardığı çox şeyi tapmışdı, o, sərhədsiz, azad, çılğın gənc bir qız idi. O, Lili ilə xoşbəxt oduğunu, ehtirasın, sevginin ən pik həddində yaşadıqlarını düşünürdü. Lili onu tamamlayan möcüzə bir qadın idi.

***

...Bu onun Lili ilə tanışlıqdan sonra ilk dəfə vətənə dönüşü idi. Bu dəfə izinə düşüb ta Aropaya qədər getdiyi azadlığı ruhunda hiss edə bilmirdi. Ruhu məhkum idi – ona aid olanlara. Təyyarə enişə hazırlaşarkən yuxudan qəfil ayılan insan təlaşı ilə ətrafa boylandı. Yuxulamadığını düşünsə də, hər yeri keyimişdi. Qızı monitorda baxdığı cizgi filmi qəhrəmanının səsini yamsılayır, içib bitirdiyi şirənin boş qutusunu əlində sıxaraq "puf-puf" səs çıxarmasına baxırdı. Lili yan oturacaqda oturub laqeyd görünüş almağa çalışaraq gərgin halda enişi gözləyirdi. O, çox ağıllı qadın idi və bilirdi ki, geri dönərkən bir çox şeyləri özü ilə apara bimir. Ərini gizlincə izləyir və onu tanıya bilmirdi. Kaş heç bu səfər olmayaydı. O, illərlə düşünmüşdü ki, ərinə bağlı olduğu hər şeyi unutdurub. Amma indi bunun tam əksinin olduğu qənaətinə gəlmişdi. O, hər şeyi unutdura biləcək ağıla, gözəlliyə sahib bir qadın idi. Amma bu dəfə bacarmamışdı.

O, diqqətə Liliyə baxdı, nə düşündüyünü anlamağa çalışırdı, amma qadının siması buz parçasından seçilmirdi. Cəhdlərinin boşa çıxdığını anlayaraq qayğıkeş ər obrazı yaratmaq üçün qızının dağınıq əşyalarını toplamağa çalışdı. Ayağa qalxıb başının üzərində yerləşdirdiyi çamadanı götürməyə cəhd etdi. Amma hər yerinin keyidiyini hiss edib oturdu. Bu halı aradan qaldırmaq üçün tez-tez ayağını yerə vurmağa başladı. Qadının əsəbi baxışları altında bir neçə cəhddən sonra buna son qoyub özünü ələ almağa çalışdı.

Telefonu internetə qoşulu olmasa da, tez-tez ekrana baxır, ondan bir mesaj gəlib-gəlmədiyini bilmək istəyirdi. Telefon isə dərin bir sükut içində idi. Nəhayət, hava limanında telefonun siqnalı ona internetin olduğunu xəbər verdi. Tez mesajları yoxladı, hətta kənddəki qonşusu Mirələm dayı belə ona qısa mesaj yazıb uğurlu yol arzulamışdı. Tək ondan xəbər yox idi. Bundan kefi elə pozuldu ki,

yanından keçən çamadanları görmədi və xeyli baqajların arxasınca qaçmaq məcburiyyətində qalaraq özünü gülməli vəziyyətə saldı.

Əgər geri dönmək şansı olsaydı, təyyarəni gözləmədən özü uçmağa cəhd edərdi. O, çox xoşbəxt idi və xoşbəxtliyinə xələl gəlməsini heç istəmirdi. Liliyə onu sonsuza qədər sevməyə söz vermişdi. Və sözü verərkən buna qəlbdən inanmışdı. Kaş vətənə dönməyəydi. Yox, nə yaxşı ki, döndü. Bəlkə də, yox. Dönməsəydi, unutduğu şeyləri yenidən xatırlamazdı. Aid olduğu yerdən qopub getmək kimi bir çarəsizliklə üz-üzə qalmazdı. Bir də qayıtmaq niyyəti olmadığı o kənddə unutduğunu zənn edərək tərk edib getdiyi o bəstəboy, cılız qız illər sonra yenidən qarşısına çıxmış, fikirlərini alt-üst etmişdi. Hətta bir oğrun baxışı ilə. O balaca, çəlimsiz qız indi gözəl bir qadın olmuşdu. Xoşbəxtliyinin pərdələdiyi beyni, qəlbi, sən demə, onu heç unutmamışmış. Silinmiş yaddaş lentini qızın illər sonra elə illər öncəki kimi saf, məsum qalan baxışı geri qaytardı.

O, Lili kimi gözəl və qüsursuz deyildi, onun kimi özgüvənli və azad heç deyildi. Saçları da Lilinin saçları kimi zil qara və ipək kimi yumşaq deyildi. Lili kimi gözəl qamətli, uca boylu deyildi, onun kimi pəri zərafəti də yox idi. Amma gözləri bir okean idi, dərin, ucsuz-bucaqsız, insanı özü ilə alıb qeybə çəkilən bir dərinlikdə idi. İnsanı bu dünyadan qoparan bir zülmət, özünə qaytaran bir işıq var idi baxışlarında.

Heç vaxt ona sevgisini etiraf etməmişdi və bəlkə də, heç onu sevməmişdi də. Amma bildiyi bir sey var idi ki, o gözlər elə hey beyninin bir küncündə zülmətdə parlayan mayak kimi isiq saçırdı, bəzən hətta kimin olduğunu unutsa da, gözlərini yumduqda bir cüt dərin, qara gözün ona zilləndiyini görər və tez gözlərini açar, həyəcanla mətbəxə keçib bir bardaq soyuq suyu başına çəkər, yenə yatağına uzanardı.

***

Vətənə qayıtdıqdan 5-6 gün sonra rastlaşmışdı onunla kəndin ara yollarından birində. Evdən məqsədsiz çıxmışdı. Soruşanlara avtomobilsiz, piyada kəndi gəzmək istədiyini bildirmişdi. Amma nədənsə üzü onların evinə sarı gəlirdi. Və budur, uzaqdan qızın gəldiyini gördü. Əlində balaca bir suqabı. Suqabını tutduğu əlində böyük brilyant qaşı olan üzüyü bərq vururdu, o qədər böyük idi ki, görməmək mümkünsüz idi. Bir gün əvvəl eşitmişdi onun nişanlandığını. Bəlkə də, eqosu bunu qəbul etmədiyindən yaddaşındakı bütün xatirələr geri dönmüşdü. Özü artıq bir qız övlad sahibi olmuşdusa da, nədənsə bir vaxtlar sevdyi qızın nişanlanma xəbəri, etiraf etməsə də, ona yaman toxunmuşdu. Sübh tezdən idi, günəş təpənin dalından yenicə boylanırdı. Biri "məqsədsiz", o biri isə "su gətirmək" üçün çıxdıqları yolda rastlaşdılar.

Heç dəyişməmişdi, siması illər öncə gördüyü kimi məsum idi, gözləri alışıb yanırdı. Al-qırmızı, dizdən bir qarış aşağı olan sadə donu, dodağında zümzümə... Anidən onu görəndə suqabını sinəsinə sıxıb heyrətlə donub qaldı. Bu, onu görəcəyinə heç ümid etmədiyinin təəccübü deyildi, bu, "nəhayət ki, səni gördüm"ün verdiyi sevinc idi. Həyəcandan gözlərindən yaş axmağa başladı, aralarında elə bir enerji axını oldu ki, başı ilə salam verib təbəssümlə üzünə baxdı. Lap illər öncə olduğu kimi.

Bulağa kimi səssizcə addımladılar. Aralarında elə bir dərin sükut var idi ki, ürəklərində bir-birinə pıçıldadıqlarını belə duyurdular. Geri dönəndə artıq günorta idi və hər ikisinin telefonu cavabsız aramalarla dolmuşdu. Bu illər ərzində başlarına gələn ən xırda detalları da paylaşmışdılar. Ən ciddi məsələlərdə isə susdular, nə o, Lilidən söz açdı, nə də qız nişanlısından. Hər ikisi hər şeyi bilirdilər, amma bunu eşitməyə özlərini hazır hiss etmirdilər.

Bəzən gecə saatlarına qədər mesajlaşmalar davam edirdi, bəzən səhəri birgə açırdılar. O qədər doğmalaşdılar ki, münasibətlərinin təhlükəli hala gəldiyini artıq anlayırdılar. İtaliyaya dönüşünün hansı saatda olduğunu dəqiq bilirdi, amma yazmırdı, susurdu.

***

Lili ilə evlilik ona mükəmməl italyan dili qazandırsa da, məcbur olmadıqca italyan dilində danışmazdı. Vətəndə öz şirin kənd ləhcəsindən sonra hava limanında italyanca

eşitdiyi hər kəlmə onu qıcıqlandırırdı. Özünü ələ alaraq polisin nə dediyini anlamağa çalışdı. Polis onun italyan dilini bimədiyi qənaətinə gələrək əl hərəkətləri ilə arxanı göstərib nələrisə izah etməyə başladı. O, geri dönüb üzləşdiyi mənzərə qarşısında bir anlıq özünü itirdi. Lili yuxuya getmiş qızı qucağında, ətrafına düzülmüş ağır çamadanlar, belində yol çantası, məyus, gərgin, əsəbi və yorğun gözlərlə ona baxırdı. Qadına toxunsaydın, hönkürüb ağlaya bilərdi.

– Lili, Lii, bağışla məni... Mən...

O, həqiqətən, nə vaxt qadını geridə, bu vəziyyətdə qoyub getdiyini xatırlamaqda çətinlik çəkdi.

– Lili, mən fikirli idim... Yorğun idim...

Qadın körpəsini onun qucağına verib, iti addımlarla 3-cü çıxışa doğru tələsdi.

O, eyni ilə dəqiqələr öncə Lilinin qaldığı vəziyyətdə tərk edildi və çarəsizcə qadının arxasınca boylandı. Fyemiçina hava limanının şüşəli tavanından masmavi səma onu seyr edirdi. Üzünü səmaya tutub dərin bir ah çəkdi və qəlbinə hakim olmuş bu ağırlığın onu tərk etməsi üçün ürəkdən dua etdi. İndi o, qucağındakı körpəsi qədər özünü çarəsiz, möhtac hiss edirdi. Başını aşağı saldı, mərmər döşəmədə acınacaqlı əksini görüb düşdüyü duruma görə özünü lənətlədi. Sözünə qulaq asmayan qəlbini sinəsindən qoparıb yerə tullamaq istədi. Hətta bir anlıq təsəvvür etdi ki, ürəyi insanların ayaqları altında yuvarlanıb gedir və o an özünü çox yüngül hiss etdi. Hava limanı işçisinin yaxınlaşıb çamadanları arabaya yığması onu reallığa qaytardı. Yenə son anda dadına çatan Lili idi. Gözləri qadını axtardı, o, çıxışda sifariş verdiyi taksinin yanında onları gözləyirdi.

– Lili,– deyərək o, yoldaşına sarı addımladı. Qadın isə baxışları ilə ona susmaq lazım olduğunu işarə etdi. Yol çantasından çıxardığı şalı yuxuda olan körpəsinin çiyninə atarkən o, qadının tez-tez nəfəs alıb-verdiyini, həyəcanını, üzünün hər cizgisindəki iztirabı sezdi. O, ərinə, ailəsinə və itirə biləcəklərinə görə hər hüceyrəsinə kimi narahat idi. Amma o qədər əzmkar və dözümlü qadın idi ki, yenə də gözləmə mövqeyini seçmişdi.

Lili artıq çamadanların yükləndiyi taksinin qapısını açıb əyləşdi. Romanın günəşli payız günlərindən biri idi. Taksi şəhərin onlar yaşayan səmtinə istiqamət alınca hər ikisi pəncərədən şəhəri izləyərək susurdu. Müxtəlif səmtlərə dikilmiş baxışları onları bir-birindən qoparıb çox uzaqlara aparmışdı. Beyinləri cavabı məlum olmayan suallarla dolu olsa da, hər ikisi susmağı seçmişdi. Çünki hər ikisi duya biləcəklərindən qorxurdu.

Açarın qapıya toxunuşu ilə eyni anda gələn mesaj səsi Lilinin diqqətini çəkmədi, ya da soyuqqanlı olmağın ən yüksək dozasını qəbul etmişdi. O isə həyəcandan özünü itirib açar ilə xeyli qurcalandı. Bu mesaj ondan idi, buna əmin idi. Çünki bir anlıq ürək tərəfindəki çibinə qoyduğu telefondan onun saçlarının ətri gəldi. Yəqin, vaxtı hesablayıb və onun evə indi çata biləcəyini təxmin edib. Evə girib mesajı oxumalı idi. Bunu diqqət çəkmədən etməyə çalışdıqca daha da diiqqəti üzərinə cəmləyirdi. Hərəkətləri onu ələ verirdi. Lili isə yorğun halda divara söykənib, yuxudan yenicə ayılıb, çantaların üzərində oturub mızıldanan qızlarına baxırdı.

– Dammi la chiave! – Qadın, nəhayət, dözməyib, əsəbi halda açarı onun əlindən alıb qapını açdı və onun çaşqın baxışları altında hirslə bütün yükü mənzilə daşıdı. O isə keyimiş vəziyyətdə olub bitənləri izləyirdi.

Artıq yarım saatdan çox idi ki, onu məşğul edən qızının başını bir şeylə aldadıb mesajı oxumaq arzusu ilə bütün bədəni gərilmişdi. Nəhayət, bayaqdan axtardığı pultu tapdı, qızının sevimli cizgi filmi olan kanalına çevirib, onu otaqda tək qoyub hamama tələsdi. Telefonu çıxarıb baxdı, həqiqətən, telefondan onun qoxusu gəlirdi. Mesaj ondan idi, "Salam , yəqin, hər şey qaydasındadır".

Bu qısa və rəsmi mesaj sanki onun indiyə kimi almış olduğu və ala biləcəyi ən gözəl mesaj idi. Uşaq kimi sevinib gülümsədi, sevincdən gözləri doldu. Əlləri əsə-əsə cavab yazmağa başladı. Saat fərqi olduğu üçün tez yazmalı idi ki, yuxudan öncə ondan cavab ala bilsin. Barmaqlarını hərflərin üzərinə düzgün tuşlamaqda çətinlik çəkirdi. O an Lilini, bir uşaq atası olduğunu, çiynində olan bütün məsuliyyətini unudub aşiq olmuş bir gəncə çevrilmişdi.

– Necəsən? Lap darıxdım – bu sözü yazarkən ürəyinin bu an çıxıb yerə düşəcəyini düşündü. Yenə də hava limanındakı kimi bir anlıq bunu təsəvvür etdi ki, ürəyi çıxıb qarşısındakı tualet çanağına düşür və o bilmədən sifonu çəkir, ürəyini su aparır. Bu dəfə bu axmaq təsəvvürü qarşısında özünü saxlaya bilmədi və güldü.

– Yaxşıyam. Çatmısan?

– Darıxdım...

– Niyə?

– Oralar üçün – Bu, yalan idi, o məhz onun üçün darıxmışdı.

– Yenə gələrsən. – O an bunu hər şeydən çox arzulayırdı.

– Sənə görə də... – Darıxıram deməkdən nədənsə ehtiyat etdi.

– Keçər. – Qız buna əmin idi . Əmin idi ki, gözəl Lili və qürbət tezliklə onu unutduracaq.

– Keçməz. – Bunu deyərkən elə əmin idi, hətta o an düşündü ki, darıxma hissi bu sürətlə artsa, ürəyi dözməyib partlaya bilər.

– Keçəcək...

– Yox, – mən bilirəm!

– Mən isə əminəm.

– Mənə çətindir. – Bunu yazarkən ona, həqiqətən, çox çətin idi və özünü hissləri qarşısında çox aciz hiss edirdi.

– Sənə 3 gün lazımdı.

– Nəyə?

– Məni unutmağa.

– Mən səni unutmaq istəmirəm, səni illər sonra tapıb yenidən itirmək istəmirəm.

– Məndə də belədi, ürəyimdən daş asılıb. Amma zamanla keçəcək.

– İnanmıram.

– İnan mənə.

– Axı darıxıram.

– Darıxma.

– Sən darıxmırsan?

– Çox darıxıram. – Ürəyinin yerindən çıxacağını hiss edirdi.

– Bəlkə, səndə keçəcək, amma məndə yox!

– Keçməlidir.

Günlərlə beləcə davam etdi. Heç nə o vəd verdiyi kimi 3 günə keçmədi. Dan yerini, qürubu bir-birlərinə izlətdilər, fərqli məkanlarda, fərqli zamanlarda eyni hissləri yaşadılar. Eyni anda fərqli ölkələrdən bir günəşə əl sallayıb bir-birinə salam göndərdilər. Tərifi olmayan hisslər paylaşdılar və darıxmağın ən yüksək həddinə çatdılar. Elə bir hədd ki, o an insan dərisini parçalayıb, içindən qaçıb darıxdığına sarılmaq istəyir. İnsan məhz ona susayır, ona acıyır, ona yuxusuz qalır. 3 gün 30 günə çatdı. Və...

Yavaş-yavaş hər şey solmağa, darıxmaq hissi öz qınına çəkilməyə başladı, susuzlayanda su içib acanda yemək yedi, yuxusuzluğa dözümsüzlük başladı. Qərib şəhərin yad havasında bütün doğma hisslər boğuldu. Ona ağırlıq edən qəlbi beton şəhərin mazut qoxuyan küçələrində, özgə insanların arasında gündən-günə yüngülləşdi. Mesajların arası səngidi və yavaş-yavaş kəsildi. Yerini gündəlik həyat qayğılarından sonra evə gəlib Lilinin bişirdiyi ləzzətli italyan yeməyini yedikdən sonra bədəninə çökən ağırlıqla dərin yuxuya getmək niyyəti ilə çarpayısına uzanarkən tavandan ona baxıb gülümsəyən bir cüt qara, parlaq göz aldı. Gözlərini qapayan kimi o gözlər də yuxunun ağuşunda yox olub getdi.

***

Xeyli vaxt idi ki, qızı qucağında sükanın arxasında oturub gözləyirdi. Lili isə hələ də qapıda görünmürdü. Qızı başını qatdığı üçün səbirli idi. Bu cür gözləmələrə hər zaman dəyirdi, çünki mükafat olaraq hər zaman sonda qapıdan insanın gözlərini ayıra bilməyəcəyi gözəl Lili çıxırdı. O, hər şeyin ən zövqlüsünü geyinirdi, o qədər heyrətamiz qadın idi ki, bir toxunuşla dünyanın ən zərafətli xanımına dönürdü. Nəhayət, o an yetişdi və həyat yoldaşı binanın çıxış qapısında göründü. O, heyranlıqla qızına anasını göstərərək “dünyanın ən gözəl anası da gəldi” dedi və maşından düşüb uşağı arxa oturacağa oturtmaq üçün qapını açdı. Bu an ona yaxınlaşan Liliyə ehtiras dolu baxışlarla baxaraq belindən tutub özünə çəkdi və dodağından öpdü. Günlərdi münasbətlərində yaranmış gərginliyin səbəbkarı olduğunu bilirdi və buna görə özünü günahkar hiss edirdi. Artıq sabah Lilinin 29 yaşı tamam olurdu və o, günahını bağışlatmaq üçün yoldaşını ilk dəfə tanış olduqları kəndi ona xatırladacaq bir yerə - Umbriyaya aparmağı qərara aldı. O daha çox dənizkənarı istirahət yerlərini sevsə də, bu səyahət Lilinin hədiyyəsi olduğu üçün ona

hüzur tapacağı bir yer seçmişdi. O bu səfərə çox böyük önəm verirdi. Düşünürdü ki, bu səfər Liliyə olan sevgisini xilas etmək, başqa qadına qarşı oyanmış hisslərini məhv etmək üçün bir şans və ya bir cəhd olacaq. O, Lili üçün avtomobilin qapısını açaraq dedi:

– Si sieda, signora Liliana. – Hər ikisi gülümsədi.

Avtomobil Romadan şimala doğru yol alınca qürub etməyə hazırlaşan günəş ürəyini ip kimi çəkib özü ilə aparmağa başladı. Dan yeri və qürub hər zaman onu xatırladırdı. Avtomobildə ona dinlətdiyi musiqilər bir-birini əvəz etdikcə ruhunun yenidən bədənindən çıxdığını hiss edirdi. Sonu olmayan bir yola çıxmamaq üçün Lilinin əlini əlinə alıb bərk-bərk tutdu. Qorxurdu, ailəsini, hisslərini itirməkdən çox qorxurdu.

Umbriyaya 20 dəqiqəlik yol qalmışdı. Günəşin şəfəqləri yuxuda olan Lilinin zərif simasını işıqlandırırdı. Günəş simasını bu qədər aydınlatmasına rəğmən, o, qüsursuz idi. Küləyin üzündə rəqs elətdirdiyi saçları ona mələk görkəmi vermişdi. O, ilk gündəki kimi zərif idi, ötən hər il onun qadınlığına bir az da cazibə qatırdı. Ana olmaq isə ona bir başqa yaraşmışdı. O, möhtəşəm bir qadın idi, amma Lili O deyildi.

İtaliyanın möhtəşəm təbiətinin ən gözəl payızının yaşandığı Umbriyaya çatmışdılar. Qalacaqları evə hələ xeyli məsafə var idi. Uzun zamandan sonra ilk dəfə telefonun səsi açıq idi. Artıq heç bir təhlükə yox idi, çünki telefon susmuşdu. Qürub edən günəş hələ səmada nazlanırdı. Təbiət alov rənginə bürünmüşdü. Telefonuna gələn mesaj səsi onu diksindirdi, ekrana foto mesaj gəldi. Ondan idi. Lili səsə ayılıb yuxulu gözlərlə ətrafa baxdı. O isə mesajı oxumadan sildi. Günəşin qürubunun son anı kadra salınmışdı. O bunu bacarırdı. Sevirdi gözəl anları tutmağı. Yenə gözəl bir anı tumuşdu və bunu məhz onunla paylaşmaq istədiyi üçün çəkib göndərmişdi. O isə telefonunu kənara qoyub avtomobildə yerini daha da rahatladı. Lili yatdığı üçün alçaq tonda olan musiqi səsini çoxaldıb diqqətini gedəcəkləri mənzili tapa bilmək üçün yola verdi. Mesajı silsə də, o an yaşadığı hər şey – dinədiyi musiqi, izlədiyi günəş, içində çırpınan ruhu, cismində boğulan qəlbi – hər şey kilometrlərlə ondan uzaqda qoyduğu o qadına aid idi. Amma...

Lili yuxudan ayılan qızına su verib, yenidən önə çevrildi və musiqinin onu yorduğunu söyləyib FM dalğasını dəyişdi. Qəlbi yerindən çıxacaqdı. O, Lilinin əlini əlinə alıb ürəyinin üstünə qoydu, Lili onun qəlbinin çırpındığını duyub xoşbəxt təbəssümlə ona gülümsədi. Hər şey yoluna düşdüyü üçün qəlbdən Allaha şükür etdi .

Lili ilə tanış olduqarı evi xatırladan balaca evin qarşısında avtomobili saxlayıb tez özünü bayıra atdı. Bu evdə qalacaqdılar. Dərin bir sıxıntı hakim idi ruhuna. Lili sevinclə evin həyətinə qaçdı.

– Mia Cara, grazie mille. Sono felice.

Son mesajın, bəlkə də, silinməmiş olma ehtimalının olması ümidi ilə telefona baxdı. Nəinki son mesaj, ondan xatirə kimi saxladığı bütün mesajlar silinibmiş. Boğulduğunu hiss edirdi. Dodaqlarının arasındakı siqaretin tüstüsünü sinəsinə çəkdi, bununla sanki yeni həyata başlamaq üçün “güc” toplamağa çalışırdı. Lilini sevməli idi, o buna layiq qadın idi, geridə qoyduğu hər şeyi unutmalı idi. Yenidən siqaretin tüstüsü ilə ciyərlərini doldurub gözlərini yumdu. Hər gecə gözlərini yumarkən qaranlıqda parlayan o bir cüt qara gözü son dəfə öpüb sağollaşmaq üçün xeyli beləcə qaldı. O isə gəlmədi. Çarəsizcə gözlərini açdı, al-əlvan təbiətin qoynunda heyranlıqla ora-bura gedib ona bu gözəl gün üçün sevgi dolu sözlər yağdıran Lilini gördü. Siqaretin kötüyünü yerə atıb ağır addımlarla həyat yoldaşına sarı getdi. Nəyə haradan başlamaq lazım olduğunu bilməyən yad qonaq kimi həyətdə zeytun ağacının altına qoyulmuş skamyada əyləşib dalğın baxışlarla təbiətlə bütövləşib sevgi saçan Liliyə baxmağa başladı.

Bəlkə də, uzaqlara...



# TANRININ CƏZA ÜSULU

Bəsti MƏMMƏD

yox oldum birdən, hamıdan getdim...
hamının danışdığı yerdə tək qalmaq istəyirəm.

Tanrı üzümə xatirələri çırpıb
dünyanın küncünü göstərirdi –
cəzamın böyüklüyünə də baxın...

rahatlığımın narahat tərəfi var:
bilməklə görmək ayrı şeydi.
səndən bircə istəyim var:
bir gün gəlib şəkillərdən boylanma hisslərimə tərəf...

**ANAMA UZAQDAN OXUDUĞUM SÖZLƏR**

Yaralar sağalırmı? – bilərsən, ana,
Sən öpsən hə, öpməsən, bilmirəm.
Ana əlləri imiş dünyanı qurtaran –
toxunsan, yaxşı olaram, toxunmasan, bilmirəm...

Qoy əlini üstümə, onsuz da ən güclü məlhəm də
göynətmədən sağaltmır...

***

Bu qoca şəhəri ayağın altda
Əzib, tapdalayıb, çıxıb gedəsən.
Toplayıb hər yerdən xatirələri
Hamıya bir baxış atıb gedəsən.
Gedəsən, nə izin, nə tozun qala,
Küçələr darıxa, quşlar darıxa,
Elə gedəsən ki bu yer üzündən,
Ağlı səndə qalan başlar darıxa.
Darıxa kəndinin payız yağışı,
Darıxa ən zalım arzular kimi...

**UNUDULMUŞ TƏRƏFİMƏ...**

Beynimdən asılıbdı sənli xatirələrim
Daş divara vurulmuş al-əlvan şəkil kimi.
İndi elə getmisən – intihar zamanında
Ayaq altdan çəkilən çürümüş kətil kimi...
Əlçatmaza çevrildin bir göz qırpımındaca,
Gedib, görən, hardasa kimə belə göründün?
Sən demişdin, mən sənin ölümsüzünəm axı,
Niyə belə tez getdin, necə oldu tez öldün?
Qaldı bir tənha otaq, bir Tanrı, bir xəyalın.
Xəyalına tapındım, qısqanclıq etdi Tanrı.
Ey mənim müqəddəsim, inanc yerimə döndün,
İnancıma baş əyib göylərə getdi Tanrı.

*"Ulduz" jurnalı ilə "525-ci qəzet"in birgə layihəsi*

# V DƏRS

# MƏNİM PERSONAJLARIM



Əli ƏMİRLİ

Səhnə əsərinin uğuru dramaturqun yaratdığı personajlardadır. Səhnədə hər şey personajlar vasitəsilə baş verir, onların vasitəsilə tamaşaçı zalına ötürülür. Ona görə də personajlar canlı, diri insanlar olmalıdırlar. O qədər canlı, o qədər diri ki, onları sevmək, onlara nifrət etmək mümkün olsun. Əgər tamaşaçı personajların taleyinə biganə qalırsa, deməli, səhnədə diri, canlı heç kim yoxdur, obrazlar müqəvva təsiri bağışlayır.

Mənim üçün əsərin qəhrəmanı stereotiplərdən azad olmalıdır, ikinci şərtim, ən mənfi, mənəviyyatca eybəcər adam belə elə yaradılmalıdır ki, müəyyən məqamlarda tamaşaçının ona rəhmi gəlsin, rəğbəti olsun və ya onun pis əməllərinə az da olsa, bəraət qazandıra bilsin. Ən vacib keyfiyyətlərdən biri isə personajın daim inkişafda göstərilməsidir. Əgər ən vacib deyirəmsə, onda elə üçüncü şərtimdən başlayım.

Personajlar əsər boyu dəyişə-dəyişə yeni keyfiyyətlər qazanmırlarsa, tamaşaçı onların taleyinə biganə qalacaq. Özü haqqında hər şeyi dərhal danışan qəhrəman elə ilk görüşdən özünə aid hər şeyi açıb tökən, gizli bir şey saxlamayan adamlara bənzəyir. Tamaşaçını nigaran qoymaq, onun diqqətini personajın üzərində saxlamaq üçün müəllif qəhrəman haqqında demək istədiklərini tədricən, hadisələrin inkişafına uyğun olaraq açmalı, onun xarakterindəki yeni-yeni xüsusiyyətləri bir-bir göstərməli, bütün bunlara uyğun olaraq tamaşaçı həyəcanının getdikcə artmasına nail olmalıdır.

Tennessi Uilyamsın ən gözəl və dünyaca məşhur "Arzu tramvayı" pyesinin baş qəhrəmanı Blanş Debuanın xarakteri təzadlı və ziddiyyətli cizgilər kələfi kimi qarışıqdır. Onda incə kübarlıq qabalıqla, sadəlik bicliklə həmsərhəddir. O, ilk baxışda sadəlövhdür, təmizdir, əslində isə üzü üzlər görmüş, təcrübəli qadındır. O, aysberq kimidir, görünməyəni görünənindən qat-qat çoxdur. Tamaşaçı onu tanımaqda, oxumaqda çətinlik çəkir. Blanşın xarakteri, əsl mahiyyəti əsərin ikinci hissəsinin axırına yaxın tam açılır. Bütün bu tanıma prosesini tamaşaçı intizarı, həyəcanı və obraza simpatiyalı münasibəti müşayiət edir. Onu da deyək ki, tək Blanş yox, "Arzu tramvayı"nın Stella, Stenli Kovalski kimi digər personajları da tədricən açılır.

"Azdrama"dan başlamış, ölkənin, demək olar, bütün dram teatrlarında və 10-a yaxın xarici ölkə teatrında tamaşaya qoyulmuş "Varlı qadın" adlı qara komediyamın əsas qəhrəmanı Həvva Zərlinskayadan danışım.

Əsərin birinci hissəsində Həvva maddi ehtiyacın məngənəsində sıxılan deyingən, davakar, özünə qadın kimi baxmağa nə həvəsi, nə maddi imkanı olan anadangəlmə axsaq qadındır. Əsərin ilk səhnələrində mən qəhrəmanımı belə təqdim edirəm, amma

süjet sürətlə inkişaf etdikcə Həvva dəyişir, Almaniyada rəhmətə getmiş qohumu Bibixanım Zərlinskaya fon Braunun ona böyük sərvət vəsiyyət etdiyini biləndə isə tamam başqalaşır. Artıq birinci hissənin sonuna personaj deyingən, aciz, şikəstliyindən sıxılan qadından hökmlü bir qadına, əsərdə katalizator rolu oynayan Vəkil demiş, "madam"a çevrilir. Mən müəllif kimi bununla kifayətlənmirəm, antraktdan sonra (əslində, mənim antraktlarımda tamaşaçılar 15 dəqiqə fasilə edirlərsə, əsər, onunla da bağlı personajlarım işləyir, hadisələrə uyğun olaraq inkişaf edir, dəyişirlər) ikinci hissə başlayır və bir aylıq Almaniya səfərindən qayıdan Həvva həm zahirdən, həm də daxildən elə dəyişib ki, onu tanımaq xeyli çətin. O indi Həvva yox, Yeva Zərlinskayadır. O indi axsamır da! Super!

Bu yerdə məzəli bir haşiyə: "Varlı qadın"ı ilk dəfə 1999-cu ildə Dövlət Gənclər Teatrında unudulmaz rejissorumuz Hüseynağa Atakişiyev tamaşaya qoymuşdu. Gördüyüm quruluşlar içərisində bu, pyesin ən parlaq səhnə təqdimatı idi. Baş rolda Nəsibə Eldarova oynayırdı. Nəsibə xanım tamaşanın birinci hissəsi ilə ikinci hissəsi arasında o qədər dəyişirdi, inanmaq olmurdu ki, hər iki Həvvanı eyni aktrisa canlandırır. Tamaşaların birində yanaşı oturduğum çox təcrübəli rejissorlardan biri mənə dedi ki, hər iki aktrisa əla oynayır. Birincini tanıdım, bəs ikinci kimdir? Dedim, mən də tanımıram, birinci dəfədir görürəm.

Həvva Zərlinskayanın və onu səhnədə canlandıran aktrisanın bu cür dəyişməsi göydəndüşmə deyildi, sadəcə, yaranmış yeni vəziyyət onun içində gizlənmiş, bəlkə də, uyumuş əsl – "ağayana" simasını aşkarlamışdı. Elə buna görə də, o, vəsiyyət olunmuş məbləği əldə etmək üçün Bibixanım Zərlinskaya fon Braunun qoyduğu çox ağır, təhqiramiz şərti də qəbul etməyə hazırdır. Vəkil deyən kimi, "Mayn qod! Bir milyard dolların qabağında hansı şərt davam gətirə bilər?!"

Komediyada Həvva Zərlinskaya ilə bərabər, bütün personajlar inkişafdadır, dəyişmədədir. Ən maraqlı məsələ burasındadır ki, pula görə ərini evdən qovmaq qərarına gələn qadın, var-dövlət, firavan həyat naminə atasının boynuna çatı salıb "öldür özünü" deyən oğul, pul əldə edib azadlığa qovuşmaq, asudə yaşamaq eşqi ilə yaşayan və bu yolda nəyə desən, boyun əyən vətənsiz Vəkil, çəm-xəm eləsə də, sonda qurbanlıq quzuya dönən professor Sarı, bütün ömrü boyu işləmədən, zəhmət çəkmədən keyflə yaşamaq istəyində olan Qara...

Tamaşaçılar bu adamların heç birinə nəinki nifrət eləyir, hətta onları başa düşür, bəzən də haqq qazandırırlar. Məsələ burasındadır ki, Sovet imperiyasından qopmuş postsovet ölkələri tamaşaçılarının çoxu komediyadakı personajlar kimi mənəvi cəhətdən şikəstdirlər. Bəlkə, elə bu səbəbdəndir ki, "Varlı qadın" postsovet ölkələri teatrlarında böyük rəğbətlə qarşılanır. Bişkek şəhər dram teatrı 2009-cu ildə hazırladığı tamaşanı bu günə kimi ayda bir neçə dəfə tamaşaçıların ixtiyarına verir.

Pula görə 25 illik ərini evdən qovmağa məcbur olan, amma zəif bir tərəddüddə bulunan Həvvaya Avropa həsrətində olan Vəkil deyir: "Madam, 10 min dollara görə onu evdən qovsanız, əlbəttə, hamı sizi qınayar, bir milyard dollara görə isə, mayn qod, ancaq həsəd və alqışlar qazanarsız. Ölçünün əhəmiyyəti var, madam, məbləğ mahiyyəti dəyişir".

Əlbəttə, mən özü öz əsərini tərifləyəcək qədər xudbin deyiləm, amma faktları deməyə bilmirəm. Mənim o qədər də dəqiq olmayan statistikama görə, "Varlı qadın" ən azı iyirmi teatrda tamaşaya qoyulub. Komediyanın iyirminci premyerası Osetiyanın paytaxtı Vladiqafqazda osetin dilində baş tutdu. Yazıldığı iyirmi ildə iyirminci teatrda iyirminci premyera. Yuxarıda dediyim kimi, Bişkek şəhər dram teatrında "Varlı qadın" 2009-cu ildən "Navajdeniye" ("Qarabasma") adı altında repertuardadır. Tacikistanın görkəmli rejissoru Sulton Usmonov bu əsəri 3 fərqli teatrda tamaşaya qoyub. Xarici ölkə teatrlarının ifasında iki beynəlxalq teatr festivalında "Varlı qadın" 4 mükafata layiq görülüb. Bu tamaşaların qoyulmasında mənim heç bir mənada iştirakımın olmaması da çox şey deyir. Mən bu tamaşaların bir neçəsini görmüşəm, məlumatları isə internet səhifələrindən alıram. Bu faktları sadalamaqda məqsədim əsas suala ayaq vermək üçündür: bu komediyanın uğur qazanmasının sirri nədədir?

Hər şeydən əvvəl hadisələrin sürətli dinamikası, komik vəziyyətlərin bir-birini dabanbasma əvəzləməsi, bir-birinin ardınca peripetiyaların nəfəs kəsməsi, nəticədə gözlənilməz süjet dönüşləri. Və əlbəttə ki, stereotiplərdən uzaq orijinal personajlar, qeyri-adi xarakterlər. Elə xarakterlər ki, aktyorun bütün imkanlarını açmağa material verir. Yeri gəlmişkən, burda bir məqamı yada salım: "Varlı qadın", dediyim kimi, ilk dəfə Dövlət Gənclər Teatrında Hüseynağa Atakişiyevin quruluşunda tamaşaya qoyulmuşdu. Buna baxmayaraq, Bəhram Osmanov da bu əsəri "Azdrama"da tamaşaya qoymaq istəyirdi, amma o zamanlar teatrın direktoru buna razılıq vermədi, səbəb sadə idi: akademik teatr heç kimin artığına qalmayıb. Onda Bəhram bir fənd işlətdi, pyesi oxumaq üçün Siyavuş Aslana verdi. Elə gecəylə Siyavuş Bəhrama zəng edib deyir ki, mən mütləq bu komediyada professor Sarı Qarayevi oynayacam. Beləliklə, Siyavuş Aslan Mədəniyyət Nazirliyinin dəstəyi ilə əsərin Azdramada tamaşaya qoyulmasına nail oldu. Aktyorun istəyini və Bəhramın xahişini nəzərə alıb görkəmli aktyorun oynadığı Sarı üçün məxsusi bir monoloq da yazdım. Nə Bəhram Osmanov, nə Siyavuş Aslan səhv eləmişdi: "Varlı qadın" teatrın uzun illər ən çox oynanan və sevilən tamaşalarından biri oldu.

Birmənalı olmayan mürəkkəb xarakterli, polifonik keyfiyyətli insanlar avtobioqrafiyası bir an içərisində oxuna bilənlərdən qat-qat maraqlıdırlar. Əsərin qəhrəmanı fırıldaqçı, yalançı, intriqan da olsa, dramaturq elə etməlidir ki, ona münasibətdə tamaşaçıda, az da olsa, bir mərhəmət, rəğbət hissi oyansın. Məhz bu keyfiyyət personajlara can verir, onları diri göstərir.

Səhnədəki insan həyatda gördüyümüz insanlardan çox seçilir. Aristotelin "Dramaturgiyada əsas olan qəhrəman deyil, süjetdir" fikrini ədalətli hesab etsək belə, bilməliyik ki, tamaşaçının gözünün qabağında süjet deyil, qəhrəmanın obrazı dayanır. Elə buna görə də tamaşaçı süjet peripetiyalarının bəzi məqamlarını unuda bilər, qəhrəmanları isə unutmur. "Şah Qacar"da bir çox süjet xətləri, gözlənilməz hadisələr yaddan çıxsa da, Şah Qacar və onun parlaq ifaçısı Fuad Poladov heç vaxt yaddan çıxmır. Səbəb ədəbi obrazla qüdrətli aktyorun heyrətamiz ittifaqının yaranmasında idi.

Dramaturq obrazlarını, personajlarını ürəkdən sevməlidir, onların taleyi ilə yaşamalıdır. Onlarla gülməli, onlarla ağlamalı, onlarla qalib gəlməli, onlarla məğlub olmalıdır. Nəticədə, tamaşaçı da personajlardan müəllifin özü kimi zövq və ləzzət alacaqdır. Bu o zaman baş verir ki, tamaşadakı personajlar bundan əvvəlki saysız-hesabsız pyeslərdəki surətlərə bənzəməsinlər, stereotiplərdən uzaq olsunlar, məlahətli, suyuşirin olsunlar. Mən bir dramaturq kimi gənc həmkarlarıma bir məsləhət verərdim: tanış stereotipi yadına sal və tamam onun əksini yaz. Stereotipləri tanımaq üçünsə klassik və müasir dramaturgiyanı bilmək lazımdır. Çoxlu tamaşalara, kinofilmlərə baxmalısan ki, müqayisə edə biləsən. İnternet portallarının xidmətindən bacarıqla istifadə etmək lazımdır. Əlbəttə, məsləhət vermək asandır, necə ki Yeji Lets deyirdi: "Məsləhət gənəgərçək yağı kimidir, hamıya verirsən, özün içmirsən".

Beləliklə, bir dramaturq kimi qənaətim: personajlarım mənim yaxın qohumlarımdır, yaxşı və pis keyfiyyətləri ilə sevdiyim insanlardır, onların kədəri kədərim, sevinci sevincimdir, onların hətta şəxsiyyət vəsiqəsi də var. Çünki canlı, diri olan insanın sivil ölkədə yaşaması üçün onun şəxsiyyətini təsdiq edən sənədi olmalıdır. Bu qədər sadə!

ESSE

**EMİNQUEY**

# MƏMMƏD ARAZIN SUFİ HƏQİQƏTİNƏ ÇATMIŞ "DÜNYA"SI...



Turqut Özalın 80-ci illərdə səsləndirdiyi bir fikrə rast gəlirəm:

"Şəriətdə bu sənindir, bu mənim, təriqətdə bu həm sənindi, həm də mənim. Həqiqətdə isə bu nə sənindi, nə də mənim".

Bu ifadələr hər şeydən əvvəl təsəvvüf (sufilik) inanışı içində keçərli olan bir ölçüdür.

Mehmet Demirçidən bir yazı oxuyuram.

O deyir ki, şəriət deyincə dindəki zahiri hökmlər, hüquqi qanunlar, insanın bədəni və dünyası ilə bağlı xüsusiyyətlər ağıla gəlir.

Təriqət "gediləcək yol, üsul, hal və gediş" mənasına gəlir. Təsəvvüf termini olaraq təriqət Allaha çatmaq istəyənlərə məxsus adət, hal və davranış deməkdir. Təsəvvüfdə təriqət insanların mənəvi qabiliyyətlərini inkişaf etdirmək üçün qurulmuş dini-mənəvi yola deyilir.

Həqiqət təsəvvüfdə "zahirin arxasındakı örtülü və gizli məna, dini həyatı ən yüksək səviyyədə yaşayaraq ilahi sirlərə çatmaq" kimi mənaları ifadə edir. Bu isə dini hökmlərin məqsəd və hikmətinə uyğun bir şəkildə şərh olunması, əskiksiz tətbiq olunması və yaşanması deməkdir.

Dində mülkiyyət haqqı var. Eyni zamanda hüquq deməkdir şəriət. Şəriət ölçülərinə görə, hər kəsin malı özünə aiddir. Ondan istədiyi kimi istifadə edə bilər. Sənin malın səninki, mənim malımsa mənimkidir.

Təsəvvüf bir mənəvi olğunlaşmaq yoludur. Təriqət bunun qurumlaşmış şəklidir. Bu yola girən hər kəs paxıllıqdan, xəsislikdən can qurtarıb comərd olmağa çalışar. Nəticədə şəxsi malından lazım olduğu qədər ehtiyacı olanlara paylamalıdır. Buna görə də sənin malın həm sənindir, həm də mənim.

Təsəvvüf yolunda olan birisi nəfsini o qədər tərbiyə edər ki, elə bir nöqtəyə gələr ki, kainatda gerçək varlığın Allah olduğunu, dolayısı ilə hər şeyin sahibinin Allahın olduğunu dərk edər. Anlayar ki, biz bir əmanət sahibləriyik. Əşya, mal-mülk, dünya varlığı həqiqətdə heç birimizə aid deyil. Hər şey Onundur.

Bura qədəri, yəqin ki, sizə də aydın oldu. Dünya malı ilə bağlı bir çox buna oxşar fikirlər var. Məsələn, "Sultan Süleymana qalmayan dünya sənə də qalmaz" kimi.

Bütün bunlar sizə bir mahnını, bir şeiri xatırlatmadımı?

*"Dünya sənin, dünya mənim,*
*dünya heç kimin..."*

Gəlin bu misranın mənasını açaq.

Demək, nəymiş? Dünya həm sənindi, həm mənimdi, həm də heç kimin. Bir misrada şəriət + təriqət + həqiqət!

Bəs şeirin bütöv halı?

Başlayaq birinci bənddən...

*Bir taleyin oyununda cütlənmiş zərik,*
*Yüz il qoşa atılsaq da, qoşa düşmərik.*
*Bir zərrənin işığına milyonlar şərik,*
*Dünya sənin,*

*Dünya mənim,*
*Dünya heç kimin...*

Allah təkdir, hər şeyi cüt yaradıb. Gecəni gündüzə, qaranı ağa, qadını kişiyə, həyatı ölümə, xeyiri şərə yoldaş bilib. Və Allah özü elə bir zərrədir ki, milyonlar onun işığına şərikdir. İnsanlar yalnız onun işığına bənd olub həyat tapa bilər. Əsl Günəş Allahın özüdür. O bizi qoşalaşdırıb atıb Yer adlı nərdtaxtanın üzərinə. Bəs bu oyunun nəticəsi necə olacaq?

Bir başqa şeirində Məmməd Araz cavabı özü verir:

*Bu oyunda kim uduzdu, kim uddu,*
*Peşimanı kim olacaq, nə bilim?*

Şeirin birinci bəndində yaradılış, Yaradan və onun axırı açılır...

*Çevrəsindən çıxsa əgər sevda fırfıran,*
*Bir ümidin ətəyindən tutub da fırlan,*
*Eşidərsən: pıçıldayır yıxılan, duran:*
*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin...*

Sevda nədir? Şeirin məntiqilə sevda dünyadır. Bəs bu sevda kimədir, kimin üçün fırlanır? Yadınıza düşürmü Yusiflə Züleyxanın sevdası? Yusifin eşqindən dəliyə dönən iki adam. Biri atası Yaqub peyğəmbər... Yusifə görə o biri oğullarını bağışlamayan, illərlə Yusifin yolunu gözləyən, ağlamaqdan gözlərinin qarasını itirmiş ata. Onunla bərabər, 30 ildən çox göz yaşı tökən, gözləri kor olan, gözəlliyini itirən Züleyxa... Və bir gün Yusif Allahın icazəsilə Züleyxanın fərqinə varar. Onu sarayına gətirər. Gözlərini açar. Gözəlliyini geri qaytarar. Və bundan sonra Züleyxa günlərlə Yusifi unudar, Allaha ibadət edər. Ondan "Yusifin eşqindən çöllərə düşən Züleyxa indi niyə Yusifi görmür?" deyə soruşanda cavab verər ki, mən illərdir bütün qəlbimi Allahın vəlisi olan Yusifə bağlamışdım, amma indi başa düşürəm ki, dünyada sevilməyə layiq olan ondan da böyük bir qüvvə var – o, Allahdır. O Allah ki, Yusifi yaradan odur".

Bir yanda isə Yaqub peyğəmbər...

Allahın xəbərçisi gözlərinə görünər. Və deyər ki, Yusifi kim yaratdı? Yaqub "Allah!" deyər. Bəs o zaman niyə Yusifə olan eşqini Allaha olan eşqindən uca tutursan?

İbrahim peyğəmbər oğlu İsmayıldan keçib onu Allaha qurban verdi. Məhz oğlundan imtinası yenidən onu oğluna qovuşdurdu. İndi sən də oğlundan imtina etməlisən Allah üçün. Beləcə, Yaqub peyğəmbər Yusifi Allaha qurban edər. Və sonrası... Yaqub peyğəmbər oğluna qovuşar.

Yəni sevda fırfıran o vaxt çevrəsindən çıxar ki, Allah eşqi sənin qəlbində o biri eşqlərdən cılız qalar. Və o an sən bir ümidin ətəyindən yapışmalısan. O ümid də elə Allahın özüdür. Və eşidərsən: pıçıldayır yıxılan, duran: dünya sənin, dünya mənim, dünya heç kimin...

*Bu get-gəllər bazarına dəvədi dünya,*
*Bu ömür-gün naxışına həvədi dünya.*
*Əbədiyə qəh-qəh çəkər əbədi dünya,*
*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin...*

Və elə həmin dünya özü dəvə kimidir. Dözümlüdür. İnsanları susuz aparıb, susuz gətirər. O dəvə ki, bunca illər ərzində nələrə şahidlik etmiş. Nə sultanlar taxtından enmiş, nə padşahlar ölmüş və bu dünyadan əliboş getmiş. O, dünya malına aludə olan fironlara, dünya malını əbədi sayanlara qəh-qəh çəkmiş və əbədi yoluna davam etmiş...

Necə ki sufilik islamın canından qorxunu, hərfi, ehkamı dartıb çıxarır, yerini onun susuzluq çəkdiyi sevgi, həqiqət və vəhdətlə doldurur, necə ki sufilik "Mən öz mövcudluğumu dayandırmış, Allaha qərq olmuş, Onunla vəhdətə gəlmişəm!" – deyərək yer üzü məhəbbətinin yönünü yalnız Xaliqə tuşlayır, Məmməd Araz da bu şeirlə bu dünyanın ancaq özünün əbədi olduğunu, qalan hər şeyin faniliyini, ötəriliyini bir daha göstərir.

*Ayaq saxla, dövrənə bax ötəri belə,*
*Min illərdir Araz belə, Həkəri belə.*
*Axşamların, səhərlərin təkəri belə,*

*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin...*

Ayaq saxlayıb öz ətrafına göz gəzdirsən, görərsən ki, Araz da, Həkəri də elə hey gah axır, gah quruyur. Axşamlar səhərləri, səhərlər axşamları yola salır. Və bunların hamısı insanın iradəsindən kənardadır və onu idarə etmək mümkün deyil.



*Gülünclərə gülünc gələn bu ada güldüm,*
*Yüyəninə hər əl yetən bu ata güldüm,*
*Mən özümlə oynadığım şahmata güldüm...*
*Dünya sənin,*
*Dünya mənim,*
*Dünya heç kimin...*

Muradına çatmaq üçün mindiyi, amma çata bilmədiyi ata da, neçə-neçə şahları mat etdiyi Allahın dünya adlı şahmat taxtasına da Məmməd Araz gülməklə heyrət edirmiş.

Baxmayaraq ki, bu şeir 1986-cı ildə yazılıb və bundan sonra o, dünya haqqında başqa şeirlər də yazıb və mənə elə gəlir ki, bu şeir Məmməd Arazın dünya ilə bağlı başqa şeirlərindən ən üstdə durur.

Hər bir halda, şairin özü demiş:

Dünya gözəl, dünya gözəl dünyadı...





## Ülkər NİCATLI

***

Bir qərib nəğmənin misralarıtək
Mənim ürəyimə yağır bu yağış.
Göydə doluxsunmuş tənha mələyin
Qəmli gözlərindən axır bu yağış.
Sən çıxıb getdiyin yolların üstdə
Nə vaxtdır dözümüm, səbrim islanıb.
Bu bəyaz yağışın damlalarında
Bir vüsal həsrətli ruh misralanıb.
Bu yağan yağışın payız qoxusu
Həsrətlə çırpınır, könlümə hopur...
Kövrək ürəyimə təsəlli kimi
Yağış damcıları üzümü öpür.

***

Qaranlığın üzünə
bəyaz misralar kimi
yazdım göz yaşlarımı...
Gecə üfüqlərin qəlbi
sıxılmasın deyə,
dan yerindən asdım
baxışlarımı...
Xəfifcə misralarımın
alnından öpdüm –
anamın duaları
diksindi...
Ayrılığın qulağına
Adını pıçıldadım,
dodaqlarım isindi...
Sənsizliyi
yetim uşaq kimi
sıxdım köksümə.
Və ümidin
öpdüm gözlərindən...

***

Mənim könlümdəki duyğular kimi
Bu payız günündə çırpınır Xəzər.
Ruhumdan ələnən söz qoxusunu,
Allah, bu dənizin sularına sər.
Sahilə can atan coşqun dalğalar
Vüsala tələsən könlüm kimidir.
Tufanlar içində boğulan qayıq
Uzaqdan əl edən ölüm kimidir.
Sənli xatirələr üşüyür burda,
Yenə ürəyimi həsrət dağlayır.
Dənizin üzünə qəriblik hopub,
Dalğalar hönkürür, sahil ağlayır.
Payız saçlarını sərib dənizə,
Ayrılıq havası qoxuyur sular.
Yuvatək boşalan sahillər üçün
Tənhalıq nəğməsi oxuyur sular.

***

Bax ürəyin xal yerindən,
Yarasını al yerindən,
Körpə dilin lal yerindən
Bir misra çək, bir misra çək...

Bəxtim, düşsün daş başına,
Qar tez yağır yaddaşına.
Qələm batır göz yaşına,
Bir səhra çək, bir səhra çək...

Bir layla sərin üstünə,
Bu körpə qəbrin üstünə.
Allah, öz səbrin üstünə
Bir Zəhra çək, bir Zəhra çək...

***

Bir misra dənizdir mənim ürəyim,
Ömrüm bu dənizdə tənha bir qayıq.
Oxu ləpirləri sahil boyunca,
Bir mənəm, bir sənsən, bir də ayrılıq.
Bir misra dənizdir mənim ürəyim,
Suları isladıb alın yazımı.
Allah, yarıtmadı bu ümid məni,
İndi qoy ayrılıq çəksin nazımı.
Bir misra dənizdir mənim ürəyim,
Bəxtim, bu sahildə bir şəklini çək.
Qağayı səsinə səp öz səsini,
Bütün ayrılıqlar uçub gedəcək.
Bir misra dənizdir mənim ürəyim,
Allah, bu dənizdə xoşdur boğulmaq.
Ayrı bir ləzzətdir, ayrı bir daddır
Hər gün ölüb getmək, hər gün doğulmaq.

***

Müqəddəslik yatır hər qarışında,
Övliya nuru var adi daşında.
Tanrı işığısan yurd yaddaşında,
Belini qırmısan fələyin, Ağdam.
Gördüm yağı bağrın yaranlarını,
Vüsala qovuşan yar anlarını.
Köksünü üşüdən yaralarını
Vətən oğulları bələyib, Ağdam.
Yollar misra-misra açıb sinəsin,
Sözləri kövrəlib Qulu Ağsəsin.
Zəfər torpağına sərib nəfəsin
Arzusu çin olmuş ürəyin, Ağdam.
Bitib yaxasında qönçə ürəyin,
Neçə ürəklərdən keçən ürəyin.
Ruhuna səpilib neçə ürəyin
Bu zəfər ətirli diləyin, Ağdam.
Torpaqda buğlanır şəhid nərəsi,
Bax, Aqil Abbasın coşub həvəsi.
Məzarda kövrəlib Qədirin səsi,
Gəl ovut bu qəlbi kövrəyi, Ağdam.
Torpağın bələnib şəhid ətrinə,
Daha dəyə bilməz kimsə xətrinə.
Şükür alnındakı Tanrı sətrinə,
Geymisən qələbə köynəyi, Ağdam.

***

Allah, sənə yazdığım bu məktubu
Hansı mələk yolda salıb, görəsən?
Özün söylə, indi harda durum ki,
Bircə dəfə əhvalımı görəsən?
Üz-gözündə son ümidin ahı var
Yanağımda yarpaqlayan payızın.
Bir mələyin dodağından yıxılan
O təbəssüm könlün açmaz bu qızın.
Bu unutqan adamların içində,
Mən ki səni unutmadım, İlahi.
Bəxt yazdığın o dəftərin içindən
İtkin düşüb mənim adım, İlahi.
Bəyaz-bəyaz varaqlarla bu axşam,
Qurban olum, yenə səndən danışdım.
Şair qəlbi ərköyündür, bilirsən,
Bağışla ki, işlərinə qarışdım.



# BÜLBÜL YUVASI

***(kino– hekayə)***

*(44 gün davam etmiş Vətən müharibəsi qəhrəmanlarının unudulmaz xatirəsinə)*



**Firuz MUSTAFA**

**Elman Qasımzadə**nin yaşadığı ev. Evin qapı və pəncərələri həyətdəki bağçaya açılır.

Sadə qaydada döşənmiş otaqlardan biri. Divardan şəkillər – mənzərə və portretlər asılmışdır. Elman kresloda əyləşib televizora baxır. Ekranda hərbi marş sədaları altında göstərilən kadrlar – toplar, tanklar, səngərlər, raketlər, əsgərlər sürətlə bir– birini əvəz edir.

Telefon zəngi. Elman Qasımzadə cəld ayağa durur, pultun düyməsini basıb televizorun səsini azaldır, telefonun dəstəyini qaldırır.

– Bəli. Eşidirəm...

Telefonda kəsik siqnallar eşidilir: düyy-düyyy-düyyyy...

Qonşu atağın qapısı açılır. **Elmanın anası (Rəhimə xala)** bir oğluna, bir də telefona baxır:

– Elman, kim idi zəng edən?

– Nə bilim kim idi, ay ana? Kim idisə, səsimi eşidən kimi dəstəyi yerinə qoydu...

– Yəqin, yenə odur...

– “O” kimdir elə?

– Raminin istəklisi... Bilirəm ki, səninlə danışmağa utanır. Gərək özüm götürəydim dəstəyi... Çox tərbiyəli qızdır. Hər gün zəng edib Ramini soruşur. Utana– utana deyir ki, nənə, darıxma, dava lap tezliklə qurtaracaq, Ramin də sağ-salamat qayıdıb gələcək. Mənə ürək-dirək verir...

Yenə telefon zəngi.

Elman əli ilə anasına işarə edir. Qadın telefona yaxınlaşır. Dəstəyi götürür. Dəstəkdə gur kişi səsi eşidilir.

– Salam. Hər vaxtınız xeyir. Elman Qasımzadənin evidir?

– Bəli. Bu dəqiqə... Elman, gəl, səni istəyirlər.

Elman telefonun dəstəyini qulağına yaxınlaşdırır:

– Salam. Buyurun, eşidirəm.

– Siz Ramin Qasımzadənin atasısınız?

– Bəli...

– Sizi narahat edən kapitan Həsənovdur... Zəhmət olmasa, hərbi komissarlığa gəlin.

– Nə vaxt?

– Elə indi.

– Xeyirdirmi?

– Bu barədə siz gələndə danışarıq.

– Oldu... İndi gəlirəm.

Televizorda kadrlar və musiqi dəyişir. Həzin melodiya eşidilir.

Qadın həyəcanla oğluna yaxınlaşır:

– Nə dedilər, oğul?

– Hərbi komissarlıqdan zəng vurmuşdular.

Musiqi səsi tədricən güclənir. Qadın əlini göyə qaldırır:

– Ay Allah, nəzərini Ramin balamın üstündən əsirgəmə.

Elman çıxır.

Qadın əvvəlcə pəncərədən çölə boylanır, sonra həyətə açılan qapıya yaxınlaşır.

Kadr dəyişir.

Hərbi komissarlıqda kiçik kabinet. Elman Qasımzadə və kapitan Həsənov. Hər iksi hüznlü və kədərli bir görkəmdə.

Kapitan Həsənov:

– Mən sizin oğlunuzu çox yaxşı xatırlayıram. Qədd-qamətli, cüssəli, idmançı görkəmli bir oğlandı... Onu döyüşə buradan yola saldıq. Amma dediyim kimi... Bəli, o şəhid olub. Mən də atayam...

Elman Qasımzadə başını əlləri arasına alıb bir müddət susur. Sonra diqqətlə qarşısındakı hərbi geyimli adamı süzür və handan-hana dillənir:

– Yaxşı, indi biz nə etməliyik?

– Mən artıq sizə mövcud vəziyyəti izah etdim. Düşmən tərəf bizimlə danışıqda ortaya şərt qoyub. Deyirlər ki, Ramin Qasımzadənin nəşini yalnız dəyişmə yolu ilə qaytara bilərik.

– Kiminlə dəyişmək istəyirlər?

– Hər hansı bir hərbçi ilə.

– İndi belə bir hərbçi varmı?

– Bəli, var... Var belə bir hərbçi...

Ani sükut. Elman Qasımzadə diqqət kəsilib kapitanın sözünü bitirməsini gözləyir.

Hərbi komissarlığın həyətindən səs-küy eşidilir. Uca səslə (səsgücləndirici ilə) adamların, çox güman ki, könüllü və ya çağırışçıların siyahısı oxunur.

Kapitan Həsənov udqunub deyir:

– Sizə necə izah edim? Axı biz meyitləri dəyişəcəyik... Sizin oğlunuzla...

– Dəyişməyə apardığınız meyitin ad-soyadı məlumdurmu?

– Əlbəttə... Sizin oğlunuz kimi o da zabit idi. Bizimkilər onu əsir götürmüşdü. Ağır yaralı idi. Komaya düşdü, həkimlər nə qədər səy göstərsələr də, sağalda bilmədilər. İndi həmin adamın meyitini özümüzlə aparmalıyıq. Onun anası şərt qoyub...

– O nə şərtdir elə?

– Qadın deyir ki, dəyişmə üçüncü dövlətin sərhədində baş tutmalıdır.

– Yəni...

– Yəni biz meyitləri ya İran, ya da Gürcüstan sərhədində dəyişdirməliyik.

Elman Qasımzadənin evinin həyəti. Kiçik bağça.

Həyətdə səliqə ilə sıralanmış gül-çiçək kolları. Meyvə və bəzək ağacları. Krandan axan suyun şırıltısı eşidilir. Həyətdə, ağacların əhatəsində iri stol və həmin stolun ətrafında kətillər.

Elmanın anası Rəhimə xala ilə keçmiş qonşu Tahirə xanım həyətdə söhbət edirlər.

Tahirə xanım:

– Gör bir neçə ildir...

Rəhimə xala:

– Hə, ta demə, Tahirə xanım... Bəlkə də, iyirmi ildən çox olar ki, görüşmürük.

– Elədir... Düz iyirmi beş ildir. İlahi, vaxt necə gəlib keçir.

– Siz gərək ki, o vaxt Kişinyova köçdünüz.

– Hə, əvvəlcə Moldovaya köçdük. Orada qohumlarımız vardı. Qabaqlar pis dolanmırdıq. Sonra vəziyyət dəyişdi. Oradan Ukraynaya gedəsi olduq. Kiyevdə oğlumun dostları vardı. Az sonra Ukraynanı da qarışdırmağa başladılar. Oğlum dedi ki, ana, köçüb gedək Rusiyaya. Razı olmadım. Dedim ki, yenə vətən yaxşıdır. Qayıdıb gəldik buraya. Allah kərimdir, görək sonrası necə olacaq...

– İnşallah, yaxşı olar. Bəs indi şəhərin harasında yaşayırsınız?

– Bilirsən ki, o vaxt evi dəyər– dəyməzinə satdıq.

– Bilirəm.

– İndi qonşu məhəllədən bir ev almışıq... Yaxşı, Rəhimə bacı, bəs uşaqlar necədir?

– Uşaqlar deyəndə ki...

Telefon zəngi.

Rəhimə xala əlini uzadıb açıq pəncərədən dəstəyi qaldırır:

– Hə, eşidirəm, Elman... Haraya gedirsən? Gürcüstan tərəfə? Orada sənin nə işin var?

Hiss olunur ki, qadının səsi həyəcanlıdır.

Rəhimə xala dəstəyi yerinə qoyur.

Qadın öz-özünə danışırmış kimi astadan dillənir:

– Deyir ki, indi yoldayam, Tiflis tərəfə gedirəm, bir az gec gələcəm...

Tahirə xanım:

– Allah köməyi olsun. Yəqin, işi çıxıb...

Yol. Hərbi minik maşını. Maşında Elman

Qasımzadə və kapitan Həsənov. Həmin maşının arxasınca daha iki maşın gəlir: maşınlardan birinin üstündə qızıl aypara, digərininkində isə qızrmızı xaç şəkli görünür.

Kapitan Həsənov:

– Bizimlə onların arasında danışıqları Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri aparıb. Elə meyitləri də bu təşkilatın təşəbbüsüynən dəyişməliyik.

– O tərəfin adamları ilə harada görüşəcəyik?

– Sərhəddə... Daha doğrusu, neytral zonada.

Elman Qasımzadə:

– Bəlkə, bir az ayaq saxlayaq?

– Nəyə görə?

– Mən ta dözə bilmirəm.

– Səbirli olmalısız, Elman Qasımzadə... Başqa çarə yoxdur.

– Ciyərim yanır. Siqaret çəkmək istəyirəm.

– Eybi yoxdur, elə maşında çəkin...

Elman Qasımzadə siqareti odlayıb tüstünü acgözlüklə ciyərinə çəkir.

Qırmızı Xaç və Qızıl Aypara Komitəsinə məxsus olan, üstü bayraqlı maşınlar arxadan sürətlə irəliləyərək hərbi komissarlığın maşınını ötüb keçirlər.

Yerevan-Tiflis yolu. Sürətlə hərəkət edən hərbi maşını müşayiət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus iki maşın sürətlə Gürcüstan sərhədinə doğru irəliləyir...

Hərbi maşında iki adam var: **hərbi geyimli kişi** – sürücü və qara paltarlı qadın. Qadının başında qara yaylıq var. Bu, **Seda Arslanovna**dır.

Qadın əsəbi halda üzünü hərbi geyimli adama sarı çevirərək:

– Ayspisov, na viravorvets’ yev geri ynkav... Na mahats’av hivandanots’um.

(**Tərcüməsi:** Deməli, o yaralanıb, sonra əsir düşüb... Xəstəxanada keçinib). (Bundan sonra davam edən söhbətin tərcüməsi yazılı subtitrlərlə verilir).

Hərbçi:

– Bəli. İşxanı yaralı vəziyyətdə əsir götürüblər. Huşu özündə olmayıb. O yaralanmasaydı, əsir düşməzdi... O, çox igid, qoçaq bir oğlan idi. Siz onunla fəxr etməlisiz. Elə biz də...

Qadın eyni əsəbiliklə:

– Mən bir daha geri qayıtmayacağam...

– Seda Arslanovna, siz niyə belə düşünürsüz?

– Mənim bir oğlum vardı, onu da bu ölkə əlimdən aldı... Bəyəm bu, mənə lazım idi?

– Hər halda, o, vətən uğrunda ölüb...

– Artıq Ermənistan mənim vətənim deyil... O, mənim oğlumun qatilidir.

– Kim? Nə?

– Sizin vətən hesab etdiyiniz bu yer... Bəyəm vətən öz övladlarının qanını içməlidir?

Hərbi geyimli adam başını yelləyir.

Maşın sürətlə irəliyə doğru şütüyür.

Arxadan Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus maşınlar gəlir. Maşınlardan birində dörd nəfər adam var. Digər maşında cəmi bir sürücü nəzərə çarpır. Həmin maşının arxa tərəf salonunda taxta tabut görünür.

Yol boyu bir-birini əvəz edən məntəqə, ərazi və yer göstəriciləri – yazılı lövhələr. Həmin lövhələr iki dildə yazılıb – erməni və ingilis dillərində.

Elman Qasımzadənin evinin həyətindəki kiçik bağça.

Rəhimə xala ilə Tahirə xanım söhbət edirlər.

Rəhimə xala:

– Məəttəl qalmışam... Onun Tiflisdə nə işi?

Tahirə xanım:

– Narahat olma, Rəhimə bacı... Yəqin, nəsə oralarda işi var. Yaxşı, Rəhimə bacı, de görüm, gəlinlə bir əlaqə var?

Araya sükut çökür. Uzaqdan melodiya eşidilir. Bəlkə də, bu musiqi evdəki televizordan gəlir.

Rəhimə xala:

– Hə, Sedanı deyirsən? Yox, heç bir əlaqəmiz yoxdur. Elə o gedəndir ki, gedib...

– Pis adama oxşamırdı.

– Mənim ondan heç bir narazılığım olmayıb... O da daim bizdən razılıq edib... Axmaq adamlar aranı qarışdıranda gördüm ki, Seda narahatdır, öz-özünə nəsə plan qurur. Dedim ki, qızım, heç yerə getməyə tələsmə.

– Deməli, bu seçimi özü etdi?

– Əlbəttə... Elman da dil tökdü, dedi, iki övladımız var... Axı burada bizimlə heç kəsin işi yox idi. Düzü, onun hansı millətdən olduğunu

nə mən eynimə gətirirdim, nə də qonşular. Oğlumla bir-birini sevib evlənmişdilər...

Tahirə xanım:

– Hə, deməli, uşağın birini apardı özüylə...

Rəhimə xala dərdli-dərdli, ağır-ağır dillənir:

– Hə... Böyük bizdə qaldı... Kiçiyi özüylə apardı.

– Elxan getdi onunla?

– "Getdi" deyəndə ki...

Onlar danışdıqca söhbətin mövzusuna uyğun olan görüntülərin əks olunduğu lent sanki yaddaşı təzələyir: kadrda uşaqlar (Ramin və Elxan), habelə ər-arvad (Elman və Seda), o cümlədən Rəhimə xala görünür. Onların nisbətən gənc çağlarıdır. Hamı əsəbidir. Uşaqlardan biri Sedanın, digəri Elmanın qucağındadır. Rəhimə xala küncdə ağlayır. Arada kadrları və söhbəti musiqi müşayiət edir.

Rəhimə xala söhbətini davam etdirir:

– Onda Elxan hələ təzə-təzə dil açırdı. Elman uşaqların heç birini vermək istəmirdi. Uzun çək-çevirdən sonra belə qərara gəldik ki, Ramin qalsın, Elxan getsin... Getdilər. Amma ürəyim də Elxanla birlikdə getdi. Bilirəm ki, Elmanın da o uşaqdan ötrü içi göynəyir. Hiss edirəm ki, arada xəlvətə salıb ağlayır da...

– Onlar Yerevana getdilər?

– Hə... Orada qohumları vardı. Amma gəlin nədənsə oraya getmək istəmirdi. Deyirdi ki, gec-tez xaricə gedəcəyəm. Ta sonrasını bilmədik.

– Heç əlaqəniz olmadı?

– Yox... Sedadan söhbət düşəndə Elman həmişə deyir ki, günah onun özündə oldu. Düz də deyir. Heç kəs onu qovmayıb axı...

Hərbi geyimli kişi və Seda Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus maşınların müşayiəti ilə yol gedirlər.

Gürcüstan ərazisi. Yol boyu məntəqə, ərazi və yer adlarının yazıldığı lövhələr bir-birini əvəz edir. Həmin lövhələr iki dildə: gürcü və ingilis dillərində yazılıb.

Kişi:

– Yaxşı ki, Gürcüstan gömrüyündə bizi çox ləngitmədilər.

Seda:

– Hə, elədir... Gürcülər bürokratiyanı aradan qaldırıblar.

Kişi qadına sarı dönüb hiss olunacaq bir ehtiyatla:

– Sizin oğlunuz Azərbaycanda doğulub? – deyə soruşur.

Qadın da eyni ovqatla cavab verir:

– Bəli... Təkcə oğlum yox, elə mən özüm də orada anadan olmuşam. Ərim də azərbaycanlı olub. Mən bunu niyə gizlətməliyəm ki?

– Mən bunu elə-belə soruşdum... Bilirəm ki, siz vətənpərvər qadınsınız...

– Hmm... Vətənpərvər. Xeyr, mən siz deyən "patriot"lardan deyiləm. Mən azərbaycanlı oğlanı sevib ona ərə getmişəm. Bildiniz?

Qadının əsəbi sualı hərbçini diksindirir; o, çiynini çəkib susur və diqqətlə yola baxır.

Seda öz-özünə danışırmış kimi dodaqaltı pıçıldayır:

– Orada mənim bir oğlum qalıb. Mən onun taleyindən bixəbərəm... Heç mənə "ana" demək olar?

Susurlar. Musiqi. Həzin melodiya.

Elman Qasımzadə və kapitan Həsənov yenə həmin maşınların müşayiəti ilə yol gedirlər. Elman siqaretini tüstülədir.

Kapitan Həsənov:

– Elman, qardaşım, sizin cəmi bir övladınız vardı?

Elman uzun müddət susur, fikrə gedir. Handan-hana dillənir:

– Biri də vardı...

Susurlar.

Elmanın gözünün qarşısından övladlarının uşaqlığını canlandıran kadrlar ötüb keçir. Oğlanları (Ramin və Elxan) həyətdəki bağçada "dava-dava" oynayırlar. Uşaqların əlində oyuncaq silahlar var. Onlar tez-tez ağacların arxasına keçib bir-birinə "atəş" açırlar. Ailə üzvləri (Rəhimə xala, Elman və Seda) həyətdəki mizin arxasında əyləşib çay işir, deyib-gülürlər.

Kapitan Həsənov:

– Həyat çox qəribədir.

– Həyatı yaxşı da edən bizik, pis də edən... Həyat neyləsin?

– Elədir... Sərhədə az qalır.

Rəhimə xala sanki qonşu qadınla – Tahirə xanımla deyil, öz-özü ilə söhbət edir.

Rəhimə xala evin qarşısındakı uca çinara yaxınlaşıb əlini yuxarı qaldırır:

– Yadımdadır, Raminlə Elxan kiçik olarkən bu ağacın yuxarıdakı budağında iki göyərçin yuva qurmuşdu. Bir ailə idilər. Onlar hər il yuvada iki yumurta qoyar, iki bala çıxarardılar. Təəccüb edirdim ki, axı niyə iki yumurta?.. Sonra televizorda eşitdim ki, göyərçinlər bala artırmaq üçün cəmi iki yumurta qoyurlar. Hə, neçə il idi ki, onlar bu minvalla nəsil artırırdılar... Bəlkə də, o erkən gələn göyərçinlər ölmüşdü, bəlkə də, yerinə onların balaları gəlirdi. Axı onlar hamısı bir-birinə oxşayır... Hər nə isə, bu payız göyərçinlər gəlmədilər. Odur, yuvaları da boşdur. Yaman pis oldum bu işə...

Tahirə xanım:

– İnşallah, gələn il gələrlər.

Rəhimə xala:

– İnanmıram. Çətin. Deyirlər, göyərçinlər də adamlar kimidir. Perik düşəndən sonra geri dönmürlər...

Neytral zona. İki müxtəlif istiqamətdən gələn maşınlar bir-birinə yaxınlaşır. Qırmızı Xaç və Qızıl Aypara komitələrinə məxsus maşınlardakı əməkdaşlar ratsiya vasitəsi ilə kiminləsə danışaraq bir-birlərinə yaxınlaşırlar.

Seda və hərbi geyimli adam maşından yerə düşürlər.

Elman Qasımzadə və kapitan Həsənov hələ maşındadır.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları bir-birləri ilə görüşüb ingilis dilində nə barədəsə qısa söhbət edirlər.

Sonra əməkdaşlar maşınlardan tabutları ehtiyatla aşağı endirirlər.

Seda qıyya çəkib maşından düşürülən tabuta yaxınlaşır.

Elman hıçqıraraq əks istiqamətdən gətirilən tabuta yaxınlaşır.

Elmanın evinin həyətindəki bağça.

Tahirə xanım:

– Amma Sedanın ürəyi daş imiş...

Rəhimə xala:

– Nəyə görə elə deyirsən?

– Bu ötən illərdə öz övladını axtarmayıb.

– Cəmi bir dəfə bir tanış vasitəsi ilə xəbər göndərmişdi... Deyib ki, öz əlimlə öz yuvamı dağıtdım... Eh, ay Tahirə xanım, dağılan yuvaya qayıtmaq olurmu?

Yenə uşaqların həyatının bir parçasını əks etdirən kadrlar.

Elman Raminin, Seda isə Elxanın əlindən tutub. Uşaqlar digər əlləri ilə oyuncaq silahı sinələrinə sıxıblar. Hiss olunur ki, ailə üzvləri – Elman və Seda bir-birlərindən ayrılırlar. Rəhimə xala öz oğlu ilə gəlininin boynunu qucaqlayıb ağlayır.

Az sonra fit çalan qatar sürətlə yol qət edir.

Tabutlar ehtiyatla yerə, daha doğrusu, yerdəki taxta lövhə üzərinə sərilmiş qara parçanın üstünə endirilir. Tabutlar yanaşı qoyulur. Onlar eyni ölçüdədir. Seda başındakı yaylığı açıb oğlunun tabutunun üstünə atır. Diz çökür.

Elman oğlunun tabutuna yaxınlaşır. Əyilib oğlunun tabutunu öpür. Və elə bu an Seda ilə Elmanın baxışları qarşılaşır. Onlar bir müddət bir-birlərini diqqətlə süzür. Sonra daş kimi donub qalırlar.

Tahirə xanım ilə Rəhimə xalanın söhbəti davam edir.

Rəhimə xala:

– Hə, Seda tək bircə dəfə, iki il əvvəl bir tanışla xəbər göndərmişdi...

– Haradan...

– Tiflisdən...

– Bıy...

– Hə, deyib ki, Elxan böyüyüb. Amma uşağın ad-familiyası orada dəyişdirilib. İndi Elxan Qasımzadə dönüb olub İşxan Arslanyan...

– O niyə elə?

– Allah bilir? Olsun ki, tələb ediblər... Elman bunu eşidib çox əsəbiləşdi...

Araya qısa bir sükut düşür.

Sükutu Tahirə xanım pozur:

– Rəhimə bacı, Elman Tiflisə, bəlkə, elə oğlu ilə görüşməyə gedir?

Hər ikisi susur.

Seda hıçqıraraq:

– Elman? Bu sənsən? Xeyir ola? Yoxsa...

Elman yanaşı qoyulmuş tabutlara baxıb astadan deyir:

– Bəs sən nə üçün...
Qadın tabuta işarə ilə:
– Mən balamın arxasınca gəlmişəm.
Elman:
– Elə mən də...
Qadın qıyya çəkib əlləri ilə tabutları qucaqlayıb nalə çəkir:
– Aman Allah, bu nə fəlakətdir! Mənim balalarım... Mənim ürəyimin parçaları... Elxan balam, Ramin balam... Caaan... Ay adamlar, bu, bəlkə, yuxudur? Mən niyə ölmürəm? Mənim kimi də daşürəkli ana olar?
Və sonra dodaqaltı nəsə pıçıldayır, sanki qoşa nənnilərdəki körpələrə lay-lay deyir... Daha sonra o, yumruqla öz başına vurur, əli ilə saçını yolmağa başlayır.
Ətrafdakılar təəccüblə onlara baxır, pıçıldaşırlar.
Elman keçmiş arvadına yaxınlaşıb onu sakitləşdirmək istəyir:
– Dayan... Sən nə edirsən?
– Mən özümü öldürəcəyəm, Elman. Mən nə üçün... Lap elə sən də... Biz niyə yaşayırıq? Axı biz ölməliyik, bunlar yox...
– Günah kimdədir?
– İndi günah axtarmaq yeri deyil... (Pauza). Əlbəttə, bütün günahların sahibi analardır. Övlad doğduqları üçün də, o övladları böyütdükləri üçün də... Elə onları ölümə göndərdikləri üçün də... Yox, Elxanı mən göndərməmişdim. O, ölümün ağzına könüllü getmişdi.
– Elə Ramin də könüllü getmişdi...
– Axı biz sakit, dinc həyatımızı yaşayırdıq... Sən, sən, nə vaxt?..
– Bu gün hərbi komissarlıqdan zəng vurub dedilər ki...
– Mən bir neçə gün əvvəl eşitdim... Şərt qoydum ki, mən öz balamı üçüncü dövlətlə sərhəddə qarşılayacam.
Qadın iki tabutun arasında diz çökür:
– Bəlkə də, onlar bir-birinə atəş açıb öldürüblər. Allah bilir, bəlkə də, qardaş qatili elə qardaşın özüdür. Elxanın əsgər dostları dedilər ki, o, əlbəyaxa döyüşdə həlak olub...
Elman əlləri əsə-əsə siqaret alışdırır, tüstünü qəzəblə ciyərinə çəkərək dillənir:
– Elədir. Kim bilir, bəlkə də, döyüş vaxtı onlar üz-üzə gəliblər. Axı onlar bir-birini tanımırdı.
Seda tabutları bağrına basıb öpür. Sonra əli ilə sinəsinə döyəcləyir:
– Sən niyə ölmürsən, Seda? Bunun üçünmü yaşayırdın? İki övlad dağını görmək üçünmü? İlahi, bu nə fəlakətdir mənim başıma gətirirsən?
Adamlar tabutlara yaxınlaşırlar. Hiss olunur ki, onlar yola düşməyə tələsirlər.
Seda qollarını tabutlara dolayaraq qışqırır:
– Dayanın... Elman, sən də dayan... İndi mən yuvası dağılmış bir bülbüləm... Mən bir daha gəldiyim o bayquş yuvasına qayıtmayacağam. Ta mənim yuvam dağılıb... Barı qoyun balalarımın məzarı qoşa olsun...
Hamı bir-birinin üzünə baxır. Sonra adamların diqqəti Elmanin üzünə yönəlir. Elman etiraz əlaməti olaraq başını astaca yelləyir. Adamlar çiyinlərini irəli verib tabutları qaldırırlar. Tabutlar "dəyişdirilir". Elmangili müşayiət edən maşındakı tabut Sedagili müşayiət edən maşının salonuna qoyulur. Digər maşından endirilmiş tabut isə Elmangili izləyən maşına sarı aparılır.
Seda və Elman dönüb uzun-uzadı bir-birlərinə baxırlar. Maşınlar tərpənir. Uzaqda sürəkli atəş və sonra marş sədaları eşidilir.

**SON**



## İltimas SƏMİMİ

### YORULDU

Əllərin istisini itirmiş
Soyuq ocaq kimidir.
Kövrək baxışların
Dörd divar arasında
Xatirələri
Saf-çürük etməkdən
Bezikmiş tənhaları
Xatırladır...
İçində intihar etmiş
Arzuların,
Gözlərində ümidsizlik,
Nəfəsin ölüm qoxuyur.
Daha heç nə
Təsəlli deyil,
Bu yolları adlamaqdan
Çoxları yoruldu.

### XOŞBƏXTLİYİN

Sən də belə yaşamısan,
Əllərin hələ
Nə qış görüb,
Nə ayrılığın soyuğundan
Üşüyüb.
Ürəyin təkliyin,
Tənhalığın nə olduğunu
Hardan bilsin?
Gözlərin yol çəkməyib...
Danışmağa
Dənizə üz tutmamısan,
Gecə dörd divar arasında
Taleyindən bezikib
Hönkür-hönkür ağlamamısan.
Sən də belə yaşamısan,
Qəmsiz-kədərsiz.
Üzündə xoş təbəssüm,
Ürəyində arzular.
Atalı-analı,
Bir də yanında xoşbəxtliyin...

### DANIŞAR

Ruhumu yoran
Bu yolun
Sonu bilinmir.
Ünvanım bir damla
Göz yaşıdı,
Süzülür yanağıma.
Bir ovuc torpaq,
Bir arşın ağ,
Bir də göy üzünə son pıçıltım...
Əlvida, kölgəsində
Dincəldiyim şam ağacı,
Budaqlarına quşlar qonar,
Xatirələrimi yağış yuyub apararaq.
Ayaq izlərim yollara tökülən
Payız yarpağı kimi...
Sükut yoxluğumdan
Danışar...

### QIRILAN ÜRƏYİMDİR

Xatirələrə bürünən yollar
Göz yaşı qoxuyur.
Nə bir qapı var
Çıxıb getməyə,
Nə dərdləşməyə
Adam...
Məndən qabaq
Bu məkanda kim olub?

Qan qoxuyur elə bil.
Bu saralan yarpaqlar
Kimin arzularıdır?
Artdıqca qayğılarım
Kədərimi bükməyə
Bir arşın ağ tapılmır:
Qırılan ürəyimdir.

**KƏSİLİR**

Sevmədiklərim
Gözümə yaman dürtülür,
Sevdiklərimin xatirələrin
Ürəyim daşımaqdan
Köz-köz yanır.
Döyür məni
Payız yağışı,
Ayaq izlərim yollardan silinir...
İllər ötdükcə
Ümid də azalır.
Ruhuma yad olan duyğular
İçimdə ot-ot göyərdikcə
Elə bil nəfəsim kəsilir.

**DUYURSANMI?**

Çevir üzünü
Bir də keçmişə,
Darıxır səndən ötrü
Unutduğun doğmalar.
Darıxır səndən ötrü
Adladığın yollar,
Döydüyün qapılar...
Sevincindən süzülən
Göz yaşların
Xatirələrə çevrilib.
Daha nə sevinə bilirsən,
Nə də darıxmağa
Vaxtın var.
Zaman qapını döyən
Küləklər kimi–
Sənə nələri xatırladır...
Uşaqlığına,
Gəncliyinə əlvida
Deyə-deyə
İçindəki ağrılarını duyursamı?

**GÖRMƏDİYİM YUXULARDIR**

Tanrım,
Gördüyüm yuxulardan
Bir nicat tapmadım,
Susdum…
Yuxular mənə
Nə bir qarış yol oldu,
Nə bir isti ocaq.
Nə üstümə işıq saldı,
Nə üzümə açılan
Bir qapı...
Heç nə təsəlli deyilmiş,
Çiynimdə daşıdığım
İllərin ağrılarıdır.
Yorğunluğum bitməz,
Ürəyimi köz-köz yandıran
Görmədiyim yuxulardır…

**QOXUYUR**

Bir də səsini eşitməzsən,
Bir də səni çağırmaz.
Nə sevincdən,
Nə kədərdən...
Büküldü beş arşın ağa,
Bir ovuc torpaq olub susdu.
Kölgəsi bir də
Bu yollarda dolaşmaz,
Yuxu kimi
Göy üzünə çəkildi...
Gözünün önündə xatirələri,
Bir də o illər.
Qayğısız,
Xoş arzularla
Böyüdüyün çağlar...
Daha qayğılardan
Nəfəsin kəsilir.
Çiynlərində
Tabut-tabut daşıdığın
Taleyin ağrıları,
Göz yaşların
Xatirələr qoxuyur...

**DONDUĞU KİMİ**

Sənə bir yol deyim –
Hələ heç kimin
Adlayıb gedə
Bilmədiyi yol...
Nə uzundur,

Nə qısa.
Bir az qarşıda gördüyün
Kölgəyə bənzəyir,
Bir az da
Xəzərin sahilə çırpılan
Dalğalarına.
Bir kimsə adlayıb gedə bilmir,
Donur yerindəcə,
Göz yaşın yanaqda
Donduğu kimi.

**TƏNHALAR**

Hardan yağış qoxusu
Burnuna gəlsə,
Bil ki,
Hələ ümidlərim solmayıb.
Yollar ayaq səsindən
Ötrü darıxdığı kimi,
Darıxır əllərim
Qara tellərindən ötrü.
Buludlar arxasında
Günəş də darıxır,
Dənizin küləkdən ötrü
Darıxdığı kimi.
Hələ rahatlıq tapmayıb
Nə günəş,
Nə dəniz,
Nə də yalqızlıqdan
İlan-ilan qıvılan tənhalar...

**ÜMİDLƏRİMDİR**

Toxunma o ağaca,
Kölgəsində xatirələrim
Dincəlir.
Gəncliyimin son anları –
Qayğılarla dolu...
Şeirə çevrilən
Ümidlərim
Buludlar arxasında
Günəş kimi,
Yayın bürküsündə,
Şəhərin küçələrində
Yorğun-yorğun yeriyən
Ümidlərimdir.

**ARZULAR**

Gedəsi bir ünvanım varsa,
O da yaşadığın küçə,
Hər gün açıb-bağladığın
Qırmızı qapı –
Sevgi dolu yol,
Ömrümə işıq saçan
İlıq nəfəsin,
Ürəyinin səsi,
Döyünən nəbzin,
Qara saçlarının bahar qoxusu.
Xəyalımda sən,
Qulağımda gülüş səslərin,
Qarlı qışı bahara çevrilən
Sevgidir.
Böyüyür yarpaq-yarpaq
Qovuşmaq ümidiylə
Sevgi adlı arzular.

**YAŞAMAQDAN**

Gülməz üzümüzə
Bir yarpaq
Kölgəsi olmayan
Ümid ağacı.
Hər açılan sabahı
Təsəlli bilib,
Bəlkə də, aldanmışıq.
Küçə-küçə yorulan şəhər –
Dəniz də yorulub,
Biz də.
Sən  səs-küydən,
Dəniz küləkdən,
Biz isə gümansız yaşamaqdan.



# “ƏVVƏLDƏN YERİ YUXARIBAŞ OLUB...”

*Şəkidə məhlə var, nə qədər desən,*
*Gəldim bu dünyaya “Yuxarıbaş”da.*
*Bir göz evimizdə nə desən, vardı,*
*Taxça aşağıda, buxarı başda...*
*Çıxdı ahıllığım o evdən çölə,*
*Amma uşaqlığım yuxarı başda...*
*İndi mən həsrətəm ata yurduma,*
*Odu ürəkdədir, buxarı başda!*

*Azərbaycanın, eləcə də bütün türk dünyasının görkəmli şairi Bəxtiyar Vahabzadə 1974-cü ildə yazıb bu şeiri. Şəkinin “Yuxarıbaş” məhəlləsinin daşlı küçələrini gəzərkən bu şeiri çox pıçıldadım öz-özümə. Bir gün də bir daşın sehrinə daldı addımlarım, “Yuxarıbaş”ın yuxarısına doğru apardı məni... Qarşısında ayaq saxladığım kiçik qapının yanındakı divarda yazılmışdı: “Bəxtiyar Vahabzadənin ev muzeyi”. Şairin şeirləri, cildlərini xatırladığım kitabları bir-bir yaddaşıma sığal çəkdikcə içimdəki heyrətə yenilirdim. Yəni mən Bəxtiyar boyda bir söz adamının doğulduğu evin qarşısındaydım? O şeirlərin hansı burda yazılıb? Və ya hansı bu evdən, bu balaca yarıaçıq qapının o üzündəki üzü dağa baxan məhlədən bəhs edir? Ümumiyyətlə, Şəkinin bu dağa söykədiyi sağ çiyni niyə “Yuxarıbaş” adlanır?*

*Hər sualla həmahəng bir addım daha atdım... Bir də gördüm ki, “Yuxarıbaş”ın güllü-çiçəkli, təmiz havalı, ətəyini dərəyə sərən, cığasıyla dağa naz edən məhlələrinin birinin-Bəxtiyar Vahabzadənin ev muzeyinin həyətindəyəm, muzeyin direktoru Elşən Zəkəriyyəbəyli ilə*

*üzbəüz oturub, onun dediyi kimi, Bəxtiyar dünyasından, Bəxtiyar boyda şəxsiyyəti yetirən qədim Şəkidən danışırıq...*

**– Elşən müəllim, "Yuxarıbaş" toponiminin bir açılışı varmı?**

– Ümumiyyətlə, Şərq şəhərlərində "Aşağıbaş", "Yuxarıbaş" məhəllələri olur. Bu məhəllələrə ad coğrafi mövqeyinə görə verilir. Bir başınızı qaldırın, yuxarı baxın. Şəhər burdan başlayır. Bura, düzünə qalsa, qədim Nuxa kəndidir. Şəki aşağıda olub. Şəhərin quruluşuna bir baxın, aşağıya düşdükcə elə bil dağdan arana doğru gedirsən. Buranın havası da fərqlidi aşağıdan.

**– Xan sarayı da burdan aşağıdadı...**

– Xanın sarayının yeri o qədər gözəldi ki... Təsəvvür edin, o boyda bina bünövrəsizdi, bir qayanın üstündə tikiblər. Ən gözəl hava Şəkidə üç yerdədir. Bir o sarayın yeri, biri bura, biri də Mirzə Fətəli Axundovun ev muzeyinin yuxarısı. Çar hökuməti gələndə "xan" sözü hallanmasın deyə, buraları "Nuxa quberniyası" adlandırırlar. Sonra Bəxtiyar Vahabzadə, Mahmud İsmayılov, Şirməmməd müəllim kimi adamlar məsələni qaldırdılar. Dedilər, "Şəki ipəyi əl-əl gəzir. Nuxa eləmisiniz buranın adını, amma Nuxa ipəyini heç kim tanımır". Yadınızdadı da, Gəncənin adını necə zülmlə qaytardılar? Onun kimi qaytardılar Şəki adını da.

**– Hə... Gəncə öz tarixi adına 1989-cu ilin 30 dekabrında qovuşub.**

– Bura "Yuxarıbaş" məhəlləsinin YUNESKO-ya daxil olan hissəsidir. 7 iyul 2019-cu ildə Bakıda YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilib. Həmin sessiyada "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bu dağlar (əliylə qarşıdakı dağları göstərir, sonra da əlini başının üstündən hərləyir, bilirəm ki, burdan görünməsə də, yuxarıya-Şəkinin sağ çiyninə işarə edir) burada- "Yuxarıbaş"da yaşayan insanlara ta qədimdən həm mənəvi, həm də maddi dayaq olubdur. Yəni bura zəhmətkeş əhalinin məskunlaşdığı məhəllədir. Qədimdə şəhər məhz bu ərazidə olub. O gördüyünüz "Dəmirçi bulağı"nın yanında "Dəmirçi bazarı" olub. "Səhləb" çayxanası da orda olub.

**– "Səhləb" çayxanası? Marağımı çəkdi bu ad. Türkiyədə var "səhləb" çayı. Amma yayda tapılmır, yalnız noyabrın sazağını gözləməlisən ki, dadasan. Görəsən, eyni çaydanmı söhbət gedir?**

– Hə... Bu dağlarda – düzdü, hələ özüm gedib görməmişəm – səhləb bitkisi bitir. Onu may ayında yığırlar, soğanlarını üyüdüb saxlayırlar qışa. Xüsusi samovarı var o çayın, südlə səhləb qatılıb içilir. Sinəyumşaldıcı, soyuqdəymə əleyhinə olan çaydı səhləb çayı. Çayxananın adı da ona görə elə qoyulmuşdu ki, orda verilirdi səhləb çayı.

**– "Yuxarıbaş"ın daha bir xüsusiliyi...**

– "Yuxarıbaş"da hər döngənin, hər məhəllənin öz adı var. İndiki bu küçə-Əbdürrəhim bəy Haqverdiyev küçəsi "Köç yolu"nda bitir. Ta qədimdən yaylağa çıxanlar bu yolla çıxıblar. Burdan yuxarıda, "Layıslar" deyilən yerdə olub qədim yaşayış məskəni. İndi "Lahıclar" dediyimiz türklər, əslində, Lahıs türkləridir. Bizdəki "Layisqi" kəndi də öz adını məhz Lahıs türklərindən götürüb. İndi "Layıslar" deyilən ərazidə bağ-bağat, qədim bünövrələr, təndir yerləri var. Demək istədiyim odur ki, bura çox qədim tarixə malik bir məhəllədir. Burda yaşayan köklü insanlar da öz yurd yerlərinə bağlı olub. "Yuxarıbaş" məhəlləsi bir çox görkəmli şəxsiyyətlər yetirib. Bəxtiyar müəllim kimi... Bura, bu gördüyünüz ərazi, Bəxtiyar Vahabzadənin ata yurdu olan yer "Yuxarıbaş"ın kiçik məhəllələrindən biridir, "Ətəyidaşlılar" adlanır.

**– Niyə "Ətəyidaşlılar"?**

– Bəzi adamlar deyir ki, Bəxtiyar Vahabzadənin əmisi Məmmədin adıyla bağlıdır. Amma toponim daha qədimdir. Məncə, bu ad "Ətəyindən daşı tökmək" deyimindən qaynaqlanır. Bir daha vurğulayıram ki, şəxsi qənaətimdi. Bu ad burda yaşayan insanların əqidəsinə sadiqliyinə, dönməzliyinə görə yaranıb. Bəxtiyar müəllimin ailəsi də əqidəsindən dönməz olub. Əmiləri sürgünlər görüb, atası Mahmudağa ictimai-siyasi hadisələrlə əlaqədar olaraq köçüb gedib Bakıya. 9 yaşına kimi burda yaşayıb Bəxtiyar Vahabzadə. Ailə Bakıya köçəndən sonra bu yurd bir müddət baxımsız qalıb. Bir gün şair bütün nəslin nümayəndələrini yığıb bir yerə, hamısının



razılığını alıb, sonra buranı dövlətə bağışlayıb. Düzdü, mənbələrdə bu hadisənin gah 1964, gah da 1968-ci ildə olduğunu deyirlər. Amma buranın ilk müdirəsi-ilk dəfə burda möhürü götürüb işə başlayan müdirə mənə deyib ki, bu hadisə 1948-ci ildə olub. İndi rəhmətə gedib o xanım... Bir neçə yaşlı adamlar da, məsələn, 83-84 yaşlı kişilər var, deyirlər, biz bu bağçaya gəlmişik. Mən müdirənin sözünü əsas götürürəm. 2015-ci ildə prezidentimiz sərəncam verdi ki, Bəxtiyar Vahabzadənin doğulduğu yurdda onun ev muzeyi yaradılsın. İkinci bir sərəncamla da yolun o üzündə bağça tikilməsinə göstəriş verdi. Baxın, yolun o üzündədir, görünür. Uşaq bağçasının da, ev muzeyinin də açılışı eyni vaxtda olub: 2018-ci il avqustun 31-də. Ev muzeyi 1 dəhlizdən, 3 otaqdan ibarətdir. Otaqların biri şairin yaradıcılığına həsr olunub. Orda sənət dostlarıyla, Bəxtiyar dünyasına yaxın insanlarla şəkilləri, səhnəyə qoyulmuş pyesləri, yaradıcılığı haqqında yerli və xarici mətbuatda işıq üzü görən materiallar var. Bir də kostyumu var orda... Bu otağın yenidən qurulmasına çox ehtiyac var. Yüz illiyi ərəfəsidi Bəxtiyar Vahabzadənin, yəqin ki, müraciətimi Mədəniyyət Nazirliyi nəzərə alar. Amma ictimai-siyasi fəaliyyətini əks etdirən eksponatların sərgiləndiyi otaq və iş otağı yaxşıdı. Azacıq yeniləmək, əlavə materiallarla zənginləşdirmək lazımdır.

**– Muzeydə nə qədər eksponat var?**

– 950-dən çox... Vacib bir məqamı qeyd eləməliyəm ki, Bəxtiyar Vahabzadə hələ sağlığında bütün arxivini, yazıb qoyduğu xəzinəsini notarial qaydada qızı Gülzar xanıma təhvil verib. Dünyanın hər yerindən gələn məktubları da bu arxivin içindədir. Qızı Gülzar xanım da 2009-cu ildən elə bu günə qədər o arxivin üzərində işləyir. Bütün arxivi Bakıdan gətirib bura-Şəkidəki evə. Arxivçilərin də həsəd aparacağı tərzdə bu arxivi səliqəyə salır, seçib ayırır, həm Bakıda Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasına, həm Milli Arxiv İdarəsinə, həm Azərbaycan İstiqlal Muzeyinə təyinatı ilə ya əslini, ya da surətini təhvil verir. Elə sandıqlar, elə qutular var ki, hələ heç açılmayıb. Gülzar xanım bu işə çox gərgin əmək sərf edir. İndi Gülzar xanım elə bir kitab hazırlayır ki, Bəxtiyar müəllimin hansı şeiri lazım olsa, ordan tapmaq mümkün olsun.

**– Burda şairin bütün kitablarından nüsxələr var?**

– Olmayan da var... Mən həmişə insanlara deyirəm ki, evinizdə olan kitabları gətirin, əvəzində mən başqa kitab verim. Səməd Vurğunun ev muzeyində bütün kitabları sərgilənir. Amma Bəxtiyar müəllimin çap olunan kitablarının hamısı bizdə yoxdu.

**– Müraciətinizi nəzərə alan, heç Bəxtiyar Vahabzadənin kitablarından gətirən olmayıb?**

– Olub... Üç nəfər gətirib. Düzdü, cırılan yerləri də var, qaralanan yerləri də var, amma əsas odur ki, şairin öz kitabı öz ata yurduna gəlib.

**– Gəlin birlikdə səslənək "Ulduz" jurnalının səhifələrindən bütün Bəxtiyar Vahabzadə sevənlərə, onun oxucularına. Xahiş edək ki, şair haqqında əllərində hansısa bir məlumat, avtoqraflı, yaxud avtoqrafsız şəkil, jurnal, qəzet, şairin kitablarından nə varsa, gətirsinlər, şairin ata yurdundakı bu muzeyin zənginləşməsinə kömək etsinlər...**

– Ay, nə gözəl olar... Ümidim böyükdü, bu xalq Bəxtiyar müəllimi sevir, onun bu xalqı sevdiyi kimi...

**– Bəs əlyazmalarının hamısı var muzeydə?**

– Gülzar xanım hələ hamısını verməyib. Məsələn, "Şəhidlər" poemasının əlyazmasını, Rumıniya haqqındakı təəssüratlarının əlyazmasını verib bizə. Bayaq qeyd etdiyim kimi, Gülzar xanım hələ arxivin üzərində işləyir. Tamamlayandan sonra bəzisinin surətini, bəzisinin də əslini muzeyə verəsidi.

**– "Babamın koması" şeirində: "Hər dərədən, təpədən Mənim dəstə tutduğum Al-əlvan çiçəklərim..." misralarındakı dərə bu aşağıdakı dərədi?**

– Hə... Ordan Qurucana çayı axır. Toponim "quruca" sözündən götürülüb, yəni suyu azdı, qurucanadı. Bulaq ayağı kimi su axır burdan.

**– Bu evin, bu yurdun ilk tarixi ilə bağlı danışa bilərsiniz? Bu evin bünövrəsi nə vaxt qoyulub? Kimlər yaşayıb bu evdə?**

– Şairin babası Zəkəriyyə kişi burda doğulub, ora qədər bilirəm. Bir nəfər qoca kişi demişdi ki, məhlənin aşağısında bir ev olub, üzü bəri baxan, ayağından çöküntü olub deyə, söküblər. Zəkəriyyə kişidən sonrakılar bu evdə doğulub, burdan pardaqlanıblar. Burada Şəki evlərinin interyeri qorunub. Evin qarşısındakı bu dərə, bu dağ evin mənzərəsini tamamlayır. Bu aşağı qış otağı olub, hava soyuyan kimi ailə bura yığışıb...

*Qaşları düyünlənir Elşən müəllimin, qəfildən susur. Deyəsən, duyğuları illərin o üzündən daş daşımağa yollanır... Mən də susuram; sükuta ehtiramı ədəbdən bilirəm... Handan-hana dillənir həmsöhbətim:*

– Çox maraqlıydı, o vaxt böyük ailələr sığırdı bir yerə...

*...Söhbəti dəyişməyə cəhd edirəm:*

**– Bu evdə Bəxtiyar Vahabzadənin uşaqlığına aid bir əşya varmı? Lap elə olsun babası Zəkəriyyə kişinin dövründən qalma bir məişət əşyası...**

– Yox, yoxdu. Yəqin ki, pay-püş eləyiblər, heç nə qalmayıb. Əvvəl istədilər ki, buranı da Axundovun ev muzeyi kimi eləsinlər, beşik, döşək, nəsə... O barədə müzakirələr oldu. Amma dedim ki, özünə, özlərinə aid bir əşya yoxdusa, nəyə lazımdı başqasınınkı? Əsas yazı masasıdı, kitablarıdı, əlyazmasıdı, medallarıdı burda. Bakıda da çox yerə köçüb Bəxtiyar müəllim. Özünün də bir şeiri var. Təxminən, belədir: Kəndimə getmişdim, evdə tək idim. Gördüm bütün əşyaları tullayıblar, bircə köhnə mən qalmışam.

**– Xatırlaya bilmədim o şeiri... Amma çox kədərlidi...**

– Hələ "Ana və şəkil" şeiri. Yoldaşıyla gəlir, divarda cavanlıq şəkli var. Gəlin deyir, bu nə şəkildi? Ana bağrına basıb deyir, bu mənim oğlumun əsl oğul olduğu vaxtın şəklidi.

**– "Ana və şəkil"in şairin ilk mətbu şeirlərindən olduğu qalıb yadımda. Amma şeirin məzmununu yenə xatırlaya bilmirəm. Deyəsən, mən də qocalıram, şairin təbirincə, köhnəlirəm...**

*Nağıllardakı "elə bil Gülüstani-İrəm" deyimini boynundan asan bağa baxıram... Unutduğum hər şeirlə yox olurmuşam kimi gəlir mənə. Bir şair misra-misra unudulurmuş, bəs şeirə könül verib həyatı sol çiyninin üstündən atan birinin şeirləri unutması nədir?*

*Qəhərim boğazımda yumaqlanır... Baxışlarımı su hovuzunda güzgülənən söyüd ağacına kilidləyirəm... Elşən müəllim isə danışır:*

– "Əbədiyyət sarayı" şeiri hələ... Baxmayaraq ki, Bəxtiyar Vahabzadənin ilk qələm məhsullarındandı, amma çox böyük şeirdi. İçində folklor da var şeirin.

...Əzizim harayından,
El yatmaz harayından,
Gündə bir kərpic düşür
Ömrümün sarayından...

Ardınca da yazır: "Bu sözlərdə dərdi var bütün yaranmışların..."

*Deyəsən, baxışlarımı söyüdə kilidlədiyimin fərqinə varır:*

– Ən çox cökə ağacını, bir də yasəməni sevib Bəxtiyar müəllim. Fəsillərdən baharı, rənglərdən yaşılı sevib. Bəzən harasa bir cümlə yazırdı, elə orda da qalırdı. Çox elə cümlələrini gündəliyinə yazırdı.

Gələcək xofundan canımı birtəhər çəkib çıxarıb düşüncələrimi anın hökmünə boyun əydirirəm...

**– Durur o gündəliklər?**

– Hamısı yox... Bəzi vərəqləri var, kəsmişəm ordan-burdan. Gündəlikləri qızındadı. Bəxtiyar müəllimə Türk dünyasından müxtəlif dərgilər gəlirdi, indi o dərgilərdən 300-ə qədəri durur məndə, Qoxmuxdakı otağımda. Mən təzədən o dərgilərlə əlaqə yaratmaq istəyirəm ki, Bəxtiyar müəllimin əsərləri yenə çap olunsun.

**– Bəxtiyar Vahabzadə Şəkiyə gələndə harda qalırdı? Harda yazıb-yaradırdı?**

– Öz evində-aşağıdakı, 1973-cü ildə tikdirdiyi evdə. "Oxud yolu" deyirlər ora. Doduya yaxındı.

**– Dodu?**

– O vaxt "qodu-qodu" gəzdirirdilər ha, günəşi çağırma, yaxud günəşi salamlama mərasimi. O mərasimdən qaynaqlanır Dodu, "günəşin ilk düşdüyü yer" anlamına gəlir. Amma indiki Doduya günəşin dəxli yoxdu. Aşağıda Şəkinin izi itən kəndləri var: Dodu, Sağıncax, Kosabəy... Bu kəndlər yoxdu hazırda, amma məzarlıqları qalır. Dağdan çıxan kimi günəş ilk o aşağıdakı Doduya düşür. O vaxt bolşeviklər təzə gələndə erməni-müsəlman davası olur, camaat da köçür yuxarı. Adı da özləriylə gətirib özlərinə yurd salırlar.

**– Bəxtiyar Vahabzadənin nəsli bu erməni-müsəlman davasından, repressiyadan necə təsirlənib?**

– "Şənbə gecəsinə gedən yol" kitabında bir az yazıb. Əmilərinin sürgünündən...

**– Bura uşaq bağçası olanda şair bura gəlibmi?**

– Çox... Həmişə burda məktəbə gedəcək olan uşaqlara məktəb ləvazimatları, çanta gətirirdi. Ərzaq payı da gətirirdi. Burda adamlarla oturub, söhbətləşib... Əmisi qızı Rüqəyya xanım deyirdi ki, Bəxtiyar müəllim uşaq olanda kömürü götürüb divarlara şeir yazırmış.

**– "Şəki" şeirində Bəxtiyar Vahabzadə bir məktubdakı "özünüz şəkili olduğunuz halda, hələ Şəkiyə bir şeir həsr eləməmisiniz" iradına cavab verərək yazır: "Bütöv vətənimə bütöv bağlıyam". Ürəyindəki Vətən sevgisini bölgələrə ayırmır. Bu, onun bir bəşəri şəxsiyyət kimi təqdir olunası düşüncəsidir. Amma mənə maraqlıdır ki, şairin, sizin dediyiniz kimi, xəzinəsində bu məhlədə yazılan bir şeir varmı? İnanmıram ki, bu məhlədə, bu dağla üz-üzə heç şeir doğulmasın...**

– Bəzi şeirləri var, amma kitaba salmayıb. "Seçilmiş əsərləri"nin birinci cildində yazır ki, özümün bəyənməyib kitaba salmadığım şeirlərim tədqiqat obyekti kimi götürülə bilməz. Yoxsa ruhum inciyər sizdən. Hər halda, siz dediyiniz cür şeirlər olmamış olmaz. Amma şairin üzə çıxarmadığı şeirləri indi üzə çıxarmaqla onun ruhunu incitmək olmaz.

**– Bayaqdan bir sual vermək istəyirəm, necə reaksiya verəcəyinizə əmin olmadığıma görə susuram...**

– Belə qudsal bir məkanda xətrə dəyilməz... Verin sualınızı.

**– Soyadınız Zəkəriyyəbəyli... Bəxtiyar Vahabzadənin babası Zəkəriyyə... Qohumluğunuz var?**

– Eyniadlı iki böyük kişi... Kökləri-əsilləri "Yuxarıbaş"dandı. Lap dərinə enməmişəm hələ... Ki, qohumluq varmı, yoxmu? İndi biz Qoxmuxluyuq. Niyəsini bir az uzun danışıb izah edəcəyəm. O vaxt "Yuxarıbaş" məhəlləsindəki bir az varlı təbəqənin əksəriyyətinin aşağıda əkin-biçin torpaqları olub. Bura dağdı, gördüyünüz kimi, burda elə geniş əkin sahələri yoxdur. Əkinə yararlı torpaqlar indiki Qoxmux, Dağdibi, Qışlaq ərazilərində olub. Babam Zəkəriyyə kişi də aşağıda məhşur Hacı Usub babayla torpaq

qonşusu olub. Sonradan qohumluq əlaqələri qurublar. Çətin vaxtlarda əhali yuxarıdan aşağıya doğru köçüb, əkinçiliklə daha bərk əllə məşğul olublar. Babamın qardaşları burda, "Yuxarıbaş"ın "Qobu" məhəlləsində yaşayırdı. Mən uşaq olanda görmüşəm onları. Babamın hansı ildə aşağıdakı torpaqlarda ev tikib yurd salmasını da dəqiq deyəmmərəm. Bir onu bilirəm ki, Qoxmuxda babama "Da Zəkəriyyə" deyiblər. Burda hər məhəllənin öz ləhcəsi olub. Babam "da"nı çox işlədib, ona görə belə deyiblər. Qıraq yerdən gələnlərsə babama "Calusların Zəkəriyyəsi" deyiblər. Çox araşdırdım, görəsən, bu "calus" nə deməkdi. Dörd il qabaq bildim, "calus" xanın möhürdarına deyilir.

**– Bəxtiyar müəllimin babası Zəkəriyyə kişi nəylə məşğul olub?**

– Bəxtiyar müəllim müsahibələrinin birində bunu vurğulayır. Deyir ki, "Yuxarıbaş"lılar dağçı olublar. Dağdan odun gətiriblər, kömür satıblar. Hamısının kömür quyuları olub. İndi də kömürçülük, bir balaca olsa da, qalıb, bir-iki dənə quyu var orda (əliylə Qurucana çayının axdığı dərəni göstərir). Amma o vaxt karvansaralar araba-araba kömür alırdı. Xanın sarayı kömürlə isinirdi. Yanacaq kömür idi də. Çörək bişirənlər, piti bişirənlər hamısı kömür alırdı. Ona görə deyirəm ki, bu dağlar yuxarıbaşlılara həm maddi, həm mənəvi dayaq olub. Mən istəyirəm ki...

*Baxışlarını məndən çəkib səmaya tutur, əllərini qoynunda çarpazlayır, yarıümidli, yarıgünahkar bir tərzdə sözlərini üzü göyə pıçıldayır:*

*– Əslində, o qədər şey istəyirəm, ay Allah, ömür yetər, görəsən?*

*...Sükut yenə saçlarını açıb tökür bu məhlənin başı üstünə... Çiçəklərin yanağında rəqs edən arıların nəğməsinə qarışır Elşən müəllimin "ah"ı... Hərəyə bir stəkan samovar çayı süzür, asta-asta udumlayır. Sonra da sözünə qaldığı yerdən davam edir:*

– "Yuxarıbaş" haqqında olan şeiri yazıb epiqraf kimi çərçivədə düzəltmək istəyirəm. Mən o vaxt Bəxtiyar müəllim haqda veriliş hazırlayanda belə bir giriş verdim: "Suların nəğməsi kimi..." Bizim bu dağlardan Soyuqbulaq, Qurddu bulaq, Lələli bulaq-hamısı gəlir Qurucana çayına tökülür. Çay gedir tökülür Dəyirman arxına, arx da Kiş çayına, Kiş çayı Əyriçaya, Əyriçay Alazana, Alazan Kürə, Kür Araza qovuşub gedir tökülür Xəzərə. Suların da bir xəritəsi var. Simvolik başlamışdım verilişi. Bəxtiyar müəllim burda doğulub, gedib Bakıda yaşayır, ordan Azərbaycana, türk dünyasına açılır.

*Yarıaçıq balaca qapıdan ard-arda qonaqlar girir. Elşən müəllim gülümsəyərək ayağa qalxır. O, qonaqları qarşılamağa gedir, mənsə çayımı içə-içə Bəxtiyar Vahabzadə poeziyasından yaddaşımda qalanları pıçıldayıram:*

Öz bədənim, öz canım dönüb mənə yük olmuş...
Tükənməyən həvəsim,
Yaratmaq ehtirasım arzuma dönük olmuş,
Söz dolaşır dilimdə,
Qələm əsir əlimdə,
Xəttim tanınmaz olmuş.
Vaxtın axarındakı köhnə nizam pozulmuş.

*...Elşən müəllim qonaqları yola salıb qayıdır, yerində əyləşib sual dolu nəzərlərlə üzümə baxır. Bayaqdan cavabını düşündüyüm bir sualı səsləndirirəm:*

**– Muzeyə elə qonaq gəlibmi ki, deyə: "Mən sırf Bəxtiyar irsinin tədqiqi üçün gəlmişəm, materiallar verin"?**

– Yox... Bir dənə qadın gəlib, qızlara (işçilərə) deyib ki, o şəkli mənə verin, rəssamam, işləyib gətirim. Hələ gözləyirik, gəlməyib... Məktəblərdən gələnlər çox olur.

**– Müşahidə edirsiniz də, o gələn uşaqlar, məktəblilər Bəxtiyar irsi haqqında nə qədər məlumatlıdırlar?**

– Qışlaq məktəbi var, aşağıda. Mən dedim ki, bax, uşaqlar gəlib ziyarətə. İndi gedib hərəsi bir vərəq götürsün, muzeyi necə gördülər, nə hiss etdilər, onu yazsınlar. Kim yaxşı yazsa, hədiyyə verək. Növbəti dəfə gələndə bir dəstə vərəqlə gəldilər. Amma oxudum, gördüm hamısı kitablardan, internetdən köçürülmədi. Uşaq səmimiyyəti, uşaq təəssüratı deyil. Sonra bunu bir də eləməyə ürək eləmədim. Gözləntim özünü doğrultmadı.

**– Bəs Bakıdan, Gəncədən, lap elə Gədəbəydən məktəblilər gəlirmi?**

– Hərdən... Məsələn, bayaq gələnlər. Gəncədə yaşayırlar. Ordan gəliblər. Bayaq Xan sarayının yanındaydım, məndən soruşdular ki, burda maşın saxlamaq olar? Dedim, hə. Xan sarayını ziyarət edin, aşağıda Şəki Dövlət Rəsm Qalereyasına da baş çəkin, Tarix-Diyarşünaslıq Muzeyinə də baxın. Sonra da vaxtınız qalsa, Bəxtiyar Vahabzadənin ev muzeyində sizi qarşılamağa şad olaram. Bir-birinə təəccüblə baxdılar ki, Bəxtiyar Vahabzadənin ev muzeyi var? Özü də burda, Şəkidə? Ətraflı məlumat verdim, yolu başa saldım. Mən bura gəldim, onlar getdi Xan sarayını ziyarət etməyə. Amma sözümü unutmayıblar, bax, gəldilər, bir stəkan çay da içdilər, muzeylə də yaxından tanış oldular. Onlardan da xahiş etdim ki, əllərinə Bəxtiyar dünyası ilə bağlı nə düşsə, gətirib eksponat kimi muzeyə hədiyyə etsinlər.

**– Sizin bu hər fürsətdə təbliğat aparmağınız necə də gözəldi... Adicə yol soruşana da muzeydən danışırsınız. Təbii, Şəkidə Bəxtiyar Vahabzadə haqqında məlumatı olmayan adam tapılmaz. Bakının o ictimai-ədəbi çevrəsini də kənara qoyaq, başqa bölgədən, məsələn, Gədəbəydən, Gəncədən, Qazaxdan heç sizə təklif gəlibmi ki, gəlin bu muzeylə bu muzeyi qardaşlaşdıraq, birlikdə bir tədbir keçirək?**

– Mən Qazaxda Səməd Vurğunun ev muzeyinə getmişəm. Səməd Vurğunun Bakıdakı ev muzeyinə də getmişəm. Hər iki muzeyin kollektivini də dəvət etmişəm... Cəfər Cabbarlının ev muzeyi ilə, Cəlil Məmmədquluzadənin ev muzeyi ilə telefonla əlaqə yaratmışam. İlk fürsətdə gedəsiyəm, söhbətlərimiz, müzakirələrimiz olasıdı. Şəhriyarın ev muzeyi ilə qardaşlaşmışıq. “Burda Bəxtiyaram, orda Şəhriyar...” Təəssüratlarımı bu başlıq altında yazıram. İki dəfə olmuşam orda, Hadi ilə görüşmüşəm. Bəxtiyar Vahabzadənin ev muzeyi açılmamışdan qabaq mən bütün türk dövlətlərinin səfirlərinə onun kitablarından hədiyyə etmişəm. Novosibirsk kitabxanasında, Kiyev şəhərindəki Səməd Vurğun adına kitabxanada şairin kitablarından ibarət ayrıca guşə yaratmışam. Muzeyimiz açılandan sonra Dərbənd Mərkəzi Kitabxanasıyla çox böyük əlaqələrimiz olub. Burdan ora getmişik, Dilarə xanım 27 kitab verib. Aparıb orda vermişəm, guşə yaratmışam.

**– Bəxtiyar Vahabzadənin ev muzeyi olaraq hansı tədbirləri keçirirsiniz? Daha hara ilə əlaqələriniz var?**

– Əsas əlaqələrimiz qardaş Türkiyənin Konya bələdiyyəsi ilədir. Orda Muammer bəy var, bələdiyyənin işlərini o səhmanlayır. Onlar muzeyimizə dəvət yolladılar ki, bəs gəlin, Bəxtiyar Vahabzadə adına parkı görün, orda Bəxtiyar dünyasına aid guşələrə baxın. Mən də getdim, burdan kitablar apardım çoxlu, bələdiyyəyə hədiyyə elədim. Məni orda televiziyaya dəvət elədilər, getdim, çıxış etdim, Bəxtiyar dünyasından danışdım, şairin öz yeni kitablarından və onun haqqında olan kitablardan televiziyanın fonduna hədiyyə elədim. Qaxdakı “Kürmük” ədəbi cəmiyyəti ilə, Qəbələnin, Oğuzun şairləri, yazıçıları ilə gözəl əlaqələrimiz var. Burda çox görüşlər keçiririk. Bəxtiyar dünyasına yaxın adamların xatirə gecələrini, anım tədbirlərini, yubileylərini keçiririk. Bəxtiyar Vahabzadənin oxuduğu 1 saylı məktəblə birgə həmişə böyük tədbirlər təşkil edirik. O tədbirləri albomlaşdırmaq istəyirəm. Aşıq Sakitin yubileyini keçirmişik burda. Aşıq Sakit Dərbənd-Şəki mədəni əlaqələrini yaradan adam idi. Özü də Aşıq Şəmşirin tələbəsi olub.

**– Dərbənd hara, Kəlbəcər hara, şəyirdlik hara? Maraqlıdı...**

– Dərbənddən Kəlbəcərə yaylağa gedənlər çox olurdu o vaxt. Aşıq Sakit uşaq olanda atası Aşıq Şəmşirə deyib ki, bəs bu uşağın saz xoşuna gəlir, buna öyrət. O da öyrədib. Aşıq Sakit Aşıq Şəmşirin sonuncu şəyirdi olub. Dərbənddə vəfat elədi, amma Şəkidə dəfn olunub. Sonra... ( baxışları bağı dolanır, qəfil nəyisə xatırlayır) Bu ağaclar var ha, onlardan bəzilərini Bəxtiyar müəllimin qohumları, bəzilərini də Çeşməli kənd məktəbinin kollektivi əkib. Məsələn, o söyüdü Çeşməli məktəbinin şagirdləri əkib.

**– Şəkidəki digər ev muzeyləri ilə əlaqələriniz necədi?**

– Yaxşı. O muzeylərə gələn ziyarətçilərə bu muzey haqqında məlumat verirlər, onları bura göndərirlər. Mən də öz növbəmdə həmçinin. Axundovun ev muzeyi haqqında Bəxtiyar Vahabzadənin bir şeiri var: “Saray-

daxma". O şeiri oxuyuram bura gələnlərə, deyirəm, olmusunuz orda? Biz hamımız qonaq sevirik... Millət olaraq qonaqpərvərik. O söz var ha, "qonaq qonağı istəməz, ev yiyəsi də heç birini", o sözü bir adam öz mənafeyi üçün deyib, deyən unudulub, sözü də indi atalar sözlərinə daxil olub. Özü qonaq istəməyən olub, bu sözü deyib də. Bir başqa söz, "el üçün ağlayan gözsüz qalar". Heç kimə heç nə eləmək istəməyən bir adam özünü duruya çıxarmaq üçün bunu deyib. Bu gün bu sözü kim əlində əsas tutur? Heç kimə yaxşılıq eləmək istəməyənlər. Bəxtiyar müəllim öz yaradıcılığında atalar sözlərindən, folklordan, hələ hədislərdən nə qədər istifadə edib... Amma yerli-yerində... İbrətamiz məqamlarda. Onun yaradıcılığında bu izlər çoxdur. Düzdür, yaşlı vaxtında yazdıqlarının çoxundan sonra imtina edirdi, bəyənmirdi, deyirdi: "Bu, qoca beyinin məhsuludur".

**– Yəni belə anladım ki, Bəxtiyar Vahabzadə gənc, aydın düşüncəyə daha çox önəm verirdi?**

– Hə... Gənclik çağı onun üçün ömrün qızıl dövrüydü. Dəfələrlə vurğulayırdı ki, uşaqlıqda gördükləri, eşitdikləri onun həyatında daha dərin iz qoyub. Məsələn, Bəxtiyar müəllim "Şənbə gecəsinə gedən yol" kitabında yazır ki, Şəkidə ən axırıncı qaçaq Qaçaq Abbas olub. Təxminən, 1938-39-cu illərdə təslim olub. Yekə şalın üstündə gətirmişdilər deyə, yazır. Deyir, uşaqdım, polislərlə qorodovoylar gəlmişdi. "Şalın arasında o qaçağın ölüsünü görmək, rusların o ölüdən necə qorxduğunu görmək beynimdə dönüş yaratdı" deyir... Bir faktı da deyim. Qaçaq Abbasın qızı Firəngiz müəllimə mənim sinif müəlliməm olub. Hüsnxəti o öyrədib bizə. Bəxtiyar sevgisini mənim qəlbimdə, bəlkə də, o əkib. 3-cü sinifdə oxuyurduq, mən nə bilirəm, Bəxtiyar adında şair var? Firəngiz müəllimə Bəxtiyar Vahabzadədən, onun yaradıcılığından danışırdı, bir vərəqdə "Gülüstan" poemasını oxuyurdu bizə. Dördüncü sinfin uşağı nə bilirdi "Gülüstan" nədi? Bizə danışırdı Azərbaycanın bölünməsindən, Bəxtiyar müəllimin istiqlal şairi olmağından... Onun kitablarından... (susur, təəssüflə köksünü ötürür) Kaş Bəxtiyar müəllimin bütün kitablarından gətirəydilər onu sevənlər...

**– Təbii... Bəxtiyar dünyasına aid kitablar gətirsələr, yaxşı olar. Bəs müəlliflər öz kitablarından da gətirsələr, elə imkan varmı ki, o kitablar sərgilənsin?**

– Kitab rəflərimiz azdı... Amma gələn hər kitaba sevinərik. Bura şairin ev muzeyidi, kitabdan başqa nə olasıdı ki?! Gələcəkdə bir kiçik kitabxana yaratmaq istəyirəm, gənclər üçün qışda yığışa biləcəkləri bir konfrans zalı olmasını istəyirəm... Çox şey istəyirəm, ömür vəfa edərmi? Bunu bilmirəm... Həm də hər şey üçün rəsmi icazə və göstərişlər olmalıdır.

*Bir mahnı yüksəlir dərə boyu... Burulur, burulur Qurucana çayının dağdan axan hissəsi kimi, gəlib dəyir ruhumuza; Sara Qədimova "Nədən oldu" oxuyur... Mahnı uzaqlaşdıqca xatirələr yaxınlaşır... Elşən müəllim ömür dolabının hansı rəfindən hansı kitabı götürüb açır, bilmirəm, mən tarzən Hüseyn Qəmbərovun ayaq üstə mənimçün "Nədən oldu" ifa etməsini xatırlayıram... Sonda da demişdi: "Bu mahnıya hər adam dalmır, ay qızım... Çünki hər adam anlamır. O anlayan ürəyini hər dərdə qurban verməz..." On il keçib o gündən. On il... Nəyi nəyə, kimi kimə qurban vermişəm, bilmirəm... Amma Bəxtiyar Vahabzadənin ev muzeyində oturub "Nədən oldu"nun sözləriylə dalıb getmək özü dərdə zəfər çalmaq idi...*

**– Bu məkanda bu mahnını dinləmək... Şah təsadüf!**

– Mən AzTv-dən kataloq gətirmişəm... Nə qədər Bəxtiyar müəllimin sözlərinə musiqi bəstələnib, kimlər oxuyub, bəstəkarı kimdi, hamısı var o kataloqda... Yadıma bir şey düşdü. Bir gün televizorda gördüm ki, Gəncədə bir oğlan Nizaminin şeirlərini götürüb eldən-elə gəzir. Tanıyarsınızmı, bilmirəm?

**– Əlişir Əhmədli. Yeddi dəfə "Nizami nurlu səyahət"ə çıxıb.**

– Hə, bax o oğlan. Təsirləndim... Dedim, gör nə gözəl iş görür. Mən də başladım Bəxtiyar poeziyasını eldən-elə daşımağa. Bucaq kənd məktəbindən başladım. Basqal, Lahıc, Qəbələnin Hacalı kəndi sonrakı getdiyim ünvanlar oldu. Hər yerdə də Bəxtiyar dünyasına yaxın insanların evlərində gecələdim. Samarada,

Orenburqda, Novosibirskdə "Bəxtiyar poeziya günləri"nə görə dəfələrlə "Fəxri fərman"lar almışam. Nijni-Novqorodda Azərbaycan Mədəniyyət Mərkəzi var. Orda yekunlaşdırdım səyahətimi. Bəxtiyar müəllimin kitablarını, şeirləri yazılmış diskləri payladım ordakı yurddaşlarımıza. Gəldim evə çıxdım. Bəxtiyar müəllim həmişə deyərdi ki, sən hər yerdə mənim kitablarımı paylayırsan, çox sağ ol. Dəyər verirdi bu işə...

**– Şairin bir şeiri var, "Örtmə pəncərəni". 1978-ci ildə Şəkidə yazıb. "Dünən yazdıqlarım köhnəlir bu gün" misrasını onda hansı hisslərlə, hansı təəssüratla yazıb, kimsə bilməz, amma kaş indi ona əyan olaydı ki, yazdıqları həmişəyaşıldı, heç köhnəlmir...**

– Əyan olar... Hərdən yuxuma gəlir Bəxtiyar müəllim. Onu yuxuda görən gün xeyir tapıram. Hələ bir dəfə də olsun yuxumda qaşqabaqlı olmayıb. Sevinirəm ki, narazı gəlmir yuxuma... Özünün dediyi kimi: "Ölü var ki, diridən də diridir, Diri var ki, ölüdən də ölüdür..." Bəxtiyar Vahabzadə həmişə diridi.

**– Şirməmməd müəllim müsahibələrinin birində demişdi: "Şirməmməd Hüseynovlar gəlib gedəcək, Bəxtiyar Vahabzadələr isə əbədi olaraq tarixdə qalacaq".**

*Əlimi ürəyimin üstünə qoyub hansısa misralarını pıçıldamaq istəyirəm Bəxtiyar Vahabzadənin... Ağlıma ilk gələn misralar bunlar olur:*

–Yaşadığım illəri ələklədim bir də mən,
Asandı bəyənməmək dərələri zirvədən...

*Elşən müəllim tamamlayır:*

– Ömrümün zirvəsində ötənləri daşladım,
Mən artıq yoxluğumu yaşamağa başladım.

**– Sizin Bəxtiyar sevginizə, ümumən, Azərbaycan sevginizə həsəd aparmamaq mümkün deyil... Özünüzün dediyiniz kimi, Bəxtiyar dünyasına bağlılığınız heyrətamizdir. Sizə bütün Bəxtiyarsevərlər adından təşəkkür edirəm. Gözəl ömür yaşayırsınız...**

*Qəhərlənir... Üzündəki gülümsəmədə qocaman illərin xatirələri əks olunur... Bu xatirələr haqqında bilməyə heç cəhd də eləmirəm. Əyilib arxamdan bir reyhan çiçəyi dərirəm, qoxusunu ciyərlərimə çəkirəm. Gözüyumulu Elşən müəllimin həzin pıçıltılarının üzü dağlara tərəf uçuşunu eşidirəm...*

– İstəmirəm tək yaşayam özüm üçün,
Oğlum üçün, qızım üçün,
Anam üçün, bacım üçün...
Qoyun məndən inciməsin əzizlərim,
Qəlblərinə toxunmasın bu sözlərim,
İstəyirəm mən yaşayam
Elim üçün...
Obam üçün...
İstəmirəm, tək onlara gərək olum,
İstəyirəm milyonlara kömək olum...



*Bəxtiyar Vahabzadə xəzinəsinin qoruyucusundan milyonlara gərək olmaq arzusundan başqa nə ummaq olar ki?!*

*Söhbətləşdi: **Şəfa Vəli***



**Çinarə ÖMRAY**

# HAMİLƏLİK TESTİ

İki gündü başhərlənməsi, ürəkbulanması məni rahat buraxmır. Qəribə hallar keçirirəm. Hansısa bir yeməyin qoxusu dünyanı başıma dar edir, ya da durduğum yerdə otağım başıma dövrə vurur.

Bu halım heç xoşuma gəlmir. İçimə yadplanetli girib. Məni o idarə edir. Ayağım havadan asılı, fırlanıram.

Bu gün də anamın səhər yeməyi üçün qızartdığı çörəklərin qoxusu məni hamama atdı.

Anam mətbəxdən mən eşidim deyə, səsinin yüksək yerinə salıb:

– Nolub ee sənə, hamilə arvadlar kimi?.. Bu axmaq virusdan tutubsan, deyəsən. Yaman gəzir bu zibil…

Bircə qapıya çıxmağımı xatırlayıram. Anam qapının ağzında gödəkcəmi geyinən yerdə yaxaladı:

– Hara?

– Aptekə.

– Niyə?

– Hamiləlik testi alacam.

Onu ələ saldığımı düşünüb arxamca:

– Özünü Məryəm hesab edirsən, deyəsən. Boşuna həvəslənmə, səndən İsa doğan çıxmaz.

Ciddi-ciddi hamiləlik testi alıb gəldim. Əvvəl əczaçı qızdan soruşdum, dedi, iki xətt çıxsa, demək, hamiləsən, əksi olanda yox.

Evə girər-girməz özümü hamam otağına atdım. Yoxladım. Əczaçı qız nəyisə səhv demişdi. Çünki dörd xətt çıxdı. İndi gəl bundan baş aç. Bu dörd qırmızı xətli hamiləlik testi elə gözəl görünürdü, adam istəyirdi, boyunbağı edib boynundan asa...

Anam:

– Noldu?

– Heç nə, İsa gəlir, özü də cüt-cüt.

(Bu anam da ömrü boyu məni ciddiyə almayıb).

– Bıy, nənəsi qurban onların cütünə də. Yol elə, gəlsinlər, – ardınca da. – Tövbə-əstəğfürüllah, – deyib işinin dalınca getdi.

Yox, bu belə olmayacaqdı. Hər yer mənə dar gəlir. Otaqlar sıxır məni. Evimizi elə bil kimsə bizə dörd il qabaq iki ölçü böyük satmışdı ki, gələn il də geyinərsiz. İndi əynimə dar gəlirdi. Sıxırdı məni. Qollarım evin pəncərəsindən çölə çıxırdı, başımı eyvandan içəri sala bilmirdim.

Nəysə ki, birtəhər özümü küçəyə atdım. Hara getdiyimi, niyə getdiyimi bilmədən gedirəm. Bildiyim bir həqiqət var, o da gödəkcəmin cibindəki dörd xətli hamiləlik testidi.

Beynimin içində ağ balaca soxulcanların gəzişdiyini hiss edirəm. Hətta gözümü yumanda görürəm də. Bacardıqca gözümü yummadan üzü “Gənclik” metrosuna tərəf düşürəm. Eskalatora minirəm. Mən düşdükcə əks tərəfdəki adamların sürətlə yuxarı qalxdıqlarını, qalxdıqca da mənə yuxarıdan aşağı baxdıqlarını hiss edirəm. Bu məni daha da dəli edir.

Birdən nə oldusa, bilmədim, hamı qışqırmağa başladı. Eksalatora nəsə olmuşdu, sürətlə aşağı gedirdi. Hamı çığırışır, hamı kömək istəyirdi. Eskalatorun sonundakı şüşə otağında əyləşib heç vaxt çalmayan telefonuna baxan balacaboy dolu qadın da çığırırdı. İlk dəfəydi

ki, o telefon da dayanmadan çalırdı, amma o qadın qorxudanmı, həyəcandanmı telefonun dəstəyini götürə bilmirdi.

Əlimlə cibimdəki dörd xətli hamiləlik testini bərk-bərk sıxmışdım.

Eskalator dayanmadan harasa gedirdi.

Sağ yanımda balaca bir uşaq peyda olmuşdu. Qəfildən əlimdən yapışdı. İkimizdən birimiz bərk qorxurduq. Uşaq:

– Gözünü yum, ürəkdən istə, dayanacaq. Qurtar bizi.

Uşağın əlindən bərk-bərk yapışıb bütün qəlbimlə bu cəhənnəmin bitməsini istədim. İnanmazsınız, dayandı.

Amma deyəsən, mən gözümü yumub ürəkdən istəyəndə o sürət hərəni bir yana atmışdı, biz də qaranlıq bir tuneldəydik: o uşaq və mən.

Uşaq üzümə baxıb hey gülümsəyirdi. İşıq fənəriydi gözləri, tuneli işıqlandırırdı. İçimdəki bütün ağrı da, boğulmaq da, qorxu da uçub getmişdi.

– Hara düşmüşük, görəsən?

Uşaq:

– İşığa.

– Bura qaranlıqdı, balaca!

– Qaranlıqların sonu işıqdı axı.

– Sən nə yaman çox bilirsən?

– Tanıdın məni?

– Yox.

– Gözlərimə bax, kimə oxşayıram?

– A-aa, ona. Bu, yuxudu, sən də onun uşaqlığısan, yuxuma girmisən, yəqin.

Əlimi dişlədi. Necə ağrıtdısa, az qaldım vuram uşağı.

– Başın xarabdı? Neynirsən sən?

– Yaxşı, hirslənmə. Dişlədim ki, görəsən, yuxu deyil də.

– Kimsən sən, hardan yanımda peyda oldun? Elə bil telefon oyununun içinə düşmüşəm.

– Gedək, görsədəcəm sənə. Bax, burdan o yana yolu tanıyram. Bir az gedək, qabaq işıqlıqdı.

– Sən uşaq deyilsən, liliputsan, deyəsən. Belə uşaq olar, a kişi, atamdan çox bilirsən.

– Vaxtından tez doğulub, böyüyüb, ölənlər belə olur.

– Of, səndən heç nə başa düşə bilmirəm. Qulaq as, bəs o adamlar noldu? Qışqırışan adamlar?

– Hərəsi öz həqiqətlərinin ortasına düşdülər.

– Ey kiçik Eynşteyn, hanı, bəs işığa çıxacaqdıq?

– Belə hövsələsiz oldun deyə, mənə qıydın?

– Çox rabitəsiz danışırsan, heç nə tuta bilmirəm. Başım dolaşdı.

– O işığa bax!

Doğrudan da, işıq gəlirdi. Nə qədər istəsəm də, bu çoxbilmiş uşağın əlin buraxa bilmirdim. Məcburən onu da özümlə dartışdıra-dartışdıra işığa çıxdım. Elə bir addım atırdım ki, uşaq qışqırdı.

– Ağılsız, dayan.

– Nə? Ağılsız?

– Ayağının altına bax. Göyün bir qatındayıq. Hara qaçırsan?

Bu nə idi axı? Qışqırmaq istəyirəm, səsim də çıxmır, lənətə gələsən.

Bu balaca adam əlimdən tutub dartır. Buludların üstündə gəzirik. Bu nə axmaq xəyal gücüdü, sən Allah? Yəni məni öldürəsən, yuxuda belə bu cür mənasız şey görmərəm. Buludun üstündə gəzmək nə idi?

Bildiyim odur ki, əsl zibilə düşmüşəm.

Uşaq məni gətirib bir təpənin üstündə oturtdu.

– Bax burdan görə bilirsən?

– Hə, bu, yuxudu deməyəcəyəm, çünki yenə dişlərsən.

– Sən məni daha çox incitmisən.

– Ey balaca, mən səni indi görürəm, necə incitdim ki?

– Bax ora, mənəm o. Məktəbə gedirəm. Mən

dünyanın ən çox bilən uşağı olacaqdım. İki yaşımdan danışmağa, gəzməyə başlayacaqdım. Mənə görə eviniz olacaqdı, bütün həyatınız dəyişəcəkdi. Bütün sıxıntılarınızın xilaskarı idim mən. Minlərlə adama həyat verəcəkdim, kömək olacaqdım. Siz tək məni yox, başqa adamları da öldürdünüz.

Uşaq uzaq bir buludun asta-asta bizdən uzaqlaşmasına baxıb, o yarpaq yaşılı gözlərini qırpmadan danışırdı. Heç nədən xəbərsiz halda dinləyirdim. Bu nə axmaq zaman kəsiyidi axı mən yaşayıram belə?

Uşaq nəfəsini dərmədən danışırdı:

– Alim olacaqdım, alim. Neçə-neçə əlacsız dərdin dərmanı da məndəydi…

Uşaq danışdıqca böyüyürdü.

– Sən kimsən axı?

– Sənin, sizin öldürdüyünüz…

– Mən heç kimi öldürməmişəm.

– Əllərin niyə qandı bəs?

Gödəkcəmin cibində həyəcandan bərk-bərk sıxdığım hamiləlik testi əlimi yaralamışdı, qan axırdı.

– Bu... bu, testin qanıdı. Lənətə gəlmiş əlimi kəsib.

– O, mənim qanımdı. Al, mən də səni öldürəcəyəm! – deyib, qəfildən məni durduğumuz bulud təpəsindən üzü dünyaya itələdi…





## Əbülfət MƏDƏTOĞLU

**VAXTI...**

Döyülmüş uşaq oluram
Könlümün təklənən vaxtı.
Sudan da yumşaq oluram –
Şumlanıb ləklənən vaxtı.

Qar tarlamış dağ oluram,
Çəpərlənmiş bağ oluram,
Allaha da ağ oluram –
Dünyadan şəklənən vaxtı.

Qəm yaxamı verib ələ,
Xatirələr ruha tələ.
Olmayıb yolumun hələ
Hardasa bəklənən vaxtı...

**TƏKLİYİN BİR ANI**

Bir susqunluq içində
Hənirim divarı cızır.
Həmin o cızıqlardan
Üstümə fikir sızır.

Aşa bilməsəm də mən
Divarın o üzünə,
Pıçıldayan görürəm
Divarı öz-özünə...

Susqunluq... divar... cızıq,
Ortada qalan da mən...
Sinəsi yazıq-yazıq
Bir daşam qalanda mən!

**YERİNDƏN**

*(Dörd divar arasının 1-ci şeiri)*

Başlayır, de, axır hardan?
Qəmimdi yanaq suvardan!..
Şəklimi götür divardan,
Şeirimi sən as yerindən....

Dişini sən dişinə sıx,
Dünənindən gözünü yığ.
Ürəyini çırparaq çıx –
Bax, dönəndə yas yerindən!..

Sevincin ki çıxır daşdan,
Kirpiyini ayır yaşdan.
Başla bu sevgini başdan,
Özünə ən xas yerindən!

**SAHİLDƏKİ DAN ÜZÜ**

Dolaşdığım sahildə
Bir tənhalıq hoylanır.
Uzaqdan gözü nəmli
Kədər mənə boylanır...

Ləpələrin nəfəsi
Ruhuma qəm çökdürür.
Dəniz mənə qoşulub
İçin-için hönkürür...

Nə qağayı, nə də ki
Balıqçı dəymir gözə.
Yaşadığım bu təklik
Sığışmır heç bir sözə.

Kabus kimi səssizcə
Təklik mənlə dolaşır ...
O, əl-ayağa deyil,
Ürəyimə bulaşır!

**YANIRAM**

Demə, üzündəki susqunluq nədi?
Məndən qaçırtdığın gözə yanıram...
Bəlkə, sənin üçün bu, bəhanədi,
İçimdə kül olan sözə yanıram...

Məhəbbət olandan dinim, imanım
Nə ahım duyulur, nə də amanım!
Ölən ümidimə gülən gümanım
Boylanır üzümə-üzə yanıram...

Əbülfət, sən içdə ha sızla, odlan,
Sənə gülümsəmir hələ də o Dan!
Kösövü közərən o soyuq oddan,
Könlümü qovuran közə yanıram!..

**SƏSİNİ**

Yaddaşıma köçürmüşəm gizlicə,
Aparacam özüm ilə səsini...
Üşüməyə, titrəməyə qoymaram,
İsidəcəm gözüm ilə səsini!..

Bir çəkilməz ağrı-acı, ah məndə,
Yerə-göyə sığmayan günah məndə.
Bəndən kimi diz çöküb, Allah, mən də
Qoruyacam dözüm ilə səsini!

Bax, düşmüşəm bir cığıra, bir vərə,
Aşılmazdı sel oynayan dağ, dərə.
Buludlara söykənən o minbərə
Çatdıracam sözüm ilə səsini!

...Ürəyini səssizliyin əzəndə,
Sən darıxıb səsin üçün gəzəndə...
Əlçatmazdı bu səs üçün məzənnə,
Ovudaram özün ilə səsini!

**TƏƏSSÜRAT**

Bir yaşıllıq içindən
Keçirtdim ürəyimi.
Təbiətə bir anlıq
Köçürtdüm ürəyimi.

Bir tərəfdə duman, çən,
Sel bir yanda kükrəyir,
Mürgülü yarpaqlar da
Yel əsdikcə titrəyir...

Gözüm dağda, ormanda,
Xəyallanmış kimiyəm.
Ürəyim isə onda –
Mən bir sevgi himniyəm!

Amma ömrün yaxası
Burda da qəm əlində.
Sındım könlün ağası
İstəyimə güləndə!

**DƏNİZ**

Danışdırır ruhumu
Üzümə gülən dəniz.
Əhvalımı fəhm ilə
Anlayıb bilən dəniz.

Bir həsrət var içimdə,
Çatmır ona gücüm də!
Mənim dünyam biçimdə
Ağrımı bölən dəniz.

Durdum üzü sahilə,
İçim dolu ah ilə...
Eşq adlı günah ilə
Bu mənəm ölən, dəniz!

**AMMA**

Bir qığılcım alışdı
Kirpiyimin ucunda.
O titrəyiş yaratdı
Ürəyimin suçunda.

Ruhumu isidən meh
Yaddaşı silkələdi.
Xatirə dəftərini

Min yerə tikələdi...
Öz içimdə gəzişib,
Boyun ölçdüm yolların...
Amma aça bilmədim
Mən ümidin qolların!

## ATILMIŞ ADAM

Mən Qibləsi bəndə olan,
Qırıq-qırıq, dən-dən olan,
Varlığı da səndən olan,
Bükülüb atılmış adam...

Yerə yamaq, göyə ləkə,
Nə yeriyə, nə də səkə...
Yaratmısan, fikir çəkə
Sökülüb atılmış adam.

Vurub atır əl-ayağa,
Dolaşdıqca əl ayağa!
Oxşamır heç bir boyağa
Tökülüb atılmış adam.

Sıxıb ürək cinahından,
Şirə çəkir gün ahından.
Allah, sənin günahından
Bükülüb atılmış adam!

## DUYĞULARIN İFADƏSİ

Dörd divar içində mən axşam, sabah
Nəyə baxıramsa, səni andırır...
Məni özüm deyil, bilir ki, Allah
Tapdanan hisslərin ahı yandırır!..

Heç vaxt düşünmədim hansısa yolla
Səni öz qarşımda borclu eləyim.
Yalnız istədim ki, adi "sağ ol"-la
İnsanlıq payıma savab bələyim!

Yalançı məsumluq, ya da "ağrımaq"
Müqəddəs sevgiyə xəyanət olar!
Məqsədli şəkildə gülüb-ağlamaq
Üç günlük, beş günlük səyahət olar...

Sənə gülünc gələn duyğularımı
Tapda olduğutək, gör olduğutək!
Amma varlığından duyduqlarımı
Geri alammazsan, ha çarmıxa çək!

...Dörd divar içində mən axşam, sabah
Nəyə baxıramsa, səni andırır...
Məni özüm deyil, bilir ki, Allah
Tapdanan hisslərin ahı yandırır!

## PƏRVANƏ RUH

*("Bir qadına..." silsiləsindən)*

Bu mənasız cismimin
İçində can əzirəm!
Cismimi dəfn etməyə
Uzaq bir yer gəzirəm...

Ora nə sənin əlin,
Nə də xəyalın çatsın.
Ürəyində xatirəm,
Orda da cismim yatsın!

Gördükcə göz ağrıdan
Cismimdən qurtul sən də.
Ruhum pərvanən olsun –
İşimi görüm mən də!



## QİYABİ SÖHBƏT

*("Bir qadına..." silsiləsindən)*

Özüm özümə göz dağı,
Özüm özümə kəndirəm.
Özümə həm qürub çağı,
Həm külü soyumuş təndirəm.

Qaça da bilmirəm uzaq,
Boğulur, çıxmır nəfəsim.
Bürüyür içimi sazaq,
Donur gözümdə həvəsim...

Qupquru odun parçası –
Əlim, oxşanmır diz üstə.
Xatırlasan, kirpiyindən
Damlaları dər, düz üstə!..

Eh... bir də niyə özünü
İttiham edəsən axı?!
Söndür xatirə közünü,
Qaçılmazdı qürub çağı...

## KİMSƏSİZ ÜRƏK

Ağrıdan partlamaq həddinə çatıb,
Sıxıb ovuşdurmaq işə yaramır.
Tanrı unutduğu bəndələrdənəm,
Kimsə xatırlamır, kimsə aramır...

Aldığım nəfəs də tikanlayıbdı,
Dilimin ucunda qan ləkəsi var.
Həsrət barmaqların xınalayıbdı,
Görünür, onun da səksəkəsi var!

Birdi dayaq nöqtəm, O, ümid Qibləm,
Gözümün içindən O, mənə baxır!
Onun baxışından – "Döz, bir az da döz!" –
Mənim baxışımdan "Ölüncə!" – yağır...

## QAÇA BİLMƏZSƏN

*(Duyğu kökənli ovqat şeiri)*

Dərman, həm də həkimsən,
Bu dünyada TƏKimsən!
Sən sevməyə təhkimsən –
Qaça bilməzsən ondan!

Olmayaydı , – demə kaş...
Bil, itkidi ötən yaş!
Ömrün boyu sən də baş
Aça bilməzsən ondan!

"Ah, calaqlı, ah" – da gül,
Gül ətri var, ahda, gül!
Sən qədərə bax da, gül –
Qaça bilməzsən ondan!

Bu, gerçəkdi yüzdə yüz,
Qalıb çöldə, düzdə düz.
Ha desən də əlin üz,
Qaça bilməzsən ondan...





# "İSTƏRƏM Kİ, VƏTƏNİMDƏ QANIM RƏNGLİ BİR KİLİDLƏ AZADLIĞA YOLLAR AÇAM"

*Sən doğuldun qeyrətindən, cürətindən, Mərziyyəcan,*
*...Sən vuruşdun əlindəki silahla yox,*
*Qəlbindəki imanınla, inamınla.*
*Həkk elədin öz adını sən tarixə öz qanınla.*

***Bəxtiyar Vahabzadə***

**Pərvanə MƏMMƏDLİ**

Onlar azacıq zaman fərqləri ilə eyni şəhərdə doğulmuşdu, özlərini də bir məslək, eyni əqidə birləşdirirdi. Səməd, Əlirza və Mərziyyə... Üçü də inqilabi hərəkata qoşulmuşdu və yerli partizan dəstəsinin fəalları idi. Döyüşkən ruhlu bu gənclərə Tanrı tərəfindən bir qabiliyyət – yazıb-yaratmaq bacarığı da verilmişdi.

O illərdə bütün dünyada Tələbə hərəkatı baş qaldırmışdı. Başında üstü ulduzlu qara beret gəzdirən Çe Qevara dünya gənclərinin azadlıq simvoluna çevrilmişdi. Kubalı Çe Qevaranın "Realist olun, mümkün olmayanı tələb edin" çağırışı bütün inqilabı düşüncəli gənclərin şüarı olmuşdu.

Bu cavanlar yaşadıqları ölkədə şah Pəhləvi rejiminə qarşı olan "Siyahkəl silahlı üsyanı" – Gənclər hərəkatına qoşulmuş yoldaşlarının etibarını qazanmışdılar. 1967-ci ildə İran boyu yayılan bu tətilə Təbriz Universiteti tələbələri də qatılmış, onun genişlənib böyüməsinə səbəb olmuşdular.

Üçü də ana dilinin vurğunu və qoruyucusu idi. Təbrizdə doğulan bu gənclərin ən qudsal arzuları pedaqoq olmaq, məktəbdə uşaqlara ana dilini öyrədib sevdirmək, bu dildə əsərlər yazıb yaymaq idi. Xalqın sevimlisi, görən gözü, dərdlərini, ağrılarını danışan dili idilər.

Yaşadıqları ölkədə siyasi səbəblərdən doğma dilləri yasaq olduğundan onu ancaq evdə-eşikdə danışa bilirdilər. Elə buna görə də əsərlərini iki dildə, həm ana dilində, həm də farsca yazmaq məcburiyyətində idilər.

Bir araya gəlib marksist bir qrup yaratdılar. Peşəkar bir döyüşçü oldular, qələm və silahı birləşdirib o zamanlar xalqa xidmət etmək üçün yeganə çıxış yolu olan gizli inqilabi həyatlarına başladılar.

Günlərin bir günündə Səmədin Araz çayının ən dayaz yerində "boğulub" öldürülməsi dostlarına çox pis təsir etmişdi.

Taleləri oxşar olan bu gənclərin qədərləri də, təəssüf ki, faciəli və oxşar oldu. Hələ 30 yaşa və kama çatmamış həyatdan ayrıldılar. Amma öz əcəlləri ilə də ölmədilər. İkisi edam olundu, biri isə Araz çayında boğduruldu.

Söhbət Səməd Behrəngidən, Əlirza Nabdil Oxtaydan və Mərziyyə Əhmədi Üsküyi Dalğadan gedir.

Səməd Behrəngi (Behruz Dehqani də daxil) İranda Mərziyyə Üsküyi ilə bərabər uşaq

ədəbiyyatını ilk yaradanlardan oldu. Əlirza Nabdil Oxtay isə Güney Azərbaycanda çağdaş poeziyanın əsasını qoydu.

Sizə Mərziyyə Əhmədi Üsküyi Dalğanı yaxından tanıtmaq istəyirik. Mərziyyə Üsküyinin doğum günü Güney Azərbaycanda ilk Milli Hökümətin qurulduğu 1945-ci ilə təsadüf edib. Mərziyyə Üsküyi İranda ilkinlər və inqilablar beşiyi olan qədim Təbrizin yaxınlığında yerləşən Üskü qəsəbəsində əkinçi ailəsində anadan olub. Bağlı-bağatlı yaşıllıqlar içində qərq olan Üskünün sakinləri çox çalışqanlığı və zəhmətsevərliyi ilə seçilirdi.

Mərziyyə uşaq yaşlarından ehtiyac ucbatından atasının yanında tarlada işləməyə başlayır. Yoxsul kəndlilərin ağır və fəlakətli həyatı onun qəlbini sıxır və düşündürürdü. O, ibtidai və orta məktəbin 9-cu sinfini doğma Üsküdə bitirdikdən sonra Təbrizdə pedaqoji məktəbə daxil olur. İki il orda təhsil aldıqdan sonra Üskü məktəblərində dərs deyir. Müəllimliklə yanaşı, Təbriz universitetində də oxuyur, orada solçu cərəyanlar və marksizm ədəbiyyatı ilə tanış olur. Xalqın ağır vəziyyəti, ağrı-acıları Mərziyyəni gənc yaşlarından inqilabi fəaliyyətə cəlb edir. Elə o vaxtlardan Mərziyyə solçu düşüncəli (Marksist) olmağa, hüquqları əlindən alınmış xalqın azadlığı uğrunda mübarizə aparmağa üstünlük verdi.

Dostları onu Mərcan (Mərziyyəcan) deyə çağırardılar. İlk qələm təcrübəsi "Dalğa" adlı şeiri olur. Elə o zamandan "Dalğa" təxəllüsünü götürür.

Müəllim kimi çalışan Mərziyyə şagirdlərlə, onların ailələri ilə yaxın ünsiyyətdə olurdu. Məsləkdaşı və pedaqoq kimi tanıdığı Səməd Behrənginin təhsil və təlim sahəsindəki düşüncə və axtarışlarını mənimsəyib yola çıxmışdı. O, Təbriz universitetində bir müddət oxuduqdan sonra təhsilini tam bitirmədən yeni üfüqlər açmaq üçün Tehranın "Bilik ordusu" Ali Akademiyasına daxil olur. Bu dövrdə davamlı, dərin araşdırmaları ona elmi fəlsəfə ilə tanışlıq, xüsusən cəmiyyətin təkamül qanunları və sinfi fərqləri, "kapital" düşüncəsi barədə bilgilər verdi. Həmin təhsil müəssisəsinin Varamin şəhərində yerləşməsi də Mərziyyəni sevindirirdi. O, yaxınlıqda olan fars və türk kəndlərini gəzməyə, kənd məktəbləri ilə tanış olmağa, habelə kəndli uşaqlar üçün "Kitab evləri" yaratmağa çalışırdı. Vaxtının çox hissəsini Varamində kasıb kəndli ailələrinin içində keçirirdi. İnsanları və problemlərini daha yaxından tanımaq üçün Azərbaycanın ucqar və yaxın bölgələrindəki kəndlərə də gedirdi. Məhz bu səfərlər, tanışlıqlar onun yaradıcı və həssas qəlbində, hafizəsində izlər qoyub qarışaraq kağıza köçürülür, qəlbləri fəth edən hekayələrinə və şeirlərinə zəmin hazırlayırdı.

Onunla yaxından tanış olan xanım Siddiqə Fərasəti bu azərbaycanlı qızında müşahidə etdikləri barədə yazırdı: "Mərziyyə Əhmədi Üsküyi ilə "Bilik ordusu"nda tanış oldum. Mən bilmirdim, o, silahlı mübarizənin atəşin tərəfdarıdır. Elə ilk görüşdən onun səmimiyyətinə və mətin rəftarına vuruldum. Onunla tanışlıq məni heyran qoydu. O, çox mətin və qorxu bilməyən bir adam idi, həmçinin tədbirli, hərəkətlərində, baxışlarında ardıcıl və yüksək bilik səviyyəsinə malik bir mübariz idi".

O, tələbə tətillərinin fəal iştirakçılarından biri idi. 1970-ci ilin martında tələbə tətillərində də aparıcı rol oynadı, tələbələrin etiraz nümayişlərinə rəhbərlik edən Mərziyyəni qarabaqara izləyirdilər. Bu səbəbdən o, 1971-ci ilin iyun ayında həbs olunub dindirilmiş və işgəncə verildikdən sonra nəzarətə götürülmüşdü... Dostları ilə birlikdə şah məhbəslərinə atılan M. Üsküyi sonralar zindan həyatı haqqında xatirələr yazdı.

Onun adı SAVAK-ın (Şahın Təklükəsizlik Xidməti) qara kitabına düşmüşdü. Hər addımı şah rejimi agentləri tərəfindən qeydə alınır, yuxarılara çatdırılırdı. 1973-cü ildə SAVAK cəlladları ilə silahlı toqquşmada Mərziyyə Üsküyi həlak oldu.

Mərziyyə məslək dostları Behruz Dehqani və Əlirza Nabdil ilə Tehrandakı Behişti-Zəhra qəbiristanlığında dəfn edilib.

Mərziyyənin faciəli ölümündən sonra onun adı əbədiləşdirildi. Vaxtilə açdığı keçilməz çığırlar böyüyüb nəhəng bir yola çevrildi. Ədəbiyyatda obrazı bədiiləşdirilib yaşadıldı. Əsərləri araşdırıldı. Amma bunlar onu tanıtmaq üçün hələ də də yetərincə deyil.

Mərziyyə Üsküyini Əzizə Cəfərzadə, Mirzə İbrahimov, Söhrab Tahir, Həmid Məmmədzadə, Mehdi Pənahi, Sabir Nəbioğlu, Məmmədrza Kərimi və Lətifə Mirzəyevanın yazılarından, eləcə də ona həsr edilmiş Bəxtiyar Vahabzadənin "Mərziyyə", Balaş Azəroğlunun "Şairə Mərziyyə Üsküyi", Mədinə Gülgünün "Mərziyyə" və Sabir Rüstəmxanlının "Hər kəs günəşi sevsə" kimi poemalarından tanıyırıq.

Mərziyyə Üsküyi özündən sonra fars və türk dilində zəngin irs qoymuşdur. O, hər iki dildə yazmış, fars dilində yazdığı qələm məhsullarını türk dilinə və əksinə, doğma dilində qələmə aldığı poetik nümunələri fars dilinə tərcümə etmişdir.

Güneydə onu yaxından tanıyanlardan biri – güneyli araşdırıcı Məmmədrza Kərimi "Azərbaycan aydınları" kitabında Mərziyyə haqda yazır: "M. Üsküyi şahın əleyhinə silah və qələmiylə savaşa girdi. İranın və Güney Azərbaycanın azadlığı və istiqlalı yolunda şəhid oldu. Bütün bunlar onun həm türkcə, həm də farsca yazdığı şeirlərdə və hekayələrdə öz əksini tapdı. Həqiqətdə xalqın eşqi, dərdi onu mübarizəyə aldırmışdı. O, müəllim işlədiyi vaxtlarda istibdadla mübarizə aparan insanların sırasına qoşuldu və sonradan ən aktiv inqilabçıya çevrildi. Ümumiyyətlə, bu işdə müəllimlər tarixən xalqın, kütlənin önündə getmişlər. O da kəskin qələmi, şeirləri ilə Azərbaycan dilini, mədəniyyətini sevdiyini bizə çatdırmışdır".

Ömrünü Fransada siyasi mühacirətdə başa vuran məşhur təbrizli yazıçı, dramaturq Qulamhüseyn Saidi M. Üsküyi haqda yazırdı ki, o gözəl şeirləri və dərin fikri ilə öz dövrünün ziyalılarından, eləcə də qadın hərəkatının öncüllərindən olmuşdur.

Dünya şöhrətli yazıçı, "İranda yeni ədəbi tənqidin babası" sayılan Kanada universitetinin professoru, təbrizli Rza Bərahəni "Məhkum və təhkim mədəniyyət" əsərində onu dövrünün ən kəskin və cəsarətli şeirlərini yazan bir yazar kimi dəyərləndirmişdi.

Mərziyyə Üsküyi göstərdikləri hünər və qəhrəmanlığı ilə tarixdə ad qoymuş qadın sələflərini öz varlığında yaşadan döyüş, mübarizə və qələm sahibi idi.

O, milli zülm və ayrı-seçkilikdən əzab çəkirdi və şah rejiminin qadınlara olan münasibətindən narazı idi.

Onun ilk kitabı 1974-cü ildə gizli şəraitdə nəşr edilmişdi. 1981–1994-cü illərdə isə Bakıda Mirzə İbrahimovun rəhbərliyi ilə hazırlanmış 4 cildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası"na "Mən və Daməvənd", "Dalğa", "Əşrəf Dehqani üçün", "Ölməz Çerik" şeirləri və "İlk ölüm təcrübəsi" adlı hekayəsi daxil edilmişdi. M.Üsküyi fədai yoldaşlarına bir neçə şeir ithaf etmiş, xatirə yazıları kimi yazmışdır. "Mən və Daməvənd", "Fədai ölməz", "Məhbus", "Şəhid kargər", "Böyük yoldaşımız Həsən Novruzinin xatirəsinə", "Proletar", "Məhbəsdəki yoldaşlar üçün xatirə", "Yoldaşların xatirəsinə", "Dalğa", "Əşrəf Dehqani üçün", "Ölməz Çerik", "İlk ölüm təcrübəsi" adlı əsərlərində o, görmək istədiyi gələcəyin poetik konturlarını cızmış, arzu və istəklərini ifadə etmişdi. Onun farsca yazdığı "Qaraçılar", "Əli Əsgər Herisinin həyatı" və bir neçə başqa nəsr əsərləri hələ çap olunmayıb.

"İftixar" adlı bir şeirində döyüşkən ruhlu qadının xarakteri, daxili aləmi canlı və gözəl boyalarla verilir: "Mənim bütün varlığım əməklə yoğrulmuşdur. Aclığımın qondarma, lütlüyümün əfsanə olduğunu iddia edənlər nə qədər şərəfsizdir. Mən bir qadınam ki, onun varlığını ifadə edən heç bir məfhum sizin bədnam mədəniyyətinizdə öz əksini tapmamışdır… Mən bir qadınam ki, zəhmət, əmək ona silah tutmaq qabiliyyəti də bəxş edib". "İftixar" adlı şeiri ona aid etsələr də, bəziləri şeirin ona məxsus olmadığını, Pəri Qəzali Ayətiyə aid olduğunu yazır. Bunu mütəxəssislərin öhdəsinə buraxırıq.

Mərziyyə Üsküyi çox zaman həyatın küncə sıxışdırdığı kasıb ailələrin arzularından və ağrılarından yazırdı. Sonuncuları yaradan səbəbləri göstərməyi unutmur, mücadiləyə və işıqlı gələcəyə ruhlandırırdı:

İstərəm ki, vətənimdə
Qanım rəngli bir kilidlə
Azadlığa yollar açam.
Mən hamanam,
Zülmü öz əliylə boğan
İstiqanlı türkmənəm.

İstəyirsən, deyim kiməm?
Mən oyam ki,
Öz xalqımın qızıl qanlı harayını,
Tüfəngimin boğazıyla,
Vətənimin zülm əliylə alovlanan
Göylərinə hay salıram.

Məşhur "Dalğa" şeirində söylədiyi kimi, "Varlığımız çalışmaq, yoxluğumuz dayanmaq" prinsipi ilə keşməkeşli həyat yolllarına çıxan şairi nə yolun uzaqlığı, nə qaranlıq çuxurlar, nə də durğunluq həvəsi yoldan saxladı:

Xırdaca arxlar üçün
Yeni həyat doğular...
İndi qarışmışam mən
Qurtulmaz dalğalara.

Onun şeirləri dil, kimlik, yasaq acısından tutmuş, dövrünün sosial-ictimai məsələlərinə, dərdlərinə qədər hər şeyi içinə alır.

Məsləkdaşı və həmkarı Səməd Behrənginin məşhur "Balaca qara balıq" hekayəsindəki balaca balıq kiçik arxlardan ümmanlara, okeanlara yol almaq istəyirdisə, Mərziyyə dərs dediyi uşaqların əzbər bildiyi A. Şaiqin "Keçi" şeirinin sonuncu misralarını, Bəxtiyar Vahabzadənin təbirincə desək, dəyişdirib onlara cəsarət dərsi verir, azadfikirlilik aşılayırdı:

Bir qurd çıxsa qarşına,
Sən nə edərsən ona?
"Var gücümü toplaram,
Buynuzumu o qurdun
Sinəsinə saplaram".

O da sələfi, tanınmış şair Həbib Sahir kimi al günəşin vurğunu idi. Şeirlərində günəşi epitet kimi daim işlədirdi. "Mən günəşi sevirəm" adlı şeirində yurduna qaranlıq hakim olduğundan hər yanı böhtan, yalan bürüdüyünü gündüzlərini günsüz başa çatdırdığını yazır.

1971-ci ilin may ayında "SAVAK" tərəfindən tutulub, uzun sorğu-sualdan sonra buraxılıb Üsküyə (ev dustağı kimi) sürgün edilən M.Üsküyi həm ədəbi yazılar yazır, həm də şagirdləri ilə çalışırdı. Tanınmış ictimai xadim, şair və tarixçi Məhəmmədtağı Zehtabinin rejimin ana dilində təhsilə, nəşriyyələrə və danışığa qoyduğu yasağa qarşı qələmə aldığı məşhur "Sən osan, mən də buyam" şeirindəki:

Su deyibdir mənə əvvəldə anam, "ab" ki yox,
Yuxu öyrətdi uşaqlıqda mənə, "xab" ki yox.
İlk dəfə ki çörək verdi mənə, "nan" demədi.
– etirazına səs verərək

Niyə mənim anam "madər",
Atam "pedər" – olsun?

– yazan M.Üsküyi şeirlərində daima ürəyindəki ana dili yanğısını dilə gətirir, M. Zehtabi kimi, məktəblərdə Ana dili adı altında fars dilinin öyrədilməsi ilə heç cür barışmırdı.

Mərziyyə Üsküyi Əşrəf Dehqaniyə ayrıca bir şeir həsr etmişdi. O Əşrəf xanıma ki, Səməd Behrənginin məsləkdaşı və yaxın dostu Behruz Dehqaninin bacısı və İran Xalq Partizanları-Fədailəri təşkilatının qurucusu idi. SAVAK tərəfindən dəfələrlə həbs olunan Əşrəf Dehqani ağır işgəncələrə məruz qalmışdı. Lakin o, həbsdən qaçmağı bacarıb "İranda işgəncələr və mübarizə" kitabını yazmışdı.

Əsərdə belə bir epizod var. Məktəbdə uşaqlara suallar yazdırıb cavablandırmağı tapşırırlar: "Barmağını kəssən, neyləyərdin? Topunu itirsən, neyləyərdin?.." sualına qarşılıq olaraq müəllif yazır:

Çılpaq ayaqlara, ac qarınlara
Topdan danışmağın mənası yoxdur.
İşdən baş açmırlar oynamaq üçün,
Soruşmalı dərdlər onlarda çoxdur.

Hansı topu var ki, itirsin onu?
Ac-ac işləməkdən gəliblər cana.
Əlləri kəsilir dəfə döyməkdən,
Barmaqdan necə mən danışım ona?

M.Üsküyi çalışdıqları üçün tez-tez barmağı kəsilən və axan qanı dayandırmaq üçün onu soran bu uşaqlara belə yava sözlərin heç lazım olmadığını bildirir. Bəlkə də, topun nə olduğunu bilməyən, topu olsa da, topla oynamağa işləməkdən vaxt tapmayan məktəblilərə kədərlə: "Ərbablar Allahi yaradıb sizə, Zülm qazanlarında qaynamağa" – söyləyir.

Müəllif balaca dostlarına mübarizlik və döyüşkənlik aşılayır, heç bir vəchlə ruhdan düşməyə qoymayıb işıqlı gələcəyə səsləyir:

Bir gün çatacağam, gözləyin məni,
Ayağım çatmasa, fikrim çatar ki,
Heç zaman düşmənə satmaram sizi,
Dərin böyük eşqin, kimsə atar ki?
Gözləyin, gələrəm bir gün yanıza,
Hamımız birləşib yola düşərik
Məhəbbəti və eşqi bütün ellərə
Paylarıq, hamımız, gözəl yaşarıq.

Güneyin tanınmış tədqiqatçılarından olan Mehdi Pənahi Mərziyyənin həyat və yaradıcılığı barədə qələmə aldığı “Dalğalar qoynunda” adlı məqaləsində yazırdı: “Mərziyyə azərbaycanlı qızı idi. O da milli zülm və sinfi məhrumiyyətlərdən əzab çəkirdi. Fərdi və ictimai ədalətin ayaqlar altında tapdanmasından təngə gəlmişdi. Şahlıq rejiminin qadınlara olan münasibətindən narazı idi”.

Tanınmış tədqiqatçı Sabir Nəbioğlu bir məqaləsində yazırdı: “Mərziyyə Üsküyi həm döyüş əzminin, həm də yaradıcılıq ehtirasının qovuşduğu bir ümman yadigar qoyub getmişdir”. Başqa bir araşdırıcı Lətifə Mirzəyevanın bu sözləri ilə razılaşmamaq olmur: “M.Üsküyinin evi səngər, sevgilisi silah, qucağının körpəsi tüfəng olmuşdur. Onun məhəbbət söyləmək üçün yaranan dodaqları insanları mənfur şahlıq rejiminə qarşı üsyana çağırmışdır”.

Mərziyyə Üsküyinin farsca və türkcə əsərləri, təəssüf ki, hələ də toplu olaraq çap olunmamışdır.

Şeirlərinin birində “Zaman naqqa balıqtək Uddu cocuqluğumu.

İndi dəmirdən tüfəng, Hesabsız fişəng gərək” yazırdı Mərziyyə Üsküyi.

Eyni zamanda, özünün də dediyi kimi, “Həyatımla öz hekayəmi yazmaq istəyirəm” söyləyən inqilabçı bunu həm qələmi, həm də həyatı ilə doğruldub göstərə bilirdi.





## Aysel NƏSİRZADƏ

### QURUDULMUŞ ÇİÇƏKLƏR

Qurudulmuş çiçəklərdən
gül ətri gəlməz, bəlkə,
ancaq xatirə qoxusu var
ruhu saran.
Hər kəsi bir gün keçirəcək
həyat ağır sınağından,
oğurlayacaq
ən məsum gülüşlərini dodağından.
Kirpiklərin nəm qalan hissəsindən
asılacaq ümidlər.
Yalnızlığın rütubətindən
yosun tutar ürəklər.
Uzaqlaşdıqca uzaqlaşarsan
ən yaxın saydıqlarından,
qürub çağı doğmalaşar,
sübh çağı soyuyarsan həyatdan...

### KÖRPƏLƏR EVİ

Dünyaya gələn hər körpə
sevgidən doğulmur.
Sevgisizlikdən yaranan uşaqlar tamamlayır
körpələr evinin siyahısını.
Ana sevgisi, ata zəhmətiylə böyümür onlar.
O körpələrin ahıdır
göydəki qara buludlar, lənətlənir Yer üzü.
"Ana" kəlməsini
söyləyə bilməyən körpələrə
"Balam" xitabı da gərəksiz,
dayə nəvazişi də soyuq.
Necə inanaq xoşbəxt gələcəyə?
Bu sevgidən kasıb körpələr
Böyüyəcək taleyini söyə-söyə
Ehtiyacdan töküləndə küçəyə...

***

Dibçəklərə əsir edilən güllərin
Özgürlüyü yoluxa ürəklərə.
Sevgi hissiylə bəslənən, əzizlənən
Qanadlanıb uçmadan
Ruh vücuda sarılaraq yaşaya azadlığı.
Bu dünyanı cənnət edə
O dünyada cənnətə qovuşmaq istəyənlərin
saflığı.

### YOL BİR NƏFƏS

Öz dibinə kölgə salmaz
Şam ağacı.
Dərd gözünü zilləyər,
Sevinc baxar qıyğacı.
Həyatları ölçər zaman,
Ömür adlı
Bir gün gəlib keçmək bilmir,
İllər isə yel qanadlı.
Uzaq gəlir hər şey, uzaq –
Ümid əsir, arzu əbəs.
Bu dünyadan o dünyaya
Uzaq deyil yol – bir nəfəs…

***

Lupanın bir üzünü tutsaq ümidimizin ən
xırdaca zərrəsinə,
Bir üzünü günəşə.
Yenidən alov alsa ümidlərimiz,
Buz bağlayan qəlbimizi sarsaq
Ümid dolu atəşə.
Ömrü əmanət etsək
İkicə xoş kəlməyə,
Bir içdən gələn gülüşə
Yaşayıb getsək belə…

## HƏSRƏT İLMƏ-İLMƏ HÖRƏR PAYIZI

Göylər qara bulud libasın geyər,
Sapsarı saralar yerin bənizi.
Rüzgar gah qaş çatar, gah xəfifləyər,
Həsrət İlmə-ilmə hörər payızı.

Gündüzlər qısaldar boyun, ölçüsün
Gecə uzun-uzun cəng eyləyəndə.
Günəş min ədayla gülüşün yayar
Arada-sırada yel səngiyəndə.

Qəm, kədər qovrular söz arasında,
Hər kəlmə kağızın sinəsin dağlar.
Düşərsən xatirə burulğanına,
Canlanar gözündə ən gözəl çağlar.

Çəkər tənhalığa öz havasıyla,
Milyonlar içində darıxarsan tək.
Bax belə yaşarsan xəzəl ömrünü,
Öl(ü)mü xatırladar “payız mübarək”

## NƏ TEZ UNUTDUN MƏNİ

Viranə könlümdə bayquş ulayar,
Uğramaz səmtimə nə yaz, nə bahar.
Unudulmağın da bir zamanı var,
Nə tez unutdun məni?

Kimə gileylənim, kimə dərd yanım,
Bilməm kimi düşmən, kimi dost sanım.
Ay məni hamıdan tez anlayanım,
Nə tez unutdun məni?

Sözə ümidlənib, səsə sığındım,
Ən çox güvəndiyim kəsə sığındım.
Deyilmiş ürəkdə əbəs sıxıntım,
Nə tez unutdun məni?

Bir quru hal-xoşu, salamı kəsən,
Əhsən yaddaşına, qəlbinə əhsən,
Sən ki unutmağa həvəsliymişsən-
Nə tez  unutdun məni?

## LÖVBƏR SALMAZ GƏMİLƏR

Bu limana lövbər salmaz gəmilər,
Susar qağayılar sahil boyunca.
Günəş də dənizə qıyğacı baxar,
Çəkilər qınına  yerdən doyunca.

Rüzgar qayalara çırpar dalğanı,
Dənizə atılmış dərdlər dağılar.
Buxarlanıb göyə çıxan hər dərdə
Yağış söylər həzin-həzin ağılar.

Yer üzü islanar insan ahıyla,
Allahı unudan yadına salar.
Yenə o sahildə, bərk qaya üstə
Bəxtindən gileyli bir cavan ağlar.

## APARDI

Budandı arzumun qolu-qanadı,
Solub xəzəl oldu, quşlar apardı.
İntizarla açdım səhərlərimi,
Gecəmi sel kimi yaşlar apardı.

Gülüşüm yarımçıq, kəm-kəsir oldu,
Arzum gözlərimdə lap əsir oldu.
Ürəyim kədərə tələsir oldu,
Ömrümü “bəlkə”lər, “kaş”lar apardı.

Gedən karvanımı kim çəkib əylər?
Həyat nə eləsə, tək mənə eylər.
Deyin, sahib çıxsın ruhuma göylər,
Cismimi torpaqlar, daşlar apardı.





# SEVİNC NURUQIZININ "AĞCA VƏ CUBBULU" ƏSƏRİNİN QURULUŞU, REDAKTƏSİ VƏ NƏŞRİ MƏSƏLƏLƏRİ

**Leyla ABASOVA**

*tarix üzrə fəlsəfə doktoru*

Uşaqlar üçün bədii əsərlərin əsas məqsədi – uşağın daxili dünyasını, mənəvi mövqeyini formalaşdırmaq, onu etik və estetik cəhətdən tərbiyə etməkdir. Uşaq üçün kitab şəxsiyyətin tərbiyə edilməsi və formalaşdırılmasında bir vasitədir.

Müasir uşaq ədəbiyyatı keçmiş ənənələrdən faydalanaraq bugünkü uşaqların mənəviyyatını, biliyini, dünyagörüşünü zənginləşdirməyə imkan verən ədəbiyyat növü kimi qəbul edilir və bütün dünyada əsas nəşriyyat məhsulu kimi sayca və həcmcə xüsusi yer tutur.

Həmçinin müasir uşaq ədəbiyyatı dünya ədəbiyyatınn ayrılmaz hissəsi kimi inkişaf edir. Ona görə də dünya ölkələrində uşaqlar üçün kitablar çap edən ixtisaslaşmış nəşriyyatlar şəbəkəsi, müəlliflər, redaksiya-nəşriyyat kollektivləri formalaşmışdır. Bizim ölkəmizdə də bu sahə üzrə "Təhsil" nəşriyyatının adını xüsusi qeyd edə bilərik. Çünki bu nəşriyyatın tərkibində fəaliyyət göstərən "Uşaq ədəbiyyatı şöbəsi" yarandığı gündən fəaliyyətini uğurla davam etdirməkdədir.

"Təhsil" nəşriyyatının "Uşaq ədəbiyyatı şöbəsi"nin 2009-cu ildə həyata keçirdiyi əhəmiyyətli nəşrlərdən biri də "Ağca və Cubbulu"dur. Əvvəlcə onu qeyd edək ki, bu nəşr 3 dildə – Azərbaycan, rus, ingilis dillərində (hər üç nəşr 60x84 formatında, 12 səhifə həcmində) və eyni tərtibatda işıq üzü gördü.

Nəşrin redaktoru Gülər Mehdiyeva, rəssamı Törəxanım Ağabəyova, kompüter tərtibatçısı Təhmasib Mehdiyev, korrektoru Ülkər Şahmuradovadır.

Qısa süjet xətti ilə tanış olaq: əsərdə təsvir edilən Sürəyya cəbhə xəttində yerləşən kəndlərdən birində yaşayır. Sürəyya sakit, müəyyən qədər özünə qapalı bir qızdır. Onun bütün günü birlikdə olduğu sevimli gəlinciyi var. Gəlinciyin adı Cubbuludur. Sürəyyanın atası cəbhədədir. O, atasının yolunu səbirsizliklə gözləyir. Qızın Cubbuludan başqa çox sevimli bir dostu da var. Bu, bütün günü onun yanında olan ağ göyərçindir. Sürəyya göyərçinini "Ağca" deyə çağırır. O, hər gün gəlinciyi Cubbulu ilə oynayanda Ağca da uçub onların yanında dayanır, sanki onun nə danışdığını anlayır. Onların yaşadığı kənd qızğın döyüşlərin getdiyi əraziyə yaxındır.

Bir gün düşmən tərəfindən kənd atəşə tutulur, silahsız insanlar məcbur olub kəndi tərk edirlər. Sürəyya anası ilə başqa kənddə yaşayan xalasıgilin evinə gəlir. Amma gecəni yatmır, dağıntılar altında qalmış gəlinciyi Cubbulunu, dostu Ağcanı gözlərinin qarşısına gətirib ağlayır. Əsərin sonunda göyərçin Ağca onun sevimli gəlinciyi Cubbulunu dağıntılar altından çıxarıb, dimdiyində Sürəyyaya gətirir. Çünki bir dəfə o, xalasıgilə gedəndə Ağca ilə getmişdi. Ağca yolu yaxşı yadında saxlamışdı. Sürəyya onları görəndə çox sevinir və dostları ilə birlikdə sevimli kəndə qayıdacaqları günü və əsgər atasını səbirsizliklə gözləyirlər.

Qeyd edim ki, uşaq ədəbiyyatının spesifikliyi bədii formanın aydınlığı və dilin sadəliyindədir. Burada təsvir edilən bədii obraz da, onun aləmi də, danışıq və hərəkətləri də inandırıcı olmalıdır. Uşaq kitabı dünya, həyat haqqında sadə şəkildə danışmalıdır və qeyri-adilikləri ilə maraq doğurmalı, cəlbedici olmalıdır.

"Ağca və Cubbulu" əsərində də dilin rəvan olması, sadə cümlələrlə mətnin işlənməsi redaktor tərəfindən diqqətdə saxlanılmışdır. Fikirlərimizi nümunələr əsasında izah etməyə çalışaq:

"Sürəyya sakit qız idi. Həyətdə oynayan uşaqlara qoşulmaz, evin bir küncünə çəkilib bapbalaca gəlinciyi Cubbulunu yedizdirər, saçlarını darayardı".

Uşaq kitablarında cəlbedicilik zahiri olmamalıdır. Uşaq kitabı elə işlənməlidir ki, əsərdə baş verən əhvalatlar, hadisələr uşaqda həyat həqiqətlərinin mahiyyəti barədə təsəvvür yarada bilsin. Uşaq kitabı elə cəlbedici və heyrətləndirici olmalıdır ki, uşaq yorulmasın, kitabdan bezməsin, onun oxu marağı getdikcə artsın və kitabla dostluq etdiyinə görə sevinsin. Bunun üçün də uşaq kitablarının redaktorunda həm də yüksək yaradıcılıq qabiliyyəti olmalıdır.

Bədii mətnin uşaqlar tərəfindən qavranılmasının spesifikliyini nəzərə almaq da redaktor üçün vacib şərtdir. Uşaqların çox hissəsi çap olunmuş sözə qeyd-şərtsiz inanır, xoşlarına gələn qəhrəmanları yamsılamağa can atır, onları həyəcanlandıran hadisələri yaddaşlarına həkk edirlər. Yazıçı isə uşaq dünyasının mürəkkəbliyini anlamalı, görməli, hər bir faktın gələcək insanın xarakter və dünyagörüşünün formalaşmasındakı əhəmiyyətini qiymətləndirməyi bacarmalıdır. Nəzərə almalıdır ki, ədəbi qəhrəman uşağın həyatının, ömür yolunun müəyyənləşməsinin iştirakçısına çevrilir. Əgər qəhrəman yalan danışırsa, özündən böyüyə hörmətsizlik edirsə, yoldaşlarını aldadırsa, gücsüzə, çətinliyə düşənə kömək etmirsə, zalımlıq edirsə, bütövlükdə xoşagəlməz hallar, yanlış hərəkətlər və s. müəllif tərəfindən pislənmirsə, onda əsər uşağın şüuruna müsbət təsir etməyəcək, hətta belə hallar norma kimi qəbul ediləcək ki, bu da yolverilməzdir. Amma bütün bunlarla yanaşı, onu da qeyd etmək yerinə düşər ki, uşaq ədəbiyyatının tərbiyəedici, nəsihətedici, öyrədici çalarları elə incə yanaşma ilə işlənməlidir ki, uşaq özünü üzərində təcrübə aparılan biri kimi hiss etməsin. Deməli, əlyazmanı təhlil edərkən redaktor həmişə yadda saxlamalıdır ki, oxucu-uşaq təsvir olunan hadisələri özünəməxsus şəkildə qavrayacaq, kitabın onun şüuruna göstərdiyi təsir isə böyük adamın şüuruna göstərdiyi təsirdən əhəmiyyətli dərəcədə güclü olacaq.

Sevinc Nuruqızı "Ağca və Cubbulu" əsərində yuxarıda qeyd etdiyim faktları əsas götürərək yeri düşdükcə tərbiyəedici məqamları diqqət mərkəzində saxlamışdır, lakin bunu müəllif kimi öz adından birbaşa uşağa təsir vasitəsi kimi yox, uşağın öz həmyaşıdı Sürəyyanın Cubbulu ilə münasibəti nümunəsində vermişdir:

"Cubbulu ilə söhbəti maraqlı olurdu. Hərdən onu danlayırdı:

– Cubbulu, bu gün özünü pis aparırsan. Dərslərini hazırlamamısan. Tənbəllik edirsən ha! Evi də zibilləmisən. Təmizkar qız deyilsən.

Sonra səsini bir az nazildib Cubbulunun da əvəzinə danışardı:

– Bağışla, Sürəyya. Bir də eləmərəm.

– Onda get əllərini yu, gəl otur yeməyini ye.

– Mən hələ ac deyiləm. Yemək istəmirəm.

– Sən həmişə belə edirsən. Vaxtlı-vaxtında yeməsən, böyüməzsən. Olarsan cubbulu qız. Bütün uşaqlar məktəbə gedər, sən evdə oturarsan".

Uşaq kitablarına məsul olan redaktor xasiyyət əlamətlərinin qətiliyinə rəy verir: xeyirxah – qəddar, əliaçıq – xəsis, qayğıkeş – laqeyd, hiyləgər – sadəlövh, dost – düşmən və s.

Redaktor qəhrəmanların xasiyyətlərinin sabitliyini də qiymətləndirir. Bütün əhvalat boyu qəhrəmanların xasiyyət keyfiyyətləri dəyişməz qalır, müəyyən funksiya yerinə yetirir. Xasiyyət əlamətlərinin dəqiqliyi və dəyişməzliyi uşaqların beynində bu və ya digər xüsusiyyətləri möhkəmləndirməyə, yaxşı və pis anlayışları haqqında özünün bildiyi, sabit təsəvvürünü formalaşdırmağa kömək edir.

"Ağca və Cubbulu" əsərində dostluq anlayışı çox geniş ampluada tərənnüm edilir. Burada Sürəyya – Ağca – Cubbulu bir-birlərinə sadiq dostlardır. Onlar ən çətin günlərdə belə yazıçı tərəfindən sınanır və bu sınaqlardan alnıaçıq, üzüağ çıxırlar. Yazıçı onların simasında uşaqlara dostluğun nə olduğunu dərk etdirməyə çalışır. Əsər boyu əsl dostluğun nə olduğunu bilib, onu icra etmək, dost üçün fədakar olmaq, hər bir əziyyətə qatlaşmaq, ağır, çətin vaxtlarda dostu tək qoymamaq, ona yetişmək, əl uzatmaq, dəstək olmaq və s. bu kimi vərdişlərin aşılanması əsas götürülmüşdür. Nümunələrə baxaq:

"Silahsız camaat kəndi tərk edirdi. Sürəyyanın anası da qızını götürüb güc-bəla ilə güllə yağışından salamat çıxdı. Onlar başqa kənddə yaşayan xalasıgilə gəldilər.

Bütün gecəni heç kəs yatmadı. Hamının gördüyü dəhşətdən yuxusu qaçmışdı. Sürəyya da yata bilmirdi. Axı necə yataydı?! O, Ağca ilə Cubbulunu düşmənlərin əlində qoyub gəlmişdi.

Bunu heç zaman özünə bağışlamayacaqdı. Xalasının verdiyi gəlinciyə yaxın durmur, "Cubbulu", – deyib gözünün yaşını axıdırdı".

Burada yazıçı, Sürəyyanın həm də dosta xəyanət etməməyini göstərməyə çalışır. Xalası ona Cubbulunu əvəz edəcək gəlincik verir, amma Sürəyya əlini belə ona toxundurmur. O yalnız Cubbulunu istəyir, onun üçün ağlayır.

"Yandırılmış kəndlərin üstü ilə uçurdular. Hər tərəfdən burula-burula tüstü qalxırdı. Ağca boğulurdu. Amma var gücünü toplayıb yoluna davam edirdi. Gecikmək olmazdı. Bir azdan hava qaralacaqdı. Həm də Cubbulu çox ağır idi. Ağca dimdiyinin yorulduğunu hiss edirdi. Onu bərk-bərk sıxırdı ki, Cubbulu yerə düşməsin, axı o, yaralı idi. Ağca yorulduğunu dostuna bildirmirdi, özünü şən göstərməyə çalışırdı. Kəndə çatmağa lap az qalmışdı".

Yuxarıdakı nümunəyə diqqət edək. Burada yazıçı dostluqda dözümlülük, çətin anlarda dostu tək qoyub qaçmamaq kimi gözəl xüsusiyyətləri də uşaqlara aşılamağa çalışır.

Əsərin sonunda yazıçı dostları bir-birinə qovuşdurur:

"Sürəyya sevincindən atılıb-düşdü. Dostlarını qucaqladı. İndi onlar yenə də üçü bir yerdə idilər. Üç dost öz sevimli kəndlərinə qayıdacaqları günü və Sürəyyanın əsgər atasının yolunu gözləyirdilər".

Yeri gəlmişkən, qeyd edim ki, 2014-cü ildə Azərbaycandan Andersen mükafatına Sevinc Nuruqızının "Ağca və Cubbulu" əsəri təqdim edilmiş və bu əsər ilk onluğa daxil olan əsərlər sırasında olmuşdur. Bu, təbii ki, Azərbaycan uşaq ədəbiyyatının təqdimatında uğurlu bir hal kimi qiymətləndirilə bilər.

Həmçinin bir neçə ildir ki, Cənubi Koreya Respublikasında Asiya Mədəniyyət Mərkəzinin "Uşaqlar üçün şəkilli kitab" layihəsi həyata keçirilir. Qeyd edək ki, bu layihə çərçivəsində hər il üç Asiya ölkəsinin uşaq kitabı çap olunur. 2019-cu ildə Azərbaycana müraciət olundu və bizim ölkəmizdən Sevinc Nuruqızının müəllifi olduğu "Ağca və Cubbulu" əsəri müsabiqədən keçdi. 2020-ci ildə "Ağca və Cubbulu" Cənubi Koreyada "Sürəyyanın izində" adı ilə 3 dildə çap olundu: koreya, ingilis və Azərbaycan dillərində. Bu nəşrin rəssamı isə Von Hi Codur (Won Hee Cho). Von Hi bu əsərlə bağlı Azərbaycan mühitini öyrənmək üçün ölkəmizə səfər edir. Von Hinin məqsədi əsərdə baş qəhrəman olan Sürəyyanın evini canlı təsvir etmək üçün bu ölkədə olan evləri, ağacları görmək idi. Müqayisə üçün isə deyək ki, azərbaycanlı rəssam Törəxanım Ağabəyova rəsmlərdə bütün rənglərin parlaq çalarlarından, koreyalı rəssam Von Hi isə bu rənglərin solğun çalarlarından istifadə edib.

Sevinc Nuruqızı 2020-ci ilin noyabr ayında Cənubi Koreya Respublikasına kitabın çapı ilə bağlı müəllif kimi dəvət olunur. O zaman ölkəmizdə baş verən gərginliklərin, başlanan

müharibənin sonunda eşidəcəyimiz qələbə müjdəsi hamımız üçün xəyal idi. Von Hi Sevinc Nuruqızı ilə görüşündə rəsmlər haqqında fikirlərini bildirir. Əsas da göyərçinləri mavi rəngdə təsvir etmək fikrində olduğunu qeyd edir (Yeri gəlmişkən, qeyd edim ki, bizim ölkəmizdə çap olunan göyərçinlər isə ağ rəngdə təsvir olunub). Von Hi fikirlərini belə izah edir ki, onlarda mavi rəng ümid rəngidir. Qoy Sürəyya, Cubbulu və Ağca ümid etsinlər ki, bir gün öz doğma yurdlarına qayıdacaqlar. Lakin, həqiqətən də, keçən il yaşadığımız qələbə sevinci bir daha koreyalı rəssamın mavi rəngdən – ümid rəmzi olan boyadan istifadə etməsinin böyük məna kəsb etdiyini təsdiqlədi və bu, uğurlu bir addım kimi dəyərləndirilə bilər. Ümid rəngi özünü doğrultdu, bizim torpaqlarımız düşmən tapdağından azad oldu.

Bəli, artıq Cənubi Koreya Respublikasında da "Ağca və Cubbulu" əsəri 3 dildə çapdan çıxıb, ölkəmizə də göndərilib. Onu da qeyd edək ki, çap üçün məsləhətləşmələr zamanı "Ağca və Cubbulu" əsərinin adı dəyişdirildi. Çünki onlar bildiriblər ki, bu adlar həmin ölkədə uşaqlar üçün çox yaddır. Əsərin adı "Sürəyyanın izində" adlandırıldı, tərcümə edilərək maraqlı və əhəmiyyətli nəşr kimi işıq üzü gördü.

Hazırda "Təhsil" nəşriyyatı "Ağca və Cubbulu"nu – Zəfərdən əvvəl və zəfərdən sonra bölümləri ilə iki hissədə çap etməyə hazırlaşır. Əvvəlcə qeyd edim ki, bu kitab "Təhsil" nəşriyyatının uğurlu nəşrləri sırasındadır. Bu əsər ikinci sinif "Azərbaycan dili" dərsliyinə daxil olmuşdur. Artıq hamımıza məlumdur ki, müharibədə əldə etdiyimiz zəfərə görə və "Azərbaycan dili" dərsliyinə onun iki hissəsini də daxil etmək daha uğurlu olar deyə, Sevinc Nuruqızıdan əsərin ikinci hissəsini yazması xahiş olunub.

Sevinc Nuruqızı da əsərin ikinci hissəsini yazıb bitirib. İkinci hissədə artıq Sürəyya böyüyüb. İxtisasca jurnalistdir. Bir gün işğaldan azad edilmiş Ağdama jurnalistlərin səfəri olur. Sürəyya da bu səfərə dəvət alır. Aldığı dəvət onu xəyalən qanlı-qadalı illərə geri qaytarır. Sürəyya paltar dolabında bir qutunun içində saxladığı, uşaqlıqda oynadığı gəlinciyi Cubbulunu da özü ilə birlikdə götürür. Ağdama gələndə dağılmış evlərin içindən keçə-keçə öz evlərinin xarabalığını tapa bilir. Evlərini tanımasına da göyərçinlər səbəb olur. Bəli, dağıntılar altında qalmış evlərinin üzərində işıq saçan günəş şəfəqləri arasında bir neçə ağ göyrəçin görür. Məhz Ağcanın xatırlanması üçün bir deyil, bir neçə göyərçinin evin üzərində uçması əsərdə təsvir olunan maraqlı məqamlardan biridir. Bəli, 28 il göyərçin ömrü ola bilməz. Bu, təbii ki, Ağcanı xatırlamaq üçün yazıçı təfəkkürünün məhsuludur. Həm də göyərçin və günəş burda sülh rəmzi kimi istifadə olunmuşdur. Qısa zamanda bu əsər də işıq üzü görəcək.

Qeyd edim ki, tarix – ədəbiyyat üçün mövzu mənbəyidir. Ona görə də hər iki sahə arasında məntiqi bağlılıq və hətta deyərdim ki, uyğunluq var. Hər hansı bir ədəbi əsər müəyyən tarixi prosesdə meydana gəldiyinə və hər hansı bir tarixi dövrü, mərhələni əhatə etdiyinə görə mühüm tarixi əhəmiyyət kəsb edir. Mən belə deyərdim, əsər dövrünün məhsuludur. Bəli, "Ağca və Cubbulu" əsəri Qarabağın işğalı dönəmində müəllif tərəfindən qələmə alındı, ikinci hissəsi isə Qarabağın işğaldan azad olunmasından sonra yazıldı. Bu əsərin ruhunda torpaq sevgisi, Vətən sevgisi var. Sevinc Nuruqızı bu əsəri ilə tarixi uşaqlar üçün yaddaşa yazdı.





## Zöhrab MEHDİ

### MƏNİM İSTƏDİYİM

Yenə haldan-hala düşürəm, Ozan
Yenə də "tüklərim tikən-tikəndi".
Odur, gündoğandan günbatanacan
Dağılan o binə babam tikəndi!..

Öpüm at izindən, Qurd ləpirindən,
Dönüm qara yelə qara çöllərdə.
Düşüm çəhliminə bir ulu köçün,
Bəlkə, yar qovuşar yara çöllərdə?!

Nə anam, nə bacım deyil, görmürsən,
Ruhumdu saç yolan cismimin üstdə?!
Götür barmağını o simin üstdən,
Bir az da "rəqs edək" bu simin üstdə.

Çal, mənim havamı çal, "dəli ozan",
İçim Qurd oylağı, Qurd yuvasıdı!
Çaldığın o deyil... Yox, bu da deyil,
Mənim istədiyim Qurd havasıdı!

### NƏ BAXIRSAN

Dedim, axı kimdi döyən;
Zalım oğlu dəmir döyür?!
Dedilər, dur, gözün aydın,
Bax, qapını ömür döyür...

Sonra döydü gözlərin də
Baxıb üzümə-üzümə.
Yatdı, durdu dizlərim də,
Yer qalmadı ki özümə.

Sürüdüm belədən-belə,
Düz aşağı, dağ yuxarı.
Nə ölə bilmədi elə –
Nə də çıxdı sağ yuxarı.

Göründüyü kimi deyil,
Yekədi içi çölündən...
Hey dolaşır "veyil-veyil",
Daha bezmişəm əlindən.

Gözümdən axdı lil yeri
Mən içdikcə "su ömürü..."
Nə baxırsan, ay sərsəri,
Apar – qaytar bu ömürü!

### TURAN, AÇIL

Min ildi qapın döyülür...
Min ildi uzanır gecə.
Qəribsəyib, bax, göy çadır,
Altıma sərdiyim "keçə!"

Yadımdadı... Yadımdadı,
Ötükendə "batdığın" gün.
Çəkilib Tanrı dağına,
Çəkilib də yatdığın gün!

Dəstərxanımdı... Göy üzüm,
Duzum, çörəyim Yurd səsi.
Beşiyim, yorğanım – Ruhum.
Laylam, bayatım – Qurd səsi!

Günüm, ayım pərən-pərən,
Yenə başım dumandı, oyy!
Niyə dağılmışam, niyə?..
Yığ, toparla, amandı, oyy!

Demirəm ki, "möcüzə" et...
Tövrat, İncil, Quran açıl...
Açıl, açıl, ey SƏHƏRİM,
Tanrı gözlüm – Turan, açıl!..

## ÇEVİRDİM

Bax, səndən üz çevirmədim,
Səni üzünə çevirdim.
Yondum əyri, "çəp" yerini,
Yəni düzünə çevirdim.

Ölçdüm boyunu... enini,
Açdım hər yerdə önünü.
İtirəndə öz yönünü
...Çəkib izinə çevirdim.

Dərd qatlayanda belini,
Buraxmadım ki əlini.
Yığıb təzədən külünü,
Yenə közünə çevirdim.

Nə gizlədim, heç doymadım,
Bir telinə də qıymadım.
"Adam" olmağa qoymadım,
Səni "Öz"ünə çevirdim!

## UNUTMA

Ölüm yatmır, canım-gözüm,
Gözündə yuxusu yoxdur.
Bilir, hamı ondan qorxur,
Heç kimdən qorxusu yoxdur.

Gəzir qapı-qapı, ev-ev,
Haynan gəlir, küynən gəlir.
İstər sevmə, ya istər sev,
Yernən gəlir, göynən gəlir.

Bilmir yuxu nə, mürgü nə...
Min illərdi can "dəmləyir".
Baxmır "gözələ", "çirkinə",
"Qara" quşdur, can dənləyir.

...Başından çıxar tüstün də,
Çalış, heç adını tutma.
Amma başının üstündə
Ölüm vurnuxur, unutma!





# "UZAQLAR YORDU MƏNİ..."

*Nazim Əhmədlinin şeirləri haqqında*

**Xuraman HÜSEYNZADƏ**

Torpaqlarımızın işğalı otuz ilə yaxın vətən dərdi, yurd həsrəti çəkmiş şairlərimizin yaradıcılığına təsirsiz ötüşmədi. Doğulduğu Laçın rayonu erməni qəsbkarları tərəfindən işğal olunmuş Nazim Əhmədli də o ağrını misralarla çəkən şairlərdəndir. Vətən ağrısı, el-oba dərdi, yurd-yuva nisgili onun da poetik dünyasına sirayət etdi, o da bu həsrəti şeirlərlə yaşamalı oldu:

buludlar yaman qaralıb,
buludlar yaxına gəlir;
köyümüz adam şəklində
gecələr yuxuma gəlir.

Doğma yurd-yuvasını gecələr yuxuda görən Nazim Əhmədli düşmənlərin bağları da çapıb-taladığını dərdli misralarla ifadə edib:

yaz gedib, qış qalıb, qardaş,
yurd köçüb, daş qalıb, qardaş,
bağların boş qalıb, qardaş,
yağılar yığıma gəlir.

O, Vətənin işğalının onun da gözünün yağını əritdiyini deyir:

düşüb çarığının bağı,
üzünü bürüyüb yağı,
əriyir gözümün yağı,
gözümün yağına gəlir.

həm kürəm, həm də ki bədəm,
bir canam, bir də ki bədən.
bilmirəm niyə bu Vətən
fələyin çarxına gəlir?

Artıq zaman da, dövr də dəyişdi. Vətənimizin işğalından otuz ilə yaxın vaxt keçdikdən sonra Ali Baş Komandan İlham Əliyevin və igid əsgərlərimizin sayəsində torpaqlarımız erməni işğalından azad olundu. Qəhrəman şəhidlərimiz, qazilərimiz o torpaqları can ları, qanları bahasına xalqımıza qaytardı. Bundan sonra daha şairlər də ən gözəl şeirlərini işğaldan azad olunmuş Vətəndə yazarlar. Nazim Əhmədli də, yəqin, bundan sonra Vətənin xoş günləri, gözəlliyi haqda şeirlər yazar. Onun daha nə gözünün yağı əriyəcək, nə də o, Vətənin fələyin çarxına tuş gəldiyini görəcək. O günlər daha getdi. Daha şairlərin poetik ovqatı o əzablara, ağrı-acılara köklənməyəcək...

Necə gedim bu yolu?

Şair "Adsız liman" şeirində uçub-dağılmış yolu getməyin çətinliyindən söz açır:

yaman uçub–dağılıb,
necə gedim bu yolu?
pas atıb daş divarda
yuxumdakı at nalı...

Yuxuda gördüyü at nalının daş divarda pas atmasının da səbəbi şairin yaşantıları, üzləşdiyi çətinliklərdir. O, alter-eqosuna bu yolu getməyin çətinliyini bildirir...

Ötən eşqin odundan qalan ağrı-acıdan da danışan N. Əhmədli səma cisimlərinin səsindən narahatdır:

buludların səsindən
qulağımda küy qalıb,
ötən eşqin odundan
canımda kösey qalıb...

Bütün bu çəkdiklərindən sonra o, alnına nə yazıldığını bilmədiyindən poetik ovqatla söz açır:

ruhum bir adsız quşun
qanadından asılıb;
heç özüm də bilmirəm,
alnıma nə yazılıb...

Burada sublimasiya özünü göstərir və şairi motivasiyaya cəlb edir. Göy üzündən baxan yaşıl ulduzlar onun diqqətini çəkir:

bir ayrı göy üzündən
yaşıl ulduzlar baxır,
lələk-lələk buludlar
yellənir ağır-ağır...

Buludlar qurumayanda...

O, bütün bu poetik müşahidələrindən sonra hər göyün özünəməxsusluğundan bəhs edir. Nədir o özünəməxsusluq, fərqlilik?

hər göyün öz tanrısı,
hər köyün öz adı var,
hələ yağışlar yağır,
qurumayıb buludlar...

O, gördüklərinin adı naməlum şəhərə və limana aid olduğu qənaətindədir:

könlümə qubar dolub,
baxışımda duman var,
orda bir adsız şəhər,
bir adsız da liman var.

Şair əlləri bəzən fələyin oyunu qarşısında aciz qalır:

nə qapı, nə baca var,
hardan girim saraya?
barılar çox qəlbidi,
əl çatmır yuxarıya...

Təbiəti sevən bütün şairlər kimi, o da məqamı çatdıqda təbiəti vəsf edən epitetlərindən yararlanır:

körpü bir tağın üstə,
qar yatıb dağın üstə;
ruhum yarpağın üstə,
payız düşüb araya.

Sarı rəng Azərbaycanda daha çox quraqlığı, qıtlığı, xəbisliyi, bədliyi bildirdiyi halda, bəzi xalqlarda fəallığın, mərhəmət və şəfqətin rəmzidir. Suriya müsəlmanları üçün sarının ölüm rəngi olduğu deyilir. Günəşin rəngi olsa da, N. Əhmədli də sarıdan daha gözəl olan yaşıl rəngə üstünlük verir.

Nazim Əhmədli təbiəti, islam dinini tərənnüm edən yaşıl rəngə sevgisini də onu başqa rənglərə dəyişməməklə bildirir:

çıxıb getdim naxıra,
kim qalıbdı axıra?

mən yaşıla baxıram,
üzüm dönmür sarıya.

Ömür yarıya çatanda...

Yolların açılmasını istəyən şair bunun da acı nəticəsini ömürün yarıya çatması kimi izah edir:

qayıdın, açın yolu,
ağaclar saçın yolub,
ürək yarımcan qalıb,
ömür çatır yarıya...

Nazim Əhmədli lirik qəhrəmanının onun əllərindən bərk yapışmasını ayrılıqlardan uzaq olması üçün istəyir:

hər çiçəkdə min naxış,
buludlar yağış-yağış;
əllərimdən bərk yapış,
ayrılıqlar qarıyar.

Onun şeirlərində təbiət mənzərələri önəmli yer tutur. N. Əhmədlinin buludlara tez-tez müraciət etməsi günəşli mavi səmaya və o buludlara olan sevgisindən irəli gəlir. “Gedim kimi oyadım” şeirində müəllif ağ buludların da bəzən əzaba mübtəla olmasını onların yanaqlarında gördüyünü poetik ovqatın uğurlu ifadəsi kimi oxucuların diqqətinə çatdırır:

gedim kimi oyadım,
gün çırtdadı bir udum;
üfüqdə ağ buludun
yanaqları qanadı...

Göy üzünün qapısı açıq qalanda...

Buludlar göy üzündən çəkildimi, ya çəkilmədimi, o da poetik bir ovqat yaradır:

buludlar çəkilməyib,
bir yanı uçuq qalıb;
gəldiyim göy üzünün
qapısı açıq qalıb.

Nazim Əhmədlinin şeirlərində bu cür antiteza məqamlarına zamanı yetişdikcə rast gəlmək mümkündür. O bu epitetlərdən maraqla istifadə edir.

Şair məhəbbət lirikasında da təbiəti unutmur. “Mənə sevgidən danış” şeirində o, dənizlərin yuxusuna girməsini çiçəklərin ağında könlünün köçü qalması ilə izah edir:

uzaqlar yordu məni,
bir az qayıt yaxına;
qərib-qərib dənizlər
gəlib girir yuxuma.

ömür bir biçim qalıb,
dərd içim-içim qalıb,
könlümün köçü qalıb
çiçəklərin ağında.

Gəldi payız küləyi

Təbiətin küskün, qəmli fəsli olan payız gəldiyindən ürəyinin sınmasından qorxan Nazim Əhmədli lirik qəhrəmanına bunu bildirir:

gəldi payız küləyi,
soldu dağın küləyi,
birdən sınar ürəyim,
ürəyimə toxunma...

Çəkdiklərinin alnına yazıldığını poetik əhvalla ifadə edən şair lirik qəhrəmanına sevgidən danışmasını istədiyini deyir:

uzun yollar içində,
çəkdim dərdi içimdə,
yazılıb bu biçimdə
alnımın varağına.

yol tutdum qarış-qarış,
ağrılar qarımamış,
mənə sevgidən danış,
qəmli şeir oxuma.

Buludlar çəkilincə...

Lirik qəhrəmanından poetik əhval-ruhiyyə ilə qəmli şeir oxumamasını, sevgidən danışmasını istəyən Nazim Əhmədli ona sətiraltı mesajla sevginin daha gözəl olduğunu bildirir. Əlbəttə, bu zaman katarsis baş verər və motivasiya özünü göstərər. Bu isə insana hər zaman lazım olan psixoloji dəstəkdir. Qəmqüssəyə yaxın olmaq qədər asan nə var ki?

"O sevdiyim dəniz" şeirində onun dəniz haqda şair düşüncələri oxucunu uzaqlara aparır:

gündüz gecəni qovur,
gecələr də gündüzü;
buludlar çəkilincə
gülümsəyir göy üzü.

ruhumdan bir qaçaq var,
köksümdə bir bıçaq var,
canımda bir ocaq var,
hələ sönməyib közü.

Dənizə olan sevgisindən söz açarkən o, bulud sevgisinin dənizi görmək üçün bu dəfə cığıra çevrilməsini istəyir:

od yaxım, köz götürüm,
buluddan cığır hörüm,
aparın məni, görüm
o sevdiyim dənizi.

"Ruhum kimə əsirdi" şeirindəsə şair ruhunun kimə əsir düşdüyünü bilmədən küləkdən giley edir:

gecə yarıdan keçib,
üzüm-gözüm mürgülü.
küləklər hara dartır
həsrətimin yükünü?

Qönçələr solanda...

N. Əhmədli yuxu ilə gerçəkliyin yanında gecələrin yerini də görür:

solub gedir qönçələr,
yal-yamaca çən gələr,
qara xal-xal gecələr
saçlarımdan sökülür.

Ahlarının hara getdiyini bilmir şair, o taydakı dağları da adlarına yaraşmayan tərzdə-məlul, müşkül görür:

hara getdi ahlarım,
sonu yox uzaqların, –

Bütün gördüklərinin, hiss etdiklərinin fonunda o, şair təxəyyüllü gecə yuxusuna göy üzünün şəklinin girdiyi qənaətinə də gəlir:

həm cığaldı, həm kürdü,
ruhum kimə əsirdi;
gecə yuxuma girdi
göy üzünün şəkili.

"Sular Tanrı payıdı" şeirində suların Tanrı payı olmasından bəhs edir:

Sular Tanrı payıdı,
yollar burum-burumdu,
cığırlar dolayıdı;
göy sular gedib itmir.

Ağ buludlar mürgülü olanda

Bəs onun könlündəki tikili kimin payıdır? O bunu da maraqla ifadə edir:

ağ buludlar mürgülü,
hanı dərdin şəkili?
könlümdəki tikili
Tanrının sarayıdı.

Fatma ananın mehri olan saflıq, təmizlik, gözəllik rəmzi suların bu əsrarəngizliyindən söz açan şair gözəllik olmayan yeri həsrətinin yayı kimi təsvir edir:

saat ötür üstümdən,
boğuluram tüstümdən,
canım bişir istidən,
həsrətimin yayıdı.

“Ürəyim bir ocaq közü” şeirində isə sərçələr gecələri gözləyir:

xoş günlərdən xəbər yoxdu,
yadımdan çıxmır ötənlər;
qışda ac qalan sərçələr
gecə ulduzları dənlər.

Göy üzü görünməyəndə...

O, ürəyinin ocaq közü olmasından söz açaraq göy üzünün görünməyindən danışır:

ürəyim bir ocaq közü,
yoxmu gecənin gündüzü?
yenə görünmür göy üzü,
çəkilmir dumanlar, çənlər...

nə var uzaqdan, yaxından,
tək səbir ötür qorxumdan;
çəkilib getmir yuxumdan
payıza oxşar çəmənlər...

Dünyanın suyunun çoxalmasının da səbəbini dərdlərin çoxluğunda görən Nazim Əhmədli poetik əhval-ruhiyyə ilə dərdlərin çoxalaraq apofeoz halına düşməsini də poetik çalarlarla göstərir. Dərdsiz insan varmı? Onun cavabını axtardığı suallardan biri də məhz budur:

dəli ruhum harda uyur?
dalğalar sahili yuyur,
bulanıb dünyanın suyu,
çoxalıbdı dərd içənlər.

N. Əhmədli, poetik aləmində oxucuları düşündürən məsələlərə, suallara poeziya kontekstində cavab axtarır...

Qarabağ işğaldan azad olunduqdan sonra onun da ilham pərilərinin o yurdda öz şairinə yeni poetik duyğular yaşadacağı bəllidir. Hər bir söz adamının doğulub-böyüdüyü yurd onun təbini daha yaxşı coşdura bilər... Əsrarəngiz təbiəti olan Laçının bütün söz adamları kimi, Nazim Əhmədlinin də bundan sonra yaradıcılığında, yəqin ki, oxucular daha maraqlı poetik ovqat müşahidə edəcək. Vətən sevgisi onun da yaradıcılığına yeni nəfəs gətirəcək...





## Cahit GÜNAY

**STARE (Saçların Toprak Kokar)**

Gazete okumayayım,
Haber duymayayım bu gece;
Mümkünse kimse açmasın kapımı,
Bacadan hoyratça alev çıkaralım
Korksun, Noel Baba geyiklerinin sırtında,
Uğramasın Kıraç Ata,
Dertleşmeyeceğim onunla da.
Bir sen gel yanıma, yalın yapayalnız,
Bir de sahipsizlere pusu kuran zaman
İnadına karartalım karanlıkları.
Şebnemler çıldırsın, Kibele kıskansın seni,
Şerefe kalkan her kadehte Stare.
Kaldır perdeleri,
Pencereler açılsın ebruli kaldırımlara,
Sabahın nurunu oradan izlemeliyiz, Stare
Zeus'a söyle
Yağmur yalnızca saçlarını okşamalı,
Her damlasında cennet kokan saçlarını.
Stare, saçların gökkuşağı doğuruyor mu
yine
Sevdanın kırkikindilerinde?

Bilsen ne delice özledim seni.
Bilsen ne delice özledim
Gökkuşağı öpmeyi dudaklarında…

**STARE'YE NOTLAR (Sensice)**

Araf'‟tayım yine, öylece Araf'‟ta
Uzansam, tutunamam sana
Haykırsam,
Ses vermez rüzgâra emanet bulutlar,
Bıraksan, ellerimden bıraksan,
Üzülmenden korkar yüreğim
Bir umuda kurban edilen
Bin hâyal gibisin sensice
Tebessüm,
Çocukların misketlerine sıkışmış
Dünden kalma içtenliğiyle
Ram eder bende,
Hazan koklatır .
Zamansız papatyalarda açılan kokunu
Sensice
Tüm görünmezliğiyle savrulur
Yine tövbelerim uluorta
Umutlarım kaç sevdada kaybolur,
Kaç yaprak çarpar sensice yüzüme
Ve bende yine, bir demli çaya ömür bağlar.
Senli umutlarım
Avare bir yıldızın kuyruklarında
Kırkikindi bekleyen gökkuşağı sevicileri
gibi
Gece günü sever mi?
Ay sana mecbur mu sensice?
Ben sana mecburum.

**STARE'YE NOTLAR (Ebruli-3)**

Bazen sadece sever insan,
Bunu en güzel secdem duyar özümde
Dokunmadan, görmeden,
Düşlerimde duam gibi ey yâr
Ve sonra
Sana dilekler tutacağım,
Sevdasını pusatlandığım,
Suya yazılan yazılarda
Ebruli zamanlara inat
Sen olacağım
Yine, yeniden…

**STARE'YE NOTLAR (Firari Hayat)**

Yüreğim,
Bir milyon ölüm
Bedenim,
Bir milyon ihanet
Beynimi tırmalayan,
Ölüm sessizliğinde hayat...
Ruhum,
Acımasız Gayya kuyusunda
Esir bir küheylan
Mutluluk,
Kırkikindi yağmurunda
Ödünç alınmış sensizlik
Kahkahalar,
Hazan yapraklarına
Nispet edercesine gevrek,
Yaşamak,
Ölümü öldürmek seninle –
Eylül akşamlarına vakfedilmiş,
Sevda nöbetlerim soğutulmuş,
Çay sohbetlerinde ömür
Ve
Yarı gözlemek gibi
Kaygı yükü benim kavgalarım...
Ey katlime ferman bilmece,
Ah katlime ferman zaman
Ya çözün siz de saklanan muamalarımı,
Ya da çekilin ayaklarımın altından–
Bugün firari zaman...

**STARE'YE NOTLAR (Ya Hu)**

Öylece dalmamalı insan,
Öylece umutsuz, öylece mahcup
Hayallerde beşik sallatmamalı martılara,
Kandil söndürmemeli, mesela,
Balıkların göz bebeklerinden
Koklamalı denizin dalga-dalga
kudurmasını.
Sevgi militanlarının suç ortağı
Takalarda taşıtmamalı öfkelerini,
Duymalı simitçi çocuğun sesini uzaklarda,
Gazete, gazete çığlıklarına dönmemeli
sırtını.
Midye selamına el sallamalı,
Yüreğine sakladığı son tebessümle
Umutsuzlukta umuda kapı aramalı, mesela...
Ya hu, diye haykırmalı Tanrıya,
Ya Hu...

**STARE'YE NOTLAR (Sen Olacağım-1)**

Bu gün yine
Gece ışığı sessizliği ile
Halikarnas"tan kalma
Deniz kokulu kumları avuçlayacağız
Arnavutköy sahilinde.
Sonra
Yasemin çiçeği özlemlerinde savrulan
Stare rüzgârlarını hissedeceğiz
Patika yolların zambaklarında
Çarpışan yüzlerimize.
Ve ben yeniden
İman tazeleyeceğim,
Kırkikindi yağmurundan çalınmış
Gülüşlerini öperken senin…



Zəka VİLAYƏTOĞLU

# "ÇÖHRƏGÜLÜ"

Ömrünün altmışıncı ilinə qədəm qoymuşdu Mehbalı, amma hələ də ta uşaqlıq illərindən aşiq olub sevdiyi Çöhrəgülü unuda bilmirdi. Unutmaq qalsın bir yana, ürəyinin dərinliklərinə kök atmış sevgi çiçəyimi, ya sevgi ağacımı qurumaq bilmir, bu illər ərzində həmişəyaşıl ağaclar kimi yamyaşıl olur, ömrünü bəzəyirdi. Hərdən də özü boyda oda-alova dönüb Mehbalını yandırıb-yaxır, lap belə desək, cızdağını çıxarırdı.

Çöhrəgül də Mehbalını sevirdi. Amma Çöhrəgülün bu sevgisinə həmişə bir qara-qorxu kölgə salırdı. Vaxtilə rayonda bank müdiri olan, rayon prokurorunun müavinini mübahisə zəminində kiçik bir balta ilə vurub öldürdüyü üçün həbsdə yatmış və illər sonra həbsdən çıxmış atasının qorxusundan qız Mehbalı ilə tez-tez görüşə bilmir, ehtiyatla davranırdı. Mehbalının "Gəl qoşulub qaçaq" deməsinə də etiraz etmiş: "Atam ikimizi də kəsər!" – demişdi. Bu sözlərdən sonra Çöhrəgülün atasının həmin məşhur baltası Mehbalının gözlərinin qabağında atılıb-düşmüşdü. Amma tiyəsinin ucundan qan daman bu baltadan iti idi Mehbalının sevgisi. Ürəyindəki sevgiyə, sevgi dolu ürəyinə enən bu balta, odda əriyən polad kimi, dəmir kimi havadaca əriyir, yox olurdu. Sonradan el arasında adı Balta Həsən qalan həmin adamın baltası Mehbalının od yağan gözlərində kəsərsiz, küt bir şeyə çevrilirdi.

Mehbalı Yol idarəsində işləyirdi. Ali təhsilini Rusiyada almışdı. Çox bacarıqlı, savadlı bir yol mütəxəssisi kimi tanınırdı. İş yoldaşları, rəhbərlik yanında ayrıca hörməti vardı. Aylıq məvacibi də qənaətbəxş idi. Oğlunu evləndirmiş, qızını köçürmüşdü. İndən sonra elə bir qayğısı yox idi. Bir neçə ildən sonra da təqaüdə çıxıb, aldığı təqaüdlə özünü və arvadını dolandıracaq, sakit, firavan yaşayacaqdı ömrünü. Hər halda belə xəyal edir və buna inanırdı Mehbalı. Tək unuda bilmədiyi Çöhrəgül idi. And içirdi, əgər bir gün eşitsə ki, Çöhrəgül ərindən boşanıb, harda olsa, gedib onu tapar və onunla evlənər. Baxmayaraq ki, Çöhrəgülün indiyəcən harda, hansı ünvanda yaşadığını doğru-dürüst bilmirdi. Onun indi hansı görkəmdə, hansı durumda olduğundan da otuz ildən çox idi xəbərsizdi. Ən ümdəsi, onun Çöhrəgülü ondan ötrü otuz il əvvəl gördüyü yaşda, otuz il əvvəl gördüyü gözəllikdə, təravətdə idi. Şübhə yox ki, o vaxtdan bu vaxta Çöhrəgül də qocalmış olardı. İndiyə o gənc, yaraşıqlı Çöhrəgüldən, çətin ki, əsər-əlamət qalaydı. Amma Mehbalı üçün fərqi yox idi, elə günü bu gün Çöhrəgüllə evlənməyə hazır idi.

Çöhrəgüllə Mehbalı ayrı-ayrı kəndlərdə yaşayırdılar.

Mehbalı gəncliyində musiqiçi olmuşdu. Rayonda, kəndlərdə istedadlı klarnetçalan

kimi tanınır, toy şənliklərinə dəvət olunurdu. Çöhrəgülü də belə toyların birində görmüşdü. Görüb ürəkdən vurulmuşdu. Hətta bir rəqs musiqisi bəstələyib adını "Çöhrəgülü" qoymuşdu. Toylarda imkan düşdükcə bu rəqsi çalırdı. Bir çox yerlərdə artıq "Çöhrəgülü" rəqsi tanınmağa, sevilməyə başlamışdı. Adamlar toylarda ondan tez-tez bu musiqini istəyir, həvəslə rəqs edirdilər...

Mehbalı son illər çox kökəlmiş, xoşagəlməz bir görkəm almışdı. Araq, siqaret onun gündəlik tələbatına çevrilmişdi. Qazancının çoxu arağa, siqaretə xərclənirdi. Tanıyanlar, bilənlər öz aralarında: "Mehbalının yerinə kim olsaydı, indi evinin dirəyi də qızıldan idi! Bədbəxt oğlunun bir sınıq-salxaq maşını da yoxdur! Araq, siqaret yıxmayan ev min il tikili qalar" deyirdilər. Amma bilən yox idi Mehbalının dərdini. Onu bu duruma salan salmışdı. Siqaretə, arağa da gənc ikən məhz bu səbəbdən qurşanmışdı. Son zamanlar səhhətində də ciddi problemlər yaranmışdı. Ürək də sözünə baxmırdı. Bəlkə də, arıqlamaqla bir sıra fəsadların qarşısını ala bilərdi. Əslində, həkim də ona arıqlamağı məsləhət görmüşdü. Kürək, boyun nahiyəsindəki ağrıların öhdəsindən heç cür gələ bilmirdi. Müalicə-filan təsirsiz ötürdü. Özünü tez-tez inandırırdı ki, onun müalicəsi yalnız Çöhrəgüldədir.

Çöhrəgül o vaxtlar Tibb İnstitutuna qəbul olunmuşdu. Mehbalının nəzərində həkimlik ona çox yaraşırdı. Onu həmişə ağ xalatda təsəvvür edirdi. Əgər Çöhrəgüllə evlənsəydi, görəsən, onun həkim kimi çalışmasına mane olardımı? Bu sualı özü özünə çox verirdi Mehbalı. Həmən də başını "yox"u ifadə edəcək tərzdə yırğalayırdı. Heç cür istəməzdi onun arvadı gedib yad bir kişiyə iynə vursun və ya xidmət göstərsin.

Görəsən, indi necə, Çöhrəgül həkimlik edirdimi?..

***

Mehbalı işləyə bilmirdi, səhhəti imkan vermirdi. Axır, xəstəxanaya getməli oldu. Həkim müayinəsindən sonra kürək nahiyəsində kəskin ostreoxondroz olduğu bəlli oldu. Qan dövranı bu səbəbdən pozulmuş, beyinə qan getmirmiş. Fizioterapiyaya, masaja ehtiyac vardı. Fizioterapevtə baş çəkdi. Fizioterapevt bir kurs müalicədən sonra onun yaxşılaşacağını dedi.

Fizioterapevt yaşı altmışa yaxın yaraşıqlı, gülərüz, şirin, mehriban bir xanım idi. Kərpicə oxşar qalın və qaynar parçaları Mehbalının sağ və sol kürək nahiyələrinə qoyaraq soruşdu:

– Necədir, yandırmır ki?

– Yoox. Əladır. Elə bil min ildir, canım buz bağlayıb, bu isti elə ləzzət verir ki! – Mehbalı xoşhal dilləndi.

Həkim daha sonra fizioterapiya aparatını işə salıb Mehbalının kürəyinə zəif cərəyan verdi və üzüüstə uzanıb çətinliklə nəfəs alan, hərdən xırıldayan Mehbalıdan soruşdu:

– Cərəyanı hiss edirsinizmi?

– Yox. Heç nə hiss etmirəm!

Həkim cərəyanı bir az da artırdı:

– İndi necə?

– Heç nə hiss etmirəm!

– Vay-vaaay! Sizin kürəyiniz nə gündədir! Duz sizi yeyir ki!.. İndi necə?

– Hə. İndi azacıq cimilti hiss etdim. Elə bil qarışqa gəzir kürəyimdə.

– Aha! Aydındır! 40 Amper cərəyan vermişəm e kürəyinizə! Normalda 4 Amper cərəyanı siz hiss etməlisiniz. Deməli, sizdə vəziyyət çox ciddidir. Amma qorxmayın! Müalicə boyu hər şey yoluna düşəcək. Allah yardımçınız olsun!.. Yarım saat dözün! İndi kürəyinizi də örtəcəm ki, sizə soyuq olmasın. Növbəti gün də masaj edərik, – xanım Mehbalının kürəyini qalın-qalın örtüb, stulunu çəkib oturaraq, gözləməyə başladı. Cib telefonunu çıxarıb qalereyadakı şəkillərə baxmağa başladı. Bu şəkillərin çoxu onun qızına aid idi. Gözəl idi qızı, çox gözəl. Amma nə fayda, yaşı ötmüş, evdə qarıyıb qalmışdı. Vaxtında çox sanayıb-sonalamış, heç kimi bəyənməmişdi, axır evdə qalmışdı. Qadın köks ötürüb, öz-özünə: "Özün gözəl olunca baxtın gözəl olsun" – dedi.

– Niyə köks ötürdünüz? – Mehbalı soruşdu.

– Mənmi? – qadın dik atıldı. Yuxudan ayılmış kimi oldu.

– Bəli. Çox dərindən köks ötürdünüz!

– Boş verin! Olan şeydir. İşimiz çox olur. Yorğunluqdandır.

– Çoxdan işləyirsiniz burda? – Mehbalı soruşdu.

– Otuz ildir!

– Bir igidin ömrüdür.

– Doğrudur... Özüm kənd qızıyam. Mənim atam çox imkanlı, çox da zəhmli bir kişi olub. Hər yanda da xüsusi hörməti vardı. Həmişə də "Mənim qızım həkim olacaq", – deyirdi. Mən də onun arzusunu yerinə yetirdim.

İnstitutu bitirəndən sonra bizi təyinatla uzaq dağ rayonundakı böyük bir sanatoriyaya işləməyə göndərdilər. Əlli dörd nəfər idik; iyirmi dörd oğlan, otuz qız. Orada – "Şəfalı" sanatoriyasında işə başladıq. Sanatoriyada hər il əlli min adam istirahət edirdi. Bura dünyada məşhur bir sanatoriya idi. Dünyanın hər yerindən bu sanatoriyaya axışıb gəlirdilər. Dediyim kimi, atam çox imkanlı, həm də çox zəhmli adam idi. O üzdən məni baş həkimə xüsusi tapşırmışdılar. Daim nəzarətdə idim.

Bizim qızların bir çoxu elə ordaca ərə getdi, ailə qurdu. Pis yola gedənləri də oldu, təbii. Həyatdır, onsuz olmur. Hərə bir yuvanın quşudur... Başınızı ağrıtmıram ki?..

– Yox. Xoşdur! Danışın!

– Hə. Bizim bir aşpazımız vardı, Mitiş adında.

– Mitiş?!

– Bəli! Mitiş!

– Ad qoyan belin qırılsın!.. Yəqin, Müdhiş imiş sənəddə?!

– Nə isə! Bu Mitiş, sən demə, aradüzəldən imiş. Qardaş, qızlar bir-bir yoxa çıxmağa başladı. Demə, yaxın ərazilərdə yaşayan, sanatoriyada istirahət edən oğlanların hansının hansı həkim qızdan xoşu gəlirmişsə, Mitişə müraciət edirmiş. Demək olar, hər gecə bir qızımızı qaçırdırdılar. O vaxtlar qız qaçırtmq dəb idi axı... Nə başınızı ağrıdım, otuz qızdan cəmi ikicə qız qalmışdıq. Onlardan da biri çox kifir, alıb-satan, danışdıran yox. Yazıq qız hey mənə deyirdi dərdini: "Bircə mənim də baxtım açılsaydı,.. Ehh! Kimdir ee mənim kimi kifir birini alan?" – deyib qəmdən üzülürdü. Dedim: "Darıxma! Səni də alan tapılacaq!" Belə də oldu...

Biz növbəli işləyirdik. Bir gün mənə xəlvəti bildirdilər ki, bu axşam səni də qaçırmaq istəyənlər var, ehtiyatlı ol! Mən də eləmədim tənbəllik, həmin o kifir qızdan xahiş etdim ki, bu gecə sən məni əvəz et, növbəti dəfə mən səni əvəz edərəm. Dedim, başım bərk ağrıyır, özümü yaxşı hiss etmirəm. Razılaşdı. Həmin gecə onu qaçırdılar. Mitiş onu, əslində, məni qızı qaçıranlara o qədər tərifləyibmiş ki... Nə isə,.. qızı qaçırtdılar. Qaçırdarkən də başına nəsə atıb bağlayıblar ki, haray-həşir sala bilməsin. Evdə başını, üz-gözünü açanda qarşılarında kifir bir qız görüblər...

– Lap Məşədi İbadın komediyasıdır ki...

– Hə. Elə bir şeydir... Canım sizə desin, başlayıblar qıza yalvarmağa ki, bizi bağışla, biz səhv etmişik. Başqasının yerinə səni gətirmişik. Yanlışlıq olub. Nə istəyirsən, verək, amma gəl səni səssiz-səmirsiz qaytaraq götürdüyümüz yerə. Qız gözünə döndüyüm də qır–saqqız olub yapışıb onların yaxasından. Deyib ki, mümkün deyil. Bizlərdə belə şeyə çox pis baxırlar. Oğlanın əli qızın əlinə dəydisə, iş bitdi.

Beləcə, o qızın da bəxti açıldı... Mitişi isə oğlan adamları, onları "aldatdığı" üçün o ki var döymüşdülər. Elə biliblər, Mitiş onlara kələk gəlib... Allah saxlasın, indi həmin qızın iki yaraşıqlı oğlu var. Heç deməzsən, o cür yaraşıqlı oğulları bu cür kifir bir qadın gətirib dünyaya! Son vaxtlaracan bizim telefon əlaqələrimiz vardı. Dünya qarışanda əlaqələrimz də itdi. Heyif o vaxtlardan! İndi it yiyəsini tanımır. Adamlar hər şeyə biganə olublar. Alan kim, aldadan kim! Heç kimə etibar qalmayıb! Düzəni pozuldu dünyanın!

– Bəs siz?! Ailə qurdunuzmu?

– Niyə qurmadım, qurdum! Bir il sonra öz rayonumuza qayıtdım. Mənim sevdiyim vardı. Onunla telefon əlaqələrimz olurdu. O, məni gözləyirdi. Arada bir dəfə işlədiyim sanatoriyaya da gəlmişdi. Xahiş etdim ki, buralarda görünməsin. Atam qanlı adamdır, əlindən xəta çıxar yenə. Ordan rayona-evimizə qayıtdıqdan sonra atam məni zorla öz dostunun oğluna ərə verdi. Bir ay sonra isə biz şəhərə köçdük. Doğrudur, Allah rəhmət eləsin, ərim pis adam deyildi, amma məndən on iki yaş böyük idi. Bir də ki ürəyin, gözün tutduğu başqadır dəəə...

Mən musiqini çox sevirəm. Çox arzulamışdım ki, sevgilim müğənni və ya

hansısa gözəl bir musiqi alətində ifa etməyi yaxşı bacaran bir istedadlı musiqiçi olsun. Gecə-gündüz öz gözəl musiqiləri ilə könlümü oxşasın. Amma heyif,.. çox heyif... Bu arzumun gerçəkləşməsinə çox az qalmış fələk taleyimin valını tərsinə çevirdi. Arzuladığım xoşbəxtliyin astanasından geri dönməli oldum... Nə bilim, bəlkə də, bədbəxt olacaqdım! Adamları tanımaq olmur ki! Musiqiçilər adama mələk kimi görünürlər. Bəzənsə tamam əksi olur. Mən sevdiyimə inanırdım. O, doğrudan da, mələk kimi adam idi. Hətta mənim adıma gözəl bir musiqi də bəstələmişdi. İnanın, o musiqi hələ də qulaqlarımda səslənir. Elə istəyirəm, elə arzulayıram ki, kaş bir gün qəfildən, tək bircə dəfə o musiqini radiodan, televiziyadan eşidim, ya da küçədə hansısa maşından, musiqi dükanından səsləndiyini duyum...

– Sizi çox yaxşı anlayıram! – Mehbalının gözləri alacalandı. Yerində eşələndi. Üzünü qadına sarı çevirib, diqqətlə onun üzünə, gözlərinə baxdı. Qadın ona çox tanış gəldi. Amma nəsə deməyə ehtiyat etdi. Xəyalı bir anlıq qadından ayrılıb gənclik illərinə uçdu...

Rayon mərkəzində keçiriləcək bir toy şənliyinə musiqiçi kimi dəvət almışdı Mehbalı. Toydan öncə qonşu kəndə gedib musiqinin müşayiəti ilə gəlini gətirmək lazım idi. Həmin kənd ki, orda Çöhrəgül yaşayırdı. Hər dəfə o kəndin adı gələndə Mehbalının çiçəyi çırtlayırdı.

Mehbalı oğlan evinin adamları üçün "Çöhrəgülü" rəqsi çalırdı. Adamlar yorulmaq bilmədən həvəslə rəqs edirdilər. Bundan vəcdə gələn Mehbalı "Çöhrəgülü" rəqsinə yeni rənglər, yeni çalarlar əlavə edir, yeri-göyü, düzü-dünyanı bu musiqinin xoş sədaları ilə bəzəyir, naxışlayırdı.

Qəribədir ki, Mehbalı "Çöhrəgülü" rəqsini Çöhrəgülgilin kəndində daha şövqlə çalırdı. Bu an Çöhrəgülün sevgi dolu baxışları onun başından ağappaq çiçək kimi yağırdı.

Gəlini evdən çıxaranacan adamlar bir neçə dəfə Mehbalıya "Çöhrəgülü" rəqsini sifariş verdilər. Klarnetin, musiqinin, Mehbalının bayramına çevrilirdi "Çöhrəgülü" rəqsi.

Az sonra bəylə gəlin evdən çıxıb pilləkəndə görünəndə Mehbalı "Vağzalı"ya dəm verdi. Pilləkəndən enib ona yaxınlaşan gəlinin üzünü görüncə barmaqları yalan danışarkən dili topuq vuran adamlar kimi topuq vurmağa başladı. Nə çaldığının, necə çaldığının fərqində deyildi. Sanki əlindəki klarnet yox, quru odun parçası idi. Onun verdiyi nəfəsdən nəmlənən klarnetin borusunda nəmişlik su damlalarına çevrilib klarnetin ruporundan damcılayırdı. Adama elə gəlirdi, bu dəm klarnet də, musiqi də, Mehbalının ürəyi də ağlayır və bu damcılayan su da onların göz yaşları idi.

Gəlin gözlərini yerə dikmişdi. Bir qolu bəyin qolunda, o birisi uzun donunun ətəyində idi. Arada gözlərini qaldırıb Mehbalıya zillədi və diksinən kimi oldu. Buna bəndmiş kimi gözlərindən yaş axdı. Mehbalının çöhrəsi qaraldı. Onun da gözlərində yaş giləndi. Bir anlıq klarneti üfləyən dodaqları keyləşdi. Klarnet boğuq-boğuq, kəsik-kəsik ötdü. Elə bil "Vağzalı"nın beli qırılmışdı və beləcə, gəlinin – Çöhrəgülün arxasınca ağrıdan zarıya-zarıya sürünürdü...

Səhəri gün Mehbalı klarnetini dəyər-dəyməzinə satdı. Hamıdan, hər kəsdən küsdü. Elə bu küskünlüklə də baş götürüb getdi Rusiyaya. Bir müddət sonra elə orda ali məktəbə qəbul olunaraq yol-inşaat mühəndisliyi ixtisasına yiyələndi. Çox keçmədən ixtisası üzrə də işə düzəldi. Orda bir rus qızı ilə ailə həyatı qurdu, oğul-uşaq sahibi oldu. Amma Çöhrəgülü heç unutmadı. Klarneti olmasa da, ara-sıra sakitlik olanda xəlvətdə fışqırıqla "Çöhrəgülü" rəqsini çalmaqla ürəyini ovundururdu.

Mehbalının gözləri yaşarmışdı. Qadına nə deyəcəyini bilmirdi. Dalağı sancmışdı. Bu qadın onun Çöhrəgülündən özgə bir kimsə deyildi. Amma Mehbalının elə bil nitqi qurumuşdu, qadının adını ondan soruşmağa belə heyi, gücü, cəsarəti yox idi. Qorxurdu,.. qorxurdu, birdən zənni aldadar onu. Bəlkə, elə belə yaxşıdır. Bu qadın Çöhrəgülün özü olsa belə, qoy qarşısındakı bu yekəpər, xəstəhal, tez-tez xırhaxırla öskürən, ağır-ağır nəfəs alan adamın Mehbalı olduğunu bilməsin. Bilsə, çox güman ki, iyrənər ondan. Çünki Çöhrəgülün sevdiyi Mehbalıdan əsər-əlamət qalmamışdı. Heç Çöhrəgül sandığı bu qadın da o əzəlki Çöhrəgül deyildi. Mehbalı Allaha yalvarırdı ki, bu qadın Çöhrəgül olmasın. Çöhrəgül olsa

belə, onu tanımasın. Çünki Mehbalı görkəmcə o qədər dəyişmişdi, güzgüdə özü belə özünü tanımır, hətta özü öz vücudundan çiyrinirdi. Di gəl içi, ürəyi, duyğuları çox gözəl, çox da saf idi Mehbalının.

Qadın maraqlı həmsöhbət idi. Onun dərmanlarından, müalicəsindən daha təsirli idi mehribanlığı, canıyananlığı, maraqlı söhbətləri.

Mehbalı bu dəm klarnetini elə candan arzulayırdı ki... Kaş indi yanında olaydı. Dodaqlarını klarnetin müştüyünə toxundurub, şövqlə "Çöhrəgülü"nü səsləndirəydi. Xəstəxananı başına götürəydi bu səs... Ah, necə yeri görünürdü klarnetinin! Tək bu musiqi aləti və bu musiqi ilə hər şeyi, hər mətləbi bircə anda bu qadına qandırardı.

O, xəyalında klarnetdə "Çöhrəgülü" rəqsini çalır, klarneti sağa-sola oynadır, oyun çıxarırdı. Bu dəm bu musiqi sanki qəfil otağa daxil olub özünü divarlara çırparaq yenidən bayıra uçmağa can atan bir quş kimi xəstəxana divarlarına dəyib qayıdır, açıq pəncərədən bayıra pərvazlanırdı. Və Mehbalıdan ötrü dünyanın ən gözəl musiqisi, ən gözəl rəqsi idi "Çöhrəgülü"...



**Əflatun AMAŞOV**

# QANIQ, HASAN, BİR DƏ QARAGÖZ

*...həyat özü ədəbiyyatın inikasıdır.*



## PROLOQ

Hasan hava limanına vaxtından əvvəl gəlmişdi. Balaca bir kafedə oturub pürrəngi çay içə-içə Güllünün təyyarəsini gözləyirdi. Aradayayılan anonslara qulaq kəsilirdi.

Tək deyildi. Yan tərəfindəki stolda yaşı əllini keçər-keçməz qara eynəkli bir kişi də oturmuşdu. Hasandan fərqli olaraq qəhvə içirdi, qabağında da bir qalaq yerli qəzet vardı, gözucu sərlövhələri süzür, hər səhifəni çevirdikcə "pah atonnan, yox bir, bilməmişdik" deyərək, növbəti səhifəni açmazdan əvvəl şəhadət barmağını dilinin ucu ilə yaşlayırdı. "Bu da reklamlar" deyə sonuncu qəzeti götürdü. Nəşrin ön səhifədəki inək şəklini görəndə dodaqları qaçdı. Mətni ucadan, özü də sürətlə oxumağa başladı: "Yaşından, cinsindən asılı olmayaraq Qaragözün bütün törəmələri QQ tərəfindən satın alınacaq. Qiymətlər razılaşma yoluyla". Sonra kimsənin anlamadığı tərzdə mızıldana–mızıldana davam etdi. Qəzeti kənara itələyib: "pah atonnan, maral nədir, yox bir əjdahadan törəyibmiş Qaragözünüzün nəsli. Zalım uşağı, zalım, yanlarına paralel dünyalardan gəlmişik, bunlar hələ də...", –deyə sözünün dalını gətirmədi.

Eşitdikləri Hasanın diqqətini cəlb etməyə bilməzdi. Çünki elan özününküydü. Qəzetə Axtarış Bürosunun tövsiyəsi ilə verdirmişdi. Məqsədi aydın idi. Bəzilərinin yerini eləmişdi. Hamısını tapıb yığacaqdı Qoşa Qara. Buna görə reklamın maraq doğurmasına sevindi. Amma kimsəni duyuq salmamaq üçün üzünün ifadəsini belə dəyişmədi. Gözlədi görsün axırı nə olacaq.

– Hamısını bir yerə toplamaq niyyətiniz başa düşüləndir, cavan oğlan, – deyə yad adam qəflətən başını Hasana tərəf çevirdi. – Gərək ənənəni pozub onu satmaq fikrinə düşməyəydin. Elə bilirsən ki, beli uzunu endirdiyin zoğal çubuğunun əzabını unuda biləcəksən. Əsla. Vicdanın yol verməyəcək.

Bu sözlər Hasanı diksindirdi. Cəld səs gələn tərəfə çevrildi. Yad adam artıq yerindən durmuşdu, elanların ətrafı bürüyən sədaları altında kafeni tərk edirdi.

Yerişi Hasana tanış gəldi. Xəstəxanada ölümlə əlləşəndə başının üstündə gördüyü, "anan namaz üstəymiş, duası səni qorudu, gəldim ki, gözaydınlığı verim, amma axtardığını da tapmayacaqsan" deyən həmin adam idi. Elə onda da indiki təkəbbürlü yerişilə palatadan çıxmışdı...

İstanbuldan gələn təyyarənin yarım saat gecikəcəyi elan ediləndə Hasan əvvəlcə dilxor oldu, sonra sevindi ki, hələ vaxt var, Güllünü necə qarşılayacağını fikirləşsin. Güllü ilə telefonda danışmışdılar, əmin idi ki, qızı tanıya biləcək. Amma Güllünün özünün qarşılama salonunda ona yaxınlaşmasını, "Güllü mənəm" deməsini istəyirdi. Sonra onun çamadanını götürərək dayanacaqda saxladığı maşınının yanına qədər bərabər yeriyəcəkdilər. Çatanda "buyurun, xanım əfəndi" deyib arxa qapını açacaqdı. Bu sayaq müraciəti türk kinolarından öyrənmişdi. Sonrası Allaha qalacaq. Üz tutacaqdılar Qoşa Qara tərəf. Əvvəlcədən hazırlıq görmüşdü. Daş Bulağın başında qurbanlıq quzunu Molla Ayvazın nəvəsinə kəsdirəcəkdi. Kənddən onu elə buna görə çağırtdırmışdı. Yerli televiziya üçün reportaj məsələsini də danışmışdı, mütləq gəlib çəkəcəkdilər. Şəxsən özü kamera qarşısında hamını bir-bir Güllüyə təqdim edəcəkdi. Üstəlik, Qaragöz də, Qanıq da kameraya düşəcəkdilər. Ömür-gün gedir, qoy elə tarix kimi də yaddaşlarda qalsın, Hasan bu qənaətdə idi.

Yurd yerində Güllü üçün xüsusi alaçıq qurdurmuşdu. Qocadan qalan VEF radionu silmiş, Sarvan bazarından aldığı batareyaları taxıb taxtın böyründən elə asmışdı ki, dalğaları dəyişəndə Güllünün əli çatsın, çətinlik çəkməsin. Bazardan iri güzgü almışdı

ki, Güllü ona  baxıb saçlarını istədiyi kimi düzəldə bilsin. Radioya, güzgüyə Güllünün ehtiyacı olacaqdımı? Hasan belə düşünürdü. Üstəlik, evin ən yaxşı, hələ işlənməmiş qabqacağını Qoşa Qara daşımışdı.

Hasan hələ o vaxt biləndə ki Güllü Qocanın vaxtilə 48 vərəqli məktəbli dəftərinə yazdığı xatirələrinin dalınca Qoşa Qara gəlir, şifanerin siyirməsində ASXİ-dən aldığı diplomu ilə bir yerdə saxladığı həmin əlyazmalara bir də baxmışdı, yerindəydilər. Qocanın son nəfəsində onları heç kimə deyil, məhz Hasana əmanət etməsi onu çox duyğulandırmışdı. Elə onda ürəyində özünü məzəmmət eləmişdi ki, bu illərdə Qocadan nə istəyib? Hər dəfə yadına düşəndə bir küncə çəkilib əlyazmaları kövrək-kövrək oxuyurdu. O qədər oxumuşdu ki, əksər yerlərini əzbər bilirdi. Gözündən yaş axdığı vaxtlar da az olmamışdı. Vərəqlərdə çoxlu damcı yerləri də vardı. Bilmək olmurdu ki, onlar həmin küləkli havada yağış dənəciklərinin izləridir, yoxsa Hasanın göz yaşlarının. Yaxşı ki, vərəqlər qalıb, yaxşı ki, cırıb atmayıb. Bunları düşündükcə Hasanın üzünə təbəssüm qonurdu, həmin təbəssüm tezliklə Qocanın son günlərinin yada salınmasından doğan əzabverici qəhərlə əvəzlənirdi...

...Qoca ölə bilmirdi. Sanki Allah unutmuşdu onu yaratdığını, Əzrayılı dalınca göndərmək yadına düşmürdü. Ölüm mələyi üçün yaman darıxırdı Qoca. İstəyirdi tez gəlsin, tez aparsın onu bu işıqlı dünyadan Güllüsünün yanına.

Son gecələrini gözü açıq keçirirdi, kirpikləri örtülən kimi röyasına Güllü gəlirdi.

Bu dəfə Güllü başdan-ayağa ağ paltarda idi. Arpa çayının o tərəfində məlul-məlul dayanmışdı. Bir anlıq baxışları bir-birinə dikildi. Bu məqamda Qoşa Qardakı kimsəsiz alaçığında Qocanı müşahidə edən olsaydı, əzgin çöhrəsindəki qırışlarının necə çəkildiyini, getdikcə mülayim təbəssüm ifadəsi aldığını aydınca görərdi. Qoca qalxmaq, Güllüyə çatmaq istəyirdi. Bacarmırdı. Amma gələn səsi eşidirdi...

Məsim hələ də sakitləşməyən, dalğaları bir-birini qovan Arpa çayının üstündəydi, batmırdı, Qocaya tərəf baxırdı. Özü də heç dəyişməmişdi, sel necə aparmışdı, eləcə də qalmışdı. Balaca quzusu da yanındaydı, nənəsi aşağı kəndlərdən aldırdığı elə həmin əmziklə onu əmizdirə-əmizdirə Qocanı səsləyirdi:

– Eheeyy, Qocaaaa, dalınca gəlmişik, Güllü çağırır, özü də  odur eyyy, çayın o tərəfində, –  səsi də tanış gəldi, elə əvvəlki səsi idi, o da heç dəyişməmişdi.

Qoşa Qarın zirvəsində dayanan Ay getmək istəmirdi, Əzrayılın qanlı əllərinin Qocanın sinəsini yarıb ruhunu necə canından qopardığına şahidlik edirdi...

Hasan biləndə ki Güllü Qoşa Qarda olduğu müddətdə vaxtının çox hissəsini onunla keçirməyi, birlikdə Qoşa Qarı qarış-qarış gəzməyi planlaşdırır, özü üçün təqribi yol xəritəsi cızmışdı. Daş Bulaqda olacaqdılar, bu, sözsüz idi, sonra Qurd Ölən yerdən Göy Qayaya tərəf istiqamət götürəcəkdilər. Güllü Göy Qayaya çıxmaq istəyəcəkdimi? Bəs qayanın Vəlinin özünü atdığı yerinə necə? Qalxsa, yaxşı olardı. Vəli də Vəli imiş haa, özü də Hasanın ən istəkli qəhrəmanı. Söz düşəndə Hasan Vəlini həmişə Dəli Domrula bənzədirdi. Onu da tələbə qonşularının Bakıdan özü ilə gətirdiyi kitabdan oxumuşdu. Kitab oxuyan deyildi. Hardan idi onda o vaxt. Təsadüfən şəkillərinə baxanda Dəli Domrulun körpüdən keçənlərdən töycü yığdığı yer gözünə sataşmışdı. Maraqlanıb oxuyanda onun Allaha ən yaxın mələklərdən olan Cəbrayıldan da qorxmadığını gördü. Ağlına batdı ki, kimsə Yetər arvadın həmişə yalvardığı Cəbrayıldan qorxmursa, deməli, o, əsl qəhrəmandır...

Kənddə qış axşamları əl-ayaq çəkiləndə, adamlar növbə ilə evlərə toplaşıb eşitdik-

lərindən, başlarına gələnlərdən söhbət açanda mütləq Vəlinin cini necə tutmasından da danışarlarmış. Məclis dağılmamış Hasan yuxuya getməzmiş. Ona görə də çox istəyirdi ki, Güllü Qoşa Qara gəlişi ilə bağlı nəsə yazacaqdısa, gərək Vəlinin də adı çəkilsin... Göy Qayadan daha yüksəklərə, ta Cənnət yoluna qədər gedəcəkdilər. Maraqlı olardı ki, elə o zaman mələklər də görünəydilər. Görəsən Güllü inanardımı mələklərin varlığına?...

Təyyarənin enməsinə lap az qalırdı. Hasansa Güllü ilə görüşənə qədər hər bir addımını dəqiqləşdirmək istəyirdi. Güllü onun Qocaya olan əvvəlki münasibətini bilsə pis olmayacaqmı? Axı əlyazmasının dalınca gəlir. Bəlkə heç keçmişə qayıdılmasın? Çünki Qaragözün satılmasının təşəbbüsçüsünün məhz Qoca olmasını ona necə başa salacaq? Bəs nəsildəki ikitirəliyin səbəbi? Bəlkə elə Dəli Düyənin maraldan törəməsini heç dilinə gətirməsin? Heç Qanığı da deməsin. Axı, bunlar ki, uşaqlara söylənən nağıllara bənzəyəcək. Eh, cavan bir qız üçün nə qədər maraqı olacaq ki…

Hasan düşünə-düşünə artıq neçənci dəfə çay sifariş verdiyini unutmuşdu. Ofisiant da əmrə müntəzir kimi onun barmaq işarəsini gözləyirdi, boş stəkanı kənara itələyib şəhadət barmağını qaldıranda növbəti çay hazır olurdu.

Hələ balaca olanda, yurdda Qoca ilə ikisi bir-birilərini didə-didə yaşayanda Hasanın heç ağlına da gəlməzdi ki, böyüyəndə oxuyacaq, özü pul qazanacaq. Qoca heydən düşəndə, əl-ayağı heç nə tutmayanda Hasanın başı işə-gücə o qədər qarışdı ki, heç orta məktəbə vaxtlı-vaxtında gedə də bilmədi. Sonuncu sinfi iki ilə birtəhər bitirib əsgərliyə yollandı. Orada mətbəxdə "xleborez"lik edirdi. Günü çörək doğramaqla keçirdi, arada aşpaza da yardım edirdi. Qocaya məktub yazdı ki, imkan tapıb oxuya bilmədiyi dərs kitablarını ona çatdırsın. Qoca da bunu könülsüz yerinə yetirdi, düzü, ağlı kəsmirdi ki, Hasan oxuyacaq. Ancaq Hasan əsgərlikdən qayıdan kimi qonşularının oğluna qoşulub sənədlərini Kənd Təsərrüfatı İnstitutuna hazırlayanda Qoca sevindi. Cibinə xərclik də qoydu. Onun Qoşa Qara tələbə kimi qayıdacağına nəinki Qoca, heç kim inanmırdı.

Hasan tələbə kimi şəhərdə yaşamağa məcbur olsa da, onu daha çox Qoşa Qar, Daş Bulağın buz kimi suyu çəkirdi. Şəhərin kimsəsiz itlərini görəndə Qanığın qurd qamətini gözləri önünə gətirib onlara yazığı gəlirdi. Tələbə yataqxanasının böyründə məcburi köçkünlər ət dükanı açmışdılar. Rayonlardan ucuz qiymətə alıb gətirdikləri heyvanları axşamdan dükanın həyətinə bağlayırdılar. Yazıqların qabağına bir çəngə ot da qoymazdılar. Onları səhər açılmamış kəsib həyətdəki çinarın gövdəsinə pərçimlədikləri qarmaqdan asardılar. Bədbəxtlikdən Hasanın otağının pəncərəsi dükana baxırdı. Hər dəfə həyətə bağlanan heyvanları görəndə gözünün qənşərinə Qaragöz, Qoşa Qarın Qaragözsüz təsəvvürünə gətirmədiyi yaşıl yamacları gəlirdi. Əmin idi ki, elə bu heyvanlar da dünənə qədər Qoşa Qara bənzər yaylaqların tər çiçəklərini otlayıb, buz kimi sularını içiblər.

Hasan şəhərdə duruş gətirə bilərdimi? Birinci kursu birtəhər bitirib qiyabiyə keçəcəkdi və Qoşa Qara dönəcəkdi. Elə də etdi.

Zaman Qoşa Qarı dəyişdikcə Hasan da dəyişdi. Qocanın ölməsi onu Qoşa Qarın tək sahibi etdi. Ölkədə baş verən dəyişikliklər barədə xəbər tezliklə Qoşa Qara da çatdı. Bu, dünyanın axarına təsir edəcək nəhəng miqyaslı dəyişikliklər idi... Hasan institutda oxuya-oxuya kooperativini qurdu, adını QQ qoydu, yəni Qoşa Qar. Qoşa Qarın xam örüşlərinin otlarını yeyib məst olan inəklərin südündən hazırlanan pendiri, yağı, kəsmiyi,

qaymağı yol kənarındakı kirayə götürdüyü köhnə tikilinin rəflərinə düzdü. Həmin tikili şəhərə gəlib keçənlərin diqqətini cəlb etməyə başladı. Hasanın xüsusi sifariş verdiyi böyük hərflərlə "QQ" yazılan reklam şitinə görə adamlar bir müddət buranı elə də adlandırdılar – QeQe. Hazırda ərazisində "Karagez&Kanikh ticarət" LTD-nin baş ofisinin inşa edildiyi tikili xeyli müddət "Hasanın marketi" kimi də tanındı.

Hasan marketin gəliri hesabına qonşusu Məcid kişinin oğlunun nə vaxtsa Almaniyadan gətirilmiş "Mersedes"ini çox ucuz qiymətə aldı. İndi Güllünün dalınca həmin maşınla gəlmişdi.

***

İstanbuldan gələn təyyarənin endiyi barədə elan gözləmə salonuna yayılanda Hasan əlindəki armudu stəkanı dodaqlarına çatdırmadan duruxdu. Sanki əli havada quruyub qaldı...

...Qəflətən ətrafı təzə qan qoxusu bürüdü. Hardandır bu qoxu? – deyə boylandı. Ona elə gəldi ki, Qoşa Qardadır, Qaragözü arxacdan aralıda bağladığı mıxın yanında. Kənara atdığı zoğal çubuğu ilə Qaragözün beli uzunu vurduğu yerləri tumarlayır, Qaragöz isə o deyil, bambaşqadır, həmişəki məsumluğunu itirib, tumarlandıqca xoşallanmaq əvəzinə fınxırır. Hasan stəkanı dodaqlarına yaxınlaşdırdı, içdiyinin təptəzə qan olduğunu hiss etdi. Qanın tamını lap körpə olanda dadmışdı. Qoşa Qarda qurbanlar kəsiləndə uşaqların alnına sürtülən qan o qədər çox olurdu ki, bəzən axıb dodaqlarına qədər süzülürdü. Onda bilmişdi duzlu, kükürd qoxulu tamını.

Sükutu Qaragözün qulaqlarına gələn səsi pozdu: "İç, sənə bu da azdır, bilmirdin Qocanın kələyinə uyub məni satmaq həvəsinə düşəndə qanımı içməli olacaqdın?" Hasan dinmədi, günahkar olduğunu bilirdi. Günahını yumaq üçün hələ də əlində saxladığı stəkanı başına çəkdi. İçinə ətrafı bürüyən təzə qan qoxusu hakim kəsildi...

Hasan ofisiant tərəfə baxıb o biri əli ilə səmada qövs cızdı ki, hesabı gətirsin. Pulun qalığını gözləmədən sərnişinlərin çıxacağı qapıya tərəf yön aldı.

Adamlar qapı ağzında sıra ilə düzülmüşdülər. Bəzilərinin əllərindəki karton parçasının, yaxud da adi vərəqlərin üzərində müxtəlif adlar yazılmışdı. Diqqəti gələnlərə yönəlmişdi. Hərə bir tərzdə çıxırdı, bəzilərini xoş əhval-ruhiyyə ilə qarşılayırdılar, kimi də lövhədə öz adını görüb sakitcə yanaşırdı. Elələri vardı ki, heç kimə məhəl qoymadan salonu tələsik tərk edirdi. Bəs görəsən, Güllü nə edəcək? Onu tanıyacaqmı?

Adamlar azaldıqca, Güllü gəlib çıxmadıqca Hasan narahat olurdu və onu qəribə hiss bürüyürdü. O hiss o dərəcəyə çatdı ki, harda olduğunu bir anlıq unutdu. Hava limanındaydı, ardı-arası kəsilməyən elanlardan bunu bilirdi. Amma uzaqdan görünən Sənan dağı onun gözlərində Qoşa Qara çevrilmişdi, Hasanı çəkib Göy Qayaya aparmışdı. Güllü də ordaydı. Əlində dəftər-qələm Hasanı dinləyir, özü üçün qeydlər aparırdı. Söhbət Vəliyə çatanda Güllü dayandı. Hasana elə gəldi ki, Vəlinin başına gələnlərə, bəlkə, inanmır, ağlı kəsmir ki, cin o boyda igidi zəlil günə qoyar. Güllünü Vəlinin özünü qayadan atdığı yerə qaldırmağa, qızın hər şeyi öz gözləri ilə görməsinə cəhd etdi. Güllü isə yerindən tərpənmirdi. Hasan xeyli mütəəssir oldu. Ha çalışdı Güllü heç olmasa nəsə desin, o yenə dinmədi. Vəziyyəti belə görən Hasan dayanmadan danışmağa, Vəli ilə bağlı bütün bildiklərini bir nəfəsə nəql etməyə başladı: Cin necə Vəlinin atının yalmanını, quyruğunu hörürmüş, necə tutulub, toy gecəsi nə kələk işlədib. Bir sözlə, nənəsindən nə eşitmişdisə, hamısını təkrar-təkrar söylədi...

Nəhayət, Güllünün səbri tükəndi, əli ilə işarə etdi ki, Hasan dayansın. Və yarıciddi, yarızarafat:

–Vəlini biz mələklərəmi tanıdırsan? O ki igidlikdə heç kəsdən geri qalmazdı.

– Guya ki mələksən? – Hasan maraq dolu həyəcanla dilləndi.

–Tanımazsan, əlbəttə. Biçarə Qoca da mənimlə bağlı bir şey deməyib, yəqin.

Hasan eşitdiyinin mahiyyətinə varmadı. Onu daha çox narahat edən Güllünün Vəliyə laqeyd qalması idi.

– Nə səbəbə Vəlidən yazmaq istəmədin?

–...

– Susursan. Mələksənsə, niyə onda qoydun o biçarə özünü qayadan atsın?

– Sözə baxdı ki... Nəyinə lazım idi onu tutub saxlasın?

– Bəs atının yalmanını, quyruğunu hörəndə, səhərə kimi qan-tər içində çapanda yaxşı olurdu, tutulanda pis?

– Yatmısan fil qulağında. Ədliyyə Nazirliyinin paralel dünyalardakı varlıqların hüquqlarını qorumaq üçün yeni bir təşkilat qeydiyyatdan keçirdiyini eşitməmisən? Real həyatdakı üzvləri kifayət qədərdir. Elə biri də mənəm. Hazırda Məclis seçkilərinə hazırlaşırıq. Mütləq udacağıq, mütləq.

Deyilənlər Hasana qəribə gəldi:

– Sualıma cavab vermədin, bunun Vəli ilə nə əlaqəsi?

– Var, əlbəttə. Vəli cini tutmaqla o biçarənin hüququnu pozdu. Yeni qurumumuzun platformasının ana qayəsi isə Sara və onun kimilərinin hüquqlarını qorumaqdır. Belə olan halda, de görüm, Vəlidən yaza bilərəm, ya yox? Özün qərar ver...

Ardı-arası kəsilməyən elanlar Hasanı özünə qaytarırdı. Göy Qaya yavaş-yavaş hava limanı ilə əvəzlənirdi. Handan-hana Hasanın ağlına gəldi ki, Güllünü gözləyir. Amma ona nə deyəcəkdi, necə qarşılayacaqdı, öncədən planlaşdırdıqlarını xatırlamadı...

Gözləmə salonunda iki nəfər qalmışdılar. Hasanın qarşısında gənc bir qız dayanmışdı, buraların adamları kimi geyməmişdi, arxasına atdığı rüqzaq, qısa şortiki onu orta məktəb şagirdlərinə bənzədirdi. Qızın məsum çöhrəsi vardı, Hasana baxıb gülümsəyirdi. O, Güllünü telefonda eşitdiyi səsindən tanıdı. Ona tərəf uzanan əlini sıxdı və qapıya sarı yanaşı addımladılar...

Hava limanının çıxışı qələbəlik idi. Milli geyimdə bir dəstə adam "gözünüz aydın, sağ əliniz bizim başımıza" deyə –deyə "Suliko" mahnısının sədaları altında qarşılarından keçdi. Gürcülər idi, o zamanlar torpaqları hələ azad olunmamışdı. Amma sevincləri çöhrələrindən hiss olunurdu, sanki dərdlərinə açar tapmışdılar, onu qıfıla salıb problemlərini həll edəcəkdilər. Dəstə dövrə vurub qayıdana qədər nimdaş paltarlı yaşlı bir kişi irəliyə çıxıb əlləri ilə ətrafdakıları sakitləşməyə çağırdı, ucadan "mən Türkiyədə əsirlikdə olanda" deyərək kənarda əl çalan adamların dayanmalarını gözlədi. Onlarsa rəqs edənləri əvvəlki şövqlə alqışlamalarında idi. Kişi səsini daha da ucaldıb yenidən "mən Türkiyədə əsirlikdə olanda" deyə sözə başlayanda dövrə vurub qayıdan dəstə onun səsini batırdı.

Hasan baş verənlərə təəccüblə tamaşa edən Güllüyə:

– Bənd olma, qəribə xalqdı bu gürcülər. Dünya dağılsa da, keflərindən qalmazlar, – deyib maşına tərəf istiqaməti göstərdi. Onlar uzaqlaşanda yenə də qocanın səsi eşidilirdi:

Mən Türkiyədə əsirlikdə olanda...
Mən Türkiyədə əsirlikdə olanda...

## BİRİNCİ HİSSƏ

İmamalı kişi bacısı oğlunun Faxralıdan yolladığı ismarışı barədə Qoşa Qarda heç kəsə demədi. Onu kəndə çağırtdırmışdılar. Ola bilərdi ki, aranda başı qarışsın, bir neçə gün Qoşa Qara qayıtmağa imkan tapmasın. Köçəndə çətin olmasın deyə, istəyirdi ki, hər şeyi öz əli ilə yenidən yoxlasın, tapşırıqlarını verib yola çıxsın.

Yeməyə könülsüz oturdu, tez də qalxdı, tapşırdı ki, ən təzə paltarını sahmana salsınlar, bir də isti su hazırlasınlar ki, saqqalına əl gəzdirsin. İstəyirdi ki, adam içinə çıxanda həmişəki kimi səliqəli görünsün, eyni zamanda qırımındakı ciddilik, amiranəlik itməsin.

İmamalı kişi güzgüyə baxanda özündən xoşu gəlmədi. Dərinə çökmüş gözlərində qəribə narahatlıq, üstəlik, ümidsizlik hiss olunurdu. “Belə olmaz, ay kişi. Kənddə səni bu cür görən nə fikirləşər?” deyə sifətinə həmişəki görkəmi verməyə çalışdı. Ancaq nə qədər elədi, alınmadı.

Bir şeydən çəkincəkliyi qalırdı: təzə hökumətin adamları onunla necə davranacaqlar? Sözünü kəsməzlərmi? Kəssələr, necə hərəkət etməliydi? Bəs dost-tanış onun kolxoza girmək istəyini necə qiymətləndirəcəkdi?

***

Kolxoz məsələsi meydana çıxandan İmamalı kişi çox düşünmüşdü, götür-qoy eləmişdi, ilk vaxtlar nə edəcəyini özü də müəyyən eləyə bilməmişdi. Bəziləri kimi arvad-uşağı evdə qoyub dağlara çəkilərək qaçaqlıq etməyi münasib saymamışdı. Arvadı Gülyəzin:

– A kişi, bir şey fikirləş, uşaqlar kimsəsiz qalmasın. Odur ey, qardaşını güllələdilər, əmin oğlunu Sibirə sürgünə göndərdilər, belə getsə, yurdunda bir başıpapaqlın da qalmayacaq.

İmamalı kişi çevrilib ona hirsli-hirsli baxanda:

– Yazıq günə qalacağıq, – deyə Gülyəz arvad səsini xeyli mülayimləşdirdi. Ərinin qabağında, bəlkə də, ilk dəfə narahatlığından hisslərini cilovlaya bilməmişdi. – Hər şeyimizi verək, evimizi-eşiyimizi... Dağda-daşda yaşayarıq. Əlləri çatmadığı yerlərə köçərik.

İmamalı kişi arvadının onun üstünə gəlməsini gözləməsə də, dediyi son sözləri dodaqaltı bir neçə dəfə təkrarladı: “Əlləri çatmadığı yerlərə köçərik”. O yeri hardan tapacağıq bəs?

Bu barədə yeni hökumət gələndən fikirləşirdi. İlk vaxtlarda ümidini Nikolayın tezliklə qayıtmasına çox bağlamışdı. Təzə hökumətin adamları onun evini dəfələrlə silib-süpürəndə, beşikdəki körpəsinin altındakı döşəkcədəki yuna belə tamah salanda inanmışdı ki, bu insafsızların axırı elə də uzun çəkməyəcək, gec-tez Tanrının qəzəbinə gələcəklər.

Təzə hökumətin adamları İmamalı kişinin başına çox oyun açmışdılar, saymaqla bitməz, o isə hər şeyə dözmüşdü. Güc-bəla ilə qurduğu kərpic sexini, pendir zavodunu əlindən almışdılar, heç nə deməmişdi. Sürülərini, naxırını, ilxısını bölüb yenicə qurduqları kolxoza qatmışdılar, etirazını bildirməmişdi, qardaşını həbs edib sabahısı türmədə güllələmişdilər, səsini içinə salmışdı. Amma kəndin ortasında yığışıb tikdirdikləri məscidin qapısında qara qıfılı görəndə özünü saxlaya bilməmişdi, hirslənib “Allahın evi ilə işiniz olmasın!” deyə hamının gözü qarşısında nu öz əlləri ilə sındırmışdı. “Kimin hünəri var, bağlasın görüm”, – deyərək Molla Ayvazın özünü çağırtdırıb, adamları da məscidə səsləyib birlikdə namazlarını qılmışdılar. Düzdü, bu hadisədən sonra İmamalı kişi kəndi tərk edənə qədər məscidin qapısında qıfıl görünməmişdi, amma ona münasibət daha da kəskinləşmişdi. Əslində

isə təzə hökumətin adamları ondan daha çox çəkinməyə başlamışdılar. Bu da İmamalı kişidə onların tezliklə gedəcəyinə olan inamı hələ də saxlamışdı.

Ötən payız istəmişdi ki, arana köçüb-eləməsin, qışı Qoşa Qarda keçirsin. Yaza qədər, kim bilir, nələr ola bilərdi. Amma hamı Faxralıya qayıdanda bunu şəninə sığışdırmayıb fikrindən daşınmışdı, barəsində yersiz söz-söhbətlərin olacağı onu narahat etmişdi. Bilirdi ki, qorxaqlıqda qınayanlar da az olmayacaq. Həm də yaylaqdan hər köç enəndə arxalarınca həsədlə baxan körpə uşaqlarına qıymamışdı. Onlar qışın qar-boranında Qoşa Qarda nə edəcəkdilər? Xəstələnsəydilər, heç həkim də çağırmaq mümkün olmayacaqdı. Ona görə də qəti qərara gəlmişdi ki, qışı aranda keçirsin. Elə də olmuşdu. Qar lopalarının altında barxanaları arabalara yükləyəndə uşaqların gözlərindəki sevinc ona sanki hər şeyi unutdurmuşdu.

O qışı birtəhər dözüb ertəsi il yaylağa xeyli erkən çıxmışdı. Əkin-səpin işlərini bacısı oğlu Həmidə tapşırıb tez də Qoşa Qara çəkilmişdi. Buna baxmayaraq, kənddən maraqlandığı məsələlərlə bağlı xəbərləri mütəmadi ala bilirdi. Ancaq gələn məlumatlar ürəkaçan olmurdu. Kolxozu boykot elədiklərinə görə həbs olunanların sayı gündən-günə çoxalırdı, məhkəməsiz-filansız güllələnənlər də olurdu. Torpaqların zəbt edilməsi, heyvanların zorla alınıb kolxoz naxırına qatılması adi hal almışdı.

Adətən, Qoşa Qarda qışın gəlməsi gözlənilməz olur. Bilmirsən qar nə zaman qapının ağzını kəsəcək. İmamalı kişi çox götür-qoydan sonra bu dəfə də arana köçməyi qərara almışdı, ona görə də arabaları hazır vəziyyətə gətirmişdi: təkərlərini camışlar üçün düzəldilmiş gölməçəyə atdırmışdı ki, şişsinlər, yolda çətinlik yaranmasın. Üstəlik də keçən ildən qalan mazutla yağlatmışdı. Öküzlərin nalını da təzəcə dəyişdirtmişdi. Qoşa Qara ailə üzvləri iki araba ilə gəlmişdilər. Birində arvad-uşaq idi, digərinə isə ərzagı, yatacaqlarını və lazım olan əşyaları yükləmişdilər. Qayıdanda da elə olacaqdı. Olsa-olsa ikinci arabaya ərzağın əvəzinə Qoşa Qarda hazırlanmış motallar, qurud, pendir, bir də cürbəcür müalicəvi otların qurudulmuş topaları yüklənəcəkdi. Qara düşsələr, bu boyda sürünü, naxırı, öküz arabalarını dağdan endirmək müşkülə çevriləcəkdi. İmamalı kişi tapşırıq vermişdi ki, barxananı hazırlasınlar, yarımçıq işləri görüb qurtarsınlar ki, qar yağmamış dağlardan enə bilsinlər. Tam hazırlıq bir neçə gün çəkəcəkdi.

Bacısı oğlu Həmidin ismarışı onu fikirləşməyə, düzgün çıxış yolu axtarmağa vadar etmişdi. Gələn xəbərə görə, təzə hökumətin rayondakı adamları kəndbəkənd gəzib iclaslar keçirir, ötən il buğda azlığından Urusetdə yaranan aclığın bir də olmaması üçün bütün təsərrüfatların kolxozlarda birləşəcəyini, bunun da şəxsən yoldaş Stalinin göstərişi olduğunu deyirmişlər.

Kolxoza qarşı çıxanları ya güllələmək, ya da Sibirə sürgün etmək göstərişi verilibmiş. Həmin iclaslardan sonra aşağı kəndlərdə İmamalı kişinin tanıdığı, dəfələrələ evinin əziz qonaqları olmuş adamların bir neçəsi də qaçaqlıqdan əl çəkib kolxoza girmişdilər.

Öz kəndlərində olan iclasda İmamalı kişinin də adını çəkibmişlər. Rayondan gələn nümayəndənin şəxsən özü onun bacısı oğlunu yanına çağırtdırıb deyibmiş ki, İmamalı kişiyə çatdır gəlsin, bütün mal-dövlətilə kolxoza girsin, ağsaqqaldır, ağsaqqallığını da eləsin. İstəsə, sədr də seçdirərik.

Xəbəri İmamalı kişiyə bacısı oğlu beləcə, nümayəndənin dediyi kimi çatdırmışdı. Ona görə bu gün yola çıxmaq istəyirdi ki, nümayəndənin iştirak edəcəyi sabahkı iclasa çatsın.

Ertədən idi. İmamalı kişi istəyirdi yola

çıxmazdan əvvəl gözünün çimirini alsın, gecə boyu yol gedəcəkdi. Çuxasını çıxarıb dirəkdən asdı,  xrom çəkmələrini soyunub səliqə ilə taxtın ayaq tərəfində cütlədi. Gözünü təzəcə aldatmışdı ki, qəribə yuxu gördü. Gördü ki, qolları arxadan bağlıdır, təzə hökumət tərəfə keçən nökəri onu atın qabağına qatıb aparır. O da müqavimət göstərmədən sakitcə gedir.

Amma taqəti qalmayıb, ha çalışır addımlarını iri atsın, dabanbasdı gələn atdan uzaqlaşsın ki, onun dırnaqları altında qalmasın, ayaqları sözünə baxmır.

Qollarını kim bağlayıb, nökər onu haraya aparır?

Ha çalışdı, yadına bir şey sala bilmədi. Bəs niyə müqavimət göstərməyib? Yuxuda olsa da, sanki ayıq idi, baş verənlərin təfsilatına varmaq istəyirdi. Endirib nökərdən də heç nə soruşmurdu. Amma ətrafı müşahidə edəndə Qoşa Qardan arana aparıldığını, özü də  yol üstündə olan erməni kəndindən keçdiklərini hiss etdi. Nökərin arxadan gələn səsini eşitdi:

– İmamalı kişi, de görüm, qardaşın kimi güllələnməkmi istəyirsən, yoxsa Sibirə əmin oğlunun yanınamı göndərək?

Nökər özünü tanıyandan ona həmişə “xozeyin” deyə müraciət etmişdi, ilk dəfə idi ki, adı ilə çağırırdı, özü də rişxəndlə. İmamalı kişi dillənmədi, şəstinə sığışdırmadı ki, dünənə kimi qulluğunda dayanan birinə cavab versin. Sual təkrarlananda, təkidlə cavabı tələb ediləndə o dözmədi, əsəbi halda:

– Sən haranın qurumsağısan ki, cavab da istəyirsən. Aya, gəda, lap uşaqlığından çörəyimlə yekələnməmisən? İndi pirinə şıllaq atırsan, nökər oğlu nökər.  Tfu... sənin qədirsiz sufatına!

Yadına düşdü ki, naqanı belindədir. Ağırlığından da hiss etdi. Bəs niyə nökəri atın belindən salmır? Geriyə dönmək istəyəndə yol boyunca adamların onları seyr etdiyini gördü. İmamalı kişi bəzilərini sifətlərindən tanıdı. Qoşa Qarda onlara o qədər ot biçdirmişdi ki... Hirsi daha da artdı. Ha çalışdı əlini belinə aparsın, əli naqana çatmadı...

Getdikcə çoxalan adamların müşayiəti altında kəndin mərkəzinə yetişdilər. Meydanın ortasında üstünə qara örtük salınmış masanın arxasında üç nəfər oturmuşdu. Onlara yaxınlaşanda nökər atın başını çəkdi. İmamalı kişi də qeyri-ixtiyari dayandı.

Yenə arxadan nökərin səsi gəldi:

– Gətirmişəm, bu da çağırtdırdığınız adam. Nə Sibiri bəyənir, nə də güllələnmək istəyir. Qurd ürəyi yeyib, danışmaq belə istəmir.

Bunu gözləyirmiş kimi ortadakı qara kostyumlu şəxs gözlərini İmamalı kişiyə dikib soruşdu:

– Qolçomaq İmamalı Alıöyü sənsən?

– Bəli, mənəm.

– Sənin məhkəməni qurmuşuq. Kolxozu boykot elədiyinə görə güllələnmə kəsdik, – deyə əlini meydanın kənarındakı birmərtəbəli kolxoz idarəsinə tərəf uzatdı. İmamalı kişi uzaqdan binanın divarına səpələnmiş təzə qan ləkələrini gördü. Torpaqda qırmızıya çalan bir neçə gölməçə də diqqətini çəkdi. İşin nə yerdə olduğunu anladı. Ətrafa göz gəzdirdi, kənarda toplaşan adamlar matdım-matdım baş verənləri izləyirdi. Tam sakitlik yaranmışdı. İmamalı kişi qamətini düzəltdi, çevik addımlarla kolxoz binasına tərəf yeridi.

Yenidən nökərin istehza dolu səsini eşitdi:

– Eyy, eşidirsən? Kəlmeyi-şəhadətini deməyi unutma, özüm güllələyəcəm.

– Sənin güllələndənsə başıma öz gülləmi çaxaram, dəyyus oğlu dəyyus.

Bu dəfə əli naqanına çatdı... Güllə səsinə özü hövlnak oyandı.

– Nəhlət şeytana, – deyib yerindən sıçradı və qarşısında ona matdım-matdım baxan nökərini gördü. Nökər çəkinə-çəkinə:

– Xozeyin, qabağına atdığın arpadan Bozqar bir ovuc da yeməyib. Bəlkə, Qaşqanı yəhərləyim?

İmamalı kişi hirsini tökməyə fürsət gözləyən adam tövrü ilə qışqırdı:

– Eeyyy... Nə vaxtdan mənim işimə qarışırsan?! Hələ bir məsləhət də verirsən! Bozqarı yəhərlə, Bozqarı!

Nökər təəccüblə ona baxıb çiyinlərini çəkdi. Heç nə anlamadığına işarə vuran incik səslə:

– Dedim, birdən... duruxdu. – Baş üstə, xozeyin, indi yəhərləyərəm, – deyib cəld alaçıqdan çıxdı.

## İKİNCİ HİSSƏ

Qaragöz titrək bədəni əsə-əsə yenə dartındı. Çatı qəribə materialdandı, dartıldıqca nazilir, sanki iti bir bıçağa dönürdü, Qaragözün boynundakı çapığı həm böyüdür, həm də dərinləşdirirdi. Çapıqdan çıxan qan əvvəlkinin üstünə hopur və yerindəcə quruyurdu.

Artıq bədənindəki ağrılar Qaragözü narahat etmirdi. Dözəcəkdi, təki bu bəladan qurtarsın, təki azad olsun. Çatıdan qurtarsaydı, yolun o biri tərəfindəki yamyaşıl bağa – parka qaçacaqdı, maşından düşürüləndə görmüşdü, adam boyundan da böyük olan ağacların arası ilə qaçacaqdı... Təki buradan qurtulsun, bir də axşam tez gəlsin – gecənin qaranlığında yox olmağa nə var ki...

Bunlar sonra, Qaragöz çatını qıra bilsə, baş verəcəkdi, amma indi onun hərəkətlərinə tamam başqa istək hakim idi – necə eləsin ki, çatıdan xilas olsun?..

Bunun üçünsə gücünü saxlamalı, qidalanmalı idi. Qaragöz sonuncu dəfə dünən axşam yemişdi. İndi qabağına atılmış bir çəngə ot yarım kəsilmiş maşın təkərindəki su kimi neft qoxusu verirdi. Dünən Hasan naxırı Qoşa Qarın tam zirvəsinə, xam örüş yerlərinə qaldırmışdı. Qaragöz yenicə açılmış çiçəklərin tər qoxusundan məst ola-ola doyunca otlamışdı, Daş Bulağın buz kimi suyundan da içmişdi, kefi kökəlmişdi, o yan-bu yana qaça-qaça oynaqlamışdı. Hətta bir dəfə naxırdan uzaqlaşdığına görə Hasanın zoğal çubuğuna da tuş gəlmişdi.

Naxır arxaca enəndə Hasanın onu həzin-həzin oxşaması, tumarlaması Qaragözün diqqətindən yayınmamışdı. Ona elə gəlmişdi ki, sahibi onu Qoşa Qarın zirvəsində zoğal çubuğu ilə vurduğuna görə günahını yuyur. Bir az da ərköyünləşmiş, Hasan əlindəki çatını Qaragözün başına keçirəndə etiraz belə etməmişdi. “Böyümüşəm, yəqin ki” düşünmüşdü.

Bir qayda olaraq naxırda inəkləri, düyələri arxaca çəkib başından bağlayırdılar. Buzovları isə gecənin ayazı tutmasın deyə, xüsusi hazırlanmış alaçığa salırdılar. Qaragöz kimi danalar  sərbəst idilər. Böyüsələr də, adətən, analarının yanında uzanıb yatırdılar, kefləri istəyəndə naxırın dövrəsində gəzişir, gecənin şehi düşmüş göy otlardan aram-aram yeyirdilər. Bəlkə, ona görə daha tez böyüyür, daha ətli-qanlı olurdular.

Hasanın onu inəklərin, düyələrin bağlandığı arxaca yox, bir az kənarda, arxaca gələn yolun başında gündüzdən çaldığı mıxa tərəf aparması Qaragözə qəribə gəldi, bir az da qüruruna toxundu. Bir neçə addım atıb dayandı. Dartındı ki, Hasanın əlindən çıxsın. Alınmadı, çünki Hasan çatını möhkəm tutmuşdu. O, mıxa tərəf bir neçə addım atdı və çatını arxasınca çəkdi. Qaragöz qabaq ayaqlarını cütləyib yerindən tərpənmədi. Onun bu hərəkəti Hasanı əsəbiləşdirdi. Əyilib bayaq kənara atdığı zoğal çubuğunu götürdü, yuxarı qaldırıb Qaragözün beli uzunu endirdi. Və amiranə: “Gəl, azar dəymiş, yoxsa qabırğalarını qıraram”, – deyə çəmkirdi. Zoğal çubuğunun ağrıları, Hasanın zabitəli səsi Qaragözü ayıltdı. O, ölü addımlarla sahibinin arxasınca düşdü. Hasan çatını mıxa bağladı. Belini dikəldib çubuğu kənara atdı. Ancaq

bundan sonra sifəti dəyişdi, üzündə bir anlıq yaranan xoş təbəssüm acı kədərlə əvəzləndi, amma səsi həmişəki kimi mülayim idi. Həmin səslə Qaragözü yenidən oxşamağa başladı. Onu təriflədi, buzov olanda buzovların gözü, dana olanda naxırın tacı olduğunu şeirə düzüb zümzümə etdi. Onu da anlatmağa çalışdı ki, bu vaxtacan Dəli Düyənin dişi törəməsinin heç biri satılmayıb, bankdan aldıqları kreditin vaxtı kecdiyindən və Urusetdən hələ pul göndərilmədiyindən yana Qocanın məsləhəti ilə ilk dəfə belə addım atıb Qaragözün satılması ilə razılaşmışdı... Düzünə baxsan, heç razılaşmamışdı da.

Hasan zümzümə edə-edə barmaqlarını Qaragözün balaca buynuzlarında gəzdirdi. Onlar böyümüşdü, niyə əvvəl bunu görməmişdi, özünə acığı da tutdu. Sonra Qaragözün boynunu tumarladı, zoğal çubuğunun dəydiyi yerləri ehmalca sığalladı. Qaragoz bayaqkı ağrılarını unutdu. Hasandan inciməkmi olardı, onun hərəkətlərinə cavab olaraq yüngülcə fınxırdı, başını arxaya çevirib Hasanın ona sığal çəkən barmaqlarını qoxuladı, dilinin ucu ilə onları yaladı. Bir müddət beləcə Hasan Qaragözü, Qaragöz Hasanı oxşadı, sığallaşdılar. Sonra Hasan onun boynunu qucaqlayıb alnını alnına söykədi.

Və xəyal Hasanı xeyli əvvəllə – Qoşa Qarın yamacına apardı. Onda, bəlkə, bir az gec çatsaydı, heç Qaragöz də sağ qalmayacaqdı. Anası Ala Düyə canavarın qabağında, çətin ki, səhərəcən tab gətirə biləydi...

Düz bir il əvvəl həmin axşam Ala Düyə çöldə qalmışdı. Hansısa heyvanın çöldə qalması Hasanı elə də narahat etməzdi. Çünki buralarda heyvanlar özlərini canavarlara çox nadir hallarda yem edər, özü də Ala Düyə olsun. Amma Ala Düyənin dünyaya balasını, yəni Qaragözü gətirməsi gözlənirdi. Hasan buna görə narahat idi. Bilirdi ki, Ala Düyə çöldə doğsa, balasını qoyub gəlməyəcək. Zəif buzovu qurd-quş tələf edərdi. Ona görə Hasan vaxt itirmədən zoğal çubuğunu da götürüb Qoşa Qarın yaylaqlarına tərəf üz tutdu. Xeyli gəzdi. Yorulanda hiss etdi ki, gecə yarıdan keçib. Axşamkı səs-küydən – quşların cəh-cəhindən, Qoşa Qarın zirvəsindən gələn çaqqal ulaşmasından əsər-əlamət qalmamışdı. Tam sakitlik idi. Hardansa yadına babası ilə Qoşa Qarda Dəli Düyəni axtarmaları düşdü. Çoxdan olmuşdu, onda Hasanın heç 7 yaşı yoxuydu. Gecəyarısına qədər gəzmişdilər. Hər tərəfə sükut çökəndə babası onun sakit dayanmasını istəmişdi. Özü isə qulaqlarını ovuclarının içinə alıb aramla dövrə vuraraq ətrafdakı səsləri dinşəməyə başlamışdı. Beləliklə, babası Dəli Düyənin yerini öyrənə bilmişdi. Hasanın sonralar bu üsulu yoxlamaq imkanı olmamışdı. İndi tam vaxtı idi, zamanı çatmışdı.

Hasan əlindəki zoğal çubuğunu bir yanı mamır basmış daşa söykədi. Ovuclarını yarım qövs şəklinə salıb qulaqlarına dirədi. Əvvəlcə uzaqlardan, Qoşa Qarın o biri səmtindən qonşu kəndin yurd yerlərindəki çoban itlərinin yorğun səslərini eşitdi. Ağlına da gəlməzdi ki, o boyda məsafədən itlərin hürüşməsi buralara gəlib çıxsın. Səs zəif idi, arada itib batırdı. Hasan Qoşa Qarın ayağındakı Göy Qayaya çırpılan küləyin səsini də digər səslərdən ayıra bildi. Səslər bir-birini əvəzləyirdi: hansısa quşun harayı, bir az aralıda uçan böcəklərin uğultusu, hətta burnuna qonub onun qanını sormağa çalışan ağcaqanadın vızıltısı. Bunların arasında o, Ala Düyənin fınxırtısını da eşitdi. Hasan daşa söykədiyi zoğal çubuğunu götürüb səs gələn tərəfə çatanda gözlərinə inanmadı. Ala Düyə yenicə doğduğu Qaragözü ayaqları arasında saxlayıb canavardan qoruyurdu. Canavar tək idi, hansı tərəfdən yaxınlaşmaq istəyirdisə, Ala Düyə tez o tərəfə çevrilib böyük, iti buynuzları ilə onu yaxın buraxmırdı. Yazıq heyvan o qədər dövrə vurmuşdu ki, sanki böyük bir dairənin dizə çatan otunu kimsə

səliqə ilə biçib yerə düzmüşdü. Hasan "Osmanlı beşaçılanımı da gərək götürəydim" fikrini ani olaraq beynindən keçirdi. Amma gec idi. Yeganə ümid zoğal çubuğunaydı.

Hasanın gəlişindən hər iki tərəf bir anlığa donub qaldı. Ancaq bu çox çəkmədi. Canavar fürsəti bada vermədən ayaq izindən tapdaq olmuş, amma hələ təravətini itirməmiş göy otun üstü ilə cəld Ala Düyəyə tərəf sürünüb ona çatdı. Hasan qeyri-ixtiyari: "Ay qurd, Tanrının qəzəbinə gələsən, rədd ol!" – deyə özünün də gözləmədiyi gur səslə qışqırdı. Səsi dalğa-dalğa yayıldı. Əks-sədası Göy Qayaya dəyib qayıdanda özü də diksindi, saçları biz-biz oldu.

Bunu necə etmişdi, bu səs ondan necə çıxmışdı, bilmədi. Hasanın səsindənmi, yoxsa kim bilir, nədən canavar bir göz qırpımındaca kənara çəkildi. Özünə gələn Ala Düyə bu dəfə həmləni dəf edirmiş kimi canavarın üstünə şığıdı, canavar fənd işlədib əvvəlcə geri çəkildi. Bununla inəyi buzovdan uzaqlaşdırdı, cəld atılıb inəyin arxa tərəfinə keçdi, vəziyyət elə gətirdi ki, bayaq Ala Düyənin ayaqlarına dolaşan, hələ də dölündən tam ayrılmayan Qaragöz anası ilə canavarın arasında qaldı. Canavar Qaragözə tərəf yeridi. Hasana elə gəldi ki, qurd bu saat Qaragözü parçalayacaq. Hövlnak zoğal çubuğunu başı üstünə qaldırıb heç nə ifadə etməyən, zərrə qədər də anlaşılmayan səslə yenidən qışqırdı. Qəribə idi, canavar heç nə olmamış kimi davrandı, başını əyib Qaragözü qoxuladı. Ala Düyə fürsət tapıb Qaragözə çatınca, Hasanın başı üstünə qaldırdığı zoğal çubuğu enincə canavar kənara çəkildi, ağır-ağır, saymazyana Hasana tərəf boylandı.Onun parlayan gözləri, iti baxışları Hasanı üşütdü. Canavar ağır addımlarla qaranlığın dərinliyinə təpildi.

Hasan özündə deyildi, qeyri-ixtiyari əlini başına apardı, tükləri yenə biz-biz idi. Düzü, əməllicə qorxmuşdu. Ürəyinin döyüntüsünü kənardan da eşitmək olardı. Ömründə ilk dəfə idi ki, canavarı belə yaxından, bir neçə addımlıqdan görmüşdü.

Hələ lap uşaqlıqda, heç üç yaşı tamam olmamış atası onu tətildə Qoşa Qara gətirəndə canavar haqqında çox eşitmişdi. Yadındadır, gecələr yuxuya gedə bilməyəndə nənəsi ona canavarlardan elə oradaca quraşdırdığı nağıllar danışardı. Həmişə də nağıllar nikbin sonluqla bitərdi. Dağlarda azan uşaqları, balaca buzovları, keçiləri, quzuları canavarlar səhərə qədər öz balalarının yanında saxlar, səhər də valideynlərinə qaytarardılar... Elə o vaxtdan Hasanda belə təsəvvür yaranmışdı ki, uca dağların, geniş düzənlərin, elə Qoşa Qarın da sahibi canavarlardır.

...Valideynlərini vaxtsız itirəndən sonra Hasanı tərk etməyən tənhalıq ovqatı yenidən ona güc gəldi. Ala Düyəyə yaxınlaşıb boynunu qucaqladı, qaranlıqda hiss etdi ki, heyvan su içindədir. Ürəyində onunla qürurlandı. "Dəli Düyənin südü halalın olsun" – deyə pıçıldadı. Buzovun dikəlməsinə kömək elədi. Buzov ayaqlarının üstündə güclə dura-dura başını anasının süddən partlayan əmcəklərinə tərəf apardı və bir müddət beləcə qaldı.

Sonra Hasan buzovu çiyninə aşırdı, Ala Düyəni də qabağına qatıb yurd yerinə gələndə canavarın onları uzaqdan-uzağa izlədiyini hiss etdi. Bütün bunlardan sonra canavar nə istəyirdi? İstəsə, bayaq Qaragözü apara bilərdi, hətta Hasanı da param-parça elərdi. Zoğal çubuğu ilə yazıq neyləyəsiydi ki?  Bəs onda niyə Qaragözə, onun özünə toxunmadı? Bu fikirlər uzun müddət, elə indi də Hasandan əl çəkmirdi.

Hasan canavarda ona tanış gələn nəyisə sezmişdi. Qanığa bənzəyirdi, bu, şəksiz idi. Boyu, quyruğu, ayağını atması, üz quruluşu elə Qanığınkı idi. Saymazyanalığı da öz yerində…

Hasan bunu babasından eşitmişdi. Babası da öz babasından. Əhvalatı hərə bir cür danışardı, amma ana xətt eyni idi: bir dəfə

Qoşa Qarda sürüyə cumub bir neçə qoyunu parçalayan canavarı babası özünün elə indiyədək Hasanda qalan Osmanlı beşaçılanı ilə ağır yaralamış və qanının izinə düşüb yuvasına qədər izləmişdi. Yuvada yenicə doğulmuş, hələ gözü açılmamış canavar balasının anasının qanlı döşlərini necə sümürdüyünü görmüşdü. Bu səhnədən sarsılan baba geri dönüb sürüdəki ən gözəgəlimli toğlulardan birini kəsmiş, cəmdəyi götürüb birbaşa canavarın yuvasına yollanmışdı. Amma gecikmişdi. Babası bala canavarı anasının əmcəyindən zorla qoparıb yurd yerinə gətirmişdi. Canavar balası tezcə böyümüş, yurd yerini, sürüləri göz bəbəyi kimi qoruyan itlərə qoşulmuşdu. Qanığın nəsli də canavardan törəmişdi, hələ o vaxtdan adamlar onun balası üçün növbəyə dururlarmış…

Amma canavar çoban itlərinin içində çox duruş gətirməyib günlərin birində genimişdi. Onu başqa canavarlarla görən də olmamışdı. Bunu da söyləyirlər ki, o, yurd yerini tərk edəndən sonra çöldəki heyvanlara başqa canavar yaxın gəlməyib. Buraların adamları indi də elə fikirləşirlər. Kiminsə nəyisə çöldə qalanda onu Qurdun cəddinə tapşırır…

Sonralar canavarın leşini Qoşa Qarın ətəyində, yolun qıvrılıb Göy Qayaya dönən səmtində görübmüşlər. Elə o vaxtacan da həmin ərazi Qurd Ölən Yer adlanırdı…

Üstündən düz bir il keçdi. Qaragöz günügündən böyüdü, o biri inəklərin südünü sağıb bidonlara dolduranda Ala Düyəyə toxunan olmadı. Hər nəyi vardısa, Qaragözə qaldı. Ən xam yerlərdə otladı, ən saf sulardan içdi. Böyüdü, böyüdükcə naxırın ərköyün buzovuna, danasına çevrildi.

…Hasan qollarını Qaragözün boynundan çəkmək, alnını onun alnından ayırmaq istəmirdi. Keçmişin xatiratı onu qəhərləndirmişdi, o qədər kövrəlmişdi ki, gözlərinin yaşını saxlaya bilmirdi. Yaş Hasanın sifətində iki cığır açmışdı, oradan da Qaragözün düz burnunun ucuna damcılayırdı. Hər damcıda Qaragöz uzun dilini daha da uzadıb damcı düşdüyü yeri yalayırdı. Nəhayət, Qaragöz dözmədi, başını tərpətdi, yana çevirdi. Qayıdıb bir anlıq iri qara gözlərini Hasana zillədi. Hasanın gözlərindən axan yaşın sifətinə saldığı həmin iki cığır Qaragözün yaddaşına həmişəlik həkk oldu.

Səhər hava işıqlanar-işıqlanmaz Hasan heyvanları örüşə çıxaranda Qaragöz tərəfə baxmadı da. Ürəyi gəlmədi. Onu son dəfə görmək istəmədi. Arxacdakı bağlı heyvanları səssizcə çatıdan açdı, qabağına qatıb alaçıqdan uzaqlaşdı. Qoca yaşlanmışdı. Ona görə, adətən, Hasan alaçıqda olmayanda buralara Qanıq gözətçilik edərdi. Adam nədi, quş quşluğu ilə buralardan səkə bilməzdi. Amma səhər Hasan onu sakitcə səslədi, yanına çağırıb zəncirinə bağladı. Bilirdi ki, Qanıq şəhərdən gələnlərin alaçığa yaxınlaşmasına, üstəlik, hələ Qaragözü də maşına mindirib aparmasına aman verməyəcək.

Deyilən kimi də oldu. Hasan yenicə aralaşmışdı ki, Qanıq uzaqdan gələn maşın səsindən duyuq düşdü, bir ağız qarasına hürdü də. Səs getdikcə yaxınlaşırdı. Əvvəlcə uzaqdan qaraltı göründü. Sonra qaraltı yavaş-yavaş böyüyüb maşına döndü.

Düz gəlib Qaragözün yanında dayandı. Maşında iki nəfər idilər. Əmin olanda ki Qanıq bağlıdır, ürəklənib yerə düşdülər. Çadırın qabağında oturan Qocaya: “A kişi, aparırıq ha!”– deyən bir az yaşlı, yekəpər adam dərhal Qaragözə yaxınlaşdı, onun boynunu burub yerə sərdi. O biri isə əlindəki kəndirlə ayaqlarını cütləyib bağladı. Sonra biri başından, o biri quyruğundan tutub onu güclə maşının yük yerinə atdılar. Qaragözü bu halda görən Qanıq çox dartınsa da, zənciri qıra bilmədi. Özünü tanıdığı vaxtdan bəri olmamışdı ki, ona tapşırılan ərazidən kimsə

nəyisə ondan ixtiyarsız aparsın. Zəncir möhkəm, həm də qalın və ağır idi, hansı mənanı ifadə etdiyi bilinməyən həlqələr bir-birinə səliqə ilə bənd edilmişdi. Çox-çox əvvəllər, hələ Nikolay taxtda olanda Hasanın ulu babası 7 toğlu verib Dəmirçi Ləzgiyə düzəltdirmişdi. Onilliklər keçmiş, nəsillər dəyişmiş, itlər bir-birini əvəzləmişdi, amma həmişə itlərin ən qorxmazı, ən etibarlısı bu zəncirlə bağlanmışdı. Zəncir onlara daha möhtəşəm görkəm verirdi. Yüz ildən çoxuydu həmin zəncirə yalnız Qanıq nəslinin törəməsi bağlanırdı. Bir dəfə yaylağa kinoçəkənlər də gəlibmiş. Aralarındakı xarici qonaq nə qədər pul təklif eləmişdisə də, zənciri ala bilməmişdi.

...Yox, Qanıq bu vəziyyətlə barışmayacaqdı. Heysiyyətinə toxunulmuşdu. Zəncirdəcə ürəyi partlayacaqdı. Anlamışdı ki, zənciri qıra bilməyəcək. Zəncirsə hələ suyu çəkilməmiş ağac budağından yonulan mıxçaya bərkidilmişdi. Neyləməli olduğu Qanığın ağlına qəfil gəldi: bir andaca mıxçanı dişləri ilə çilik-çilik edib maşının dalınca götürüləcəkdi. Maşındakılar onu görüb sürəti daha da artıracaqdılar. Toz dumanı Qanığı bir anlığa gözdən itirəcəkdi...

Elə o gün həmin maşında Qaragözü şəhərə gətirdilər. Ət dükanının qabağında yük yerindən çəkib saldılar. Ayaqlarını açdılar, Qaragöz güc-bəla ilə qalxa bildi. Yekəpər kişi: "İndi gecdir, sabah kəsiləcək, aparın bunu bağlayın o ağaca!" – əmrini verib əli ilə dükanın böyründəki tək söyüdü göstərdi.

Ət dükanı dayanacağın yaxınlığındakı birmərtəbəli binada yerləşirdi. Sahibi də əli ilə söyüdü göstərən həmin o kişi idi, rayonlardan ucuz qiymətə aldığı heyvanları kəsib satmaqla məşğul olurdu. Dünən biləndə ki Qoşa Qarda kreditə görə kimlərisə bərk sıxırlar, tez əlaqə yaratdı, dəyər-dəyməzinə qiymətini sövdələşdi. Hasanın da başqa çarəsi qalmamışdı. Nə qədər çalışmışdı Qaragöz satılmasın, ancaq Qoca barmağını Qaragözə tuşlayıb durmuşdu. Qoca niyə belə edir, niyə məhz Qaragöz? Hasan cavabını tapa bilmirdi. Borc üçün kimin yanına getmişdi, əliboş qayıtmışdı. Bəziləri də ona görə verməmişdi ki, onlar kreditlərini qaytara bilməsinlər, buralardan çəkilib getsinlər. Qoşa Qarın xam yamacları, bulaqların sərin suları özlərinə qalsın.

...Mənzərə Qaragöz üçün tamamilə yeni idi. Doğulduğu gündən onun gördüyü Qoşa Qarın yamacları olmuşdu, buz bulaqlar olmuşdu, bir yerdə otladıqları inəklər, buzovlar, özü kimi danalar idi, Qanığıydı, Qocaydı, nənəsiydi... Bir neçə dəfə də yuxarı köç yerlərinə gedib-gələn ağ maşın diqqətini çəkmişdi. Doğulan günü gördüyü canavarı elə ertəsi gün unutmuşdu. İndi torpağın asfaltla örtüldüyünü ilk dəfə görürdü, asfaltın üstündə o yan-bu yana şütüyən irili-xırdalı maşınları çaşqın-çaşqın süzürdü, onların uğultusunu, zilə qalxan siqnallarını eşidirdi. Hava da mazut qoxusu verirdi, qabağına atılan ot da, su da, bağlandığı söyüdün əyilən budağındakı yarpaqlar da.

Mənzərə onu vahiməyə salmışdı. Hər maşın uğultusuna, hər siqnala diksinirdi, həyəcandan əsən gövdəsi ilə kəndirə sarılırdı ki, onu qırsın, bu zülmdən canını qurtarsın.

...Qaragöz dünən axşam Qoşa Qarın zirvəsində yediyinin üstündə idi. İnsafsızlar gün ərzində bir qurtum su da verməmişdilər. Yaylaqda necə ayaqlarını bağlayıb maşına atmışdılar, eləcə də birbaşa ət dükanına gətirmişdilər. Əslində, Qaragöz taleyi ilə Hasan onu yolun başındakı mıxçaya bağlayanda barışmışdı. Qanıq gecə bir neçə dəfə başına fırlansa da, quyruğunu oynadıb atılıb-düşsə də, eyninə almamışdı. Bəlkə, elə gecəykən zor gəlib mıxçanı çıxarıb buralardan genimək olardı. Tək-tənha, Hasansız nə edəcəkdi ki? Kimə lazım olacaqdı? Ona görə də şəhərdən gələn adamlara müqavimət göstərmədi. Yad

kişilər ayaqlarını bağlayıb onu zorla maşına atanda bilmişdi ki, sən demə, insanlar da müxtəlif olurmuş, hamı Hasan kimi deyilmiş…

Nədənsə Qaragöz yaşamağın ləzzətli, şirin olduğunu ilk dəfə indi –maşında yol gələndə duymuşdu. Ona görə necə olursa-olsun qaçacağını düşündü. Yol boyu cəhd etdi ki, ayaqlarını kəndirdən çıxarsın, amma heç cür alınmadı…

Hər şeyin yuxu olması arzusu ilə gözlərini yumdu. Yumdu ki, bir də gözünü açanda özünü Qoşa Qarda görsün. Elə də oldu. Gözlərinin qabağına Qoşa Qar gəldi, Hasanın ağlamaqdan qızarmış gözləri gəldi, tez də keçdi. Qanığı da gördü. Düzdü, zəncirə vurulmuşdu, amma hürmürdü. Səsi dəyişmişdi, ləhləyirdi. Ləhlədikcə zəncirin polad halqaları bir-birinə dəyirdi. Qaragöz gözlərini açmadı ki, yuxu bitməsin. Həmin səs – Qanığın və zəncirin polad halqalarının musiqiyə bənzər ahəngdar səsi ət dükanına qədər Qaragözü izlədi…

Bazar səhəri olduğundan adamlar alış–veriş üçün şəhərə axışırdı, xarici markalı yeni maşınların arasında kuzalarına qədər qoyun-quzu ilə yüklənmiş böyük maşınlar da az deyildi. Bunun Qaragöz üçün əhəmiyyəti yox idi. Əyilib suyu qoxuladı. Su isti idi, qəribə qoxusu vardı. Qoşa Qarın suyu hara, bu hara! Ciyəri yanırdı, güc-bəla ilə bir qurtum içə bildi. Otu yeyə bilmədi. Qoşa Qarın otuna heç oxşamırdı, mazut qoxusu verirdi.

…Kəndiri qırıb qaçmaq sevdası başından getmirdi. Birdən qulağına iri maşınların hay-küyünə qarışmış doğma səs gəldi. Qaragöz diksindi, qamətini düzəldib qulaqlarını şəklədi. Qanığın səsiydi. Bəs özü hanı? Niyə görünmür?

Səs Qaragözü bir anda başqalaşdırdı, ağrısını, aclığını, susuzluğunu unutdurdu, yadına Qoşa Qarı, onun ünyetməz otlaqlarını, buz bulaqlarını saldı. Hasanın onu oxşamasını, tumarlamasını, həm də o gün zoğal çubuğundan aldığı ağrıları xatırlatdı. O ağrılar, o sızıltılar ona indi necə də xoş, şirin gəldi! Kaş Hasan əlində həmin zoğal çubuğu burda olaydı.

Nələr olduğunu Qaragöz anlamırdı. Boğazının ağrısına məhəl qoymadan bağlandığı söyüd ağacından var gücüylə yola sarı dartındı. Ağacı yerindən qopardı. İndi yol onun idi. Dərhal maşınları yara-yara ağacların sıx olduğu parka, Qanığın səsi gələn səmtə götürüldü... Cəhd elədi yolu keçsin, mümkün olmadı, sağdan şığıyan maşının zərbindən başqa bir maşına dəyib top kimi göydə fırlandı və düz yolun ortasına düşdü. Ətrafı əyləc, siqnal səsləri bürüdü. Həyat dondu, hərəkət dayandı.

Tezliklə sükut pozuldu. Adamlar maşınlardan tələsik düşüb ona tərəf gəldilər. Qan gölməçəsində taqətsiz qalan Qaragözü aralığa aldılar. Bir kişi başını kabinədən çıxarıb yerdəkilərə səsləndi: “Yiyəsini tapın, tez boğazına bıçaq çəksin, haram olandan sonra heç it də yeməz”. Bir başqası ağzı sulana-sulana: “Yaxşı da əti varmıs, əsl kabablıqdı”– dedi.

Bürkü idi, aşağıdan da asfaltın istisi nəfəs almağa aman vermirdi. Qaragöz nə baş verdiyini bilmirdi, amma hər yeri ağrıyırdı. Çox qan itirdiyindən getdikcə zəifləyirdi. Birtəhər gözlərini aça bildi.

Ətrafına toplaşan adamlar da qəribə idilər. Danışıqları ilə, geyimləri ilə. Heç Hasana bənzəyəni yox idi. Baxışlarda biganəlik, soyuqluq vardı. Heç kim ona yardım etmək fikrində deyildi. Əksinə, sanki bilərəkdən havanın da qabağını kəsmişdilər. Əlac tək özünə qalmışdı. Ancaq qalxmağa taqəti yox idi. Yaralı başını belə tərpədə bilmirdi.

Hərə ağlına gələni danışırdı. Kimsə rişxəndlə: “102-yə zəng vurmaq lazımdır,” – dedi. Başqası: “Bıçağı olan varsa, versin, başını kəsək”. Deyilənlər Qaragöz barədə olsa

da, heç nə eşitmirdi, asfalta sərilib qalan canı ilə əlləşirdi.

Bu anda Qanığın səsi yenidən gəldi. Həm də lap yaxından eşidildi. Qaragöz bu dəfə gücünü toplayıb yenidən gözlərini açdı. Adamların arxasından, yolun park tərəfindən Qanığın ona baxdığını gördü. Tam əmin idi: Qanıqdır! Özü də buradakılardan fərqli olaraq onu ayağa qaldırmağa, bu iztirablardan, ağrılardan qoparıb Qoşa Qara aparmağa gəlib. Bəs Hasan niyə görünmür?

Qanıq dayanmadan hürür, hürdükcə səsinin sonunu uzadırdı. Qaragöz güc tapıb ətrafındakıların laqeyd baxışlarını yenidən süzdü. Qanıq bir də hürdü və hürüşünün sonunu daha çox uzatdı, elə bil ki, Qaragözə nə isə deyirdi, onu harasa çağırırdı. Qaragöz bu dəfə Qanığın dediklərini sanki anladı, başını qaldırdı və adamların arasından ucaboy bir kişinin bərk-bərk çəkib saxladığı itin ona zillənən gözlərini gördü. Qaragözün baxışları qeyri-ixtiyari onun gözlərinə dikildi. İtin parıldayan gözləri böyüdü, böyüdükcə özü Qanığa, gözləri Qoşa Qara çevrildi. Qoşa Qar necə qoyub gəlmişdisə, eləydi. Hasan da oradaydı, zoğal çubuğu da əlində, gözlərindən axan yaş sifətində iki cığır açmışdı. Həmişəki sevgiylə, ogünkü peşmanlıqla Qaragözə baxır, ona köməyə gəlmək istəyirdi, gələ bilmirdi. "Sən gəl"–deyirdi.

Qaragöz son gücünü toplayıb ayağa qalxdı, qana bələnmiş görkəmi ilə hamını kənara atıb Hasana tərəf üz tutdu. Qaragözün adladığı təmiz, səliqəli park onun yaralı, qanlı görkəmindən bir andaca dəyişdi. Pul növbəsinə dayanan yaşlı adamlar üstlərinə qaçan Qaragözü görüb pərən-pərən düşdülər. Bankomat bir anda qıpqırmızı oldu.

Qaragözün qanı hər yerə dağılmışdı. Onu bu yoldan nə qopardığı söyüd ağacı, nə də axan qanı saxlaya bilərdi. İt də buna bənd imiş kimi sahibinin əlindən dartınıb çıxdı. Qaragözün dalınca parka cumdu. Hər ikisi birinə baxa-baxa qaçırdı. Onlara elə gəlirdi ki, beləcə sonsuzluğa qədər qaça bilərlər.

...Elə bu an Qoşa Qarda Hasanın zoğal çubuğu əlindən düşdü. Ha çalışdı, əyilib qaldıra bilmədi. Çoxdan, lap çoxdan susub danışmayan, qardaşı uşaqları Urusetə gedəndən bəri sanki danışmağı yadırğayan Qoca birdən başladı ki, onun atası ölməyib,bu gecə Qaragözlə Əyri Qarda onu gözləyir... O niyə Qoşa Qara "Əyri Qar" deyir, – Hasan anlaya bilmədi, taqəti qalmamışdı – zoğal çubuğunun yanına yıxıldı.

## ÜÇÜNCÜ HİSSƏ

İmamalı kişinin ürəyinə nəsə dammışdı. İşdi, iclasda onu başa düşməsələr, rayondan gələn nümayəndə sözünü kəsib kobud davransa, nə etməli olacaqdı? Kənd əhlinin qabağında susub qalmalıdırmı? Yox, o, elə adam deyildi, sözünü mütləq deyəcəkdi. Ona görə də əvvəlcədən naqanına güllə yeridib hazıryaraq gedəcəkdi. Bir tətiyi çəkmək qalırdı...

Güzəştinin həddini də özü üçün müəyyənləşdirmişdi. Təki onu ucuz tutmasınlar, hörmətini saxlasınlar, kolxoza da girəcəkdi, olan-olmazını da verəcəkdi. Sürülərini, naxırını, hər şeyini. Təzə hökumət kənddə uşaqlar üçün məktəb açacaqmış. Evini də məktəbə bağışlayacaqdı. Özü quru torpaqda da nəsə qurub-yaradardı. Təki qüruruna toxunmasınlar, nökər-naib yanında alçaltmasınlar.

Ona görə də Qoşa Qardan arxayın olub yola düşmək istəyirdi. Köç üçün hər şeyi nizamlanmışdı. Arana o olmadan da enə biləcəkdilər.

Neçə gün idi oğlu Məsim İmamalı kişinin yuxusuna girirdi. Yuxuda da həmişə susuzluqdan ciyəri yanırdı, Məsim Daş Bulaqdan ona qalaylı mis dolçada dayanmadan su gətirirdi. Su sərin olurdu, İmamalı kişi

içməklə doymurdu. Hər dəfə də yuxudan hövlnak, tər içində qalxırdı...

Oğlunu yuxusunda tez-tez görməsi, özünün susaması içində bir narahatlıq yaradırdı. Su aydınlıqdır, deyib təskinlik tapmağa çalışsa da, alınmadı. Molla Ayvaza ismarış göndərdi ki, oğlu üçün Quran oxusun və yuxusu ilə bağlı kitab açsın. Aldığı "Allah kərimdir, hər şeyi yerbəyer edən də O özüdür" cavabı onu qane etmədi. Yəqin nəsə var, çəkinib düzünü söyləmək istəmir deyə, düşündü. Bir də bu barədə Molla Ayvaza ağız açmadı. Nə olacaqsa, Allahın istədiyi olacaq deyib, özünü taleyin umuduna buraxdı.

İmamalı kişi səfər ərəfəsi ha istəyirdi girəvəyə salıb oğlunun qəbrinə baş çəksin, həyətdə həmişə tünlük olduğundan belə bir fürsət əlinə düşmürdü. Bir sözlə, qüruruna sığışdırmırdı ki, oğlunun qəbrinin üstündə kimsə onu görsün. Üzdən sərt görünsə də, qəlbən yumşaq, rəhmli adam idi. Həm də son zamanlar özündən arxayın deyildi ki, qəbrin üstündə gözlərindən yaş axmasın. Bu boyda kişinin ağladığını görsələr, nə deyərdilər.

Bu dəfə xoşbəxtlikdən həyətdə heç kəs gözə dəymirdi, hərənin başı öz işinə qarışmışdı. Belə vəziyyət İmamalı kişiyə əl verirdi. Deməli, heç kim onun hara getdiyini bilməyəcək. Bircə Qanıqdan nigaran idi. İt alaçıqdan bir az aralıda mıxçaya bağlanmışdı. Zəncirin cingiltisindən bilinirdi ki, Qanıq bir yerdə dayanmır, deməli, narahatdır. Üstəlik, sahibinin hər addımını izləyir, onu gözdən itirəndə qəribsəyirmiş kimi zingildəyir. İmamalı kişi elə bundan narahat olmuşdu. Adamları duyuq sala bilərdi.

Bir də ətrafa boylanıb həyətdən çıxdı və Məsimin qəbrinə tərəf üz tutdu. Xeyli getdi, arxaya baxıb onu heç kimin görmədiyinə bir daha əmin oldu. Qəbrə çatdı, əyilib başdaşını öpdü, qəhərdən gözləri doldu.

Ona nə olmuşdu? Bəlkə, bu ölümdə günahı vardı, bunu özü qəbul etmirdi. Amma Gülyəz arvad oğlunun ölümündə həmişə ərini günahlandırırdı. İradını da belə dilə gətirirdi: "Əgər onu başqa övladların kimi çox istəsəydin..." İmamalı kişi təzə-təzə arvadının sözlərinə fikir verməzdi. "Arvad tayfasıdı, bildi-bilmədi danışacaq" deyərdi. Amma sonra çətinliklərlə üz-üzə gələndə, qolçomaq deyib malı-mülkü əlindən alınanda uşaqlarının gələcəyindən çox narahat olur, Məsimin taleyinə acıyırdı. Nədənsə xasiyyətcə də bir az yumşalmışdı, dərdi çoxaldıqca daha mülayimləşirdi. Həmin ovqatla da Qoşa Qarda olanda bir neçə dəfə kimsəsizliyə salıb oğlunun qəbrinə baş çəkmiş, onu soyuq-soyuq süzmüşdü. Bu azmış kimi aşağı kəndlərə enib iri qaya parçasından başdaşı da yondurmuşdu. Daş elə böyük, elə ağır idi ki, dalınca ulaq arabası göndərmişdi. Yetər arvadın atası Molla Ayvaz nə qədər tövsiyə etsə də ki, düzgün deyil, müsəlman adətincə ölünün qəbri itməlidir, onunla razılaşmamışdı. Necə olmasa, qəriblikdədi, qoy uşağın nişanəsi itib-batmasın.

Doğrudanmı İmamalı kişi Məsimi o biri uşaqlarından ayırırdı, onunla az maraqlanırdı. Son günlər, oğlu yuxusuna girib susuzluğunu yatırmaq üçün qalaylı mis qabda Daş Bulaqdan ona su gətirəndən sonra İmamalı kişi bu barədə çox düşünmüşdü. Nə olsun ki, cəngavər kimi görmək istədiyi oğlu hələ 5 yaşına çatmamış nənəsinin ətəyindən əl çəkmir, Qoşa Qardakı başqa uşaqlara qoşulub Keçiqırana, Dibsizə qədər getmir?

Bəlkə, elə Sənəm arvad anasını canavar parçalamış üç günlük quzunu heç onun öhdəsinə buraxmayaydı. Nənəsi nə qədər çalışdı ki, qoyunlardan biri südünə onu şərik eləsin, heç biri yaxın qoymamışdır. Aşağı kəndlərə adam göndərib əmzik aldırdı, onu əmizdirdi. İkinci gün bu işi Məsimə həvalə elədi. O da quzunu bol-bol yemlədi. Quzu Məsimə isinişdi. Quzular örüşdən qayıdan analarının üstünə cumanda o da Məsimə

doğru qaçdı. Quzu anasının qoxusunu yavaş-yavaş Məsimdən almağa başladı və ona bağlandı.

Bəlkə, Məsimin belə olmasında günahkar elə nənəsidir? Ayağı yer tutandan onu gözündən qoymayıb. Hər yerdə Məsimin nəfəsi ona dəyməli idi, hətta dəlisov Ballını sağanda da.

Sənəm arvadın adəti idi, Dəli Düyənin nəslindən olan bütün inəkləri qayınanası Balxının tövsiyəsi ilə özü sağırdı. Kimin həddi vardı, qabağına keçsin. Ballı da Sənəm arvaddan savayı heç kimə imkan verməzdi ki, onu sağsın. Nə qədər canında can var, Sənəm arvad belə edəcəkdi. Sonra növbəsini gəlini Gülyəzə ötürəcəkdi.

Sənəm arvadın özünün xüsusi üsulu vardı. Yaylaqda kimin yeni doğan düyəsi balasını qəbul eləmirdisə, onu sağılmağa da qoymurdu. Bu vaxt Sənəm arvadı çağırırmışlar, o da tezcə heyvanın dilini tapırmış. Ballı Düyəyə də həmin fəndlə yanaşırdı, yoxsa Ballıya yaxın durmaqmı olardı? Əvvəlcə Ballının boynunu tumarlar, əlini buynuzlarına aparıb alnını oxşar, sonra da quyruğuna qədər bu sayaq davam edərdi. Bir yandan da könül oxşayan zümzüməsi. Ballı bilmirdi ki, ona xoş gələn Sənəm arvadın sığalıdır, ya zümzüməsi. Belə vəziyyət şirin gəlirdi, bəlkə, onu lap körpəliyinə qaytarırdı, qan yaddaşını təzələyirdi, kim bilir, bəlkə də, hələ lap əvvəllərə, Dəli Düyənin köçdən qaçıb marallara qoşulduğu vaxtlara çəkib aparırdı.

Belə olmasaydı, Ballı özünün şahanə görkəmi ilə qalan inəklərdən, düyələrdən fərqlənməzdi, ona imkan verməzdilər ki, naxırın başında getsin, yaylaqların hələ nəfəs dəyməyən çiçəklərinin tamını birinci dadsın. Amma Sənəm arvadın onu oxşaması, əsasən, zümzüməsi Ballını sanki muma döndərirdi. Belə məqamda sağılmamaq üçün bəhanə tapa bilmirdi, yumşalırdı, yumşaldıqca onun hər işarəsinə tabe olurdu, Sənəm arvad da zümzüməni zümzüməyə calaya-calaya öz işini görürdü.

Məsim bu səhnəni dəfələrlə müşahidə etmişdi. Düzdü, ilk günlər nənəsi ehtiyatlanıb onu yaxına buraxmırdı. Nə olar, nə olmaz, Ballıdı, dəliliyi tutar, uşağa xətər yetirər, lap elə buynuzuna alıb yerə çırpar, ayağının altına salıb qabırğalarını çilik-çilik edər.

Ballı da özünə görə deyildi. Görən kimi ayırd edirdi ki, qarşısında dayanan nədir, adamdırsa, kimdir. İlk fürsətdəcə onun şişə çəkilmiş ətini ləzzətlə yeyər, yoxsa qayğısına qalar? Məsimi görəndə duymuşdu ki, fərqlidir, başqalarına bənzəmir, Mehrini ona salacağını fikirləşmişdi, içində bir inam yaranmışdı ki, məhz Məsim ona daha yaxşı yiyəlik edər, onu hər bəladan qurtarar, necə ki, çox-çox sonralar həmin inam Qaragözdə yaranacaqdı, o da taleyini Hasana eləcə tapşıracaqdı.

Elə Məsimin də Ballıdan xoşu gəlmişdi. Həm də Məsimin gözündə Ballı qeyri-adi idi, o da başqalarına bənzəmirdi. Bu heyranlığı Ballı özü yaratmışdı, dəlisovluğu ilə Məsimin diqqətini çəkə bilmişdi, bir də Sənəm arvadın onu aram-aram oxşaması, həlim zümzüməsi yaratmışdı.

Bir gün Sənəm arvad Daş Bulağa sərin su dalınca gedəndə Qanıq onu tək buraxmadı. Qayıdanda nə görsələr, yaxşıdır?

Yurd yerindən bir az aralıda Ballı ilə bir canavar ölüm-dirim savaşına çıxıb. Qanıq peyda olunca yalquzaq yoxa çıxdı. Ballı qanına bələnmişdi. Aşağı kəndlərdən gələn erməni baytar, bəlkə, elə bilərəkdən ona çarə tapmadı. Ballı öz ömrünü Məsimə bağışladı.

***

Bəs necə olmuşdu ki, Ballı canını Məsim üçün qıymışdı. Ballının bir vərdişi vardı, harada olur-olsun, daha çox da naxır yaylaqlara qalxanda, bir gözü ətrafda olardı. Diqqətlə müşahidə aparıb nələrin baş verdiyini bilməli idi. Yoxsa yediyi də canına

sinməzdi. Ən çox da canavardan çəkinirdi. Azmı olmuşdu qurdun fürsət güdüb naxırı pərən-pərən saldığı vaxtlar? Onda Ballı öz maral qaçışı ilə canını qurtarmağı bacarırdı. Amma yaşlımı, cavanmı – kimsə canavara mütləq yem olmalı idi. Ona görə də Ballı naxırı xatalı bildiyi yerlərdən uzağa çəkirdi.

Bir dəfə naxır yurd yerindən yenicə qalxmışdı. Ballı Göy Qaya səmtində çox da hündür olmayan kolların arxasında tərpəniş hiss etdi. Tez də anladı ki, canavardır, amma bu yerlərin canavarlarına bənzəmir. Quyruğu qısıq, tükləri tökülmüş haldaydı. Ballı Qoşa Qarın canavarlarını yaxşı tanıyırdı, onlardan qurtulmağın yollarını da hər birinə uyğun nizamlayırdı. Amma bu canavarı ilk dəfə görürdü, əmin oldu ki, başqa yerlərdən gəlib.

Ballının canavara marağı daha da artdı, qorxdu ki, gizlicə arxadan hücum çəkib naxıra xələl yetirsin. Ona görə də naxırı çəkib dağlara aparmaq fikrindən daşındı. Bir də nə görsə, yaxşıdır? Canavar kolların dalı ilə sivişə-sivişə yurd yerinə tərəf irəliləyir, həyətdə də Məsim, yanında da quzusu.

Canavar kollar tükənəndə başını qaldırıb diqqətlə ətrafa boylandı, ona mane olacaq bir şey görmədi və Məsim tərəfə götürüldü. Bu, Ballının diqqətindən yayına bilməzdi. O, iri arxa ayaqları ilə özünə təkan verib canavarın dalınca düşdü. İmkan vermədi ki, qurd Məsimə yetişsin.

Ballı ilə yalquzağın savaşı başlayanda Məsim əvvəlcə maraqla döyüşə tamaşa elədi, dərhal da uşaq fəhmi ilə anladı ki, ona, yanındakı quzusuna xətər yetə bilər, tez quzunu qucağına götürüb alaçığa qaçdı...

Lap sonra biləcəkdilər ki, həmin canavarın dişinə qonşu yaylaqlarda insan əti dəyibmiş. Bir neçə körpə uşağı yaralayıbmış, birinin də sümüklərini tapıbmışlar. Məlum olanda ki həmin canavar insan övladı üçün qorxuludur, bir neçə dəfə onu öldürmək istəyiblərmiş, pusqu da qurublarmış. Bəxtindən ələ keçirə bilməyiblər. O da özünə qonşu yaylaqlarda ov axtarırmış. Çox keçmədi, yerli canavarlar onu öz əraziləri bildikləri Qoşa Qardan vurub çıxardılar.

Arada-sırada xəbər yayılırdı ki, qonşu yaylaqlarda filankəsin uşağını canavar yaralayıb, yaxud parçalayıb. Onda adamlar həmin yalquzağı lənətləyirdilər...

***

Sel gələn ili, elə indi də Qoşa Qarın adamları ovaxtkı hadisələrin baş verdiyi tarixləri müəyyənləşdirəndə onu ya həmin ildən əvvələ salırlar, ya da sonraya, Məsim quzusu da yanında yurd yerinin Ana çay səmtində boz-bulanıq suyun bir–birinə çırpa-çırpa gətirdiyi iri daş parçalarına tamaşa edirdi. Qəflətən yatağından çıxan çay bir göz qırpımında onlara sarı  yön aldı və quzunu ağuşuna alıb apardı. Məsim əlində əmzik bir anlıq yerindəcə donub qaldı. Sanki həyat bitdi. Quzusunu  xilas etmək üçün haray sala-sala cəld çay aşağı qaçmağa başladı. Mənzərəni kənardan görənlər Məsimin arxasınca düşdülər. Ha çalışdılar, çata bilmədilər, ha çağırdılar,  Məsim dayanmadı...

Onda İmamalı kişi aranda idi, Qoşa Qarda olsaydı, ehtiyatlanıb arvad-uşağı selə yaxın buraxmazdı.

Məsimin yoxluğu çökən qaranlıqla birlikdə Qoşa Qarda kim vardısa, hamını yasa batırdı. Arvadlar xısın-xısın ağlaşdılar, kişilər getdikcə suyu azalan Ana çaya tərəf hirsli-hirsli baxdılar. Heç kim danışmadı. Nə deyə bilərdilər ki...

Həmid soyuqqanlı davranırdı. Çay aşağı tələsik qaçan adamların əliboş qayıtdıqlarını görəndə hər şeyi anlamışdı. Gecənin zil qaranlığında Məsimi tapmaqmı olardı, mütləq dan yerinin ağarmasını gözləyəcəkdi. Çalışacaqdı ki, Məsimi tapsın. Gecə ilə Faxralıya çapar göndərəcəkdi ki, qara xəbəri

İmamalı kişiyə çatdırsın. İmamalı kişisə işlərinin çoxluğunu bəhanə edib gəlməyəcəkdi. “Tapsanız, Göy Qayanın Qurd ölən səmtindəki yüksəklikdə qəbir qazıb basdırın”göstərişini verəcəkdi.

İmamalı kişi Qoşa Qara dönəndə baş verənlər barədə heç kimlə kəlmə kəsmədi. Kimsə onun qabağında cəsarət tapıb danışmadı. Sanki Məsim heç yox imiş. Qonşu yaylaqlardan başsağlığına gələnləri səbirlə qarşıladı, qabaqlarına duz-çörək qoydurub yola saldı. Arvadı Gülyəzin təkidlərinə də fikir vermədi. O gündən düz üç il keçmişdi...

***

İmamalı kişi qəbrin üstündə çox qalmaq istəmədi. Yenidən ətrafa boylandı, heç kimi görməyəndə Həcdən gətirdiyi dəsmalı çuxasının cibindən çıxarıb gözlərini sildi. Tələsik qəbirdən uzaqlaşıb yurd yerinə endi. Son dəfə adamları səsləyib arana necə gedəcəkləri, harada gecələyəcəkləri barədə göstərişlərini verdi. Əslində, bütün bunlar adi məsələlər idi. El dağa qalxanda, dağdan enəndə bu sözlər dönə-dönə təkrarlanmışdı.

***

İmamalı kişi yenicə ayağını üzəngiyə qoyub ata minmişdi ki, diqqətini Qanığın zingiltisi çəkdi. İt zəncirdə dartındı, ona tərəf xeyli hürüb yenidən zingildəməyə başladı. Əslinə qalsa, bu, zingilti də deyildi, zingilti ilə ulamağın arasında bir şey idi. İtə fikir vermək istəmədi, atını mahmızlayıb uzaqlaşanda Qanığın eyni ötkəm səsi yenidən ətrafa hakim kəsildi:

– Azar dəymiş, yol üstündə bu nədir belə, – öz-özünə deyinə-deyinə atın başını geri çevirdi. Uzaqdan həyətdə hələ də onun arxasınca baxan nökəri gördü: – Eeeyyy, yadından çıxmasın, axşam sürü arxaca enəndə toğlulardan birini kəsərsən, quyruğunu da itin qabağına atarsan, – deyib atın başını çevirdi. Uzun müddət Qanığın səsi qulağından çəkilmədi.

Baş verənlər Qanığın əkiz tayının səsini yadına saldı. O da axşamdan səhərə qədər rahatlıq tapmamışdı, beləcə şüvən qoparmışdı. Səhərisi NKVD işçiləri qardaşını həbs etmək üçün Faxralıya gələndə həyətə girməyə imkan verməmişdi. Onlardan kimsə iti güllə ilə vurub öldürmüşdü. İndi Qanığın o sayaq zingiltisi İmamalı kişini xeyli qayğılandırdı. Bəlkə, heç kəndə getməsin. Yox, getməyə bilməzdi, gözləyəcəkdilər. Getməliyəm, Allah kərimdir, – deyib atı bir də mahmızladı.

Yol uzun olsa da, İmamalı kişi hardasa dayanmağı düşünməmişdi. Gecəyarıya qədər kəndə çatmaq lazım idi. Çatan kimi bacısı oğlu ilə görüşəcəkdi. Rayondan gələn nümayəndənin onunla bağlı dediklərini təkrar-təkrar söylədəcəkdi. Hər şeyi saf-çürük edib səhərisi iclasa qatılacaqdı.

İmamalı kişi onu sıxan üzücü düşüncələrdən ayrıldı, ətrafa boylananda az yol gəldiyini hiss edib atı bir də mahmızladı.

– Sənə nə olub, Bozqar, – deyə əlini onun yalmanına çəkdi, – heç nə də yemədin...

Adəti idi, səfərə çıxmamışdan atını öz əli ilə yemləyərdi, qaşovla belini təmizləyərdi ki, yəhərin altında nəsə qalıb incitməsin. Heç kimə etibar etməzdi. Bu gün də elə eləmişdi. At onun üçün dayaq idi, yoldaş idi, sirdaş idi. İmamalı kişi Bozqarla haralarda olmamışdı, kimlərlə əhd-peyman bağlamamışdı, kimlərlə sözü çəpləşməmişdi.

Qardaşı Musanın tikə-tikə edilmiş bədəninin qalıqlarını Bozqarın gözü qabağında bir torbaya doldurmuşdu, gecənin qaranlığında qəbirstanlıqda torpağa basdırmışdı. Bunu bir özü bilirdi, bir də Bozqar. At, sahibinin nə istədiyini səs tonundan anlayırdı. İmamalı kişi tələsirdisə, dördnala çapırdı, yox, zümzümə edirdisə, rahat yorğa yerişini zümzüməsinə uyğunlaşdırırdı. Bu gün Boz-

qar səhərdən sahibinin halını duymuşdu, qabağına tökdüyü yemə gözünün ucuyla belə baxmamışdı.

İmamalı kişi ha atı mahmızlayırdı ki, sürətini artırsın, Bozqar bir az gedəndən sonra yenə yavaşıyırdı. Qanığın zingiltisi, atın belə etməsi nələrdən xəbər verirdi? Bəlkə, onu bədbəxt hadisə gözləyir? Bəlkə... Baş verənlər İmamalı kişini yol boyu yenidən düşüncələrə qərq etdi.

Bir az getmişdi ki, qəflətən yolun kənarındakı yeməkxanadan gələn səs onu xəyaldan ayırdı. Sazın, aşığın səsi aydın eşidilirdi.

Atın başını çəkib zəndlə səs gələn tərəfə boylandı. Pəncərədən lampa işığında iki aşığın baş-başa verib deyişməsini gördü. Buraların adəti idi, qaş qaralıb əl-ayaq çəkiləndən sonra yolkənarı yeməkxanalarda bu sayaq məclislər qurulardı. Saz-söz həvəskarları toplaşar, aşıqların söylədikləri dastanları dinlər, deyişmələrinə həvəslə qulaq asardılar. Hərə birini tutardı. Toğludan, cöngədən, hətta atdan da mərc gələrdilər.

Bu məclislərdə dağdan-arana, arandan-dağa gedən, yola vaxtsız çıxan yolçular da az olmazdı. İmamalı kişi bir də dinşədi. İnsafən səsləri pis deyildi. Dayanmağı qərarlaşdırdı, atdan düşüb qapıya tərəf ucadan “Kim var, kim yox?” deyə səsləndi. Qapı açıldı, cələfsiz bir uşaq ona tərəf qaçdı. Atın cilovunu İmamalı kişidən alıb “ay dayı, yemləmək də lazım olajaxmı?’– deyə soruşdu.

Çox oturmaq fikri yox idi. Amma Bozqara qıymadı, gündüz də axuru dolu qalmışdı. Başı ilə təsdiqlədi ki, yemləsinlər. Qapıdan içəri girdi, salam verməyə macal tapmamış aşıqlar onu tanıdılar. Necə də tanımasınlar, vaxtilə ondan nə qədər xələt almışdılar. Hörmətlərini bildirmək üçün ona təzim elədilər. Aşıqlar bilirdilər ki, bircə mahnıya görə bu gün topladıqlarından da çox pul qazanacaqlar. O mahnı da iğdırlı Aşıq Şenliyindir, Faxralıya qonaq gələndə qoşmuşdu.

İmamalı kişi bu mahnını həm də ona görə sevirdi ki, orda onun qardaşının – tikə-tikə olmuş qalıqlarını torbaya yığdığı Musanın da adı çəkilirdi. Ona görə məclislərdə olanda aşıqlar mahnının möhürbəndini təkrar-təkrar oxuyurdular. Hər dəfə Musanın adını çəkdikcə xələtlərini də alırdılar.

Bu dəfə də elə oldu. Aşıqlar möhürbəndə çatanda gəlib düz onun qənşərində dayandılar. Nəzərlər İmamalı kişiyə yönəlmişdi ki, hər dəfə qardaşının adı çəkiləndə onun masanın üstünə qoyduğu nəməri görsünlər. Nəmər də əvvəllər həmişə qızıl onluq olardı.

Aşıqlar şövqlə, bir az da ucadan oxuyurdular:

Sefil Şenlik bu lisanı gördü xoş,
Görüm Faxralının biri olsun beş.
Abbas tülək tərlan, Musa qızılquş,
Əhli-mərfət Kamandarı gördünmü?

Mahnı yekunlaşdı, aşıqlar bir-birinə işarə vurub möhürbəndi təkrarlamaq istəyəndə uzaq küncdəki masadan bir nəfər qalxıb:

– Kəsin, kəsin o havanı, – deyə qışqırdı.

Hamı dönüb səs gələn tərəfə baxdı. Masanın ətrafında bir neçə nəfər əyləşmişdi. Yol adamı olduqları geyimlərindən bəlli idi.

Bir anlığa yeməkxanaya sakitlik çökdü. Milçək uçsaydı, eşidilərdi. Nəzərlər yenidən İmamalı kişiyə yönəldi. O, sakit görünürdü, gözünün ucu ilə baş verənləri ağır-ağır izləyirdi. Adəti idi, hara gedir-getsin, harada olur-olsun, məclisdəkiləri mütləq nəzərindən keçirirdi. Bilirdi kimlərin arasındadır, dost kimdir, düşmən kimdir... Amma nədənsə bu dəfə sayıqlığını itirmişdi, olanları gözləməmişdi, ona görə də içindən hikkə püskürürdü, özünə acığı tutmuşdu ki, tanımadığı adamların arasında tək-tənha nə işi var.

– O dəyyusun adını çəkməyin... – həmin masadan yenidən kimsə qışqırdı. İmamalı

kişi onu da, yanındakıları da tanıdı. Məsələ dərinləşsəydi, əlindən xata çıxacağına əmin idi... İlin–günün bu vaxtında vəziyyəti gərginləşdirmək istəmədi.

Məclisdəkilərin baxışları altında Həcdən gətirdiyi təsbehi kənara qoydu. Əlini çuxasının cibinə saldı, bir qalaq sovet pulu çıxarıb stolun üstünə atdı. Sağ əlini belinə aparıb naqanını da çıxartdı, masanın üstünə itələdi.

– Meşə çaqqalsız olmaz, – ağır-ağır dilləndi.

– Nə durmusunuz, oxuyun, oxuyun.

Aşıqlar ürəkləndilər, çalıb-oxumağa davam elədilər. Hər möhürbənd gələndə İmamalı kişinin əli cibinə getdi, hər dəfə də bir qalaq pulla qayıtdı.

Mahnı onu uzaqlara aparmışdı. Musanın atların dırnaqları altında didik–didik olmuş bədənini, çilik-çilik olmuş sümüklərini xatırlayırdı. Əgər Musanı həbsxanadan gündüz buraxsaydılar, əminiydi ki, elə olmayacaqdı. Arxasınca özü getmişdi, bir at da aparmışdı ki, qardaşı minsin, birlikdə qayıtsınlar. Həmin gün İmamalı kişi Qoşa Qara əliboş, Musasız qayıtdı. Hardan biləydi ki, qarşı tərəf nəyinsə müqabilində türmə rəisi ilə sövdələşəcək, onlar Musanı axşam, qaranlıq çökəndə buraxacaqlar.

Qaydaya görə, onu polisin müşayiəti ilə evlərinə çatdırmalı idilər. Bilirdilər ki, bu təkliflə razılaşmayacaq. Elə də olmuşdu. “Ölsün o Musanı ki, evinə polislər aparır”, – demişdi. Musa həbsxanadan çıxıb təktənha, əliboş, nişanlısı ilə bağlı xəyallar qura-qura Qoşa Qara üz tutmuşdu. Yolda, Bolus Gəzdəyi deyilən yerin Faxralı səmtində nə baş vermişdi, onu necə qətlə yetirmişdilər, bu barədə İmamalı kişidə elə də dəqiq məlumat yox idi. Amma bu işi kim tutmuşdu, bilirdi. Elə qətli törədənlərin özlərindən xəbər gəlmişdi ki, gedin filan yerdən ölünüzü götürün.

***

Təzə hökumətin nümayəndəsinin iclasda İmamalı kişi ilə bağlı dedikləri kənddə müzakirələrə səbəb olmuşdu. Bəziləri əmin deyildilər ki, o yekəlikdə kişi gəlib cocuq-mocuğa qoşulacaq, üstəlik, varını-dövlətini kolxoza peşkəş edəcək. Çünki nəinki Faxralıda, elə ərtaf kəndlərdə də kolxoz quruculuğu könüllü aparılmırdı, varlı kəndlilərə münasibət kasıblara nisbətən fərqlənirdi. Göstəriş belə verilmişdi ki, varlıları bir sinif kimi ləğv eləmək lazımdır. Getdikcə onlara qarşı tətbiq edilən qadağaların dairəsi genişlənirdi. Güllələnən güllələnirdi, o birilər Sibirə, Qazaxıstana sürülürdü. Yerdə qalanlar isə gözümçıxdıya salınırdı. Hər şey hamının gözü qarşısında baş verirdi. İmamalı kişini belə tale gözləmirdimi? Bəlkə, kişinin bildiyi bir şey var? Arxayın olmasaydı, belə addım atmazdı. Onun kolxoz sədri ola bilməsi də xeyli müzakirə olundu. Görüb-götürən adamlar bu qənaətdə idilər ki, imkan verilsə, təzə hökuməti razı salar, çoluq-cocuğu da aclıqdan qurtarar.

Amma bu xəbərdən qorxuya düşənlər də tapıldı.

Kolxoz yeni qurulmuşdu. Ona ilk qoşulanlar kəndin ən kasıb təbəqəsi, uzağı bir, ya iki heyvanı olanlar idi. İlk dövrlərdə yuxarıdan nə qədər təzyiq olsa da, ortabab kəndlilər məsələni uzadırdılar. Təsərrüfatın belə formasına onların inamı az idi. Həm də gözlərinin qabağında dünən yaranmış kolxoz bu gün dağılırdı, hərə öz mal-qarasını qabağına qatıb həyətinə aparırdı. Sonra yenidən birləşirdilər. Təbii ki, rəhbərlər də aralarından seçilirdi.

Ölkəni bürüyən aclıq milyonlarla insanın ölümünə səbəb oldu. Bu da təcili addımların atılması zərurətini ortaya çıxardı. Mərkəz kolxoz quruculuğunu sürətləndirmək məqsədilə ciddi işlər görmək qərarına gəldi. Kəndlərdə keçirilən iclaslar buna hesab-

lanmışdı. Nəinki İmamalı kişinin, onun kimi bütün varlıların malını-mülkünü kolxozlarda cəmləşdirmək, sonra da özlərinə qolçomaq damğası vurub məhv etmək göstərişi verilmişdi. İmamalı kişinin kolxoza qoşulmağa çağırılması, ona sədrlik vəd verilməsi də bir oyun idi. Ümumi tapşırıq yuxarılardan gəlmişdi, rayon səviyyəsində icra olunacaqdı.

Yeni təsərrüfatın rəhbərliyi İmamalı kişinin iclasa qatılacağı xəbərini bacısı oğlundan alanda hərəkətə keçdi. Bu barədə rayona xəbər çatdırıldı. Kəndə gələn "otryad" evinin həndəvərində pusqu qurdu. Kəndin baş mollası Ayvaz kişiyə də xəbər göndərdilər ki, işdi-şayəd, İmamalı kişinin ölüm xəbəri çıxsa, onun dəfninə getməsin.

Molla Ayvaz təhsilini Xorasanda almışdı, eldə savadlı din xadimlərindən sayılırdı, söylədiyi hədislər adamları valeh edirdi. Xalq arasında qazandığı nüfuz yeni hökumətin onu təqib eləməsinə mane olurdu. Özünə dəyib toxunmurdular, amma ibadət etdiyi yeganə kənd məscidinin qapısını qıfıllamışdılar. Molla Ayvaz nə edəcəyini bilmirdi, xalq arasına çıxmağa üzü gəlmirdi. Sual versəydilər, baş verənləri necə izah eləyəcəkdi? İmamalı kişinin məscidin qapısına yeni hökumətin adamlarının vurduğu qıfılı əlləri ilə qırıb onu da namaza dəvət eləməsi vəziyyəti dəyişmişdi.

Molla Ayvaz İmamalı kişinin qeyrətinə bələd idi, amma ağlına sığışdıra bilmirdi ki, təzə hökumətin bağladığı məscid qapısını çəkinmədən açsın. Əvvəldən də yaxın idilər, həmişə yeri İmamalı kişinin süfrəsinin başında olmuşdu. Söhbətləri tuturdu. İmamalı kişi məhz onun məsləhəti ilə Qocanı gimnaziyaya oxumağa göndərmişdi.

Hökumət adamlarının yolladığı ismarışı eşitcək Molla Ayvaz şəkkə düşdü, ürəyinə qara fikirlər gəldi. Özünə söz verdi ki, Allah eləməmiş, elə bir hadisə baş versə, yas mərasimini mütləq özü yola verəcək. "Bu dəyyuslardan nə desən, çıxar", – deyə öz-özünə deyindi. Fürsəti əldən vermədən gecəylə Həmidi tapdırıb tapşırdı ki, İmamalı kişiyə çatdırsın, kəndə enib-eləməsin, gəlsə, onu təhlükə gözləyir, o birilər kimi, uşaqları da götürüb müvəqqəti o üzə adlasın. Allah kərimdir, görək axırı necə olacaq...

***

İmamalı kişinin atdan düşüb yüyəni talvarın direyindəki mıxa keçirməsi, Həmidin onun üstünü hövlnak alması ilə hasarın o üzündən güllə səslərinin eşidilməsi eyni anda baş verdi. O, belə qovğalara az düşməmişdi. Özünü itirmədi, Həmidi cəld həyətdəki ot tayasının arxasına çəkib, necə müdafiə olunacaqlarını təcili götür-qoy edə-edə nə baş verdiyini öyrənməyə çalışdı. Həmid Molla Ayvazın ismarışını ona elə o dar məqamdaca çatdıra bildi.

– Deməк, belə. Ay namərdlər... Nə qədər istəsəniz də, təslim olmayacam, – deyə Həmidə tərəf döndü. – Mən başlarını qatacam, sən aradan çıxıb birbaşa yollanırsan Qoşa Qara. Gecəylə köçü də götürüb gəlirsən Arpanın sərhəd səmtinə... Orda sizi haqlayacam. Durma, Allah üstündə olsun.

İmamalı kişi naqanını çıxarıb səs gələn tərəfə atəş açdı. Həmid bunu gözləyirmiş kimi bir andaca qeyb oldu. Qəfildən araya sakitlik çökdü. Deməli, vəziyyət yaxşıdır, Həmidi ələ keçirə bilməyiblər.

Ot tayası ilə talvarın arası 5-6 addım olardı. İmamalı kişi atışa-atışa bir göz qırpımında Bozqarın belinə sıçradı. Bu dəfə güllə səsləri bir neçə istiqamətdən gəldi. Mühasirəyə düşdüyü məlum idi. Təslim olmayacaqdı, nəyin bahasına olur-olsun, aradan çıxmalı, gecəylə köçü haqlamalıydı.

İmamalı kişi ətrafa nəzər saldı, qaranlıq olduğundan bir şey görə bilmədi. Bəs itlər niyə hürüşmədi? – fikirləşdi – yəqin, öl-

dürüblər. Başqa yol qalmamışdı, gülləsi tükənənə qədər tab gətirə bilərdi. Sonra nə olacağı bəlli idi... Atışa-atışa doqqaza tərəf yön aldı. Bozqar bir göz qırpımında iki ayağını cütləyib haça ağacdan düzəldilmiş çaxçaxın üstündən atıldı və dördnala götürüldü. İmamalı kişi yanından keçən güllələrin vıyıltısını aydınca eşidirdi. Bir az getmişdi ki, arxadan at ayağının səsini duydu. Hiss elədi ki, kimsə onu izləyir. Bunu şəstinə sığışdırmadı. Xəyalına gətirdi ki, Faxralının ortasında adamlar onun kiminsə qabağından qaçmasına şəbədə qoşub gülüşürlər. Arxadan gələn adam:

– Qolçomaq köpəkoğlu, əlimdən qaça bilməzsən, təslim olmasan, qardaşın kimi səni də gəbərdəcəm, – deyə var gücü ilə qışqırırdı.

İmamalı kişi Bozqarın başını çəkdi, at sanki sahibinin ürəyini oxumuşdu, dayanmadan havadaca çevrildi.

İki nəfər üz-üzə dayanmışdı. İmamalı kişi onu səsindən tanımışdı – kommunist Şərifov idi. O Şərifov ki, ötən il onun rəhbərliyi ilə NKVD əməkdaşları qardaşı Alının evinə basqın etmişdilər. Onları həyətə buraxmayan Qanığın əkiz tayını güllə ilə vurub öldürmüşdülər.

İmamalı kişi bu qarşılaşmaya sevindi. O, Şərifovu göydə axtarırdı, yerdə əlinə düşmüşdü. Özü də təkbətək. Elə indi Şərifovun dediyindən də anladı ki, qardaşını türmədə güllələyən də o olub. Qanı daha da coşdu. İntiqamını almaq üçün bundan yaxşı fürsət çətin ələ düşərdi.

İmamalı kişi atdığı gülləleri saymışdı, naqanda biri qalmışdı, onu da özünə saxlamışdı. Axıra qədər dayanacaqdı, təslim olmayacaqdı, sonda da...

Bozqarı yaxına sürdü ki, Şərifovu boğazlayıb atdan salsın. Nəfəs-nəfəsə dəyəndə qulağının dibində güllə səsi eşitdi. Sol çiynində hiss etdiyi ağrı getdikcə şiddətləndi.

– Sənə güllə də heyifdir, – deyib İmamalı kişi belindəki xəncəri bir göz qırpımında qınından sıyırıb Şərifovun qarnına yeritdi...

Sonra heç nə olmayıbmış kimi atın başını buraxdı. Bozqar sahibini təhlükədən qurtarmaq üçün dördnala çapmağa başladı. Təhlükə sovuşsa da, ağrıları İmamalı kişini incidirdi. Bir az getmiş atın başını çəkdi, izlənmədiyinə tam arxayın olandan sonra qanlı köynəyi ilə yarasını sarıdı. Faxralının çıxışında pusqu qurula biləcəyindən şübhələnmişdi, ona görə də atı kolluğa saldı ki, həm təhlükədən qurtarsın, həm də köçə daha tez çatsın.

## DÖRDÜNCÜ HİSSƏ

Hasan gözlərini aça bilmirdi, amma kənardan deyilən sözləri qırıq-qırıq da olsa eşidirdi. “Yazıq, özü də uşaqdı, bığ yeri təzəcə tərləyib”, – tibb bacısının yanıqlı naləsi gəlirdi. “Elə uşaq olması yaxşıdı, tez sağalar”, – bu da həkimin soyuqqanlı səsi. Araya çökən sakitlik çox çəkmədi. Həkimin tibb bacısına baxıb amiranə tərzdə “təzyiqini ölç” deməsini Hasan güc-bəla ilə eşitdi...

Səslər getdikcə uzaqlaşıb kəsildi... Sonra elə bil hava da çəkildi, Hasan əvvəlcə tövşüməyə, sonra boğulmağa başladı. Havasızlıq zülmət sonsuzluqla əvəzlənəndə nəfəs almağa gərək qalmadı, birdən-birə sakitləşdi, sinəsinin qalxıb-enməsi dayandı. Kənardakıların ora-bura qaça-qaça ucadan danışmaları, sonra nəyisə gözləyirmiş kimi susmaları onu heç narahat eləmədi.

Sakitliyi Qanığın pəncərədən gələn zingiltisi pozdu. O, xəstəxananın həyətində şöngüyüb gözünü palatanın işıq gələn pəncərəsinə zilləmişdi. İçəridə baş verənlərdən agah olmağa çalışırdı. Duydu ki, ucuz bezdən tikilmiş pərdənin arxasındakı qaraltıların hərəkəti birdən-birə qarışdı, sanki bir-birlərinə dəydilər. Bir əlçim külək

pərdəni keçib ağ işığa çevrildi, Qanığın başı üstündən ötərək ulduzlara tərəf üz tutdu. İşıqla bərabər ətrafı qəribə qoxu bürüdü. Hasanın onu sığallayan, özünün də tez-tez yaladığı əllərinin qoxusu idi. Qanıq doğma qoxunu ciyərlərinə çəkə-çəkə başını ağ işığa tərəf döndərdi. Əvvəlcə ağ işığın dalınca bir ağız hürdü, sonra imdad diləyirmiş kimi ahəstə ulamağa başladı. Qanığa elə gəldi ki, ağ işıq onu da özünə bürüyüb aparır…

Həkimlər Hasanı maşından düşürüb xərəyə uzadanda Qanıq dabanbasdı özünü xəstəxananın həyətinə salmışdı. Elə o vaxtdan Hasanın palatasının pəncərəsinin qənşərində necə oturmuşdusa, eləcə də qalmışdı. Gecədən hec nə yeməmişdi, heç su da içməmışdi. Mane olan da yox idi. İlk gəlişində Qanığı laqeyd hürüşmələrilə qarşılayan bir sürü it onu artıq unutmuşdu – sanki girilәsi kol olmadığını ilk tanışlıqdaca duymuşdular, həndəvərinə yaxın düşmürdülər…

***

Hasanı çarpayıya necə uzatmışdılar, eləcə də qalmışdı. Ölməyə qoymurdular. Həkim ürəyini masaj edirdi. Tibb bacısı bilmirdi neyləsin, əlində yaş tənzif Hasanın başına fırlanırdı, üzünü-gözünü silirdi.

Hasan özündə deyildi. Bədəni soyumuşdu, amma Qanığın səsini eşidirdi. Səs çox-çox uzaqlardan – Qoşa Qardan, Qurd Ölən Yerdən gəlirdi. Buna eşitmək demək olmazdı, səs sanki işıq dənəciklərinə çevrilir, Hasanın gözləri önündə bərq vururdu. Qanıq uladıqca işıq böyüyürdü, böyüdükcə dar ağ yola dönürdü…

Hasanın özü də bu yolda yolçu olmuşdu, nəfəs kimi yüngülcə Qurd Ölən Yerə üz tutmuşdu: özünü çox xoşbəxt sanırdı, nə ağrısı vardı, nə acısı. Həm də tək idi, yol isə boş. Necə istəyirdi, elə də uçurdu. Uça-uça da fikirləşirdi ki, niyə əvvəllər uçmağın sirrini öyrənməyib. Burada çətin bir şey yoxmuş ki… Ayaqlarını cütləyirsən, qurtardı getdi. Öz-özünə söz verdi ki, ona qarşı nə qədər qəzəbli olsa da, uçmağı mütləq Qocaya da öyrədəcək. O yazıq da yanını oturduğu taxtın üstündəki palazdan ayırsın.

Birdən arxadan hənirti duydu, yanından Qanığın keçdiyini gördü. Qanıq da uçurdu, amma başqa cür. Uzun çənəsini irəliyə, ayaqlarını geriyə elə uzatmışdı ki... Tərpənən yalnız quyruğu idi, sağa-sola yellətməklə hərəkətini tənzimləyirdi. Onlar bir-birini ötə-ötə xeyli irəlilədilər. Hər ikisinə elə gəldi ki, çoxdan, lap çoxdan, dünyanın başlanğıcından birlikdə uça-uça gəlirlər. Nələr görməmişdilər! Həmişə üç yoldaş olardılar. Bəs Qaragöz harda qalıb, görəsən?

– Yadındamı, – küləyin aramsız uğultusuna bürünən səsi ilə Hasan dilləndi, – Xəndəkdə müşriklərin peyğəmbərə tuşlanan oxlarını havada necə tuturduq?

– Sultan Səlimin toplarından çıxan mərmiləri niyə saxlaya bilmədik? – yan tərəfdən Qanığın səsi gəldi.

– Çaldıran şeytan əməli idi,baş verməliydi. Şeytanlar əvvəlcə Əlaüddövlə Bozqurdu başdan çıxardılar ki, qızını Şaha ərə verməsin.

– Niyə vermədi ki?

– Şah şiə idi.

– Nə olsun, hamımızı Tanrı yaratmayıb?

– Görmürdün, şeytanlar həmin gün dağlardan necə tökülüşmüşdülər?! Meyitlərimizi, yaralılarımızı götürməyə imkan vermirdilər. Neçə gün dağılışmadılar, faciəmizi bayram elədilər…

Bir qədər də uçub yolu yarıladılar. “Qurd Ölən Yerdə görüşəndə səni çox ciddi məsələdən agah edəcəm”, – deyərək Qanıq quyruğunu yelləməklə ulduzlara tərəf üz tutdu.

Hasan tək qalmışdı, amma bayaqkı ləzzəti ala bilmirdi. Yalqız idi, üşənə-üşənə baxışlarını uzaqlara zilləyib müəzzəm kəhkəşanın içində Qanığı axtardı. Tapa bilmədi…

Mənzil başına çatanda səma aydın idi. Ay işığını gecənin qaranlığından əsirgəməmişdi. Qurd Ölən Yerdən görünən hər yer – Qoşa Qarın çaqqallarının yayağzı uladıqları yüksəkliklər, həmin yüksəkliklərdə nə vaxtsa daşlardan ucaldılan gözətçi qüllələri, onları bir-biri ilə birləşdirən sökük-salxaq daş hasarlar, Göy Qayanın göy rəngə çalan sıldırımlı zirvəsi, o zirvədən heyvanların Qurd Ölən Yerə qədər açdığı nazik cığırlar sanki Hasanın ovcunun içində idi...

Hasana qəribə gəldi, bir az da özünü məzəmmət etdi, anladı ki, hələ çox şeyi bilmir, uçmağı indi öyrənir, Göy Qayadan enən cığırları da elə indi görür. Bəlkə, elə bu cığırları gecələr yurd yerinə enən, Qanığın qorxusundan tez də baş götürüb uzaqlaşan canavarlar açıblar. Bəs nənəsi niyə ona heç nə deməyib. Tez fikrindən daşındı, "yəqin, məni qorxutmayıb. Belə olmasaydı, söylərdi", – deyə mızıldandı.

Hasan öz aləmindəydi. Ulduzların parlaqlığının getdikcə azalmasına, həm də onların sanki seyrəlməsinə fikir verməmişdi. Səmada yeganə parlaq ulduz – Dan ulduzu qalmışdı. Elə işıqlı idi ki, başını kim yuxarı qaldırsaydi, istər-istəməz diqqətini cəlb edəcəkdi. Hasan da Dan ulduzuna tamaşa elədi, sonra baxışlarını Qoşa Qarın zirvəsindən boylanan aya yönəltdi. Baxdıqca düşündü ki, görən ayın üstündəki apaydın görünən ləkə doğrudanmı Günəşin barmaqlarının izidir. Balaca olanda nənəsi danışmışdı. O həmişə günəşə gün deyərdi, Hasan bircə dəfə də onun dilindən Günəş sözü eşitməmişdi.

Çoxdan, lap çoxdan, hələ adamlar dünyaya gəlməyəndə Günün Ay adlı qızı var imiş. Bir dəfə Ay çox acıbmış, anası tələsik xəmir yoğurur ki, çörək bişirsin, o da doyunca yesin. Aclığa dözə bilməyən Ay hər addımda anasının ayağına dolaşır. Gün hirslənir və xəmirli əli ilə onun sifətinə bir şillə çəkir. Hər dəfə nənəsi nağılın bu yerinə çatanda Hasan fikirləşərdi ki, görəsən, bu şillə olmasaydı, Ay yerə çoxmu işıq saçardı? Kaş vurmayaydı, gecə də gündüz kimi olaydı, adamlar da çöldə qalan heyvanlarını daha tez tapaydılar.

Hasan gözlərini aydan çəkmirdi. Bu dəfə onun üstündəki ləkəni ayıya bənzətdi. Qonur bir ayıya. Bu nağılı da qonşularındakı Yetər arvad danışardı. Dəcəllik edən balaca ayı anasının qorxusundan evdə gizlənməyə yer tapmır, anası döyməsin deyə, hoppanıb ayın üstünə çıxır. Elə o gündən də düşə bilmir, ağzının suyunu axıda-axıda hər şeyə tamarzı kimi həsədlə aləmi seyr edir.

Qonşulardan kim ki Yetər arvadın xətrinə dəyərdi, məsələn, təndirdə çörək bişirəndə öz nobatını ona verməzdi, ay göydə oldu-olmadı, fərqi yoxuydu, əlini qaldırıb qarğışını həmin adama tökərdi: "Görüm səni o ayı kimi hər şeyə tamarzı qalasan, hey!"

Kimsə rişxəndlə deyəndə ki hardan bildin o tamarzıdır? Yetər arvad hər dəfə özünəməxsus cavablar verərmiş. Daha çox "elə deyilsə, heç olmasa qəddini düzəldib kişi kimi otursun", – deyərmiş.

Hasan ilk dəfə bu söhbəti eşidəndə ayını Ayın üstündə ayaqlarını aşırıb oturan, özünü də onun tərkində təsəvvürünə gətirmişdi. Görən, ordan Qoşa Qar necə görünərdi? Görünsəydi, mütləq qışqıracaqdı:

A Göy Qaya, Göy Qaya,
Dalını yerə döy, qaya.
Anan çörək verməsə,
Get bacadan söy, qaya.

Heç bilmirdi bu sözlər hardan ağlında qalıb. Hələ balaca olanda məhlə uşaqları ilə Göy Qayaya baxıb xorla oxuyurdular. Uzun idi. Yalnız bu dörd misra yadına düşdü. Bəs Qanıq, Qaragöz? Ordan çağırsaydı, eşidərdilərmi, görəsən?

Nənəsi bir dəfə demişdi ki, ay da adam kimidir, ona çox baxsan, acıqlanar, gözlərini

kor eləyər. Hasan diqqətini aydan çəkdi. Yadına düşdü ki, nənəsi heç vaxt aya baxmazdı, hər dəfə Ayı görəndə yaşmanardı. Niyə belə edirdi? Səbəbini dəfələrlə nənəsindən soruşmaq istəmişdi, nəyə görəsə sonraya saxlamışdı. Amma gərək soruşaydı. Bunu Hasan indi beynindən keçirdi. Peşmanlıq hissi onu qəhərləndirdi.

Hiss etdi ki, belə getsə, nənəsi ilə bağlı düşüncələrdən ayrılmasa, beyninə başqa xatirələr də gələcək. Onların növbəsi isə indi yox, gecə yuxuya getməmişdən əvvəl gələ bilərdi. Hasan axşamlar yata bilmirdi, yorğanı başına çəkib dərin düşüncələrə dalırdı. Bəlkə, yatmaq istəmirdi, bunu heç özü də anlamırdı, keçmişdə olub-keçənləri xatırlayırdı, nənəsi də həmişə həmin hadisələrin baş qəhrəmanı olurdu. Səhərlər nənəsinin onu səsləməsilə gözlərini açırdı. Xatirələr tükənməz idi. Hasanın 15 illik həyatının hər anını içinə yığmışdı. Burada nəvə sevgisi də vardı, nənə nəvazişi də, onun başına gələnlərdən nənəsinin çəkdiyi əzab da. Nənəni daha çox incidən, narahat edən sonuncusu idi…

***

Bir dəfə şər qarışanda Hasan yoxa çıxmışdı. İki, bəlkə də, üç yaşı olardı. Hara getmişdi, kim aparmışdı, bilən yox idi. Qocanın da dilinin söz tutan vaxtları idi, uşağın yurd yerindən uzaqlaşdığını hiss etməmişdi, bəlkə də, şəraiti özü yaratmışdı. Nənəsi hər yeri ələk-vələk eləmişdi, nəhayət, səhər açılmamış Hasanı Qurd Ölən Yerdə başını mamırlı daşa qoyub mışıl-mışıl yatdığı yerdə tapmışdı. Qorxmasın deyə, uşağı oyatmamışdı, ehmalca qucağına alıb alaçığa qayıtmışdı. Səhərisi Hasanı sorğu-suala da tutmamışdı.

O gündən nənəsi onu gözündən qırağa qoymamışdı, hətta yatanda da əli üstündə olardı. Bir müddət sonra əhvalatı Hasan özü açmışdı. Onu Qurd Ölən Yerə sarı saçlı, özü də sapsarı bir qız aparıbmış. Yuxusu gələndə o, hörüyünün birini daşın üstünə sərib Hasan üçün döşək düzəldibmiş, o birini də açıb onun üstünə yorğan əvəzi səribmiş. Qanıq da ordaymış. Hasanın başının üstündə keşik çəkirmiş, arada da dağ havasından qızarmış yanaqlarını yalayırmış.

Nənəsi Hasanın dediklərini eşidəndə təşvişə düşmüşdü. Axı uşaq yoxa çıxanda Qanıq hələ bağından açılmamışdı. Hasan dediyi Qanıq ola bilməzdi. Nənəsinin narahatlığı artmışdı. Yadına bir neçə gün əvvəl axşam Qanığa yem aparanda uzaqdan onun yanında eynən Qanığabənzər başqa bir it də gördüyü düşmüşdü. Onda inanmamışdı, elə bilmişdi ki, gözü alacalanıb, iti iki görüb. Çatanda Qanıq təkcə idi. Quyruğunu qısıb sahibinin hərəkətlərini izləyirdi...

Bəs uşağın gözünə görünən o sarısaç kim imiş? Nənəsi elə bundan qorxmuşdu. “Yenə əl çəkmir. İndi nə istəyirsən bizdən, ay ləçər?” – bir az qəzəbli, bir az da ürkək tərzdə öz-özünə deyinmişdi: “Hə, Vəli bəsin olmadı, anası bəsin olmadı, oğlu bəsin olmadı? Hasanı verməyəcəm sənə, yox, verməyəcəm”.

Cinlərin onların başına gətirdiyi bəlaları götür-qoy edə-edə nənəsi sabahı gözləyirdi. Kim erkən arana getməliydisə, onu tapıb Faxralıya ismarış göndərəcəkdi – Molla Ayvazın oğluna Hasan üçün elə dua yazdırsın ki, cin tayfası ondan birdəfəlik uzaq dursun...

***

Hasanın gözünə görünənin cin olmasına şübhə yeri qalmamışdı. Başqa vaxt olsaydı, nənəsi cindən qorxmazdı. Bu yerlərdə çox az adam tapılardı ki, ömründə heç olmasa bir dəfə onunla qarşılaşmasın. Elə bir arabaçı tapılmazdı ki, gecələr arabasının quyruğunda cin oturmasın. Hətta elə yerlər vardı, günün günorta çağı ayaq bassaydın, nəfəsi mütləq sənə dəyəcəkdi.

Ona görə böyüklər məsləhət görürdülər ki, Qurd Ölən Yerdən enib Cinli dərəyə düşəndə mütləq kəlmeyi-şəhadət gətir. Üstəlik, imkanın olsa, üstündə iynə-sancaq da gəzdirməlisən ki, gözünə cin-şəyatin görünməsin. Çünki cinlərin ən cox qorxduğu bir "Bismillah" kəlməsi idi, bir də adicə iynə-sancaq.

Nənəsinin Hasan sarıdan qorxması əsassız deyildi. Arvad bilirdi ki, cin gözə hər yaşda, hər şəkildə görünə bilir. Çirkin də ola bilir, gözəl də. Eləsi var ki, cavanların gözündə mələk olur. Ürəyini ovlayandan sonra min oyundan çıxır, aldadır, yoldan sapdırır, sonra da dəli eləyib çöllərə salır.

Cinlərin düşmənçiliyi də amansız olur. Kim ki onları incidir, müxtəlif fəndlərlə tutub dəstəsindən ayırır, işlədir, ona qənim kəsilirlər, ömrü boyu düşmənçilik eləyirlər. Cin ömrü də min illərlə çəkir. Nənəsi qorxmasa da, bilirdi ki, buraların cinləri onlara düşməndir. Vəlini yazıq etmədilərmi, evdən-eşikdən didərgin salmadılarmı o biçarəni?

Həmin əhvalatı bu gün də yerli aşıqlar dastan kimi danışırlar. Axşamlar əl–ayaq yığılanda, adamlar işlərini qurtarıb vaxt keçirmək üçün bir yerə toplaşanda söhbət ya cindən düşür, ya da canavardan. Axırı da Vəlinin cini necə tutması ilə yekunlaşır. Bu qəmli dastanı adamlar hər dəfə gözüyaşlı dinləyir, hətta cinə rəğbət bəsləyənlər də tapılır.

Vəli də Vəli imiş, qoçaqlığı, qorxmazlığı bu gün də dillərdə əzbərdir. Onun tövlədəki atını gecələr cin çaparmış, səhəri at tər içində, yalmanı, quyruğu hörülü olarmış. Vəli bunu şəninə sığışdırmır, gecələr yuxuya həsrət qalır, çox əlləşir və nəhayət, cin atın belinə sürtdüyü qətrana yapışıb qalır. Nərmənazik bir qız imiş. Özü kimi saçları da sapsarı. Qız Vəliyə yalvarır ki, onu buraxsın. Vəli nə onun yalvarışına, nə vədlərinə fikir verir, sancağı yaxasına bərkidib evə gətirir, adını da Sara qoyur. O gündən cin ailənin bir üzvünə çevrilir, onun üçün küncdə yatmağa yer də ayırırlar. İşi hər gün bulaqdan su gətirmək, bir də evi-eşiyi silib-süpürmək olur.

Saranın həyatı cansıxıcı keçir. Getdiyi yer bulaq başı, gəldiyi yer ev olur. Heç kəslə əlaqə saxlamır, axşamlar hamı deyib-güləndə bir tərəfə çəkilib taleyinə xısın-xısın ağlayır. Doğmalarının gecələr başına toplaşması, halına yanması onu heç cür ovundurmur. Cinlər Saranı qurtarmaq üçün yollar axtarırlar. Üstəlik, Vəlinin anası da sancağı elə yerə bərkidibmiş ki, onu çıxarmaq üçün Sara gərək anadangəlmə olaymış. Cinlər danışıb bir-birinə məsləhətlər verirmiş, dan üzü dağılışırmışlar. Amma heç biri qorxusundan əlini sancağa yaxınlaşdıra bilmirmiş.

Vaxt keçdikcə Saranın dərdi böyüyüb, cinlər aləminə yayılır. Başına toplaşanların sayı çoxalır. Uzun gecələrin birində əcinnələrin ən hiyləgər qocası da dəstəyə qoşulur. Saranı diqqətlə dinləyib qəhqəhə çəkir və rişxəndlə söyləyir: "Siz – tüstüsüz oddan əmələ gələnlər torpaqdan yarananın qabağında niyə aciz qalmısınız?! Unutmayın, sancağı Adəm övladı sancıb, o da bu dərdə əlac qılacaq".

Qoca əcinnə getməmişdən Saraya xeyli məsləhət verir. O gündən Sara dəyişməyə başlayır. Deyib-güldükcə gözəlliyi də artır. Vəliyə daha nəvazişlə qulluq edir, qabağına tərtəmiz süfrə salır, çöldən gələndə ayaqlarını yuyur, mülayim baxışlarını ondan əsirgəmir.

Vəli özü də bilmir ki, nə baş verir. Hara gedirsə, Sara üçün darıxır. Onun nərmənazik bədəni, yeridikcə atılıb-düşən uzun hörükləri, üzünə tökülən halqa telləri Vəlinin gözləri önündən getmir, gecələr yuxuda da Saranı görür. Bu sevgi onun baxışlarındakı zəhmi, səsinin ötkəmliyini daha da artırır. Adamlar Vəlidən daha çox qorxurlar, onunla üz-üzə gəlməkdən çəkinirlər. Salam verəndə

bilmirlər necə alsınlar. Ucadan cavab versəydilər, deyəcəkdi bu nə qudurğanlıqdı, bəyəm mən karam? Salamı sakit alsaydılar, deyəcəkdi bu nə saymazlıqdı, deyəsən, böyümüsünüz?..

El arasında yayılan söz-söhbət Vəlinin toy xəbəri ilə səngiyir. Hamı toya axışır – kimisi hörmətdən, kimisi qorxudan, kimisi də maraqdan.

Toy qapısında iki mağar qurulur. Birinə heç kimi buraxmırlar ki, qız tərəfi – cinlər özləri şənlənsinlər. Sara isə ağ ipəkdən hazırlanmış uzun, qaraçılar sayaq zınqırovlu paltarı ilə hər iki tərəfdə süzür.

Qonaqlar dağılandan sonra Vəli gəlini gərdəyə aparır. Orada nə baş vermişdi, bu barədə heç kim heç nə bilmir. Tək onu bilirlər ki, Sara elə oradaca qeybə çəkilmişdi. Sonralar həkim, loğman, baxıcı qalmamışdı ki, Vəlini ona göstərməsinlər. Biçarənin dərdinə çarə tapılmamışdı. O vaxtdan ona Dəli Vəli demişdilər.

Vəli yorulmaq bilmədən hər yerdə Saranı axtarmışdı. O zamanlar Vəlini Cinli Dərənin Qurd Ölən Yer səmtində görənlər az olmamışdı. Gecəli-gündüzlü iri daşları təkbaşına divar kimi düzüb, Qurd Ölən Yerdən Cinli dərəyə darvaza da qoyubmuş. Həmin darvazaya vaxtlı-vaxtında qətran da sürtürmüş ki, Sara gəlib keçəndə onu tuta bilsin. Təkrar-təkrar öz-özünə söz verirmiş ki, Saranı tutsa, Tanrı da göydən ensə buraxmayacaq. Vəli çox gözləmişdi, ancaq tale-qismət Saranı o qapıdan keçirməmişdi.

Vəli Saranı son dəfə Göy Qayanın insan ayağı dəyməyən zirvəsindən ona əl eləyən görmüşdü. Həmin günün səhəri Vəlinin daşlara çarpılıb parça-parça olmuş, al qana bələnmiş cəsədini Göy Qayanın Qurd Ölən Yer səmtindəki sıldırımın dibində tapmışdılar.

Bu itkinin yarası sağalmamış, toydan düz doqquz ay doqquz gün sonra onun qəbrinin üstündə bir at dayanmışdı. Özü də yalmanından tər-su axa-axa, belindəki köhnə-kürüş xurcunda da iki məsum körpə. Söhbət Vəlinin anasına çatanda o, atı da, xurcunu da tanımışdı. Uşaqların ölüb-ölmədiklərini ayırd etmək üçün əlini xurcunun boğazındakı illərdən bəri açılmayan bağa uzadanda at da, belindəki xurcun da, xurcunun içindəki bir cüt körpə də qeybə çəkilmişdi.

Onların əvəzinə qəbrin üstündə Saraya oxşayan bir körpə görmüşdü. İnsafən uşaq oğluna da çox bənzəyirmiş.

Vəlinin anası yenicə doğulmuş körpəni götürüb başbilənlərin yanına yollanmışdı ki, bilsin: doğrudanmı bu çağa oğlunun yadigarıdır? Açılan kitabda uşağın nəvəsi olduğu göstərilib. “Tanrı, kəramətinə şükür! Mənə balamın amanatını göndərdin”, – deyib uşağı evinə aparmışdı. O da həddi-büluğa çatandan sonra uzun qış gecələrinin birində evə qayıtmamışdı. Getməmişdən deyirmiş ki, onu sarısaç bir qız çağırır. Çox axtarmışdılarsa da, gördüm deyən olmamışdı.

Bunca dərdə ananın ürəyi tab gətirməmişdi. Şaxtalı gecələrin birində onu Vəlinin qəbrinin üstündə tapmışdılar. Donmuş cəsədini torpaqdan güclə qoparıb elə oradaca dəfn eləmişdilər.

Uzun müddət o yerlərdə üç qəbir yeri var imiş. Sonuncunun Vəlinin oğlunun məzarı olduğunu söyləyirmişlər. İndi bu balaca əraziyə xalq arasında Dəli Qəbiristanlığı deyirlər. Elə indi də adamlar həmin qəbirlərdən aralı dolanmağa çalışırlar...

## BEŞİNCİ HİSSƏ

Həmid Qoşa Qara yetişəndə gecə yarıdan keçmişdi. Bədirlənmiş ayın Göy Qayaya dəyib qayıdan şüaları Daş Bulaqdan ta Qurd Ölən Yerə qədər hər tərəfi nura bələmişdi. Göz işlədikcə Cənnət yolunadək çəkilib gedən yaylaqlar ovuc içi kimi açıq-aydın görünürdü. Sanki hər şey hərəkətsiz idi, məkan da, zaman

da donub qalmışdı, amma arada itlərin həzin-həzin, ünvansız hürüşməsi Qoşa Qara hakim kəsilən səssizliyi pozurdu.

Həmid Daş Bulağa çatanda özünə gəlib atın başını çəkdi. Bu boyda yolda bircə dəfə də dayanmamışdı. Qoşa Qara tez çatmaq istəmişdi ki, səhər açılmamış köçü Arpa çayına çatdıra bilsin. Çətini sərhədi bu tərəfdən keçmək idi, türk əsgərləri ilə dil tapacaqdılar.

O, atdan düşüb əlini atın boynuna aparanda hiss elədi ki, yazıq heyvan su içindədir. Payızın ayazı özünü göstərdiyindən hava soyumuşdu, ətraf qırova bələnmişdi. Həmid atın qançır olacağından qorxdu, ötən il Sarvanın “ölü bazarı”ndan aldığı əsgər şinelini çıxarıb onun belinə atdı və başını buraxdı. At susuzluğunu yatırmaq üçün Daş Bulağa sarı yönələndə Həmidin:

– Ehey, çər dəymiş, belə tərli-tərli buz kimi sudan içib gəbərməkmi istəyirsən? – dediyini eşitcək dayandı, başını əyib fınxıra-fınxıra qırov örtmüş otları qırpmağa başladı.

Daş Bulağı Uca Tanrı Qoşa Qarla ekiz yaratmışdı. Elə yaranışdan qayaların arasından süzülür, getdikcə elə də gur axmayan dərəyə çevrilir, suyu bollana-bollana Ana çaya qarışırdı.

İmamalı kişinin Gülyəz arvadın istəyi ilə suyun qaynağında Məsimin ehsanına tikdirdiyi bulaq böyük alınmışdı, əvvəlcə su qara daşdan hörülmüş böyük hovuza dolurdu, sonra da çuqun borudan bir naxırın birgə su içə biləcəyi nova tökülürdü. Novu elə həmin daşdan aşağıdakı kəndlərdən olan ustalara yondurmuşdu.

Daş Bulağın suyu yayda da buz kimi olurdu, qəribə idi, qışda da ta mənsəbinəcən – Ana çaya qədər suyu don vurmazdı, hər yeri qar örtən zaman Qoşa Qarın yuxarılarından baxanda torpağa sarılan mavi kəmərə bənzəyərdi.

Vaxtilə qışda maral ovuna gələnlər əziyyət çəkib qurşaqdan yuxarı çıxan qarı yara–yara yüksəkliklərə qalxmazdılar, Daş Bulağın başından aşağılara axan suyun kənarında pusqu qurardılar. Bilirdilər ki, dağlarda su tapmayan maral sürüsü gec-tez öz ayağıyla nişangaha gələcək.

Həmid bulağa yaxınlaşdı, əvvəlcə daşa dönmüş ovuclarını bir neçə dəfə doldurub sifətinə su çırpdı, ürəyi soyumadı, ağzını gur axan çuqun boruya dirəyib bir müddət beləcə qaldı, buz kimi su içinə yayıldıqca canına sərinlik gəldi.

Həmid üzünü meh döyə-döyə Qoşa Qara tamaşa elədi. Göy Qayanın, Qurd Ölən Yerin, göz işlədikcə uzanıb gedən yaylaqların, hətta xaraba qalan qalaların onun üçün nə qədər dəyərli olduğunu sanki indi duydu. Ömrünün çox payını Qoşa Qarda keçirmişdi. Uşaqkən atası tifdən rəhmətə gedəndə iyisini dayısıgilə salmışdı, tezliklə ailədə özünə yer eləyib, elə uşaqlıqdan dayısının rəğbətini qazanmışdı. Dayısı da onun zirəkliyini görüb Molla Ayvazın yanına qoymuşdu ki, hesabı-kitabı öyrənsin, gələcəkdə gərəyi olar. Böyüdükcə ona inam daha da artdı, İmamalı kişi aranda olanda yaylaqdakı işlərə cavabdehlik Həmidin boynuna qoyuldu. Yox, dayısı yayı Qoşa Qarda keçirmək istəyəndə kənddəki əkin-biçin işləri Həmidlik olurdu. Bu il də elə – yaylağa yenə İmamalı kişi qalxası olmuşdu.

Həmid göz işlədikcə gördüyü yerləri sevgi dolu baxışlarla bir daha seyrə daldı, ürəyinə damdı ki, bu mənzərəni sonuncu dəfə görür. Bir az da kövrəldi. Sonra cibindən qaytanlı saatını çıxarıb vaxtı öyrəndi, iti addımlarla ata tərəf getdi.

***

Yurd yerinə çatmamış Həmidi ilk qarşılayan Qanıq oldu. Hələ olmamışdı ki, hansısa atlı Qoşa Qardan keçsin, Qanıq quş kimi onun başının üstünü almasın. Bunu hamı bilirdi.

İtin hürüşündən aydın olurdu ki, gələn tanışdır, yoxsa yad. Yaddısa, onu Qoşa Qardan uzaqlaşdırmamış dincəlməzdi. Tanıdığı olsaydı, çatan kimi qırımını dəyişərdi, əgər səs kəsilsəydi, bilərdilər ki, gələn İmamalı kişinin özüdür, yox, başqası olsaydı, onda elə o hürüşlə də onu yurd yerinə qədər müşayiət edəcəkdi.

Bu dəfə yurd yerindəkilər Qanığın hürüşündən bildilər ki, gecənin bu vaxtı gələn özlərininkidir, amma İmamalı kişi deyil. Bəs belə vaxtsız-vədəsiz kim ola? Nə baş verib, görəsən? Həmidi uzaqdan görəndə həyəcan birə-beş artdı.

***

Hazırlaşmağa elə vaxt ayırmayacaqdılar. Hələ İmamalı kişi arana getməmişdən köç hazır idi. Həmid peyda olmasaydı, bu gün-sabah gəldikləri kimi də arana yön alacaqdılar. Ancaq indi uzağı atları yəhərləmək, arxacdakı inəklərdən, özü də Dəli Düyənin törəmələrindən olan on-on beş gözəgəlimli inək seçib buzovları ilə birlikdə kəndirləmək qalırdı. Qanıq da onları müşayiət eləyəcəkdi. Qalan hər şey – yurd yerindəki alaçıqlar da, təkərləri təzəcə yağlanmış arabalar da, sayı-hesabı bilinməyən sürü-sürü qoyunlar da, naxır da Allahın umuduna qalacaqdı.

Belə etməyi dayısı Həmidə onu güllədən qorumaq üçün ot tayasının daldasına çəkəndə tapşırmışdı. İmamalı kişinin təzə hökumətə inamının son işartıları elə oradaca sönmüşdü. Təcili o üzə adlayacaqdılar. Sərhədi keçəndən sonra heç kəsə əl açmayacaqdılar. Türk hökumətinə təslim olub daldalanmağa yer istəyəcəkdilər, bir də örüş istəyəcəkdilər ki, qabaqlarına qatıb gətirdikləri heyvanları bəsləyə bilsinlər. Sonra hər şey öz axarına düşəcəkdi. Təzə hökumət yıxılana qədər gözləyəcəkdilər. Nikolay taxtına qayıdanda onlar da öz yurdlarına dönəcəkdilər. Hər şeyə yenidən başlayacaqdılar...

İndisə Həmid hər şeyə nəzarət edirdi. Yükləri yüngül olmalıydı. Sərhədi keçəndən sonra bir neçə gün dolanmağa bəs olacaqdı. Qabqarılan xurcunlar da qadınlarla uşaqlar minən atlara yüklənəcəkdi. Onlar heyvanların arxasınca gedəcəkdilər. Silahlı kişilər isə cinahlarda mövqe tutacaqdılar ki, işdi-şayəd, nəsə baş versə, köçü qoruya bilsinlər.

Tələsmək lazım idi. Həmid saatına baxıb ətrafa boylandı:

– Haydı, vaxtdır, çıxaq ki, vaxtında çataq, – deyə pıçıldadı.

Həmid eşidəndə ki hamı hazırdır, amma Güllü yoxdur, öz-özünə deyindi:

– Gecikdiyimiz yerdə bircə bu qalmışdı. Bilən varmı hardadı bu qız?!

Gülyəz arvadın alaçıqdan:

– Tapmasanız, gedin o baxtsızın üstündə axtarın, – deməsini eşitcək Həmid atı birbaşa Məsimin qəbrinə tərəf sürdü. Bibisi düz söyləyibmiş, Güllü Məsimin qəbrinə sarmaşıb ağı deyirdi. Bir sürü canavar qızı aralığa almışdı, Güllü nalə çəkdikcə canavarlar onunla həmahəng ulaşırdılar.

Həmid gördüklərinin yuxu olduğunu sandı. “Lənət şeytana” deyib gözlərini ovuşdurdu, başını o yan-bu yana qanırdı. Xeyri yox idi, Güllünün ahəstə səsi kəsmirdi. Həmidə elə gəldi ki, bu səs çox-çox uzaqlardan, Qoşa Qarı işığa bürüyən ayın o üzündən gəlir:

Göynən gedən Qu məni,
Hara çəkir bu məni.
Başdaşın balışımdı,
Göz yaşımda yu məni.
Aman, qardaş, ay qardaş,
Nakam qardaş, ay qardaş.
Bacın ağlar qalıbdı,
Oyan, qardaş, ay qardaş.

Həmid tutulub qaldı. Ha çalışdı, nəsə anlasın, bir şey qanmadı. Ağlına gələn İmamalı kişi oldu, təsəvvürünə gətirdi ki,

kişi Arpa çayına çatıb bunları gözləyir, di gəl, köçün heç tozu da görünmür...

Anladı ki, belə getsə, gecikəcəklər. Gündüz sərhədi keçmək isə müşkül məsələ idi. Ya atışa-atışa ölməliydilər, ya da təslim olub Sibirə sürülməliydilər. Arada Güllünü canavarların arasında qoyub qayıtmağı da fikrindən keçirdi. Bəlkə, elə belə etsin, heç Qocaya da qismət olmasın. Arvadı yox idi, ilkini dünyaya gətirəndə ölmüşdü. Evlənmək istəyəndə gözü dayısı qızını tutmuşdu. Qocanın məsələsini biləndə susdu, bir daş altda,bir daş üstə, bu sirri kimsəyə bildirmədi. Amma ürəyi ilə bacarmırdı. Güllünü qoyub qayıtsaydı, bəlkə, dayısı onu başa düşərdi. Oğlunu sel aparanda belə eləməmişdimi? Heç soruşmamışdı ki, hadisə necə baş verib. Ağlına belə bir fikir gəldiyinə görə Həmid özünü tez də qınadı. Güllünü canavar ağzında qoymağı şəninə sığışdırmadı, qızı qurtarmağın yolunu axtardı. Beşaçılanı çiynindən götürüb göyə bir-iki güllə atdı ki, yırtıcılar dağılışsın. Atəş səsini sanki nə Güllü eşitdi, nə də canavarlar. Güllü ağı deməyində, qurdlar ulaşmağında idi.

Dağlar, səni əndərərəm,
Yönü bəri döndərərəm.
Dərdindən xəstə düşmüşəm,
Yanna kimi göndərərəm.

Aman, qardaş, ay qardaş,
Nakam qardaş, ay qardaş.
Bacın ağlar qalıbdı,
Oyan, qardaş, ay qardaş.

Həmid qəbrə yaxınlaşanda gözlərinə inanmadı – qurd sürüsü kənara çəkilmişdi. Güllünü qəbrin baş ucunda, Məsimin quzusu da böyründə bardaş quran gördü. Başdaşı Məsimə çevrilmişdi, soyuq-soyuq onlara baxırdı. Qanıq da buradaydı, bir az aralıda şöngümüşdü.

Həmidi xof bürüdü. Məsimi sel apardığının ertəsi gün onun meyidini Ana çaydan özüçıxarmışdı axı.

Axşamacan aşağı kəndin mollasını gözləmişdilər ki, uşağı el adətincə dəfn eləsinlər. Həmid hər şeyi yenidən yadına saldı: yox, Məsimi sel aparmışdı, səhəri gün meyidini Ana çayın burulan səmtində, selin dağlardan gətirdiyi qaya parçasına ilişib qaldığı yerdə tapmışdılar. Molla da gec gəlmişdi, İmamalı kişi bunu bilsəydi, o mollanın bəlkə də, indi başı əldə deyildi. Bunu da xatırladı. Amma indiki mənzərə onu tamam karıxdırmışdı. Bir anlığa bilmədi ki, gerçək olan hansıdır – bayaq gördüklərimi, yoxsa yadına saldıqlarımı?

“Allahu-Əkbər” deyib qeyri-ixtiyari atdan düşdü və qəbrə tərəf addımladı. Güllü taqətsiz halda qəbrin üstünə uzanmışdı, Həmid ha çağırdısa, qız eşitmədi. Qanıq da, quzu da qeybə çəkilmişdi. Amma kənardan bu mənzərəni seyr edən canavarları gördü. Onun hərəkətlərini izləyirdilər. Həmid əyilib Güllünü qəbirdən ayırdı, sərt hərəkətlə onu atın belinə aşırdı, yüyəni çəkib oradan tezcə uzaqlaşmağa çalışdı. Osmanlı beşaçılanını da hazır tutdu ki, birdən canavarlar üstünə hücum çəkər. Həmid gördüklərini dərhal unutmağa çalışdı, qorxdu, birdən huşu başından çıxar, köçü Arpa çayına vaxtında çatdıra bilməz, dayısının ona inamı sarsılar.

Qəbirdən azca uzaqlaşmışdı ki, yenidən Güllünün səsi gəldi, qız yenə ağı deyirdi, canavarlar da əvvəlkitək onu müşayiət edirdi. Bilmədi səs hayandan gəlir, amma o qədər aydın eşidirdi ki, baş verənlər sanki qulağının dibində, lap elə öz içində vaqe olurdu. Dayanmaq istədi ki, görsün ağı deyən doğrudanmı bayaq bihuş halda atın belinə aşırdığı Güllüdür. Yerişini yavaşıdanda qurdların ulaşmasından ürkən və dabanbasdı gələn at döşü ilə onu irəli itələdi. Araya çökən sükut yurd yerinə qədər davam elədi.

***

Həmid köçü sərhədə vaxtında çatdırdı. Ancaq onları pusquda dayanan əsgərlər qarşıladılar. İmamalı kişi hələ çox sonralar biləcəkdi ki, o üzə keçmək niyyətlərindən qonşu yaylaqdakı düşmənləri xəbər tutublarmış. İntiqam almaq üçün bundan yaxşı fürsətmi olardı? Tələsik sərhəd zastavasına çapar göndəriblər ki, hazıryaraq dayansınlar. Məsələdən agah olan sərhədçilər Arpada keçid imkanı olan bərələrdə pusqularını qurublarmış. Bəs Alıöyündən xəbəri kim çatdırıbmış onlara? Bu, İmamalı kişidən başqa hamı üçün sirr olaraq qalacaqdı, o isə heç kimə demədi, özü ilə o dünyaya apardı, çünki hər şey arxada qalmışdı, istəmədi ki, nəsildəki ikitirəlik daha da dərinləşsin.

Zastavadakı əsgərlərin sayı az idi. Ona görə qarşıdurma elə də uzun çəkmədi. Həmid heç sərhədi keçməyə imkan tapmamış aldığı güllə yarasından çox qan itirdi, yəhərdə duruş gətirə bilməyib yerə yıxıldı, tərkindəki Qoca da onun arxasınca düşdü. Güllə səsindən ürkən at isə bir göz qırpımında yox oldu.

Həmidin taqəti anbaan tükənirdi. Başını mamırlı daşın üstünə qoyub sakitcə:

– Qorxma, – deyə Qocanı süzdü, – halım yaxşı deyil. Gözlə, dincimi alım...

Qoca Həmidin paltarının qana bələnməsindən hər şeyi başa düşmüşdü. Bilmədi neyləsin, necə yardım etsin Həmidə. Onu qoyub getmək istəmirdi. Həmid anladı ki, ölüm ayağındadır, bu dar vaxtda Qocanı Qoşa Qara qayıtmağa məcbur edə bilməyəcək. Açıq danışdı:

– Qoca, – dedi, – maşallah, böyümüsən, yekə kişi olmusan, görürsən, məni vurdular, ölsəm-eləsəm, qorxma haa... Köç artıq keçdi o taya, çata bilməzsən. Geriyə, Qoşa Qara qayıt. Əsgər görsən, qaçma, əllərini qaldırıb təslim ol. Bir də Güllünü, Güllünü deyirəm, onu...

Sözünü bitirə bilmədi, nitqi tutulsa da, Qocaya baxıb gülümsəyə-gülümsəyə gözlərini əbədi yumdu, amma üzündən həmin gülüş, həmin təbəssüm silinmədi. Qoca ömrü boyu bu sirri çözə bilməyəcəkdi: görəsən, Həmid niyə israrla onun Qoşa Qara qayıtmasına çalışırdı? Güllünün adını çəkməklə nə demək istəyirdi? Onu unutmağımı, yoxsa?..

Qoca nə baş verdiyinə inanmırdı. Onu ay işığında Həmidin üstünə düşən kölgə diksindirdi. Başını qaldıranda silahı ona tuşlamış bir neçə əsgər gördü. Qocanı zastavaya apardılar. Onu bir neçə ay uşaq evində saxlayıb uzun çək-çevirdən sonra Faxralıda qalan qohumlarına təhvil verdilər...

***

Sahil boyu saldığı izlərdən də bilinirdi ki, bir neçə günün yağışı Arpa çayının suyunu xeyli artırıbmış, indi də elə azalmamışdı, hələ də qurşaqdan yuxarı çıxırdı. Bunu Gülyəz arvad mindiyi at çayın ortasında gülləyə tuş gələndə hiss etdi. Özünü itirmədi, ayaqlarını üzəngidən cəld çıxardı, burulğana qoşulub kəlləmayallaq axan atın arxasınca baxmadan əsgər gülləsinə tuş gələn xurcundakı bir cüt körpəsini əllərində, Güllünü isə dişləri ilə darta-darta o taya çatdıra bildi.

Günəşin Qoşa Qarın arxasından boylanmasına xeyli qalsa da, dağların zirvəsində peyda olan işıq yavaş-yavaş aşağılara enirdi. Hava açıldıqca çayı keçə bilənlərin nələr yaşadığı üzlərinə hopan həyəcandan, qorxudan açıq-aydın görünürdü.

Hərə birtəhər özünə gəlirdi, çayın soyuqluğu sanki Güllünü də özünə qaytarırdı. Canı əsə-əsə gözü adamların arasında Qocanı axtarırdı. Ha axtardı, tapa bilmədi. Geriyə – Arpanın boz-bulanıq sularına sarı boylandı, hər şeyə şahidlik edən çay bayaqkı ahəngini dəyişməmişdi, köpüklənə-köpüklənə heç nə olmamış kimi axırdı. Güllünü ümidsizlik, çarəsizlik hissi bürüdü. Zənn etdi ki, onun üçün hər şey bitib, elə Qocanı da mindikləri

atı aparan burulğan udub. Onsuz yaşamağa dəyərdimi?

Qayıtmaq, əsim-əsim əsən diri cəsədini sulara təslim etmək istədi. Gülyəz arvad bilməyəcəkdi, başı hələ qundaqdan qanı süzülən iki körpəsinə qarışmışdı.

Güllü çaya tərəf bir neçə addım atmışdı ki, özü də bilmədi nə baş verdi, qarşısında körpəcə bir qız gördü. Ayaq üstə güclə dayanmışdı.Elə bil yenicə suya salıb çıxarmışdılar, paltarı şampır idi. Donmuş sifətinə sanki göy boya çəkilmişdi. Güllü donub qaldı. Qız ona doğru bir neçə addım atıb Güllünün hələ də suyu damcılayan donunun ətəklərindən bərk-bərk yapışdı...

Bu, taleyin Güllüyə göndərdyi ümid payı idi. Sona qədər də bilməyəcəkdi o körpənin kim olduğunu, hansı köçdən qaldığını. Amma talelərini bir-birlərinə bağlayacaqdılar, ana-bala kimi birlikdə ömür sürəcəkdilər...

Köçə qoşulanlar İmamalı kişinin rəhbəliyi, ilə atışa-atışa Arpa çayını keçə bilmişdilər. On üç nəfər qalmışdı. Xurcunda qana bələnmiş Fatma ilə Sonanın meyidini dəfn elədilər.

Elə gecəylə Həmidin cənazəsinin dalınca gedənlər də qayıtdılar. O vaxtdan Arpa çayının sahilində iki məsum körpənin və Həmidin ruhu uyuyur.

İmamalı kişi itkilərə üzülsə də, istəyinə nail olan adam kimi görünürdü. Elə həmin gün hamını tonqal başına toplayıb yaxın-uzaq planlarını açıqladı.

## ALTINCI HİSSƏ

Özünü tanıyandan Qocanın nə Dəli Düyənin, nə də Qanığın törəmələrindən xoşu gəlmişdi. Ondan olsaydı, elə o vaxtlar hamısının kökünü kəsərdi, nə yollasa başlarından genidərdi. Hələ lap balacalığından babası ona təlqin etmişdi ki, nəsillərinin başına gələn bəlaların səbəbi məhz Qanıqdır, Dəli Düyədir, onların törəmələridir. Bəs nəyə görə cinlər Alıöyü nəslinin başına ürcah oldu? Yoxsa Vəli kimi bir igid o taleyi yaşayardımı, qohum-əqrəbaları dərbədər olardımı?

Tanrı canavarı canavar, iti də it yaradıb. İnsan övladı nə karədir ki, Tanrının işinə qarışsın, canavar törəməsini itə, maralı inəyə çevirsin.

Elə ona görə Qocanın atası da, babası Mustafa kişi də, hamısı bir nəfər kimi – Alıöyünün Qoca olan qanadı Qanığa heç vaxt isinişməmişdi. Dedikləri həmişə bu olmuşdu ki, onun damarından canavar qanı axır. Canavarı itə döndərmək, yaxud ondan küçük tutmaq Tanrının yolundan azmaq deməkdir. Tanrı deməyibmi yaratdığı varlıqları dəyişmək olmaz! Bunu kim eləyərsə, Ona qarşı çıxmış sayılar. Cəzasını alacaq, özü almasa, övladları, bu da olmasa, sonra gələnlər mütləq alacaq. Mütləq!

Dəli Düyənin törəmələrinə gəlincə, hələ Qocanın 13 nəfər qohumu o taya keçməmiş, xurcuna ana bətni kimi sığınan Fatma ilə Sona hələ rus əsgərlərinin gülləsinə tuş gəlməmiş, yəni Qocanın həyatının o əvəzedilməz uşaqlıq çağlarında bir söhbət eşitmişdi, bu idi onu narahat edən. Dəli Düyə dəlilik edib ipə-sapa yatmayanda, yenicə doğulmuş balasını yaxın buraxmayanda Molla Ayvaza kitab açdırıblarmış. O da məsləhət görübmüş ki, inək cinlənib, cinlənməsəydi, marallara qoşulmazdı, onu tələf etmək lazımdır. Bunu da deyibmiş ki, Dəli Düyəni öldürəndən sonra cəmdəyini elə dərinə quylasınlar ki, sür-sümüyü it-pişiyin dişinə dəyməsin. Yoxsa onları da cin tutar. Sonrası da məlumdu, yəni xəstəlik insanlara da kiçəcəkdir.

Yetər arvadın babasının məsləhətini Alıöyünün yarısı – Qocanın babası da, atası da çox ciddiyə alıbmışlar. Amma onların əmisi uşaqları bu məsləhətə ağız büzüblər, Dəli Düyənin törəmələrindən əl çəkməyiblər. O vaxtdan Alıöyü nəslinin arasında Qanıqdan

başlayan ədavət daha da dərinləşib, bitib-tükənməyən sözləşməyə çevrilib...

İndi buna bəziləri əfsanə kimi baxır. Amma Qoca əmindir ki, eşitdikləri düzdür. Mustafa kişi bu barədə ona şəcərələrindən danışanda söyləmişdi. Alıöyü nəslində hər bir uşağı, əsasən də, oğlanları özünü tanıyar-tanımaz nəsli barədə məlumatlandırmaq yazılmamış qanun idi. Elə onda babası ona Dəli Düyənin yolunu azıb marallara qoşulması barədə danışıbmış. Düyənin balası da erkək maraldan imiş.

Buzov tez böyüdü. Adını da Xallı Düyə qoydular. Zərif görkəmi, vüqarlı duruşu, gövdəsinə səpələnmiş gözoxşayan xalları ilə başqa buzovlardan əməlli-başlı fərqlənirdi. Dal ayaqlarının uzun olması Xallının çevikliyini daha da artırırdı. Uzun qulaqları, sayıqlığı təhlükədən vaxtında xəbər tutmasına vəsilə olurdu.

Xallı Düyə ipə-sapa yatmayanda, balasını altına qoymayanda ona düşmən kəsilənlərin çiçəyi çırtladı.

– Deyəndə qulaqardına vurdular, sözümü saymadılar, – Mustafa kişi qəzəbini boğa-boğa oturub-durub deyindi. – Elə onda bunları analı-balalı diri-diri torpağa basırmaq lazım idi. Özü də diri-diri! Qanı kiminsə üstünə-başına sıçramamış.

Zaman keçdikcə Alıöyü nəsli iki yerə parçalandı. Mustafa kişi nəslin o biri tirəsinin, yəni Qoca olan tərəfin ağsaqqalı sayılırdı. Alıöyünün yarısı bütün işlərində – oğul evləndirəndə, qiz ərə verəndə süfrəsinin başında onu oturdardı, yas mərasimlərinə gələnlər başsağlığını ona verərdilər. Bir sözlə, onsuz işləri ötüşməzdi. Bəzən iş o yerə çatardı ki, Mustafa kişinin izni olmadan heç kim o biri tirənin xeyrində-şərində iştirak eləməzdi...

Dəli Düyənin hekayəsini alıöylülər hələ də unutmayıblar. Nə vaxtsa dağdan arana köçəndə Dəli Düyə gözə dəymir. Naxırçılar onu çox axtarırlar, gəldikləri dərələri-təpələri ələk-vələk eləyirlər, düyə tapılmır ki tapılmır. Deyirlər, yəqin ayrı köçə qoşulub, el dağa qalxanda mütləq onu yiyəsinə qaytaracaqlar. Adət belədir.

Amma bir şeydən tam arxayın idilər ki, Dəli Düyə oğurlanmayıb. Çünki ilin-günün bu çağında heç kim cəsarət edib Alıöyünə ilişə bilməzdi. Ona görə axtarış dayandırıldı, ümid yaza qaldı. Günlər keçdikcə Dəli Düyənin söhbəti yavaş-yavaş unuduldu...

Növbəti il Qoşa Qara qalxanda Dəli Düyəni yanında körpəcə balası yurd yerində görürlər. Buzovun səhər günəşinin işığı altında sayrışan xalları çox mətləbdən xəbər verirmiş. Mustafa kişi bunu çoxdan sezibmiş.

El yaylağa qalxmamışdan Qoşa Qarda maral sürüləri otlarmış. İlk köç arabaları Qurd Ölən Yerdən keçib Göy Qaya səmtinə dönəndə təkələr duyuq düşüb sürünü yuxarılara çəkərmiş. Payız səhərləri ayazın yamyaşıl otluqları qırovla örtməsi adamlara bir işarə imiş ki, yay bitdi, tezliklə qar yağacaq. Bundan sonra dağlar yenə marala qalarmış.

Əslində, usta ovçulardan başqa kimsə nəinki maral sürülərini, heç onların izini də görməzmiş. Amma axşamlar mal-qara arxaca yığışanda, yorğun itlərin hürüşməsi ara verəndə qızmış erkək maralların mələşməsi uzaqlardan aşağılara da gəlib çatırmış. Bax Mustafa Dəli Düyəni onda haqlayıbmış. Erkək maralın mələrtisini eşidər-eşitməz qulaqlarını səs gələn səmtə şəkləyib yamanca inildəyirmiş.

Elə o zaman Mustafa Dəli Düyənin başını kəsmək istəyib. Böyüklərə genəşmədən onun, boğazına bıçaq çəkməyə hünəri çatmayıb. Böyükləri də kim ola – özcə əmisi uşaqları...

Qocanın özünün də uzun illər buna cəsarəti çatmadı. Çünki əmoğlular talelərindən razı görünürdülər. İndi Qaragözü, Qanığı canından artıq istəyən Hasan bunun diricə nümunəsi deyilmi?

Krediti ödəmək vaxtı çatıb Urusetdən pul gəlməyəndə Qocanın əlinə fürsət düşmüşdü. Hasan heyvanlardan hansını satmağı məsləhətləşdikcə Qoca yalnız Qaragözə barmaq tuşlamışdı.

## YEDDİNCİ HİSSƏ

Şəhərdən gələn adamların Qaragözü maşına atıb aparması, zəncirini qırıb onların dalınca düşən Qanıqdan xəbər çıxmaması Qocanı özünə qaytarırdı. Səhhəti günbəgün yaxşılaşırdı.

Qurd Ölən Yerin Göy Qaya səmtində bir nəfərin yaşıl çəməndə üzüqoylu qaldığı aşağı kəndlərdən gələn biçinçilərin diqqətindən yayınmadı. Həmin adam Hasan idi, tərpənmirdi, canının hayına qalmışdı, zoğal çubuğu da yanına düşmüşdü. Əvvəlcə onun öldüyünü zənn etdilər. Biləndə ki hələ sağdır, nəfəsi gedib-gəlir, vaxt itirmədən gəldikləri maşınla da xəstəxanaya yola saldılar.

Səhərisi gün Hasanın xəstələnməsi xəbəri Qoşa Qara yayıldı. Qoca da onun başına gələnlərdən onda xəbər tutdu. Allaha dua elədi ki, tez sağalsın, qayıtsın gəlsin. Buralar onsuz nə günə qalar? Hələ uşaqdı, beyniqanlıdı, yavaş-yavaş hər şeyi qanar, anlayar, Qocaya kin-küdurətini də yaddan çıxarar. Qocanın qoca vaxtında bir-birilərinə həyan olub yaşayarlar.

Qoca həm də ona arxayın idi ki, Qaragöz bir də qayıtmayacaq, Qanıq da onun kimi, qayıtsaydı, indi burada olardı. Geri dönsə də, qorxusu yox idi. O da Qocanın özü kimi qocalırdı. Son illər küçük də vermirdi. Belə getsə, verməyəcəkdi də. Qalırdı Ala Düyə, onu da el dağdan köçəndə qurban kəsdirib qapı-qapı payladacaqdı... Bununla da nəinki Qocanın, eləcə də atasının, babası Mustafa kişinin də xəyal kimi gördüyü istəkləri yerini alacaqdı. Dəli Düyənin də, Qanığın da nəsli yavaş-yavaş kəsiləcəkdi. Bundan sonra Alıöyünün cinlərlə, canavarlarla əlaqəsi qırılacaqdı. Nəsil xoşbəxt yaşayacaqdı.

Krediti qaytarmaq məsələsi gündəmə gəlməsəydi, güman ki, Qocanın səhhəti daha da ağırlaşacaqdı. Son zamanlar əməlli-başlı düşmüşdü, sağlamlığındakı problemlər özünü daha çox büruzə verirdi. Yadına sala bilmirdi, axırıncı dəfə nə vədə qollarını çırmayıb qapı-bacada gəzib. Səhərin ala-qaranlığında alaçığın yarıdan çoxunu tutan taxtdan birtəhər enir, dirəkdəki mıxdan asdığı çuxasını güc-bəla çiyninə çəkirdi. İçəri ilə bayırın havasında elə də fərq olmurdu. Amma alaçıqda duruş gətirə bilmirdi, sanki nəfəsi çatmırdı, tez bayıra, Daş Bulaqdan əsən yelin Göy Qayaya dəyib yurd yerini götürən təmiz mehinə can atırdı...

Elə olurdu ki, gün ərzində bir dəfə də içəri girmirdi, bəzən gecələri də məskən saldığı taxtın üstündə keçirirdi. Saatlarla tərpənmirdi. Gözləri yumulurdu, arada gözünü yarıyacan açıb ifadəsiz baxışları ilə ətrafı süzürdü. Əzab-əziyyət içində yaşayırdı, buna yaşamaq da demək olmazdı. Vəziyyəti üzünün ümidsizliyə bələnmiş cizgilərindən, alnının dərd dolu qırışlarından, bir də həyat eşqi tükənmiş baxışlarından hiss olunurdu.

Ətrafında baş verənlərə reaksiyası da dəyişmişdi. Bədəni keyimişdi elə bil. Gülüm-səməyi unutmuşdu. Danışmağı da yavaş-yavaş yadırğayırdı. Əvvəllər nəsə soruşanda ötəri, kəsik-kəsik cümlələrlə cavab verməyə çalışırdı. Vaxt ötdü, kim nə dedisə, başını yüngülcə tərpədib laqeyd-laqeyd gözlərinin içinə baxmaqla kifayətləndi. Son günlərdə nə oldusa, tükü də tərpənmədi.

Qaragözün arxaca gələn yolun başındakı mıxçaya bağlandığı axşam, yəni Qoşa Qar-dakı sonuncu gecəsi nə Qurd Ölən Yerə düşən ildırımın qulaqbatırıcı şaqqıltısı onu diksindirdi, nə də Qoşa Qarın zil qaranlığını gündüz kimi ağappaq işığa bələməsi diqqə-tini çəkdi. Onda da həminki yerindəydi.

Tərpənmədi, heç nə olmayıbmış kimi gözünü qırpmadı da. Bir sözlə, çoxdan idi ki, heç kəslə bir kəlmə kəsmirdi. Taqəti qalmamışdı ki, səhər Qaragözün arxasınca gələn yekəpər kişinin "Aparırıq haa..." deməsinə "Allah xeyir versin" söyləyə. Bəlkə də, ürəyində demişdi, amma ha çalışmışdı, dodaqlarını tərpədə bilməmişdi...

Qoca ölməyə tələsirdi – bir sözlə, ölümü səbirsizliklə gözləyirdi. İstəyirdi Əzrayıl tez gəlsin, ruhunu bədənindən tez ayırıb aparsın. Ruhu da ölüm mələyinin qanlı əlləri üçün darıxmışdı. O isə Qocanın yuxusu kimi ərşə çəkilmişdi...

***

Qoca əvvəllər belə deyildi, canı sulu idi, yemək-içməyindən qalmazdı. Ala-torandan qalxıb həyət-bacanın nizamını yoxlar, əyər-əskiyini sahmana salar, sonra da adəti üzrə öz yerində oturardı. Arada palazın arxa tərəfindəki cibdən çıxardığı 48 vərəqli məktəbli dəftərinə keçən il Türkiyədən gələn qohumunun hədiyyə verdiyi qələmlə nəsə yazardı.

Bir dəfə payız ağzı el dağdan köçən vədələr idi. Deyəsən, qış gəlməyə tələsmişdi, soyuqlar vaxtından əvvəl düşmüşdü. Üstəlik, hava çiskinliydi, külək də bir yandan aman vermirdi. Qoca yatağa erkən girdi, ha çalışdı yatsın, küləyin yağış damcılarını alaçığın divarlarına döyəcləməsindən qopan səs imkan vermədi. Gecə boyu 48 vərəqli məktəbli dəftərinə yazdıqlarını əvvəldən axıra, axırdan əvvələ təkrar-təkrar fikrindən keçirdi, bir daha götür-qoy elədi, toxunmadığı elə bir şey tapmadı. Dəftər, demək olar, dolmuşdu, sonuncu səhifədə olsa-olsa, kiçik abzaslıq yer qalmışdı.

Dəftərdə hər şey vardı – çoxu Güllüyə yazdığı, amma ünvanına çatmayan məktublar idi, gimnaziyada oxuyanda ona aldığı hədiyyəni verəndə, Güllüyə toxunanda qızın indi də unutmadığı qoxusundan yazırdı. Əlyazmalarında mələklə müsahibəsi də yer almışdı. Sonrakı hissələrdə qolçomaq quyruğu deyib ona olunan haqsızlığı, görübeşitdiyi hadisələri nəql edirdi. Burada Qocanın uşaqlığından bəri rastlaşdığı, müşahidə etdiyi bir çox məqamlarla bağlı qeydləri vardı.

Yazıları bədii əsər yox, bir-biri ilə əlaqəsi olmayan ayrı-ayrı xatirələrin toplusu adlandırmaq daha doğru sayılardı.

Bir sözlə, Qoca həmin çiskinli, küləkli gecədə çimir ala bilmədi, səhəri dirigözlü açdı. Axşamdan özünə söz vermişdi, elə həmin gün sonuncu qeydlərini etməliydi, bununla da işini bitmiş sayacaqdı. Çünki bir neçə günə Qoşa Qardan arana köçəcəkdilər. Köç vaxtı yaxınlaşdıqca adamların başı daha çox qarışır, ona görə yazdıqlarını məhz bu gün yekunlaşdırmaq istəyirdi. Faxralıya qayıdanda Qarsdan gələn qohumu ilə görüşüb dəftəri ona verəcəkdi.

Qohumu Qarsda çıxan qəzetlərin birində çalışırdı. Keçən il kəndə qonaq gələndə qəzet üçün xeyli material toplamışdı. Əsasən, doğmaları ilə, Qarsda yaşayan yaşlı adamlarla maraqlı söhbətlər edib, müsahiblərinin şəkillərini çəkmişdi. Qoca ilə də razılaşmışdı ki, onun yazdıqlarını türk dilinə uyğunlaşdırıb qəzetin "Doğma ellərdən salam var" rubrikasında dərc etdirsin. Müxbir əmin idi ki, yazı oxucular tərəfindən həm də ona görə maraqla qarşılanacaq ki, aralarında qanlıqadalı illərdə Borçalıdan bu torpaqlara pənah gətirənlərin qohum-əqrəbası da az deyildi. Jurnalist yazını daha da maraqlı etmək üçün adını "Güllüyə məktublar" qoymaq istəyirdi. Qoca isə tərəddüd eləyirdi.

Ayrılanda qohumu cibində gəzdirdiyi qələmi ona bağışlamışdı. Diyircəkli qələm idi. Nəinki Qoca, cəmi faxralılılar belə qələm görməmişdilər.

– Buralarda böyle kalem yoxdur. Alman yapımıdır. Sana vereceğim, yarım kalmış

yerleri bitireceksin, gelen seneye Tanrı'nın yardımıyla buralara geldiğimde onları senden alacam, – yarı Qars, yarı Borçalı ağzı ilə deyəndən sonra qələmi ona uzadıb titrək əlini sıxmışdı.

Həmin səhər Qoca yeməyini könülsüz yedi. Dəftərdə qalan bir abzaslıq yerə nə yazacağını elə gecədən müəyyənləşdirmişdi. Alaçıqdan çıxdı. Dəftəri palazın arxasındakı cibdən çıxarıb taxtın üstünə qoydu. Əlini çuxasının cibinə saldı. Dərin cib yarıyacan dolu idi. Çətinliklə qələmi ayırd edib çıxarmaq istəyirdi. Amma bu an gecəyarıdan qalxan külək elə bir burulğan qopardı ki, dəftər sanki quşa döndü, taxtın üstündən uçub ətrafda dövrə vurdu. Vərəqlər bir-birindən ayrıldı, bir hissəsi daha yüksəyə qalxıb göz qırpımında yox oldu. Qoca ha çalışdı, onları tuta bilmədi. Qalanlar da yaş idi, sətirlərin bəziləri qarışdığından oxunmurdu.

Sonra əlyazmalarını bərpa etmədi. Ona taqəti qalmamışdı. Həm də istəmədi ki, olub-keçənləri yenidən yadına salsın. Bilirdi ki, onun üçün əzablı olacaq, o ağrıları çəkməyə güc tapa bilməyəcək. Yalnız bunu eləyə bildi ki, Qarsa ismarış göndərib, adından hər hansı yazının çapına razı olmadığını jurnalist qohumuna çatdırdı.

***

Qocanın üstündə oturduğu palaz çoxdanın idi, nə vaxtdan qalmışdı, bilinmirdi. Hər axşam yatmağa gedəndə onu da götürüb balışının altına qoyurdu ki, həm başı yuxarıda olsun, həm də palaz itib-eləməsin. Səhərlər duranda da alaçığın ağzındakı taxta sərib üstündə otururdu. Elə də böyük deyildi, taxtın yarısını tuturdu. Üstü gəvəsayaq toxunmuşdu. Rəngi solmuşdusa da, Qoşa Qarın üz tərəfindəki təsviri hələ də açıq-aydın seçilirdi. Yaşıl olan yerlər otlaqlar idi. Göy Qaya bir az göy rəngdə təsvir olunmuşdu. Daş Bulaq olan yerlər daş rəngindəydi. Diqqətlə baxanda Qoşa Qarın hər yerindən, hətta gecələr çaqqalların ulaşdığı yüksəkliklərdən, Göy Qayadan, Daş Bulaqdan Qurd Ölən Yerə qədər nazik xətlər enirdi. Oradan da bir xətt ayrılır, Qoşa Qarın zirvəsinə qədər qalxıb yox olurdu. Palazın arxa üzü kilim kimi səliqə ilə toxunmuşdu, əlavə olaraq bir cib də hörülmüşdü, oranı Qoca 48 vərəqli dəftərinin saxlanc yeri eləmişdi.

Hələ çox əvvəllər, babası Qoca yaşda olub bu palaza yiyələnəndə ona bir sirr açmışdı. Kənardan heç kəsin eşitmədiyinə əmin olub palazın üstündəki Qoşa Qarın zirvəsinə qalxan cığırı göstərib:

– Mələklərin yoludur, – demişdi. – Uca Tanrının əmri ilə onlar elə indi də Qoşa Qara enirlər. Məqsədləri şeytanlarla insanların əlaqələrini öyrənməkdir. Seytan hiyləgər olur, cinlərlə min dona girib insanları aldadır, pis əməllərə sövq edir.

Söhbətin əvvəli Qocanı maraqlandırmamışdı, bəlkə də, mələk sözünü ilk dəfə eşidirdi, amma cinlər barədə bu yerlərin qalan adamları kimi, bilməmiş deyildi. Babası cin sözünü işlədəndə Qocanın ona maraqla baxmasını görüb davam etmişdi:

– Eşitməmisən onlar Vəlinin başına nə oyun açıblar? Yazığın yurdunda çıraq yandıranı da qalmadı. Günah Vəlinin özündə oldu, şeytan onu yoldan çıxaranda ayağının altını görmədi, göylərlə əlləşdi, allahlıq sevdasına düşdü. Mələklər ha çalışdılar Vəlinin qəlbini təkəbbürdən təmizləsinlər, bacarmadılar.

Qoca gimnaziyada oxuyanda yay tətillərini Qoşa Qarda keçirirdi. Qurd Ölən Yerdən Göy Qayaya, Daş Bulaqdan xam otlaqlara qədər hər yeri qarış-qarış gəzmişdi. Amma Qoşa Qarın qarı-buzu heç zaman əriməyən zirvəsinə çıxmamışdı.

Dəfələrlə istəmişdi qalxsın, amma baş tutmamışdı. Babasından mələklərlə bağlı eşitdikləri onda marağı artırdı. Dərs ilinin son

günü müəllim onlarla vidalaşarkən tapşırıq vermişdi ki, tətildə hər kəs başına gələn maraqlı əhvalatı yazsın. Münsiflər heyətinin bəyəndiyi ən yaxşı yazı gimnaziyanın divar lövhəsində yer alacaq. Şəhərdə çıxan qəzetlərin tələblərinə uyğun olsa, onlarda da çap olunacaq. Çünki qəzetlərdə müəllimin çoxlu dostları çalışırdı, elə onun özü də vaxtaşırı məqalələrlə çıxış edirdi. Müəllimin sözü Qocanın həvəsini daha da artırdı, qərara gəldi ki, nəyin bahasına olur-olsun, Qoşa Qarın zirvəsinə gedən yolu tapmalıdır, bəlkə, elə mələklərlə də rastlaşdı. Gördüklərini də yazıb, qayıdanda təqdim edəcək. Əmin idi ki, heç kim onun kimi maraqlı əhvalatla qarşılaşmayacaq.

Dərslərini bitirib Qoşa Qara gələr-gəlməz palazın üstündəki şəkildə Qoşa Qarın zirvəsinə qalxan yolun keçdiyi əraziləri dönə-dönə nəzərdən keçirdi, elə babasının da köməyilə günlərlə dəqiqləşdirmə apardı. Bir səhər erkən vaxtilə coğrafiya müəlliminin məsləhətinə uyğun alıb topladığı, səyahət üçün lazım ola biləsi ləvazimatı şəhərdən gətirdiyi torbasına yığıb boynundan aşırdı və yola çıxdı.

Günəş Göy Qayadan qalxmamış o, örüş yerlərini keçib ayaq dəyməyən yaylaqları arxada qoydu.

Göyün üzü açıq idi, səhərdən adda-budda görünən buludlardan nişanə qalmamışdı, günəş öz işığını hər yerə səpələmişdi.

Qoca çox gəzdi. Ayağını basdığı yerlər Qoşa Qarın ətəklərindəki otlaqlardan daha yumşaq idi, pambıq xırmanının üstüylə gəzirmiş kimi yeridikcə arxada izi qalırdı. Güllər də daha incə, daha ətirli idi, onu məst eləyirdi. Qıvrıla-qıvrıla axıb gələn çayın ahəngdar şırıltısına, quşların cikkiltisinə Qoca heyran olmuşdu. Yorulanda dayanıb bumbuz bulaqların suyundan içdi. Acanda əlini çantasına apardı, üstəlik, göy çəmənlərə səpələnmiş çiyələkdən dərib yedi.

Qoca vaxtın necə ötdüyünü unutdu, gün günortanı çoxdan keçmişdi, axşama az qalırdı. Mələklərin gəldiyi yolu tapa bilməməsi onu məyus etmişdi. Bilmirdi ki, neyləsin. Çantasını qeyri-ixtiyari çiynindən çıxarıb kənara atdı, göy otun üstünə arxası üstə uzanıb, ucsuz-bucaqsızənginlikləri seyrə daldı. Boşluq idi. “Yəqin, mələklər çox yuxarıda olurlar”, – düşündü. “Görəsən, Qoşa Qara necə gəlirlər” fikri ilə xəyala daldı və sanki varlıqla yoxluğun ayrıcında qeyb oldu...

Qoca səssiz uzanmışdı, tərpənmirdi. Sinəsi qalxıb-enməsəydi, onu antik dövr memarının mərmərdən yonduğu 12 Olimp tanrısından seçmək olmazdı. Tanrı Qocanı o qədər gözəl, qamətli yaratmışdı ki! Bu istidə saçlarına sığal çəkən, zərif tellərini alnına səpələyən sərin meh də elə Qocaya görə idi.

Batmaqda olan günəş ətəyini yığırdı ki, bu an qəribə hadisə baş verdi. Sonuncu gün şüası Qoşa Qarın zirvəsində yox olmadı, genişlənib yola çevrildi, üzü sonsuzluğa uzandıqca uzandı, sonu görünməz oldu.

– Aha, tapdım, özüdür, – Qoca qeyri-ixtiyari, həm də sevincək pıçıldadı. – Mələklərin yoludur. Uraaaa! Evrika!

Qocanın diqqəti yolun qurtaracağına yönəldi. Lap uzaqlarda kiçicik bir varlıq görünürdü, qanad çalıb Qoşa Qara sarı uçurdu. Qoca onu əvvəlcə iri quşa bənzətdi, sonra fikrindən daşındı. Quş deyildi, sifəti insan cildində idi, qanadlarını yellədikcə məsum çöhrəsi apaydın sezilirdi. Gözəlliyinə söz ola bilməzdi. Görkəmində qəribəlik vardı. Demək olar, bədəni yox idi, amma qanadları bir cüt deyildi, çoxuydu. Onları yellədikcə ətrafa nur saçılırdı.

– Ehey, insan övladı, uca-uca məkanlardan yanına gəlmişəm.

–Sən kimsən? – Qoca ürkək-ürkək dilləndi.

– Görmürsən? Mələyəm.

– Mələk! – Qocanın gözləri güldü və öz–özünə pıçıldadı, – deməli, heç kəs mənim kimi

yaza bilməyəcək. – O, hazırlayacağı materialı gimnaziyanın divar lövhəsində təsəvvür etdi, altında da adını soyadını ... Alıöyü. Düşündü ki, nə olaydı, Güllü də həmin lövhəni görəydi. Eybi yox, qoy o, kənddəki ilk dərsini tamamlasın, gimnaziyada yeni açılmış qızlar sinfində oxuyanda Qocanın daha böyük qəhrəmanlığının şahidi olacaq.

Birdən ağlına gəldi ki, nolaydı mələkdən müsahibə də götürəydi. Bir dəfə divar qəzeti üçün öz müəllimindən müsahibə almışdı. Pis də çıxmamışdı. Əla ideya idi, baş tutsaydı, onu şəhərin ən populyar qəzetləri də verə bilərdi. Müəlliminin əlində deyildimi?

– Cəbrayılın əlindən qaçıram, – mələk qanadlarını yelləyib dilləndi. – O, ərşin sahibinin yanında öz yerini daha da möhkəmlətmək üçün min oyundan çıxır. Dərdi siz insanlardır, gözü götürmür. Bizdən sonra yaranıb bu qədər azad olduğunuza görə paxıllığınızı çəkir. Ona görə gecəli-gündüzlü Allahın dərgahında adamların şeytanın felinə uyub günah işləməsindən, savaşıb qan tökməsindən danışır. Allah-Təala da haqqın yoluna qayıtmaları üçün insanlara yeni peyğəmbər göndərmək istəyir.

Qoca öz-özünə düşündü: deyəsən, müsahibə alınır; ürəyində yazıya başlıq da seçdi – "Dünyanı dəyişəcək sensasiya: yeni peyğəmbər, yaxud sonuncu imamın zühuru". Qələm-kağız götürmədiyinə peşman olmuşdu. Mələyi diqqətlə dinləməyə çalışırdı ki, heç olmasa, əsas məqamları yadında saxlasın, qayıdıb yazanda çətinlik çəkməsin. Mələk danışmaqda idi:

– Yeni peyğəmbəri əvvəlkilər kimi insan övladı dünyaya gətirməyəcək, mələklərin arasından göndəriləcək. Onda siz də bizim kimi yaşayacaqsınız – müharibənin nə olduğunu unudacaqsınız, qan tökülməyəcək, dünya malında gözünüz qalmayacaq. Nifrət, intiqam, məkr, paxıllıq qəlbinizdən uzaq olacaq. Öz aləminizdə şad-xürrəm yaşayacaqsınız. Ancaq gələcəkdə yaratmaq istədiyiniz robotlar kimi soyuq daş parçalarından fərqlənməyəcəksiniz. Çünki bir-birinizə sevginiz, məhəbbətiniz qalmayacaq. Ümumiyyətlə, sevgi adlı duyğudan xəbərsiz olacaqsınız.

Qoca istəyirdi mələyi dinlədikcə "intervü"sünə yarımbaşlıq da seçsin. Amma tez də fikrindən döndü. Necə yəni sevgisiz yaşayacağıq – deyə mızıldandı. Tez Güllünün məsum baxışlarını, incə ağ biləyini, hədiyyəsini verəndə toxunduğu barmaqlarını gözü önünə gətirdi. Qoxusunu hiss etdi, darıxdı onun üçün. Qoca o qədər narahat oldu ki, güclə dilə gəldi:

–Sevgi olmasa, bəs adamlar necə yaşayacaqlar?

–Razıyam, elə mən də ona görə qaçıb yanına gəlmişəm. Mələklər insan övladının sevgi adlı hissini yüksək qiymətləndirirlər. Hətta sizə nəzarət edəndə bəzi vərdişlərinizi izləmək bizə qadağan olunsa da, qaydaları pozuruq. Hərəmiz bir nəfəri...

Mələyin son sözləri Qocaya çatmadı, ona görə də sözünü kəsdi:

–Yəni məni də izləyirsiniz? – soyuq gülüş çöhrəsini dondurdu.

– Bəli, doğulan gündən mənə həvalə olunmusan. Müəyyən vaxtlarda sərbəst qalmalısan. Ancaq səni hər an izləyirəm. Güllüyə hədiyyə verəndə yanında idim. Hədiyyəni onunla birlikdə qəbul etdik. Əlinin istisindən doğan hisslər canıma yayıldı, məni dəyişdi. Həmin an gerçək həyatda Güllünün yerində olmaq istədim.

Qocanın yadına Güllünün əllərinə toxunanda ürəyinin necə döyündüyü, nitqinin batdığı düşdü. Elə də dərinə getmədi. Amma düşündü ki, bu yerlər müsahibədə yer ala bilməz. Mətləbə qayıtmaq üçün:

– Bilirsiniz, insanlarda sizin barənizdə o qədər az məlumat var ki... Mən deyərdim, hətta yoxdur məlumatımız. İlk adamam ki,

reallıqda mələklə üzbəsurət dayanmışam, xahiş edirəm, özünüz barədə məlumat verin.

Mənzərə mələyə qəribə gəldi, tələsirdi. Cəhənnəmin qapısı bağlanmamış tez getmək istəyirdi, amma Qocanın sualı onu tutdu, qanadlarını döyəcləyib yerini rahatladı:

– Bizim barəmizdə insanlar qalın-qalın kitablar yazıblar. Oxumamısan, yəqin ki. Lap yaxşı da eləmisən. Haqqımızda o qədər cəfəngiyat uydurublar ki... Qısaca deyə bilərəm: sizin kimi biz də şüurlu varlığıq, amma iradə azadlığımız yoxdur, nəfsdən də uzağıq. Çünki Allahın sadiq qullarıyıq, Onun əmrini sözsüz icra edirik. Hər gün də şəninə təriflər yağdırırıq.

– Allahın nəyinə lazımdır o təriflər? Buna nə ehtiyacı var ki?

– Biz də elə düşünürük. Özünün yerini Allahın dərgahında qorumaq üçün Cəbrayıl buna bizi məcbur edir. Bir şeyi də unutmayım: yemədən, içmədən yaşayırıq, işləyirik, yorulmuruq.

Qəribədir, yemədən, içmədən işləmək, yaşamaq, özü də sevgisiz?

– Bəli, bəli, sevgisiz. O hisslər bizdən uzaqdır. Dünyaya övlad da gətirmirik ki, dərdini çəkək. Həm də ona görə də evlənmirik. Daha nə deyim...

Qocaya maraqlı gəldi:

– Danış, danış...

– Hə, dayan. Buraların cinləri kimi adam cildinə də girə bilirik. Kişiyə də dönürük, qadına da. Şeytanlar, cinlər kimi amansız deyilik, mehribanıq. Kifayətdir?..

***

Qoca növbəti il gimnaziyaya qayıdanda yeni hökumət təzəcə qurulmuşdu. Hər yerdə müşahidə edilən dəyişiklik gimnaziyadan da yan ötməmişdi. Müəllimlərin bəzisi həbs edilmiş, bəzisi də işdən çıxarılmışdı. Tədris proqramında ciddi dəyişiklik aparılmış, dini dərslərin əvəzinə bolşevik ruhlu təlimlər salınmışdı. Yeni ana dili müəllimləri birinci dərsdəcə Allahı danmışdılar, "Elə bir şey yoxdur, başları dünya işindən çıxmayan savadsız mollaların uydurmasıdır", – demişdilər.

Qoca hazırladığı yazını Münsiflər heyətinə təqdim etmədi, çünki o qurumu da ləğv etmişdilər. Amma mələklə müsahibəni yeni ana dili müəlliminə oxudu. Müəllim heyrətlənəndə Qoca israr etdi ki, yazılanlar dübbədüzdür. Çox keçmədi, gimnaziya rəhbərliyinin göndərişi ilə Qocanı şəhər psixiatrik xəstəxanasına apardılar. Diaqnozu belə çıxdı – hallüsinasiya. Onu inandırmağa çalışdılar ki, yazdıqları baş verməyib, sadəcə, gözünə görünüb. Amma Qoca inadından dönmədi...

***

Qocanın bir VEF radiosu vardı, nə vaxtsa qardaşı oğlu ailəsi ilə Urusetdən Faxralıya tətilə gələndə bağışlamışdı. Elə o gündən Qoca özünə yeni məşğuliyyət tapdı. Onu alaçığın ağzındakı talvarın dirəyindən asdı, səhər erkəndən ta verilişlər bitənə qədər söndürmədi. Adətən, Azərbaycan radiosunu dinləyirdi. Gimnaziyada fransız dilini də babat öyrənmişdi, körpü idarəsində mühəndis kimi çalışanda müdiriyyət xarici qonaqları çox vaxt ona tapşırırdı. Bir fransızdilli radio tapmışdı, arada ona da qulaq asırdı. Türk kanalları da ona yad deyildi. Bununsa iki səbəbi vardı.

Bir dəfə İstanbulda hələ tikilməkdə olan, iki qitəni qovuşdurası nəhəng asma körpü barədə verilişin üstünə düşdü. Onda Qoca gimnaziyanın sonuncu kursunda oxuduğu zaman çətin relyeflər üçün hazırladığı körpü layihələrini xatırladı...

Tələbəliyi bitirər-bitirməz layihəsi müsabiqədə qalib gəlmişdi. Elə onun əsasında da körpü tikilmişdi. Açılış mərasimində lenti paytaxtdan gələn səlahiyyətli şəxs

kəsmişdi. Sonra əməyi olanlara nazirliyin mükafatlarını təqdim etmişdi. Hər ad oxunanda Qoca həyəcanlanmışdı, sanmışdı ki, adı çəkilən növbəti şəxs o olacaq. Di gəl, adını eşitməmişdi. Səbəbini lap sonralar anlamışdı. Məlum olmuşdu ki, şəhərdən gələn səlahiyyətli şəxs göstəriş verib ki, mükafata layiq görülən şəxslərin keçmişi araşdırılsın. Qocanı qolçomaq nəslinin nümayəndəsi bilib siyahıya salmamışdılar.

Onu türk radiolarına bağlayan bir səbəb də vardı – bu da Qarsdan yayımlanan verilişlərin birində kiminsə avazının Güllünün səsinə bənzəməsiydi. Verilişi acgözlüklə dinlədi.

Eşitdikcə xəyal onu çox əvvəllərə, Güllünü son dəfə gördüyü günə-saata aparacaqdı. Qoşa Qarın çiskinli havasının onun bədəninə hopan qoxusunu yenidın duyuracaqdı.

Həmid Güllünü Məsimin qəbrindən zorla qopararaq atın belinə aşırıb gətirəndə qız bihuş idi. Yurd yerində nə Güllüyə, nə də onu gətirən Həmidə fikir verən oldu. Hamının başı öz işinə qarışmışdı, barxanalarını qabqarırdılar. Qoca da gətirdiyi kitabları çantasına yığıb ətrafa göz qoya-qoya köçün qalxmasını gözləyirdi. Həmidin amiranə səsi onu diksindirdi:

– Nə durmusan, görmürsən özündə deyil! Kömək elə, apar içəri.

Əvvəlcə bir şey anlamadı. Səs gələn tərəfə çevrilib Güllünü atın belində gördü. Bilmədi neyləsin. Özünü tanıyandan əli yalnız bircə dəfə Güllünün əlinə toxunmuşdu, o da hədiyyəsini verəndə. Güllüdən bir yaş böyük olsa da, uşaqlıqda bir yerdə oynamışdılar, əlbəyaxa olub az dalaşmamışdılar. Fəqət, buraların adətincə ərgənlik yaşına çatanda birdən-birə dəyişdilər, bir-biri ilə qarşılaşanda qızardılar. Böyüklərin yanında üz-üzə gəlməkdən çəkindilər. İstəmədilər kimsə onları bir yerdə görsün. Bir dəfə Qoca gimnaziyadan tətilə qayıdanda şəhərdəki fransız mağazasından Güllüyə bir gəlincik almışdı. Ona bənzəyirdi, amma saçları sarı idi.

Qoca şəhərdə daha çox Güllü üçün darıxırdı. Dəfələrlə yolunu həmin mağazadan salırdı ki, Güllüyə bənzəyən gəlinciyi yenə görsün. Həsrət-həsrət baxırdı ona, saçlarını sığallayıb dodağının altında nəsə deyirdi. Bu, ona təskinlik verirdi... Arada məktub da yazırdı. Qayıdanda məktubları özü gətirib müxtəlif bəhanələrlə Güllüyə ötürürdü...

Güllü atın belinə aşırılmışdı. Bir tərəfdən saçları yerlə sürünürdü. Yanaqları Qocanın aldığı gəlinciyin dodaqları kimi qırmızıya çalırdı. Məhz bu görkəmdə o, gəlinciyə daha çox bənzəyirdi.Digər tərəfdə isə Güllünün soyuqdan gömgöy göyərmiş yalın ayaqları əsim-əsim əsirdi. Başmaqları hardasa düşüb qalmışdı. Soyuğun iliyinə qədər işləməsi açıq-aydın hiss olunurdu. Mənzərə Qocanı dəhşətə gətirdi. Həmidin "matdım-matdım nə baxırsan, zalım oğlu, apar üzünə bir dolça su vursunlar" sözünə bənd kimi Qoca tez Güllünu atdan düşürdü, qolundan yapışıb alaçığa tərəf aparmaq istədi.

Güllü ayaq üstündə dura bilmirdi, özündə deyildi. Bu vəziyyət Qocaya cəsarət verdi, qızı qucağına götürdü. Güllünün qolları qeyri-ixtiyari onun boynundan aşdı, Qoca addımladıqca boynuna dəyən isti nəfəsi hiss edirdi. Xoşbəxt idi, çoxdan qurduğu xəyalları indi gerçəkləşmişdi. Tez beynindən keçirdi ki, kaş alaçıq uzaqda olaydı. Güllünü saatlarla qucağında aparardı, yorulmazdı.

Alaçığa bir neçə addım qalmış Güllü dodaqlarını Qocanın qulağına dirədi, onun nəfəsinin istisi Qocanın içinə işlədi, qızın "məni yalqız buraxma, qurban olum, sənsiz ölərəm" pıçıldadığını zorla eşitdi. Güllünün "Söz verirsən məni tək qoymayacaqsan?" sualına Qoca cavab tapmadı.

O vaxtdan onillər keçməsinə baxmayaraq,

Qoca həyatı boyu həmin səhnəni unutmadı, yaranan hiss, Güllünün bədəninin təkrarsız qoxusu yaddaşına həkk olunub kodlaşdı. Bu qoxu Güllünü Qocaya əbədi bağladı.

Bu müddətdə, hər yerdən əlini üzüb, bezib Faxralıya qayıdanda, qışı kənddə, yayı Qoşa Qarda keçirəndə Qocaya çox təkliflər oldu ki, yaşı ötür, biri ilə evlənib ailə-uşaq sahibi olsun. Heç bir qız, qadın Güllünün qoxusunu Qocaya unutdura bilmədi. Qoca qalan ömrünü bu əsrarəngiz qoxuya qovuşmaq ümidi ilə yaşadı.

Qoca ömrü boyu tək qaldı. Təklik onun üçün qorxulu deyildi. Qorxulu olan son təsəlli sandığı həmin qoxuya qovuşmaq ümidini itirmək idi.

## SƏKKİZİNCİ HİSSƏ

Hasan Qanıqdan aralanıb Qurd Ölən Yerə çatmışdı. Nəfəsini dərməmiş Qoşa Qarın zirvəsindən gümüşü rəngə çalan böyük obyektin ona tərəf uçduğunu gördü. Obyekt qırmızı, yaşıl, sarı rəngə bürünmüşdü. Hasanın uşaqlıqdan gördüyü, şimaldan cənuba, cənubdan şimala uçan təyyarələrə oxşamırdı. Əslində, heç uçmurdu da, sanki səssiz-səmirsiz süzürdü.

Obyekt bir göz qırpımında ona yetişdi və adam boyu hündürlükdə heç nəyə dayaqlanmadan dayandı. Obyektin ona tərəf baxan pəncərəsi böyüdü, qapıya çevrildi və açıldı. Qanıq hoppanıb düz Hasanın qabağında şöngüdü:

– Gördün, demişdim görüşəcəyik, – Qanıq dilləndi. – Uzaq ulduzlardan gəlirəm. Səni çox ciddi məsələlərdən agah eləyəcəm.

Hasan bilmədi nə baş verir, amma qorxmadı, səmada, uzaqlarda sayrışan ulduzları aram-aram süzdü, yavaş-yavaş diqqətini Qanığı gətirən obyektə cəmlədi. Bir şey anlamadı. Onun barəsində heç eşitməmişdi. Nənəsi ona olsa-olsa uçan xalçadan danışmışdı. Bir də mağarlarda Söyün Saraclının dilindən Aşıq Qəribin bir göz qırpımında Sənan dağına necə çatdığını eşitmişdi. Bəs Qanıq? Bu odur? Əvvəlki, əsl Qanığa bənzəmir axı. Oturuşu-duruşu xeyli fərqlidir. Hasanı görəndə sığınması, özünü ona aram-aram sürtüb quyruğunu qıçlarına döyəcləməsi və nəhayət, düz gözlərinin içinə baxması, özü də uzun müddət baxışlarını ondan çəkməməsi idi Qanığı Hasana sevdirən. Hasan onu ta doğulduğu vaxtdan tanıyırdı. Anası Qoşa Qarın yaylasında sürüyə soxulan bir sürü canavarla təkbaşına qalanda dərin yaralar almışdı. Taqəti qalmamışdı balasını əmizdirməyə. Onda Hasan Qanığa özü baxmışdı, hər gün Ala Düyənin südünü içirmişdi ona. O gündən Qanıq Hasandan əl çəkməmişdi, qoxusunu lap uzaqlardan almışdı, harada olur-olsun, bir göz qırpımında başının üstünü kəsdirmişdi.

Bir dəfə Hasan bərk soyuqlamışdı. Onu xəstəxanaya apardılar, nə az, nə çox, düz bir həftə xəstəxananın naftalin qoxuyan dəhlizlərini gəzdi, Qoşa Qar üçün, Qaragöz üçün, Qanıq üçün, bir sözlə, qoyub gəldiyi hər şey üçün burnunun ucu göynədi. Palatasının pəncərəsindən saatlarla uzaqlarda görünən dağlara baxdı, göydə uçan quşların seyrinə daldı, həyətdəki itlərin yal davasına tamaşa elədi. Uşaq ağlı ilə başa düşdü ki, buralar onluq deyil. Səhərin ala-toranlığında heç kimə demədən xəstəxanadan qaçdı, birbaşa avtovağzala gəlib Qoşa Qara tərəf gedən avtobusa oturdu. Sürücü gözaltı onu süzüb nəsə demək istədi, Hasan cəld əlini cibinə saldi, qalan onluğu əzizləyə-əzizləyə çıxarıb yenidən cibinə basdı. Bu da sürücüyə "ağlın başqa uşaqlara getməsin, pulumu verəcəm" demək idi. Sürücü də bunu başa düşüb diqqətini ondan çəkdi.

Avtobus Qoşa Qarın bir neçə kilometrliyindəki Dana Dağı deyilən yerdən keçəndə Hasan maşını saxlatdı, şoferlə hesablaşıb

endi. Yenicə yola düzəlmişdi ki, lap uzaqdan bir qaraltının ona tərəf gəldiyini gördü. Azca ehtiyatlandı da. Qaraltı yaxınlaşdıqca Qanığa bənzədi, Qanıq oldu, sürətini daha da artırdı, Hasana çatar-çatmaz ayaqlarını yerdən üzüb onun üstünə uçdu. Hasan ayaq üstə güclə duruş gətirə bildi…

Bəs Qanıq indi niyə belə olub? Niyə əvvəldən bunu hiss etməyib? Elə bu gün bilib ki, danışmağı da bacarır. Qanıq danışır, özü də təmiz, aydın. Azmış kimi hələ bu boyda maşını da özü sürür.

Qanığın soyuq səsi onu özünə qaytardı:

– Yer kürəsində yaşayan canlıları faciə gözləyir. Çünki siz öz planetinizin qayğısına qalmırsınız, gələcək nəsillərinizi düşünmürsünüz. Başınız var-dövlət toplamağa qarışıb.

Deyilənlər Hasanlıq deyildi. Sözlər, ifadələr başqaydı, bunları olsa-olsa, Qocanın alaçığın divarından asdığı VEF-dən eşidə bilərdi, onu da anlamazdı. Qanığın söylədikləri Hasanın balaca dünyasından çox-çox uzaq idi. Bəlkə də, yuxudur, özü də həmin yuxuda başqa bir yuxu. Hasan da yuxuların içindədir. Orada yuxu görür, özü də gördüklərinin baş qəhrəmanıdır. Yuxuda hər şey ola bilər, ona görə ürəkləndi, çəkinmədən söhbətə qoşuldu:

– Əgər sən Qanıqsansa, deməli, itsən, uzaqbaşı canavar nəslindənsən. Hardan bilirsən dünya nədi, onun sonu necə gələcək? Yetər arvad kimi bildiyini də, bilmədiyini də söyləyirsən, üstəlik, hələ adam kimi danışırsan.

– Yetər arvadla işin olmasın. O, bizim layihəmizdir. Beyninə elə fikirləri yeridirik ki, insanları bəzi şeylərdən agah eləsin.

– Nənəmdən başqa kimdi ona inanan…

– Nə qədər ki adamlar sonun harada çatacağını bilmirlər, inanacaqlar. Son da bilinməyəcək axı.

Qanıq sözünə davam etdi:

– Bil və agah ol, hamınız Yer kürəsinə eksperiment kimi göndərilmisiniz. Bütün başqa canlılara yaşamağın düsturunu vermişik. Sizə isə şüur bəxş eləmişik. Dünyanı şüurunuzla idarə etməyə çalışırsınız. Arzuladığınız dünyanı qurmusunuz da. Gələcəyi isə düşünmürsünüz. Məgər min ildən sonra, milyon, milyard ildən sonra doğulan körpələr sizin törəmələriniz sayılmayacaq?

Hasanın Qanıqla bağlı tərəddüdü azalmadı, amma danışığı xoşuna gəlmişdi. "Bil və agah ol" ifadəsini necə yerində işlətmişdi, necə də aramla tələffüz etmişdi. Deməli, Qanıq çox mətləblərdən xəbərdardır. İstəsəydi, elə Qaragözü də canla-başla Qurd Ölən Yerə gətirərdi. Hasan dərinə getmədi, bayaqdan bəri ilk dəfə mülayim görkəm alıb gözlərini Qanığın şüşə kimi soyuq gözlərinə dikdi:

– Qanıq, məni səndən yaxşı tanıyan var ki… Bayaq dedin, Yetər arvadın başına nəsə yükləyiblər, bəlkə, mənim də...

– O, sözünü bitirməmiş Qanığın gözlərindən yaşıla çalan qığılcımlar qopdu, titrəyən xəttə çevrilib bir anlığa Hasanın gözləri ilə birləşdi. Həmin an Hasan dəyişdi, göydəki ulduzlar ona yaxın göründü. Sakini olduğu Yer kürəsindən ta yeni-yeni ekzoplanetlərədək hər şey onun ovcunun içinə toplandı.

– İndi məni daha yaxşı başa düşəcəksən, – Qanıq dilləndi. – Gəlişimin səbəbini bayaq dedim. Təəssüf ki, aranızda bunları anlayan çox azdır. Başlar faydasız işlərə qarışıb. Hasan, heç nə həmişəlik deyil. Həyat da sönəcək, məhv olacaq. Yerin özündə püskürə biləcək güclü vulkanların, biosferin zəhərlənməsinin verəcəyi fəsadların qarşısını almaq, kainatdakı toqquşmalardan qorunmaq mümkün olacaq. Ağlınız ona çatacaq. Amma nə vaxtsa Günəş Yeri də özü ilə birlikdə dağıdacaq.

Qanıq başqa cür, Hasana tanış olmayan tərzdə danışırdı. Hasan, bəlkə, çox nadir hallarda eşitdiyi, bəlkə də, hələ eşitmədiyi

vulkan, biosfer, kainat sözlərinin nə olduğunu təsəvvürünə gətirə bilirdi. Sanki bunlar barədə nə vaxtsa oxuyub öyrənmişdi, indi yaddaşını təzələyirdi. Amma o, Günəşin bu boyda Yeri dağıda biləcəyinə inanmaq istəmirdi. Elə olarsa, Qoşa Qar necə olacaq? Bəs Qanıq, bəs Qaragöz? Hasan bu fikirləri yaxına buraxmaq istəmədi:

– Ola bilməz! Gün bu boyda Yeri dağıda bilməz!

– Hasan, sənə elə bir ağıl yükləmişəm ki, məni başa düşə biləsən. Diqqətlə qulaq as. İnsanlar dogulurlar, qocalırlar, ölürlər. Heyvanlar da elə. Ağac da böyüyür, quruyur, torpağa qarışır. Daşlar, kəsəklər də elə… Düzdür?

Hasan tərəddüdlə:

– Hə, – dedi, – elədir.

–Yer kurəsi də elədir, Günəş də, cəmi qalaktika da elədir.

Hasan qalaktika sözünü ilk dəfə eşitdisədə, mənasını anladı. Süd yolu deyib, üstəlik, Qanığın sözünü düzəltmək də istədi.

– Bütün qalaktikalar, ümumiyyətlə, kosmos. Məsələdən yayınmayaq. Milyard illərdir günəş ətrafına işıq saçır. Bu işıq bir gün tükənəcək axı. Səncə, tükənməz? Tükənəcək, tükənəcək.

Hasan ürkək-ürkək çiynini çəkib soruşdu:

– Onda hər yer qaranlıq olacaq?

– O vaxta neçə milyard il var. Siz başqa faciələrdən də sığortalanmalısınız. Görürsən, Qoşa Qarın quzeyindəki buzlar il-ildən azalır. Niyə? Deməli, istilik artır. Yalnız Qoşa Qarda yox, hər yerdə belədir. Vaxt gələcək istidən okeanlar da, dənizlər də, çaylar da qaynayacaq.

– Daş Bulaq da?

– Bəli, bəli. Hələ bu harasıdır…

Qanıq susdu. Düzü, Hasan üçün milyard illə bir ilin elə də fərqi yox idi. Onun aləmində Qoşa Qar vardı, onun yaylaqları vardı, Qurd Ölən Yer də, Goy Qaya da öz yerində. Bir də Qaragöz idi, Qanıq idi, nənəsi idi, Qoca idi.

Hasan çəkinə-çəkinə soruşdu:

– Nə olacaq ki?

– Partlayacaq, dağılacaq. Elə yerin özü də. Ancaq insan zəkası bu bəlanı adlada bilər.

– Qurtara bilər eləmi? Necə?

– Hələ neçə milyard il vaxt qalıb. Bütün müharibələr dayandırılmalı, insanlar birləşməlidir. Hələ ki, insan zəkası başqa planetlərə köçməyə qadir deyil, minimum işlər görülməlidir. Xilas üçün proqram var? Əlbəttə, yoxdur. Təbii sərvətləriniz tükənir, amma adamlarınız çoxalır. Onları nə ilə yemləyəcəksiniz? Gələcəkdə özünüzə rəqib olası robotlar hazırlayırsınız. Günlərin birində onlar sizi özlərinə tabe etməyəcəklərmi? Əlbəttə, edəcəklər.

Hasanın başı qaynar qazana dönmüşdü. Qanıq danışdıqca təsəvvürünə gətirirdi ki, Qoşa Qarın yamyaşıl yamacları necə səhraya çevrilir... Daş Bulaqdan qaynar su tökülür. Qanıq da, Qaragöz də su deyib göyə çıxırlar.

– Bəs istiliyi azaltmaq olmaz?

– Niyə olmasın ki… Onun minlərlə yolu var. Ən sadələrini bəzi alimlərinizin beyninə təkliflər formasında yükləmişik. Məsələn, Günəşlə Yerin arasına xüsusi linza lövhələrin yerləşdirilməsi ideyasını gerçəkləşdirə bilərsiniz. Daha etibarlı üsul Yeri Günəşdən uzaqlaşdırmaqdır. Buna insan zəkası qadirdir.

Hasan çıxılmaz vəziyyətə düşmüşdü. Qeyri-ixtiyari Qanığa tərəf bir neçə addım atdı, onu tumarlamaq istədi, əlinə soyuq dəmir kimi bərk bir şey dəydi. Qarşısındakının Qanıq olmadığına heç bir şübhəsi qalmadı.

– Bilirdim ki, o deyilsən.

– Biz hər canlıya çevrilə bilirik, quş da oluruq, həşərat da, hətta çöldə bitən ot da. Hər dildə, hər ləhcədə danışırıq. Çünki onların hamısını insanlara biz göndərmişik.

– Bəs niyə indi Qanıq oldun?

– Qurd qoyulan qaydalara ən ciddi əməl edən varlıqdır. Axı Qanıq da qurddan törəyib.

– O, itdir axı.

– Unutma, qurddan yalnız qurd törəyər. Növbəti yaşayış formalaşanda ona şüuru ona bəxş ediləcəyik.

Deyilənlər Hasana qəribə gəldi. Təsəvvür etdi ki, Qoşa Qardakı canavarlar oraların sahibinə çevriliblər. Hasanı işlədirlər, onu göstərib bir-birilərinə qurd dilində nəsə deyib gülüşürlər. O isə lal-kardır, demək istədiyini dilinə gətirə bilmir, sadəcə, Qaragöz kimi mələyir, Qanıq kimi hürür.

– İndisə getməliyəm, – deyə Qanıq Hasanı bir daha süzdü, – başına yarım ağıl yükləmişdim. Yalnız başa düşürdün. Onu da geri götürəcəm.

Bu dəfə əksinə oldu, Hasanın gözlərindən yaşıla çalan qığılcımlar qopdu, titrəyən xəttə çevrilib Qanığın gözləri ilə birləşdi.

Səhərə xeyli qalırdı. Günəş doğmamışdan göydə ulduzlar seyrəlmişdi, amma səmanın şərq istiqamətində bir neçə parlaq ulduz görünürdü. Hasan Çoban ulduzunu yenidən seyr etməyə imkan tapdı, ancaq Marsı, Yupiteri, Merkurini yaxından görə bilmədi, onlar birdən-birə xırdalaşdılar, çox-çox uzaqlarda kiçicik nöqtələrə döndülər.

Hasana elə gəldi ki, durduğu yer yarıya qədəri torpağın altında qalan, üstünü mamır basmış daş parçasıdır. Həmin daşa dirsəklənib rahat oturmaq istədi. Gücü çatmadı. Hər yeri ağrıyırdı, sanki onu möhkəmcə döymüşdülər. Sərin meh Hasanın yuxusuzluqdan təravətini itirmiş, soluxmuş sifətinə dəydikcə küt ağrıları azalmağa başlayırdı. Gücünü toplayıb Qanıqdan soruşdu:

– Qaragöz də ola bilərdin, eləmi?

– Nə ehtiyac var? Onun ki özü burdadır, – deyərək Qanıq gəldiyi obyektə atıldı, obyekt bir göz qırpımında yoxa çıxdı.

Hasan heç nə anlamadı, necə olmuşdu ki, bir neçə addımlığındakı Qaragözü görməmişdi. Hələ də boynu qanlı idi. Kömək diləyirmiş kimi məlul-məlul Hasana baxırdı. Hasan ona yaxınlaşmaq, onu tumarlamaq, başını qolları arasında sıxıb nəfəsini duymaq istədi. Ha çalışdı, daşdan qopammadı. Cəhd etdi ki, Qaragözü əli ilə salamlasın, yanına çağırsın, nə əli qalxdı, nə dili söz tutdu... Bəs atası hanı, Qoca demişdi axı. O da burda olmalı idi. Bəlkə, heç qəzaya düşüb ölməyib? Niyə Qanıqdan soruşmadı bunları. Bilərdi, yəqin…

İş işdən keçəndən sonra özünü qınamaqdan başqa çarəsi qalmamışdı.

***

Vaxt ötdükcə Hasanın uçub gəldiyi işıq yolu daralırdı, daraldıqca da qısalırdı. Yol tamam tükənəndə Hasanın ağrıları özünə qayıtdı. Sinəsində ağırlıq hiss elədi. Bu onu həyata qaytaran həkimin əli idi.

Səslər əvvəlcə uzaqdan gəlməyə başlayıb, getdikcə palatanı bürüdü. Qanığın ulartısı isə, əksinə, zəifləyib zingilti ilə əvəzləndi. Bayaq səslərin dalınca çəkilib gedən hava da qayıtdı. Hasan ciyərlərini hava ilə doldurdu və sinəsi qalxıb-enməyə başladı. Ölmədi, ölümdən qayıtdı. Tale onu imtahanla dolu həyatdan ayırmadı.

İlk dediyi söz "hanı zoğal çubuğum, indicə əlimdən düşmüşdü" oldu. Həkim də, tibb bacısı da bu sayaq suallara adət ediblərmiş kimi dillənmədilər. Hasan ətrafa boylanıb bir şey anlamadı, zəif səslə:

– Bəs Qaragöz hanı? – dedi.

Bu dəfə də onun sözlərinə fikir verən olmadı. Həkim palatadan çıxdı.

Hasan ayıldığına görə tibb bacısının gözləri yaşardı. "Kəramətinə şükür, Uca Tanrım. Bir ananın da gözlərini yaşlı qoymadın", – söylədi. Bilmirdi xəstənin anası var, ya yox, eləcə adəti üzrə duasını eləyirdi. Ardınca bayaqdan Hasanın üzünü yellədiyi tənziflə onun alnına düzülmüş tər damcılarını silib palatadan çıxdı.

Hasan yalqız qaldı. O özünə qayıdır, nələr baş verdiyini təsəvvüründə canlandırmağa çalışır, Qaragözün satılması fikri ilə heç cür barışa bilmirdi. Qocanın hərəkətindən qeyzlənmişdi. Qaragözün satılması ilə ölsə də barışmayacaqdı. Xəstəxanadan birtəhər qaçıb şəhərə yollanacaqdı, həmin yekəpər kişini tapacaqdı, haqq-hesab çəkib Qaragözü qaytaracaqdı.

Hasan dan yerininağarmasını səbirsizliklə gözləyirdi. Gecə arxada qalmışdı. Səhər özüylə böyük ümidlər gətirirdi.

## EPİLOQ

Güllü leptopda son nöqtəni qoymazdan əvvəl Hasanın söylədiklərindən götürdüyü qeydləri və Qocanın məktəbli dəftərindəki əlyazmalarını bir daha götür-qoy etdi. Məqsədi heç nəyi diqqətdən kənarda qoymamaq idi. Onların bəziləri barədə nənəsindən eşitmişdi. Güllü arvad bir şeyi dəqiq bilmirdi, o da Qocanın yaşayıb–yaşamamasıydı.

O, Gülyəz arvadın köməyi ilə Arpa çayını adlayandan sonra ətrafa boylanaraq Qocanı axtarmışdı, tapmayanda geri dönmək, özünü hələ də suyu azalmayan çayın ağuşuna atmaq ürəyindən keçmişdi. Bəlkə özündə olsaydı, bilsəydi ki, Qocanı bir də görməyəcək, elə çayın ortasındaca mindikləri atın arxasınca özünü axına buraxıb canına qəsd edərdi.

Güllünü intihardan daşındıran o dəhşətli gecədə qarşısına çıxan, suyu süzülən donundan bərk-bərk yapışan balaca Pəri oldu. Bu adı da ona Gülyəz arvad çox-çox sonralar qoymuşdu. Qorxudanmı, suyun soyuqluğundanmı Pərinin nitqi batmışdı. Gözlədilər özünə gəlsin bu balaca tifil, öyrənsinlər anası–atası kim olub, tapıb qovuşdursunlar. Ancaq Pəri xeyli müddət özünə gəlmədi. Sona qədər də kimsə bilməyəcəkdi Pəri Güllünün qabağında necə peyda olmuşdu. Bəlkə, elə Uca Tanrı özü göndərmişdi onu. Bircə o məlum olacaqdı ki, az əvvəl elə bu bərədən borçalılıların o taya köçü keçibmiş, arvad-uşağın da yarısı əsgər gülləsinin qurbanı olubmuş...

Güllü özünə gələ bilmirdi. Gecə-gündüz Qocanı düşünürdü. İllər sürətlə keçdikcə o da yaşa doldu. Üstəlik, ləqəb də qazandı, arxasınca hamı ona Dəli Güllü dedi. Qohum-əqrəbadan da elə biri yox idi ki, qızı ərə versinlər. Namizəd olsaydı da, Güllü gedəcəkdimi, demək çətin idi. Birləşib şayiə yaydılar ki, sən demə, sərhədi keçəndə Həmidlə birlikdə Qoca da gülləyə tuş gəlibmiş. Güllünü inandırmaq üçün Həmidə rəhmət oxuyanda Qocanın da adını çəkirdilər.

Güllünü nə dərəcədə inandıra bilmişdilər, məlum deyildi. Vaxt ötdükcə Güllü Pəriyə bağlandı, gecələr onu qoynundan buraxmadı, balam deyib əzizlədi, Pəri də ona ana dedi. Beləcə, ana-bala oldular. Ailədə Pəriyə gözün üstə qaşın var deyən olmadı. İmamalı kişi Güllünün qəlbini heç qırardımı, Pərini yenicə açılmış kollecə oxumağa qoydu...

Şəhər radiosuna yeni əməkdaşlar qəbul etmək məqsədilə keçirilən müsabiqədə Pəri qaliblərin siyahısına düşdü, səsini hamı bəyənmişdi. O vaxtdan özünü bu sənətə həsr elədi. Övladı dünyaya gələndə Güllü öz adını ona qoydu. Dəyişik düşməsinlər deyə, doğmaları körpəni Küçük Güllü adıyla çağırdılar...

İndi Güllü bunları içindən yana-yana keçirdi. Bu qənaətə gəldi ki, yazılarında Güllü arvad barədə bir şey olmasa, Qocanın sevgisi də anlaşılmaz, birtərəfli görünər. Əksinə, əlavələr ümumi mənzərəni tamamlayar.

Əlyazmaları oxuduqca Qocaya rəğbəti daha da artdı, uğursuz sevgidən sonra yalqız yaşadığına görə onu başa düşməyə çalışdı. Nənəsi kimi özü də belə edərdi, yəqin.

Nənəsinin ölümünü mütləq işıqlandıracaqdı. Sovetlər dağılar-dağılmaz sərhəd açılmış, qohumlar arasında gediş-gəliş başlanmışdı. Adət belə imiş ki, ilk vaxtlar bütün qohum-əqrəba qayıdanların başına toplaşarmış, görsünlər qoyub gəldiklərindən, tanıdıqlarından kimlər qalıb, nə təhərdirlər, nə ilə məşğul olurlar. Necə olubsa, Güllü arvadın qulağı çalıb ki, sən demə, Qoca ölməyibmiş, hələ də sağdır, özü də ömrü boyu onun xiffətini çəkib. Güllü arvad buna dözərdimi? O gündən halı dəyişdi, yatağa düşdü. Bu arada hələ lap çoxdan Qoşa Qardan gətirdiyi, indiyə qədər heç kimə açmadığı sandıqçanın açarını nəvəsinə verə bildi.

Bir neçə gün sonra şəhər qəzetlərinin birində iş yoldaşlarının Pəriyə verdikləri başsağlığından məlum olacaqdı ki, Güllü arvad artıq həyatda yoxdur. Yaxınlarından savayı heç kəs bilməyəcəkdi ki, Pəri Güllü arvadın doğma qızı, Güllü də doğma nəvəsi deyilmiş.

Güllünün ürəyi tab gətirmədi, nənəsinin verdiyi açarı saxlancdan çıxarıb sandıqçanı açdı. Demək olar ki, sandıqça boş idi, içindəki kiçicik bir gəlincik diqqətini çəkdi. Qoca onu gimnaziyada oxuduğu vaxtlarda fransız dükanından Güllüyə almışdı. Güllü bunu sonra, Qocanın əlyazmalarını oxuyanda biləcəkdi. Saxlancda məktublar da vardı, özü də o zamanın sevgi məktubları üslubunda. Qoca şəhərdə darıxdığından, gecələr yata bilməyəndə Güllünü xatırladığından, xəyalında onunla söhbətləşdiyindən bəhs edirdi. Güllü ha axtardısa, məktublarda bir dəfə də "sevirəm", "öpürəm" sözlərinə rast gəlmədi. Onları öz yaşıdları ilə müqayisə edəndə isə dodağı qaçdı.

Güllü bunları yazmaq istəyirdi. Ona çox doğma idi bu hisslər. Jurnalistika fakültəsinin sonuncu kursunda oxuyarkən diplom işini bu araşdırmaya həsr etməyi planlaşdırmışdı. Vaxtilə Qoca ilə görüşən, ona qələm bağışlayan jurnalist qohumundan öyrənmişdi ki, Qoca Qoşa Qarda o vaxt baş verənlərlə bağlı qeydlərini bir məktəbli dəftərinə yazıb. Ona göndərəcəyinə söz veribmiş, sonra nə düşünübsə, yazdıqlarının ictimailəşməsini istəməyib. Alıöyü nəslinin tarixini öyrənmək üçün o dəftər çox qiymətli məxəz hesab oluna bilər. Güllü Qoşa Qardan nəsə yazmaq istəyirsə, mütləq o qeydlərlə tanış olmalıdır. Güllü də araşdırmasını Qoşa Qara, onun təbiətinə, nənəsinin orada yaşayan qohumlarının həyatına həsr etmək istəyirdi. Əsas məxəz Qocanın əlyazmaları olacaqdı.

Qocanın ölüm xəbəri oralara da gedib çatdı. Bu xəbər Güllünü çox üzdü. O həm də Qocanın özünü görmək istəyirdi, nənəsini necə sevdiyini, onsuz bu vaxta qədər nələr çəkdiyini onun öz dilindən eşitmək istəyirdi. Nənəsi barədə də danışacaqdı. Öyrənəndə ki, Qocanın əlyazmaları itməyib, Hasan adlı bir qohumundadır, öləziyən ümidləri közərdi. Qərara gəldi ki, fürsəti qaçırmayıb Qoşa Qara yollansın. Hasanla da bir neçə dəfə telefonla danışdı, sonda teleqram vurdu ki, onu aeroportda qarşılasın.

Araşdırmasında bunlar barədə məlumat yer alsa, Güllünün Qoşa Qara səfəri haqda oxucunun daha ətraflı bilgisi olacaq...

Artıq bir neçə gün idi ki, Güllü Qoşa Qarda idi. Ha çalışırdı işini yekunlaşdırsın, hər gün yeni nə isə çıxırdı. Hasanın söylədiklərini özü ilə Qarsdan gətirdiyi dəftərinə, demək olar, tam köçürmüşdü. Qeydlərini yenə gözdən keçirdi. Əsas yerlərindən istifadə olunmuşdu. Amma Hasanın uşaqlıqdan gənc ata-anasını avtomobil qəzasında itirməsi, nənəsinin himayəsində qalması barədə bir şey yazmamışdı. Bəlkə, onu yenidən kövrəltmək istəməmişdi. Çünki Hasan anası ilə bağlı xatirəsini danışarkən gözünün yaşını saxlaya bilməyib Güllünü də ağlatmışdı. Atasını isə

elə də xatırlamırdı. Atası geoloji ekspedisiya qrupunun tərkibində gününü dağlarda keçirdiyindən üzünü az-az görürdü.

Qocanın əlyazmasına gələndə o dəftəri Hasanla birlikdə bir neçə dəfə oxumuşdular. Əlyazma tam deyildi. Bəzi vərəqlər elə əvvəldən yox idi. Ona görə bir sıra məqamda fikirlər qırılırdı. Elə də olurdu ki, mətndə cümlənin əvvəli, yaxud sonu itirdi. Əlyazmanın yağış damcısındanmı, Hasanın göz yaşındanmı oxunmaz hala düşən yerləri də az deyildi. Güllünü daha çox mələklə Qocanın görüşünün sonu maraqlandırırdı. Mətnin bu hissəsi oxunmurdu. Ona görə Hasandan xahiş etmişdi ki, o məqamlara birlikdə yenidən baxsınlar. Elə də oldu.

...Hasanla Güllü alaçığın qarşısındakı taxtda oturmuşdular. Taxt həmişəki yerində idi, Qocanın ölümündən sonra tərpədən olmamışdı. Kilimi isə Hasan sandığa qoyub ağzına qıfıl vurmuşdu. Həm babalarından qalan yadigar kimi, həm də tarixi əhəmiyyətli mənbə kimi göz bəbəyitək qoruyurdu. İndi Güllüyə xoş gəlsin deyə, hələ erkəndən kilimi sandıqdan çıxardı, tozunu alıb günün altına sərdi.

...Güllünun qarşısında leptop vardı, diqqətini Hasana yönəltmişdi. Hasansa əlyazmaları vərəqləyir, mələklə Qocanın dialoqu olan hissəni axtarırdı.

– Demək belə, tapdım həmin yeri, – Hasan hecalaya-hecalaya oxumağa başladı, – "...mənə olan sevgisi mələyi dəyişdi, Allahın iradəsindən çıxardı. Cəbrayılı yox, insan övladını, yəni məni seçdi. Ona görə də Uca Tanrının qəzəbinə gəldi, cəhənnəm əzabına layiq görüldü".

Növbəti sətirdə yalnız "Cəbrayıl" adını oxuya bildi. Bir az dayanıb sonrasına keçdi: "Mən ondan təkrar soruşdum: –Demək, onun əlindən qaçıb gəlmisən, eləmi? Söylə, söylə..."

Bu yerdə Güllünün dodağı qaçdı:

– Belə də sual vermək olar? Qoca necə də səbirsiz olub. İmkan verməyib yazıq dərdini danışsın, – deyə başını qaldırıb Hasana baxdı. – Dediklərinizi yazdım, zəhmət olmasa, davam eləyin.

Hasan diqqətini yenidən əlyazmaya yönəldib ucadan oxudu: "Bayaq söylədim, ey insan övladı. Bütün işlərin başında Cəbrayıl dayanır. Ona insanlara yeni peyğəmbər göndərmək tapşırılıb. O da dəridən-qabıqdan çıxır ki..."

Güllü:

– Yəqin, mələyin sözləridir, – deyib baxışlarını yenidən Hasana yönəltdi və onun təsdiq işarəsi ilə cavabını aldı.

– Bu isə Qoca olacaq, – deyə Hasan davam etdi. – "Aydınlaşdırmaq üçün yenidən soruşuram. Yəni demək istəyirsən ki, növbəti peyğəmbərin insanlarla heç bir bağlılığı olmayacaq, göylərdən gələcək? Düzmü başa düşdüm?

– Səbir eylə. Gələ bilərdi, anası mən olmalı idim, hmmm... – mələk fasilə verdi, – Cəbrayıl belə istəyirdi.

– Eləyə bilərdimi?

– Eşitməmisən, Məryəmin gözünə kamil insan kimi göründü, sonunda İsa dünyaya gəldi. Gələcək peyğəmbərin anası olmağıma hökm veriləndə səni düşündüm. Ona görə cəhənnəmdə yanmağa razı olub bircə dəfə səni görməyə, ürəyimi açmağa gəldim.

– Bəs Güllü? Axı mən onu..."

Günəş saçaqlarını çəkib getmək üzrə idi. Mələk özünün lətif qanadlarını Qocaya aram-aram toxundurduqca içində baş qaldıran istilik Qocanın bədəninə yayılırdı və yavaş-yavaş Hasana dönürdü. Getdikcə mələyin səsi Güllünün səsinə, görkəmi Güllünün görkəminə çevrilirdi... Bu minvalla zaman öz işini görürdü, divardan asılan VEF radiosunda verilişlər bir-birini fasiləsiz əvəzləyirdi. Güllü də, Hasan da gecənin əsiri olacaqdılar.

Şeytanlar, İblisin balaları, köməkçiləri kənarda xısın-xısın güdük çəkirdilər. Çalışır-

dılar ki, Hasanın qəlbinə girsinlər, onu azdırıb Güllüdən uzaqlaşdırsınlar...

***

Vədə tamam olmuşdu. Hasanla Güllü hava limanına yaxınlaşanda gözlərinə inanmadılar. Rəqs edənlər dağılışmamışdılar, əksinə çoxalmışdılar. Böyük plakat asılmışdı, üstündə iri hərflərlə “Gözümüz aydın, Əyri Qar düşmən tapdağından azad edildi!” yazılmışdı. Hasan indi anladı ki, niyə Qoca tez-tez Əyri Qarın adını çəkirdi. Babası da söylərmiş ki, lap əvvəllər Qoşa Qar da, Əyri Qar da elə biriymiş.

Nimdaş paltarlı yaşlı kişi ”Mən Türkiyədə əsirlikdə olanda” deyə o qədər qışqırmışdı ki, səsi batmışdı, danışmağa heyi qalmamışdı. Xəstələnəndə Hasanın gözünə görünən, hava limanında yanaşı oturduğu yad adam da burada idi. Əvvəlki təkəbbüründən əsər-əlamət yoxuydu, rəqs edənləri narazı-narazı süzə-süzə ağzını nimdaş paltarlı kişinin qulağına dirəyib yorğun səsi ilə qışqırırdı:

– Gələcəkdə düşəcəyiniz çətinliklər barədə xəbər vermək üçün paralel dünyalardan yanınıza göndərilmişəm ki, yazıqsınız, indidən başınıza çarə qılasınız. Heç birinizin vecinizə deyil, bapbalaca dünyanızda uydurduğunuz xoşbəxtliyi axtara-axtara vaxt öldürürsünüz. Yazıqlar olsun!



Nimdaş paltarlı kişi ha çalışdı, səs-küydən bir şey anlamadı, “qonaq olduğuna görə sənə hörmətimiz böyükdür, amma bildiyin də bir daş armududur, o da payızın sonunda dəydiyindən qurda-quşa nəsib olur” – deyə-deyə onu meydanın mərkəzinə dartdı və musiqinin sədaları altında əllərini başı üzərində yellədi, rəqs edənlərin arasında yox oldu.

Yad adam:

– İçinizə girən şeytanlar sizi insanlıqdan çıxarıb. Şeytansınız hamınız. Odur ey, doqquz ay doqquz gündən sonra Qarsda bir balaca şeytan da dünyaya gələcək. Hasanla bir almanın yarısı olacaqlar. Pah, atonnan, yox bir, bilməmişdik, – öz-özünə mızıldana-mızıldana nimdaş paltarlı kişini axtardı, amma tapmadı.

Ətrafa boylana-boylana:

– Elə aranızda məni də şeytana döndərdiniz, şeytan uşaqları şeytan, – deyib qeyri-ixtiyari qollarını qaldırdı, rəqs edə-edə oynayanlara qoşuldu.

**BİRİNCİ KİTABIN SONU**

SƏRGİ









Ədalət Həsən







ISNN 0134-522
İNDEKS AZ 1000 1 AZN

ulduz_ayliq_edebiyyat_derqisi